FƏXRƏDDİN CƏFƏROV

NAXÇIVAN QƏZA POLİSİ

(1828-1920-ci illər)

67.99(5Az)116
C 51

FƏXRƏDDİN CƏFƏROV

NAXÇIVAN QƏZA POLİSİ

(1828-1920-Cİ İLLƏR)

338.2

BAKI – 2008

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

MƏSLƏHƏTÇİ: **Əhməd ƏHMƏDOV**
Naxçıvan Muxtar Respublikası
Daxili İşlər Naziri,
general leytenant

RƏYÇİ: **İsmayıl HACIYEV**
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

ELMİ REDAKTOR: **Elman CƏFƏROV**
tarix elmləri namizədi.

Fəxrəddin Cəfərov, tarix elmləri namizədi, Naxçıvan polisi (1828-1920-ci illər). Bakı, «Nurlan», 2008. səh.

Monoqrafiyada Naxçıvan xanlığında qəza polisinin yaranması və fəaliyyəti geniş faktik materiallar əsasında öyrənilmişdir. Tədqiqat işində XIX əsrin sonu XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyətindən, müxtəlif qüvvələrə qarşı mübarizəsindən bəhs edilmişdir.

Monoqrafiya tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

C 4603000000 Qrifli nəşr
N-098-2008

© F.Cəfərov, 2008

ÖN SÖZ

Azərbaycan xalqının tarixi müqəddaratında, inkişaf və tərəqqisində, müstəqillik uğrunda mübarizəsində polis orqanlarının çox mühüm yeri və rolu vardır. Hələ qədim dövr və orta əsrlərdən etibarən özünəməxsus şəkildə (darğalar) fəaliyyət göstərən polis orqanları Azərbaycanın Rusiya işğalı, Cümhuriyyət, Sovet Respublikası və müstəqillik dövrlərinin hər birində ciddi formalaşma, təşkilatlanma prosesləri keçirmiş, yüksələn xətlə inkişaf etmişdir. Geniş mənada Azərbaycan polisinin yeri və mövqeyi bütün dolğunluğu ilə əksini tapa bilməmişdir. Bu mənada Azərbaycan polisinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan polisi keçdiyi yolun özünəməxsusluğuna, yerləşdiyi regionun coğrafi mövqeyinə, apardığı mübarizənin parlaq səhifələrinə görə müstəqil və əhatəli bir tədqiqatın mövzusuna çevrilmək imkanlarına malikdir.

Tarix elmləri namizədi Fəxrəddin Cəfərovun yazdığı «Naxçıvan qəza polisi. 1828-1920-ci illər» birinci kitabı mövcud boşluğu doldurmağa xidmət edən qiymətli bir əsər kimi mühüm əhəmiyyət kəsb edir. Bu, həmişə Azərbaycan polisinin mütəşəkkil bölməsini təşkil etmiş Naxçıvan polisi haqqında birinci tam və bitkin monoqrafik tədqiqatdır. Haqqında söz açılan kitab Naxçıvan polisinin əhatəli tarixi salnaməsidir.

Fikrimizcə Fəxrəddin Cəfərovun «Naxçıvan qəza polisi» kitabı bir neçə cəhətdən mühüm əhəmiyyətə malikdir.

Cəmiyyət həyatının ayrı-ayrı mərhələlərində yerli polis orqanlarının yaradılması, təşkili, formalaşması və inkişafı Azərbaycan tarixinin üzvü bir parçası olduğu üçün təbii və haqlı bir məntiqlə müəllif Naxçıvan polisinin tarixindən bütünlükdə tariximizin tərkib hissəsi kimi bəhs etmişdir. Bizə görə, hələ XIX əsrdə Naxçıvan mahalında polis orqanlarının yaradılması və formalaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlərdən, XX əsrin əvvəllərində, Araz-Türk Respublikası dövründə, lap sovet hakimiyyəti mərhələsində polisin təşkilatlandırılması, fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan işlərdən geniş mənada cəmiyyət həyatının xarakterindən asılı olmayaraq dövlət quruculuğu proseslərinin tərkib hisssəi kimi bəhs etmək obyektiv reallığın ifadə-

sidir. Bu mənada kitabda Naxçıvan polisi ilə əlaqədar müxtəlif mənbələrdən aşkar edilərək geniş ictimaiyyətə təqdim edilən çoxsaylı faktlar və məlumatlar ümumiyyətlə tariximizin daha dərindən və gerçək surətdə öyrədilməsinə də xidmət edir.

Təqdim edilən qiymətli kitab bir çox görkəmli şəxsiyyətlərin, tariximizdə və ictimai fikrimizdə dərin izi qalmış milli ziyalılarımızın həyatı və fəaliyyətinin ayrı-ayrı, indiyədək naməlum qalmış məqamlarını da aydınlaşdırmağa imkan verir. Məhşur Kəngərli sülaləsindən olan Kəlbalı xan (2-ci), Sərvər xan, Bəhram xan, Nəzərəli xan, Yunis xan Naxçıvanskilərin, Fərəc bəy, Şirəli bəy, Əyyub ağa, Əbdüləzim bəy, Pirmurad bəy Kəngərlinskilərin Naxçıvan polisinin inkişafındakı xidmətlərinin araşdırılması, Bəhram xan Naxçıvanskidən Araz-Türk Respublikasının Daxili İşlər Komissarı kimi bəhs olunması polis orqanlarının işi ilə yanaşı, həm də Naxçıvan Kəngərlilərinin də bütün əhatəsi ilə öyrənməyə şərait yaradır. Həmçinin görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin (1866-1932) Naxçıvan polisi orqanlarındakı fəaliyyəti barədə kitabda verilmiş məlumatlar eyni zamanda böyük demokrat ədibin elmi tərcümeyi-halının bəzi «boş xanalarının» doldurulmasına kömək edə bilər. Bundan başqa, kitabın müxtəlif fəsillərində məhşur ədəbiyyatşünas alim, professor Əziz Şərifin və yazıçı Əli Səbri Qasımovun həyatı və fəaliyyətinə dair maraqlı faktlar və mülahizələr də öz əksini tapmışdır.

Azərbaycan tarixində və taleyində xüsusi yeri olan qaçaqçılıq hərəkatı haqqında «Naxçıvan polisi» kitabında qiymətli səhifələr mövcuddur. Həm XIX əsrin axırları və XX əsrin başlanğıcı illərində, həm də sovet hakimiyyətinin ilk dövrlərində polisin Naxçıvan mahalındakı qabaqçıl hərakatı barəsində müəllifin verdiyi məlumatlar, təqdm etdikləri sənədlər və informasiyalar əslində xalqımızın milli –azadlıq tarixinə işıq salır. Doğrudur, müəllifin əsas məqsədi ilk növbədə qaçaqçılıq hərakatına qarşı polisin mübarizəsini əks etdirməkdən ibarət olduğundan kitabda qaçaqçılığın mahiyyətinin, fəlsəfəsinin aydınlaşdırılması arxa planda qalmışdır. Lakin təqdim olunan faktlar, haqqında söz açılan şəxslər qaçaqçılığı hərakat səviyyəsində öyrənmək arzusunda olanlar üçün fayda verə bilər. Xüsusən qaçaq Nəbi, Süleyman, Musa

Məmmədhəsən oğlu, İsmayıl, Şahhüseyn, Kəlbəlayi Teymur Hacı Xudakərim oğlu, Heydər Pirkətan oğlu, Kəlbalı Murtuz və başqaları kimi qaçaqların həyatı, mübarizəsi, mərdliyi kimi məsələlər üzrə kitabdakı səhifələr mühüm əhəmiyyətə malikdir.

1905-1907-ci illər inqilabının təsiri ilə Naxçıvan demokratik inqilabçıları Mirzəli bəy Bektaşev, Mirbağır Mirheydərzadə, Nəsrullah Şeyxov, Heydər Məmmədov, Nəcəfqulu və Rzaqulu Nəcəfovlar. Məşədi Əhməd Əzimov və başqaları «Hümmət» təşkilatının Naxçıvan qrupunu təşkil etmələri və bu qrupun 1920-ci illərə kimi çar monarxiyasına: mütləqiyyət xan, bəy münasibətlərinə qarşı mübarizəsi, polis və xəfiyyə agentlərinin bunlara qarşı təqibləri, həbs olunmaları çox maraqlı sənədli faktlarla kitabda öz əksini tapmışdır.

1905-1907-ci illərdə olduğu kimi, 1918-1920-ci illərdə təcavüz kimi Naxçıvan bölgələrinə soxulan erməni daşnaklarına qarşı «Qırmızı tabor»çılarla birlikdə polis əməkdaşların mübarizəsi zəngin arxiv sənədləri əsasında işıqlandırılmışdır.

Bütövlükdə Fəxrəddin Cəfərovun böyük zəhmətinin bəhrəsi olan «Naxçıvan qəza polisi» kitabı mühüm əhəmiyyətə malik olan dəyərli, faydalı mənbə rolunu oynayır və Naxçıvan polisinin fəaliyyətini izləməyə kömək edir.

İsmayıl HACIYEV,
akademik

MÜQƏDDİMƏ

Azərbaycan, eləcə də Naxçıvan polisinin tarixi heç də XX əsrin sovet quruculuğu dövründən başlanmır. Bu tarix xeyli əvvələ gedib çıxır. Məsələ bundadır ki, hələ xanlıq dövründə Naxçıvan bölgəsində ayrı-ayrı naibliklər yaranıb və həmin naibliklərdə onlarca darğa fəaliyyət göstərib. Həmin darğalar indiki sahə müvəkkillərinin işini görüb. Darğalar əsasən əhali çox olan yerlərdə, bazarlarda, ticarət mərkəzlərində, karvansara yaxınlıqlarında və s. fəaliyyət göstəriblər. Onlar gördükləri, icra etdikləri işlər barədə öz naiblərinə hesabat verib və aldıqları yeni sərəncamları yerinə yetiriblər.

1828-ci il Türkmənçay müqaviləsindən sonra Naxçıvan əyalətində 20 idarə üsulu, tamamilə İran feodal hakimiyyətinin əksi olan idarə üsulu yaradılır. Həmçinin Naxçıvan şəhər idarəsi yaradılır. O, bir polis və iki məhkəmə idarəsinə bölünürdü. Daxili idarəçilik Naxçıvan naibinə tabe idi.

Naibin başlıca vəzifəsi, əhali arasında mübahisə, dalaşma və şikayətçilər haqqında qanun və adətlər üzrə şikayətə baxmaq idi.

Naxçıvan vilayəti Naxçıvan, Əlincə, Xok və Dərələyəz mahallarından ibarət idi. Mahallar xüsusi idarə üsuluna malik deyildilər. Onlar Mir Bölüklər, kəndxudalar və məliklər tərəfindən idarə edilirdi. (2, s.64).

Naxçıvan xanlığı Rusiya tərəfindən ilhaq edildikdən sonra polis rəsmi orqan kimi fəaliyyətə başlayır. İlk qəza polis idarələrinin əsası 1840-cı ilin 10 aprelində Naxçıvanda, Gəncədə, Şamaxıda, Talış, Quba, Bakı, Şuşa və Şərur-Dərələyəzdə qoyulur. Eyni zamanda Nuxada (Şəkidə), Ordubadda, Salyanda, Zaqatalada, Şamaxıda, Naxçıvanda, Şuşada, Qubada və Bakıda polis idarələri yaradılır. (2, s.3).

Həmin polis idarələri quberniya rəhbərliyinin tabeçiliyində olub, əsas vəzifələrini yerinə yetirməklə yanaşı xırda cinayət hadisələrində, müəyyən mənada, məhkəmə funksiyasını da yerinə yetirmişlər. O illər şəhər polismeysterləri xırda oğurluq və dələduzluq faktları üzrə özləri məhkəmə aparır və cinayətdə suçlu olanın cəzasını verirdilər. O dövrdə şəhərlərdə hələ ictimai ida-

rəetmə orqanları yox idi. Ona görə şəhər təsərrüfatını da polis idarə edirdi. O vaxt rəsmi orqan kimi fəaliyyətə başlayan polismeysterlər və qrodniçilər idarələrinin nəzdində məhəllə nəzarətçiləri, pristavlar, deputat və polis əməkdaşları fəaliyyət göstərirdilər. Polisin əsas fəaliyyəti indiki kimi asayişi qorumaq, əmin-amanlığı təmin etmək idi.

Daha sonralar, 1868-ci ildə polis idarələri qəza polis idarələri ilə birləşdirilmişdir (3).

Qəzalarda qəza polis rəisləri, onların böyük və kiçik köməkçiləri, sahə müvəkkilləri və milis yaradılmışdır. Milislər polisin tərkibindəki könüllü silahlı ərazi özünümüdafiə dəstələri idi. Daxili işlər orqanlarındakı polis də, milis də eyni məqsədə xidmət edir, ictimai asayişi gözləyirdi.

Araz-Türk respublikası yaranan gündən onun öz Daxili İşlər Komissarlığı da təsis edilmişdi. Məhəmmədəli xan Naxçıvanski onun rəhbəri təyin olunmuşdu.

1918-1920-ci illərdə Naxçıvan polisi erməni təcavüzkarlarına qarşı mübarizə aparmaqla bölgədə asayişi qorumuşdu.

Bütün dövrlərdə polisin bir amalı, bir məqsədi olub: ictimai asayişi gözləmək, cinayətkarlığa qarşı mübarizə aparmaq, cinayətlərin qarşısını almaq, xalqın əmin-amanlığını təmin etmək.

I FƏSİL.

XIX əsrin əvvəllərində Naxçıvan xanlığında qəza polisinin yaranması və fəaliyyəti

1828-ci il fevralın 10-da Türkmənçay kəndində Rusiya ilə İran arasında bağlanmış müqaviləyə görə Naxçıvan xanlığı və Ordubad dairəsi Rusiyaya birləşdirildi.

Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsinə baxmayaraq burada xanlıq 1840-cı ilə kimi mövcud olmuşdur.

Türkmənçay müqaviləsindən sonra Naxçıvan əyalətində İran feodal hakimiyyətindəkindən fərqli olaraq yeni idarə üsulu yaradılır. Naxçıvanda yaradılan şəhər idarəsi bir polis və iki məhkəmə idarəsinə bölünürdü.

I Kəlbalı xanın oğlu Ehsan xan ölkənin naibi təyin olunur. Ona rus qərargahından köməkçi zabit verilir. Şəhər məhkəməsi naibdən, iki pristavdan və xəzinədardan ibarət idi (4).

Qeyd edək ki, Naxçıvan xanlığı dövründə ölkədə ayrı-ayrı naibliklər yaradılmış və həmin naibliklərdə onlarla darğa fəaliyyət göstərmişdir. Həmin darğalar ilkin polis funksiyasını yerinə yetirib, hardasa indiki sahə polis müvəkkillərinin işlərini görmüşlər.

Xanlıqda Polis İdarəsi iki nəfərə etibar edilirdi. Onlardan biri darğa, ikincisi isə əsasbaşı adlanırdı. Darğalara yüzbaşılar və onbaşılar tabe idilər. Darğalar qayda-qanun yaradır, xüsusi ilə bazarlara nəzarət edirdilər. Belə ki, bazarlarda qiymətləri təyin edir və baş vermiş mübahisələri yoluna qoyurdular.

Darğalara xan tərəfndən maaş verilmirdi. Maaşın əvəzində onlara hər dükandan ayda gümüş pulla 15 qəpik almağa icazə verilirdi. Darğalar ərzaq məhsullarını bazardan pulsuz alırdılar. Darğaların vəzifəsi təkcə bazarı nizama salmaqla bitmirdi. Darğaların təsir dairəsi daha geniş idi. Ona görə də onlar imtiyazlardan özləri üçün istifadə edirdilər. Şəriət qanunlarının yerinə nəzarət etdikləri üçün onlara qeyri-məhdud imtiyazlar da verilirdi.

Əgər kimsə zorakılıq, ədalətsizlik və ya əxlaqsızlıqda təqsirləndirilsəydi darğaya icazə verilirdi ki, həmin adamı istədiyi şəkildə cəzalandırsın və ya ondan cərimə alsın (5, s.24).

Digər polis rəisinin-əsasbaşının vəzifəsinə şəhər və bazarın gecə vaxtı qorunması daxil idi. Əsasbaşı da maaş əvəzinə hər dükandan ayda gümüş pulla 15 qəpik almaq hüququna malik idi. Həmin pulla o, həm də köməkçiləri olan gözətçiləri maddi cəhətdən təmin edirdi.

Tədqiqatçı S.Yegizarov yazırdı ki, muzdla tutulmuş gözətçilər sakitliyi qorumaq üçün həm şəxsən, həm də öz əmlakları ilə cavabdeh idilər (6).

Polis və mülkü işlərlə bağlı xanın Eşik-Ağası adlı xüsusi məruzəçisi var idi. O, gələnləri qarşılayır və xanın hüzuruna aparırdı. O beləcə kənddə baş verən hadisələr haqqında şəxsən məlumat verməli olan kəndxuda və məlikləri də xanın hüzuruna aparırdı. Düzdür, onlara əhəmiyyətsiz olan işləri özlərinin həll etmək hüququ verilmişdi.

O, maaş almırdı, amma borc çəkişmələri olduqda hər 10 manatdan bir manat məbləğində pul, digər məsələlərin həlli zamanı isə müxtəlif hədiyyələr alırdı (7).

Xanlıq hakimiyyəti zamanı Naxçıvanda ümumilikdə demək olar ki, bütün cinayət işlərinə xan özü baxır və tələb olunduqda axunda müraciət edirdi. Qanun qarşısında məhşur və varlı adamlara üstünlük verilirdi. Misal: hərgah tanınmış bir adam yoxsul bir şəxsi öldürmüş olsaydı və yaxud onun qohumları şikayət etmiş olsaydı xana şikayət edir, xan isə bu məsələni şahın mülahizəsinə verirdi. Lakin varlı müqəssir həmişə bəraət alırdı. Az hallarda ölənin ailəsinə müəyyən miqdarda pul verilirdi. Bundan başqa heç bir qulluqçunun ağadan şikayət etməyə haqqı yox idi.

Cinayət şikayətlərinə xan özü baxırdı. Cinayətkar qolu bağlı xanın yanına gətirilir, xan onu törətdiyi cinayətə görə (adam öldürübsə) cinayətkar ya həyatdan məhrum edilir, ya da onu məcbur edirdilər ki, öldürülənin ailəsinə müəyyən məbləğdə: varlıdan 200 tümən, 800 manat gümüş pul, yoxsuldan 50 tümən, 200 manat gümüş pul alınırdı. Belə cinayətlərə bəzən böyük axundlar da baxırdı. Axundların göstərişi ilə ölənin qohumları məsçidə iltizamnamə verirdilər. Bununla da mübaisə kəsilirdi.

Xırda oğurluq üçün birinci dəfə cinayətkara and içdirirdilər və cinayətkar söz verirdi ki, bir daha oğurluq etməyəcək. İkinci

dəfə o cinayət başında tutulduqda çubuqla döyülürdü və məcbur edilirdi ki, oğurladığı əşyanın dəyərini pulla ödəsin. Üçüncü dəfə bu təkrar olunarsa, ölüm cəzası ilə nəticələnərdi. Belə hallarda ya boynu vurulurdu, ya da uca qüllədən atılırdı. Bu zaman quranın bəzi ayələrinə istinad edilirdi.

Bəzi vacib cinayət işlərini xan yuxarıda qeyd etdiyimiz kimi axunda həvalə edirdi və nəticəsini xana bildirirdi. Bir sıra cinayətlər üçün-satqınlıq etmək, müharibə zamanı qorxaqlıq etmək, xan əmlakını oğurlamaq və s. məsələlər üzrə xanın özü bu işə baxır, onun burnu, qulağı, qolu və başqa əzaları kəsilirdi.

Naxçıvan vilayətində dini işlərə daimi surətdə üç axund nəzarət edirdi. Bu məsələ ancaq müsəlmanlara aid idi. Dini cinayətkarların işinə Məkkə və yaxud Bağdadda qurtarmış axundlar baxırdı. Axundlar, eləcə də Şeyxülislam Azərbaycanın hakimi Abbas Mirzədən asılı idilər. Axundlar xana tabe deyildilər. Onlar xüsusi dini hakimiyyətə tabe idilər.

Şeyxülislam ali dini işlərə baxmaqdan başqa xanın tapşırıqlarına, cinayət işinə baxır, mülkü cəza işlərini yoxlayırdı. Hər bir təsadüfdə qurandan, yaxud quranın kommentariyasından rəhbərliyə alınırdılar. Belə məhkəmələr şəriət adlanırdı.

Bu dövrdə Naxçıvan qəza məhkəməsi əsasən natarial, əmlak, mülkü, torpaq, oğurluq və ümumiyyətlə polis orqanları tərəfindən daxil olmuş cinayət işlərinə baxmaq funksiyasını yerinə yetirmişdir.

Bu dövrdə naibin başlıca vəzifəsi şikayətə baxmaq və əhali arasında mübahisə, dalaşma və şikayətçilərin haqqında qanun və ədalət üzrə şikayətlə məşğul olmaq idi.

Araşdırdığımız sənədlərdə Naxçıvanda müstəsna bir orqan kimi fəaliyyət göstərən polis və eləcə də məhkəmədə ən çox mülkü işlər olmuşdur. Mülkü işlərlə bağlı vətəndaşlardan daxil olan ərizə və xahişnamələrin araşdırılması və məhkəməyə çıxarılması və qanuni həll edilməsində polis və eləcə də məhkəmə orqanlarının müstəsna rolları olmuşdur.

Mülkü işlərlə bağlı şikayətlərə və verilən qərarların bir nəticəsinə nəzər yetirək.

Mülkü işlərlə bağlı sənədlərdən biri Ordubad Polis İdarəsinin pristavı Kirilovun İbrahim xan Şeyxəli xan oğlu Kəlbalıxanovun

torpaq mülkü ilə əlaqədar etdiyi müraciətə əsasən 12 iyun 1832-ci ildə İrəvan vilayət idarəsinə göndərdiyi raportdur. Həmin raportda Kirilov yazır: «Ordubad naibi Şeyxəli bəyin oğlu İbrahim xan ayın 10-da (1832-ci il – F.C.) Polis İdarəsinə göndərdiyi xahişnaməsində yazır ki, Naxçıvan əyalətinin Yamxana və Badamlı kəndlərində həm vergi aldıqları, həm də özlərinin buğda əkinləri olduğu ona və qardaşı Əsgər xana məxsus olan torpaq sahələri var idi. Ötən il (1831-ci ildə) onlar bu torpaqları əmiləri Nəzərəli xan Naxçıvanskiyə veriblər və əvəzində ondan Aza, Dərə və Dizə kəndlərindəki torpaqlarını alıblar. Bu dəyişmə ona görə onlar üçün əlverişli idi ki, onlar atalarının yaşadığı yerə yaxın olsunlar. Onlar elə hesab edirdilər ki, yeni torpqlarda da əkin yeri olacaq. İndi isə görürlər ki, torpaqların yerləşdiyi Aza, Dərə və Dizə kəndlərində çoxlu erməni yaşayır və onların özlərinin də torpaqlara ehtiyacları olduğundan burada əkin sahaləri tapmaq çətindir. Onların (İbrahim və Əsgər xanın – F. C.) öz torpaqları olmasa vergilərlə dolanmaqları çətin olacağına görə onlar Ordubad Polis İdarəsinə onlara məxsus olan torpaqdan əkin üçün 60 xalvarlıq yer ayrılması üçün müraciət ediblər.

Polis İdarəsinin bu məsələni həll etməyə hüquqi olmadığından İrəvan Vilayət İdarəsinə təqdim edilir, həmçinin bildirilir ki, Aza, Dərə və Dizə kəndlərində cəmi 360 xalvar əkin sahəsi var və 144 köçkün ailəsi yaşadır. Buna görə də 45 ailə Naxçıvan şəhərinə köçmək üçün icazə istəyib. Onların bu haqda xahişnaməsi Vilayət İdarəsinə 17 mart 1832-ci il tarixdə təqdim olunub. İndi həmin ermənilər idarəyə müraciət edərək bildiriblər ki, onlar Naxçıvan əyalətinin Zeynəddin kəndində əkin üçün müvafiq ərazi tapıblar. Həmin əraziyə isə müxtəlif kəndlərdən sakinlər köçmək istəyirlər.

Əgər vilayət idarəsi razı olarsa 45 erməni ailəsi Zeynəddin kəndinə köçsün, onda həmin əraziyə naib mayor Şeyxəli bəyin oğulları İbrahim xan və Əsgər xan, həmçinin qalan 99 ailə köçürülə bilər və əkin üçün sahə kifayət edər.

Ordubad pristavı podporuçik Kirilov» (8).

İrəvan Vilayət İdarəsi 12 avqust 1832-ci il tarixdə Ordubad Polis İdarəsinə göndərdiyi 527 №-li əmrində Nəzərəli xandan

Aza, Dərə və Dizə kəndlərinin ona məxsus olması haqqında sənəd alıb vilayət idarəsinə göndərilməsini tapşırmışdır (9).

Ordubad Polis İdarəsi İrəvan Vilayət İdarəsinin bu əmri ilə əlaqədar 19 mart 1833-cü il tarixdə göndərdiyi raportunda yazırdı: «Ordubad Polis İdarəsi İrəvan Vılayət İdarəsinin 12 avqust 1832-ci il tarixli 527 №-li əmrini yerinə yetirərək Aza, Dərə və Dizə kəndlərinin Nəzərəli xan Naxçıvanskiyə məxsus olduğuna dair sənədləri almaq üçün Naxçıvan Polis İdarəsinə müraciət edib.

Naxçıvan Polis İdarəsi 28 fevral 1833-cü il tarixdə cavab olaraq bildirib ki, Nəzərabad kəndinin sənədləri Ermənistan Vilayət İdarəsinə, Aza, Dərə və Dizə kəndlərinin sənədlərini isə Ordubad naibi Şeyxəli bəyə verib. Bundan sonra cənab naib Nəzərəli xandan aldığı sənədləri idarəyə təqdim edib.

Toplanmış sənədləri Ordubad Polis İdarəsi Sizə göndərir.

Pristav podporuçik Kirilov» (10, s.55).

Türkmənçay müqaviləsindən sonra yeni inzibati ərazi bölgüsü aparılaraq, Ordubad dairəsi olmaqla 1827-1833-cü illərdə Naxçıvan qəzasının tərikbinə daxil edilir. Şərur 1833-cü ildən 1840-cı ilə kimi dairə halında idarə edilmişdir. 1840-cı ildə yenidən inzibati ərazi bölgüsü aparılaraq Şərur-Dərələyəz Naxçıvan qəzasının tərkibinə verilir. 1872-ci ilədək nahiyyə kimi qalır. 1872-ci ildə Şərur-Dərələyəz qəzası Naxçıvan qəzasının tərkibindən alınıb müstəqil qəza adlandırılmışdır. Bir qayda olaraq qəzaların idarəçiliyi Kəngərlilərdən olan naiblərə tapşırılır.

Naxçıvan vilayəti Rusiyanın tərkibinə daxil olandan sonra Kəngərli tayfa başçıları rus ordusunda daha da yüksək xidmət daşıyırlar.

Ehsan xan öz xalqını İran şahlarının zülmündən azad etməyi qarşısına məqsəd qoymuşdu və buna da nail oldu. Ancaq onun Qriboyedov və onun erməni əlaltılarının hiylələrindən xəbəri yox idi. İndi Qriboyedovun şəxsi arxivi ilə tanış olanda artıq bu məkr və ikiüzlülük onun yazışmalarında görünür.

I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv olunmuş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində süni şəkildə «erməni vilayəti» yaradıldı.Bu dövrdə ermənilərin xahişi və çar hökumətinin təşəbbüsü əsasında İrandan Naxçıvana köçürülmüş erməni

ailələri hesabına şəhər, həmçinin qəza əhalisinin sayı xeyli artmışdır. Erməni ailələrinin Rusiya imperiyasının cənub rayonlarına köçürülməsi barədə onların ciddi səy və arzuları dövrün rəsmi sənədlərində də öz əksini tapmışdır.

«Sbornik aktov otnosəhixsə k obozreniö istorii armənskoqo naroda» (C.K. M. 1836) adlı rəsmi sənədə ermənilərin İrandan köçürülməsinə rəhbərlik edən polkovnik Lazarev köçürmə üzrə İranın nümayəndəsi Əsgər xanın şahidliyi ilə erməni ailələrindən onların könüllü surətdə köçürülmələrinin tərəfdarı olub olmadıqlarını soruşduqda ermənilər qəti olaraq demişdilər: «...Bəli, biz İran çörəyini yeməkdənsə, rus otunu daha üstün tuturuq» (11).

Köçürülən ermənilərin əksəriyyəti İranın Xoy, Təbriz, Urmu, Deykar şəhərlərindən, Salmas və Mağara vilayətlərindən idi.

Belə ki, Naxçıvan şəhərində 416 ailə, Güznüt kəndində 72 ailə, Qızılça kəndində 23 ailə, Əbrəqunus kəndində 36 ailə, Kırna kəndində 44 ailə, Bənəniyar kəndində 49 ailə, Noraşen kəndində 23 ailə, Qazançı kəndində 22 ailə, Xəlilli kəndində 24 ailə, Didivar kəndində 31 ailə, Kültəpə kəndində 70 ailə, Badaşqan kəndində 26 ailə, Nehrəm kəndində 208 ailə, Təzəkənd kəndində 44 ailə, Tumbül kəndində 53 ailə, Qaraxanbəyli kəndində 81 ailə, Arınc kəndində 31 ailə, Məmmədrza-Dizəsi kəndində 20 ailə, Xal-xal kəndində 35 ailə, Ərəzin kəndində 60 ailə, Saltaq kəndində 23 ailə, Alagöz-Məzrə kəndində 42 ailə, Uzunoba kəndində 24 ailə, Külüs kəndində 13 ailə, Nurs kəndində 30 ailə, Şıxmahmud kəndində 63 ailə, Nəzərabad kəndində 49 ailə, Cəhri kəndində 151 ailə, Badamlı kəndində 23 ailə, Şahbuzda 20 ailə, Yarımca kəndində 78 ailə, Məzrə kəndində 22 ailə, Kərimbəyli-dizə kəndində 22 ailə, Əylis kəndində 37 ailə, Əndəmic kəndində 23 ailə, Aza-Der kəndlərində 182 ailə, Ələhi kəndində isə 18 ailə yerləşdirilmişdir (12).

Bundan başqa Şərur mahalının Ulya-Noraşen, Keçdaz, Vərməziyar, Xanlıqlar, Ələhli və s. kəndlərinə də ermənilər yerləşdirilmişdir.

Erməni ailələrinin Rusiya imperiyasına daxil edilən ərazilərə, xüsusən də Şimali Azərbaycan torpaqlarına köçürülməsi sonrakı illərdə də davam etmişdir. Erməni tarixçilərindən İ.P.Ağayanin «Ролъ России в исторических судъбах армянского народа» (M.

1978 г.), V.A.Parsamyanın «История армянского народа» (Ереван 1972 г.), M.A.Adonsun «Согласно экономической развитии Восточной Армении после присоединения к России», V.A.Diloyanın «Присоединения Восточной Армении к России и его историческое значение», «Сборник статей Ереван» (1978 г.) və s. əsər və məqalələrində qeyd olunur ki, XIX əsrin birinci yarısında Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində İrandan 40 min, Türkiyədən isə 84 min (cəmi: 124 min – F. C.) nəfər erməni əhalisi Zaqafqaziyaya köçürülmüşdür ki, bunların da əksəriyyəti Naxçıvan mahalında, Qarabağ və Dərələyəz əyalətlərində yerləşdirilmişdir.

Bu qısa məlumatdan sonra onu qeyd etmək istəyirik ki, ermənilərin Naxçıvan mahalında yerləşdirilməsi ermənilərin nəinki çar Rusiyası dövründə, həmçinin Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra da respublikanın bir çox nazirliklərində, eləcə də polis orqanlarında rusların himayəsi ilə yüksək rütbələr tutmasına səbəb olmuşdur və azərbaycanlılara qarşı kütləvi deportasiya və soyqırım aparmışlar.

Araz çayının şimal hissəsinə 1828-ci ilin martından 1829-cu ilin axırınadək 8249 erməni ailəsi – cəmi 40 min nəfər Naxçıvan ərazisinə, Qarabağa köçürüldü. 10.663 nəfər erməni təkcə Naxçıvan şəhərinə və iyirmiyə yaxın yaşayış məntəqəsinə köçürülmüşdü (13).

İrandan Naxçıvan ərazisinə köçürülən ermənilər hər işdə Ehsan xana mane olmağa çalışırdılar. Şəhər və kəndlərdə ermənilər yerlərini isitməmiş azərbaycanlılara böhtanlar atıb təhqir edir, münaqişələr yaradırdılar. Lakin Ehsan xan həmişə xalqının mənafeyini müdafiə edərək ermənilərı cəzalandırmışdır.

Araşdırılan arxiv sənədləri bunu bir daha sübut edir. Həmin sənədlərdən biri 5 aprel 1834-cü il tarixdə Ermənistan vilayətinin rəisi knyaz Çebutovun Müstəqil Qafqaz korpusunun komandiri general – adyutant və kavaler baron Rozenə göndərdiyi raportdur. Raportda yazılır: "3 aprel tarixdə Naxçıvan naibi polkovnik Ehsan xan tərəfindən aldığım raportda Ehsan xan mənə bildirir ki, Naxçıvan şəhərinin bir neçə müsəlman sakini Naxçıvan Polis İdarəsinə xahişnamə göndəriblər və onlar bildiriblər ki, Kürdisar kəndinin bir erməni sakini tərəfindən bir müsəlmanın təhqir olunmasından hiddətlənibləri və onun (ermənin) cəza-

landırılmasını istəyirlər. Bu haqda mə'lumat alan Ehsan xan xahiş edənlərin (müsəlmanların) istəyini yerinə yetirərək ermənini cəzalandırıb və gələcəkdə bu cür hadisələrin təkrarlanmaması üçün ciddi tapşırıq verib. O, (Ehsan xan) həmçinin əlavə edib ki, mən bu hadisə barədə şaiyələrə inanmayım.

Bunun ardınca mən 5 aprel tarixdə Naxçıvan polismeysteri kapitan Laçınnikovun 29 mart tarixli 179 №-li raportunu almışam. O bildirib ki, 18 mart tarixində şəhərdə səbəbsiz yerə qalmaqal çıxarıblar. Bunun səbəbi Rusiya hökumətinin bir neçə əleyhdarlarının təsiridir. Naxçıvan müsəlmanları öz dükanlarını bağlayaraq böyük qruplarla şəhərdə toplanaraq Naxçıvan Polis İdarəsinə göndərilmiş xahişnamənin yerinə yetirilməsini tələb edirlər. Xahişnamə ondan ibarətdir ki, Naxçıvan şəhər polisinin xidmətçisi həmin tarixdə bazarda olarkən qəssablar Cəfər Süleyman oğlu və Satəli Kərbəlai oğlunun təmizliyi gözləmədiklərini görərək guya onlara təhqiredici sözlər deyib. Bu hadisəni Ehsan xan tərəfindən təyin edilmiş müsəlman İsa Sultan və erməni Ambartsumyanın iştirakı ilə araşdırılması zamanı müəyyən olundu ki, müsəlmanların tələbləri əsassızdır. Müsəlmanların narazılıqlarının səbəbini mən onda görürəm ki, ötən il Naxçıvanda yerləşən Sukarapet monastırından cəsədlərin təntənəli çıxarılması zamanı baş vermiş hadisələrə görə ermənilərdən intiqam almaq istəyirlər. Həmin hadisələr zamanı qanunsuz hərəkət etmiş Seyid Rusiya qanunlarına uyğun cəzalandırılmışdır. Hadisənin istintaqı zamanı Hacı Hüseyn, Məşədi Abbas, Məşədi Tağı, Molla Əbdül Hüseyn bildirdilər ki, kim müsəlman qanunlarını təhqir edərsə həmin şəxs dərhal onların qanunlarına görə öldürülməlidir. Sarkisovlara qarşı da bu cür davranılmalıdır. Lakin o bildirdi ki, onlar hamısı Rusiya İmperiyasının vətəndaşlarıdır və bu işdə kim günahkar hesab edilsə, o, Rusiya qanunları ilə cəzalandırılacaq. Əgər onlar bu gün sakitləşib evlərinə getməsələr, onda onlar da asayişi pozduqlarına görə cəzalandırılacaqlar. Naxçıvan müsəlmanlarının bu cür ixtişaşları 20 mart tarixədək davam edib və yerli axund Cəfər tərəfindən təşviq edilib. Bu gün saat 11-də Ehsan xan guya xalqın tələbi ilə ixtişaşların günahkarlarını evinin həyətində yerli axundların, mollala-

rın, seyidlərin və müsəlman məmurların iştirakı ilə cəzalandırıb. Bundan sonra xalq sakitləşib, tacirlər dükanlarını açıblar və hər zamankı sakitlik şəhərdə bərpa olunub. Onu da qeyd edib ki, şəhərdəki sakitlik axund Cəfərin şəhərdə olmasından asılıdır.

Bu haqda Siz Həzrətlərinə çatdıraraq, bildirmək istəyirəm ki, 8 aprel tarixində mən, 6 №-li Gürcüstan məxfi batalyonunu yoxlamaq üçün Naxçıvana gedəcəyəm və yuxarıda deyilənləri yerində yoxlayıb Siz həzrətlərinə bildirəcəyəm" (14).

Bu raportla bağlı baron Rozen Çebutova göndərdiyi 30 aprel 1834-cü il tarixli məktubunda yazır: "Siz həzrətlərinin 5 aprel tarixli 52 №-li raportundan mənə aydın oldu ki, Naxçıvan naibi mə'mur Ehsan xanın xəbər verdiyi kimi Naxçıvanda yerli tatarlar (azərbaycanlılar) Kürdisar kənd sakini tərəfindən bir müsəlmanın təhqir edilməsindən hiddətlənərək, Naxçıvan Polis İdarəsinə həmin şəxsin cəzalandırılması xahişi ilə müraciət ediblər və Ehsan xan həmin ermənilər cəzalandıraraq bir daha belə hadisələrin baş verməməsini tapşırdı. Bundan başqa Naxçıvanda elə bir hadisə baş verməyib. Lakin Naxçıvan polismeysterinin Sizə daxil olmuş raportu bunun əksini göstərir, guya ki, Naxçıvan sakinləri dükanlarını bağlayaraq böyük qruplarla şəhərdə toplaşıb, erməni Stepan Sarkisovun tatar (azərbaycanlı) qəssabını təhqir etdiyinə görə onun barəsində Naxçıvan Polis İdarəsinə təqdim etdikləri şikayətnaməyə əsaşən zorla cəzalandırılmasını tələb ediblər. Hadisələrin əsl səbəbini isə o onda görür ki, hər il keçirilən ermənilərin təntənəli surətdə Sukarapet monastırından cəsədlərin Naxçıvana aparılması mərasimi zamanı cinayət törədmiş Seyid Rusiya qanunlarına uyğun olaraq cəzalandırılıb. Bu işin istintaqı zamanı bir neçə müsəlman polismeysterə bildiriblər ki, müsəlman qanunlarını təhqir edən şəxsi dərhal şəriətə görə öldürmək lazımdır və bunun Sarkisova da tətbiq edilməsini xahiş ediblər. Lakin o, bu tələbləri rədd edib. Nəhayət polkovnik Ehsan xan bu hadisələrin günahkarı olan bir neçə şəxsi xalqın tələbi ilə cəzalandırdıqdan sonra xalq sakitləşdi, tacirlər dükanlarını açdılar və Naxçıvanda sakitlik bərqərar oldu.

Polismeyster əlavə edib ki, şəhərdəki sakitlik axund Cəfərin şəhərdən çıxarılmasından asılıdır.

Siz Həzrətlərinin yuxarıda qeyd olunan raportunda qeyd etmisiniz ki, 8 aprel tarixində Naxçıvanda yerləşən batalyonu yoxlamaq üçün oraya yola düşəcəksiniz və bu hadisələri yerində araşdıracaqsınız. Buna görə də mən Sizə tapşırıram ki, həmin hədisələr barəsində mənə əsl həqiqəti bildirəsiniz, çünki Naxçıvan naibi polkovnik Ehsan xanın və polismeysterin məruzələri bir-biri ilə tutmur və həqiqət bizə məlum deyil. Həmçinin Naxçıvan sakinlərinə çatdırın ki, onlar Rusiya vətəndaşlarıdırlar və cinayətkarlar İran hökuməti dövründə olduğu kimi köhnə adətlərlə yox, Rusiya qanunları ilə cəzalandırılmalıdır və kim bu qanunlara tabe olmayıb ixtişaşa səbəb olsa bu qanunlara uyğun cəzalandırılacaq; həmçinin polis mə'murlarının qanunsuz hərəkətləri ilə xalqın haqlı narazılığına səbəb olub-olmadığını müəyyən etməyinizi Sizdən xahiş edirəm. Əgər belə hallar olarsa, onda həmin şəxsləri vəzifələrindən azad edib, yerlərinə başqa adam təyin edin və mənə bildirin. Nəhayət öyrənin, doğrudanmı Naxçıvanda sakitliyin bərqərar olunması üçün axund Cəfərin şəhərdən getməsi lazımdır. Axund Cəfər yerli sakindir, yoxsa xaricdən gəlib?"

52

General-mayor knyaz Çebutov 5 may 1834-cü il tarixdə baron Rozenə göndərdiyi ikinci raportunda belə yazır: "Siz həzrətlərinə göndərdiyim Naxçıvandakı hadisələr haqda 5 aprel tarixli 52 №-li raportumdan sonra Naxçıvana getdim və şəxsən şahid oldum ki, qanunsuzluqlara səbəb yerli pristav mayor Tulayevin və polismeyster kapitan Laçınnikovun öz vəzifələrinə laqeyd münasibəti olmuşdur, nəinki sakinlərin Rusiya hökumətinə pis münasibəti. Çünki kapitan Laçınnikov şəhəri bu vəziyyətdə qoyaraq həmin gün Culfaya yola düşmüşdür və oradan da yalnız 20-si axşam qayıtmışdır. Bu vaxt polkovnik Ehsan xan artıq yerli tatarları (azərbaycanlıları) sakitləşdirmişdir. Kapitanın isə həmin qanunsuzluqlar yaranan vaxt onları aradan qaldırmaq üçün səriştəsi olmamışdar. Polkovnik Ehsan xan isə yerli adətləri və tatarların (azrbaycanlıların) xüsusiyyətlərini bələrək iki tatarı cəzalandırmaqla sakitliyi bərqərar etdi.

113

Baş vermiş hadisələri Siz Həzrətlərinin nəzərinə çatdıraraq, bildirmək istəyirəm ki, polkovnik Ehsan xanın raportu həqiqətə tam uyğundur və buna əsasən mən Stepan Sarkisovun yerinə

M.S.Ordubadi adına
17
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

yerli Naxçıvan ermənilərindən olan və yaxşı davranışı ilə seçilən Saffat Saakovu tə'yin etmişəm. Pristav Tulayev və kapitan Laçınnikova isə işlərinə laqeyid münasibət bəslədiklərinə görə mənim tərəfimdən xəbərdarlıq edilib. Naxçıvan axundu Cəfərə və Laçınnikovun raportunda adları çəkilmiş bir neçə azərbaycanlıya gəldikdə isə mən onları yanıma çağıraraq gələcəkdə bu cür hərəkətlərdən uzaq durmalarını bildirdim və bu cür hərəkətlərə qarşı Rusiya qanunlarını izah etdim. Onlar isə Rusiya İmperatoruna tam sədaqətli olduqlarını bildirdilər ki, buna da Ehsan xanın özü şahid oldu. Nəhayət Siz həzrətlərinə bildirirəm ki, Naxçıvan şəhəri və əyalətlərində hal-hazırda tam sakitlikdir.

General – mayor knyaz Çebutov (imza)" (15).

Bu illərdə törədilən cinayətlərdən: oğurluq, qəsdən adam öldürmə, dalaşma, qaçaqmalçılıq və digər cinayətlərlə yanaşı ən çoxu mülkü işlərlə bağlı cinayət işləri olmiş və bunların araşdırılması və məhkəməyə çıxarılması, qanuni həll edilməsi üçün polis və məhkəmə orqanlarının müstəsna rolu olmuşdur.

Mülkü işlərdən biri olan Şərur dairə polis rəisi tərəfindən 20 aprel 1836-cı il tarixdə Naxçıvan əyalətinin Qıvraq mülkədar kəndi tərəfindən Şərur mahalının 40 xalvərlikTəzəkənd kəndinin mənimsənilməsi haqda aparılmış istintaq işini Naxçıvan əyalət məhkəməsinə göndərərək baxılmasını tapşırmışdır.

Polis rəisi tərəfindən aparılmış istintaq işindən göründüyü kimi, 13 iyul 1835-ci il tarixdə sorğusu keçirilmiş şəxslər: Qışlaqabbas kənd sakinləri Məmməd Maqsud oğlu, Allahverdi bəy Məmmədbəy oğlu Şəhriyarski, kəndin kəndxudası Xəlifəqulu ağa, İbadulla kənd sakini Ələsgər İbrahim oğlu, Tumaslı-Vayxır kəndinin kəndxudası Cəfər ağa, İbadulla kəndinin kəndxudası Hüseyn, Diadin kəndinin kəndxudası Əliyar, Təzəkənd kəndinin kəndxudası Bağır bildiriblər ki, onlara məlumdur ki, qıvraqlıların pambıq əkdiyi torpağın 8 xəlvəri əkilib, 32 xəlvəri isə dincləndirilir. Bu torpaq həmişə Şərur mahalının Vayxır kəndinə aid olub, 15 il əvvəl Şərur Mirbölüyü Məmməd Sadıq xan Şərur mahalının sakinlərinin iştirakı ilə həmin torpağı suvarmaq üçün kanal çəkdirib, həmin ərazidə həmişə arpa, buğda, darı və pambıq əkilib. Mirbölük dəyişdirilməndən sonra onun yerinə Qara-

bağlarlı Xudadat xan təyin edilmişdir. Digər kəndlərlə yanaşı Vayxır-Təzəkənd kəndi də ona həvalə edilmişdir. Həmin vaxtdan təzəkəndlilər bu torpağı Xudadat xan üçün becərirdilər. Ermənistan vilayəti Rusiya qoşunları tərəfindən işğal olunduqdan sonra bu torpaq becərilməyib. Təzəkənd kəndində torpaq bol olduğuna görə və kanallar artıq çirkləndiyinə görə və onu təmizləmək mümkün olmadığına görə ora əkilməmiş qalmışdır. 1832-ci ildə Qıvraq sakinləri Qıvraq kanalından torpağa su çəkdirərək orada pambıq əkiblər. Onda təzəkəndlilər bu barədə Mirbölük Əli Məmməd bəyə şikayətlərini bildiriblər. Sonuncu bu barədə rəhbərliyə məlumat veribmi, onlara məlum deyil, lakin həmin vaxtdan qıvraqlılar onlara məxsus olmayan torpağı becəriblər. Şərur mahalının Təzəkənd kəndi sakini, əvvəllər Qıvraq kəndində yaşamış Qurbanəli Səfər oğlu 22 oktyabr tarixində bildirib: bundan əvvəl o Qıvraq kəndində yaşayıb, sonra isə Təzəkənd kəndinə köçüb, Qıvraq kəndində yaşadığı vaxtlarda hələ Təzəkənd kəndi yox idi, bütün torpaqlar xəzinə torpağı idi. Şərur mahalının Vayxır kəndinə aid idi. Hüseyn xan Sərdar 24 il əvvəl İrəvana gəldikdə tapşırıq verdi ki, Vayxır torpaqlarının bir hissəsi ayrılaraq orada Təzəkənd kəndi salınsın və Aladin kanalından həmin kəndə su çəkilsin. Keçmiş Şərur Mirbölüyü Məmməd Sadıq xan tərəfindən bu kanal çəkildi və həmin kanala Mirbölüyün adı verildi. Bu kanal təzəkəndlilər və qıvraqlılar arasında mübaisəli olan bütün ərazini əhatə etdi və Təzəkənd torpağını Naxçıvan əyalətindən ayırdı. Bu mübaisəli torpaqda Mirbölük Məmməd Sadıq xan pambıq əkirdi. Bundan iki il sonra kanal zibilləndi və doldu, buna görə də torpağı becərmək mümkün olmadı, lakin ora həmişə Təzəkənd torpağı hesab edilirdi. 1832-ci ildə qıvraqlırar öz kanallarından ora su çəkdirərək torpağı əkməyə başlayıblar, sonra isə mənimsəyiblər. 1832-1833-cü və 1835 illərdə onlar bu torpağı əkiblər, 1834-cü ildə isə əkin olmayıb. Lakin nə qədər əkin əkildiyi və nə qədər gəlir götürüldüyü ona məlum deyil, ancaq o bilir ki, bu torpaq Təzəkənd, Tumaslı kənd sakini Bağır Yuzbaşı İbrahim Yüzbaşı oğlu and içərək bildirib: əvvəllər Vayxır torpağı böyük olub, lakin 24 il əvvəl İrəvan sərdarı Hüseyn xanın dövründə bu torpaqdan bir

hissə ayrılıb və həmin yerdə Təzəkənd və Sərdər-Abad kəndi salınıb. İndi təzəkəndlilər və qıvraqlılar arasında mübaisəli olan torpaqda həmin ərazidə yerləşir, lakin o vaxtlar bu torpaq boş torpaq olub və Təzəkənd kəndinə aid olub. Təzəkənd kəndi salındıqdan sonra Şərur Mirbölüyü Məmməd Sadıq xan Aladin kanalından bu əraziyə su çəkilməsini əmr etdi və kanala öz adını verdi. Bundan sonra kanalın sol tərəfində pambıq əkilməyə başladı, sağ tərəfi isə Naxçıvana aid olan Qıvraq kəndlilərinin istifadəsində qaldı. Bundan sonra torpaq əkilmişdir, nəhayət, rusların vaxtında 4 il əvvəl qıvraqlılar öz kanallarından bu əraziyə su çəkərək oranı əkməyə başlayıblar. Amma bu torpaq dəqiq Təzəkənd kəndinə aiddir və xəzinə torpağıdır. Kəndxuda Xəlfəqulu Şahverdi oğlu buna uyğun ifadə verdi və əlavə etdi ki, bu məsələ ona yaxından məlumdur, çünki onun atası Təzəkənd kəndinin kənxudası olmuşdur. Qışlaqabbas kənd sakinləri Kərbalayi bəy Məmməd oğlu, Kərbalayi Kazım Əli oğlu, Məşədi Hüseyn Əli Mahmud oğlu, İbadulla kənd sakinləri kəndxuda Cəfər Hacı Hüseyn oğlu, Lütfəli Həsən oğlu eyni ifadəni veriblər. Naxçıvan Əyalət Məhkəməsində aparılan işdən aydın olur: Qıvraq kəndi mülkədar hüququnda polkovnik Ehsan xana məxsusdur, buna görə də məhkəmə ondan sübut tələb edib. Nəticədə polkovnik Ehsan xan 24 oktyabr 1836-cı il tarixli izahatında yazıb: Qıvraq kəndinin torpağı barəsində bildirib ki, həmin torpaq Təzəkənd kəndinə yox, Qıvraq kəndinə məxsusdur və atasının ölümündən sonra qardaşı mayor Şeyxəli xana miras qalıb, torpağın gəlirlərindən həmişə o istifadə edib, İrəvan sərdarı Hüseyn xanın vaxtlarında Məmməd Sadıq xan Şərur mahalına rəis təyin olunduqdan o, həmin torpağı suvarmaq üçün ora kanal çəkdirib. Şeyxəli xan bundan xəbər tutaraq Abbas Mirzəyə xahişnamə yazıb. Abbas Mirzə tərəfindən Hüseyn xan sərdara tapşırılıb ki, Məmməd Sadıq xanın bu hərəkətlərinin qarşısı alınsın. Sonradan Qıvraq kəndi Şeyxəli xan tərəfindən ona, Ehsan xana hədiyyə edilmişdir. Həmin vaxtdan Ehsan xan həmin torpaqdan istifadə edir. Əgər bu torpaq Noraşen kəndinə aid olsaydı onda Məmməd Sadıq xanın çəkdiyi kanalı ləğv etməzdilər. Deyilənlərdən əlavə Naxçıvan Əyalət Məhkəməsi dediklərimi

yoxlamaq üçün Qıvraq kəndi ilə qonşu olan kəndlərin sakinlərinin sorğusunu keçirə bilər. Polkovnik Ehsan xanın bu sorğusuna əsasən əyalət məhkəməsi 27 noyabr 1836-cı il tarixli 122 №-li təliqəsi ilə Naxçıvan Polis İdarəsinə tapşırıb ki, lazımi sorğu keçirilsin. Oradan isə 23 dekabr tarixində 1836-ci ilə Kəvşən adlanan 40 xəlvərlik torpağın Qıvraq kəndinə mənsubiyyətinə və ötən illərdə oradan əldə olunan gəlirlər barəsində keçirilmiş sorğu məhkəməyə təqdim olunub. Həmin sorğudan aydın olur:

1. 20 dekabr 1836-cı il. Naxçıvan Polis İdarəsinə Əznəbürd kənd sakinləri ermənilər Arutyun Ovanesov bildirib ki, Kəvşən adlanan 40 xəlvərlik torpaq İran hökuməti dövründə Qıvraq kəndinə aid olub. Torpağın sahibkarı mülkədar hüququnda mərhum Kəlbalı xan olub. Ondan torpaq oğlu Şeyxəli xana miras qalıb. Sonuncu həmin torpaqdan həm rus, həm də İran hökuməti dövründə istifadə edib, lakin torpaqdan nə qədər gəlir götürüldüyü ona məlum deyil.

İran hökuməti dövründə Şərur mahalına rəis təyin edilmiş Məmməd Sadıq xan Şeyxəli xanın yoxluğundan istifadə edərək 40 xəlvərlik torpağı suvarmaq üçün özbaşına olaraq ora kanal çəkdirib və həmin torpağı mənimsəmək istəyib. Şeyxəli xan onun bu niyyətindən xəbər tutaraq Abbas Mirzəyə xahişnamə yazıb və Abbas Mirzə tərəifndən keçmiş İrəvan sərdarı Hüseyn xana tapşırılmışdır ki, onun mahalına daxil olmayan torpaqlara su çəkdirilməsi Məmməd Sadıq xana qadağan edilsin, bununla da belə kanal başa çatdırılmamış qaldı. Kəvşən torpağı isə əvvəlki kimi Qıvraq kəndində qaldı. Buna uyğun ifadə verdilər: Murad Ayrapetov, Kalikor Kalustov, Sukiyaz Sarkisov, Petros Krikorov, Manuk Kalustov və Artuyun Mekertiçov.

2. 23 dekabr 1836-cı il. Naxçıvan Polis İdarəsində ifadə verdilər: Şahtaxtı kənd sakini Nəcəfqulu Məmməd Həsən oğlu. Ona məlumdur ki, sahəsi 40 xəlvər olan Kəvşən torpağı İran hökuməti dövründə Qıvraq kəndinə aid olub, oranın sahibkarı mərhum Kəlbalı xan olub. Torpaq ondan oğlu Şeyxəli xana miras qalıb, o da həmin torpaqlardan həm İran, həm də Rusiya hökumətləri dövründə istifadə edib, torpaqdan gələn gəlirlərdən də o istifadə edib. Lakin torpaqdan nə qədər gəlir götürüldüyü ona məlum

deyil. Həmin vaxtlarda Şərur mahalına rəis təyin olunmuş Məmməd Sadıq xan Şeyxəli xanın yoxluğundan istifadə edərək həmin sahəni suvarmaq, daha sonra isə oranı mənimsəmək üçün özbaşına olaraq ora kanal çəkdirib. Şeyxəli xan bundan xəbər tutaraq Abbas Mirzəyə şikayət edib. Abbas Mirzə tərəfindən keçmiş İrəvan sərdarına tapşırılmışdır ki, Məmməd Sadıqın bu əməllərinin qarşısı alınsın. Bununla da kanal yarımçıq qalmış Kəvşən torpağı isə əvvəlki kimi Qıvraq kəndinə aid edilir. Buna uyğun ifadə verdilər: Allahverdi Əbdülqasım oğlu, Allahverdi Kərbəlayi Hüseyn oğlu, Yusif Şahqulu oğlu, Adıgözəl Hacı oğlu, Zeynalabdin Kəlbəlayi Hüseyn oğlu, Məmmədəli Zeynalabdin oğlu, İbrahim Abdulla oğlu, Məmmədhüseyn Baba oğlu, Həsən Pirqulu oğlu, Həsən Kəlbəlayi Vəli oğlu, Xok kənd sakinləri Məşədi Ələkbər Həsənəli oğlu, Allahverdi Musa xan oğlu, Əli Cəfər Atam oğlu, Məmmədhəsən Kəlbəlayi Hüseyn oğlu, Mirzə Murzad oğlu, Abdin Həmzə xan oğlu, Məşədi Cəfər Verdi xan Məmməd oğlu, Kəlbəlayi Zeynəlabdin Mirzə İsmayıl oğlu, Bayramqulu Əli oğlu, Qarabağlar kənd sakinləri: kəndxuda Məmiş bəy Hacı İsmayıl oğlu, Salman Əli Məmməd oğlu, Orucəli Zeynəlabdin oğlu, Murad Tarverdi oğlu, Məmmədəli Musa oğlu, Məmməd Cəfər Zeynlabdin oğlu və Əli Murad Əhməd oğlu.

3. 23 dekabr 1836-cı il tarıxdə Naxçıvan Polis İdarəsində Qıvraq kənd sakinləri and içərək bildirdilər: kəndxuda İbrahim Məmməd oğlu bildirib ki, 40 xəlvərlik Kəvşən torpağından 1832-ci ildə Qıvraq kənd sakinlərindən 55 batman pambıq xəzinəyə və mülkədara daxil olub, ötən 2 ildə isə torpaqda heç nə əkilmədiyindən heç bir gəlir götürülməyib. Buna uyğun ifadə veriblər:Abdulla Əmir oğlu, Eyvaz Əli oğlu, Abdulla Qoca oğlu, Cəfər Qasım oğlu, İmaməli Həsən xan oğlu, Baba Məşədi Xudaverdi oğlu, Şeyx Məmməd oğlu, Bayram Nəbi oğlu, Kəlbəlayi Sadıq oğlu və Babaş Pir Məmməd oğlu. Məruzə dinlənildikdən sonra Naxçıvan Əyalət məhkəməsində qərara alındı:

Polis İdarəsinin apardığı sorğulardan aydın oldu ki, o yerində və xəzinənin maraqlarını müdafiə edən Şərur Dairə rəisinin iştirakı olmadan aparılıb. Bundan başqa Polis İdarəsi tərəfindən cavabdeh şəxs polkovnik Ehsan xanın tabeliyində olan Qıvraq

kənd sakinlərinin sorğusu aparılıb. Həmin şəxslər torpaqdan ancaq 1832-ci ildə gəlir əldə olunduğunu bildirsələr də bu Şərur sakinlərinin ifadələri ilə təkzib olunur, hansılar bildiriblər ki, torpaqda 1832, 1833 və 1835-ci illərdə əkin əkilib. Son illərdə torpağın əkildiyini hətta müstəntiqlər özləri belə yerinə təsdiqləyiblər. Bu barədə jurnal tərtib olunub.

Naxçıvan əyalətinin sakinləri ilə Şərur mahalı sakinlərinin ifadələri bir-birini təkzib etdiyindən bu barədə Şərur Dairə rəisi ştabs kapitan Fon-Rektilə məlumat verilsin və tapşırılsın ki, hər iki tərəf mübaisəli torpaq olan əraziyə aparılaraq, onlardan yerində ifadə alınsın, həmçinin Ehsan xandan Qıvraq kəndinin sənədi tələb olunsun, çünki bu kənd qardaşı Şeyxəli xan tərəfindən Rusiya hökuməti dövründə ona verilib. Polis İdarəsi həmçinin Şərur dairə rəisi cənablarına tapşırılır ki, Naxçıvan əyaləti ilə Şərur mahalının sərhədləri, mübaisəli torpaqların sərhədləri və 1836-1837-ci illərdə həmin torpaqdan götürülmüş gəlirlər barəsində araşdırma aparılsın. Həmçinin Şərur mahalının və polkovnik Ehsan xan tərəfindən olan şahidlərin sayı artırılsın və torpağın Qıvraq kəndinə və ya Təzəkənd kəndinə məxsus olduğunu təsdiqləmək üçün yeni sübutlar aşkar olunsun, belə ki, Ehsan xan tərəfindən şahidlərin sayı digərlərindən artıqdır. Deyilənlər barəsində məlumat dərhal məhkəməyə təqdim olunsun.

Əslini imzaladılar iştirak edənlər.

Düzdür- katib: (imza) (16).

Mübaisəli torpaq ilə əlaqədar 23 dekabr 1836-cı il tarixdə Naxçıvan qəza Polis İdarəsinin iştirakı ilə Şahtaxtı, Xok və Qarabağlar kəndlərinin sorğusu keçirilmişdir. Keçirilmiş sorğu materiallarına nəzər yetirək.

Şahtaxtı kənd sakini: Adım Nəcəfqulu Məmmədhəsən oğludur. 46 yaşım var, müsəlmanam. Mənə məlumdur ki, sahəsi 40 xəlvər olun «Kəvşən» torpağı İran hökuməti dövründə Qıvraq kəndinə aid olub, həmin kəndin mülkədarı Kəlbalı xan olub, ondan isə həmin kənd oğlu Şeyxəli xana keçib, hansı ki, həm İran hökuməti, həm də rus hökumətinin dövründə həmin kəndin və «Kəvşən» torpağının gəlirlərindən istifadə edib. Şeyxəli xanın dövründə Şərur mahalına rəis təyin edilmiş Məmməd Sadıq xan

«Kövşən» torpağını Təzəkəndə birləşdirmək məqsədi ilə özbaşına olaraq ora su çəkib. Bundan xəbər tutan Şeyxəli xan Abbas Mirzəyə məruzə edib. Abbas Mirzə isə keçmiş İrəvan sərdarı Hüseyn xana tapşırıb ki, Məmməd Sadıq xanın qanunsuz hərəkətlərinin qarşısı alınsın. Və beləliklə də kanal yarımçıq qalıb. Bundan başqa mənə heç nə məlum deyil. Adları aşağıdakı şəxslər: Şahtaxtı kənd sakinlərindən Allahverdi Əbülqasım oğlu 30 yaşında, Allahverdi Kərbəlayi Hüseyn oğlu 35 yaşında, Yusif Şahqulu oğlu 40 yaşında, Adıgözəl Hacı oğlu 25 yaşında, Zeynalabdin K. Hüseyn oğlu 27 yaşında, Məmmədəli Zeynalabdin oğlu 35 yaşında, İbrahim Əbdüləli oğlu 40 yaşında, Məmmədhüseyn Baba oğlu 39 yaşında, Həsən Pirqulu oğlu 35 yaşında, Xok kənd sakinləri: Məşədi Ələkbər Həsənəli oğlu 46 yaşında, Allahverdi Musaxan oğlu 50 yaşında, Həsən xan Qara xan oğlu 28 yaşında, Əliqafar Atam oğlu 30 yaşında, Məmmədhəsən Kərbəlayi Hüseyn oğlu 30 yaşında, Mirzə Murzad oğlu 30 yaşında, Əli Səfərəli oğlu 27 yaşında, Abdin Həmzə xan oğlu 60 yaşında, Kərbəlayi Zeynalabdin Mirzə İmam oğlu 40 yaşında, Məşədi Sadıq Məşədi Seyid Məmməd oğlu 35 yaşında, Bayramqulu Əli oğlu 35 yaşında, Qarabağlar kənd sakinlərindən: Kəndxuda Məmiş bəy Hacı İmam oğlu 30 yaşında, Salman Əliməmməd oğlu 35 yaşında, Orucəli Zaman Abdin oğlu 40 yaşında, Nağı Kərbəlayi Pirqulu oğlu 30 yaşında, Murad Tarverdi oğlu 50 yaşında, Məşədi Əli Musa oğlu 40 yaşında, Məşədi Cəfər Zeynalabdin oğlu 30 yaşında, Əlmurad Əhməd oğlu 27 yaşında, Şahtaxtı kənd sakini Nəcəfqulu Məmmədhəsən oğlunun ifadələrini təsdiqləyirlər (imzalar).

Naxçıvan pristavi, poruçik (imza) (17).

Təzəkəndlilərlə qıvraqlılar arasında «Kəvşən» adlanan mübahisəli torpaq məsələsi Naxçıvan Polis İdarəsi tərəfindən müxtəlif aylarda və illərdə araşdırmalar aparılıb məhkəməyə çıxarılsa da bu iş tam həllini tapmamış, 1840-cı ilin mayına kimi sürmüşdür.

Bunu əlimizdə olan məhkəmə sənədləri bir daha sübut edir. Həmin sənədlərdən biri Naxçıvan Əyalət Məhkəməsinin 1838-ci il tarixli iclas protokolundan çıxarışdır. Çıxarışda yazılmışdır: «Naxçıvan Polis İdarəsinin 5 fevral tarixli 238 №-li təliqəsi haqqında bildirilir ki, məhkəmə 18 dekabr 1837-ci il tarixli 345 №-li

təliqəsilə Polis İdarəsindən xahiş edir və Şərur dairə rəisi cənabları ilə birlikdə təzəkəndlilərlə qıvraqlılar arasında mübaisəli olan «Kəvşən» adlanan torpaq barədə sorğu keçirilsin və sərhədləri müəyyən olunsun. Sonra təkrarən, 27 yanvar tarixdə 17 №-si ilə məhkəmə yuxarıda qeyd olunan təliqənin tezliklə yerinə yetirilməsini xahiş edib. Lakin qış fəsli ilə əlaqədar olaraq torpaq qarla örtülü olduğundan əyalət məhkəməsi Bölgü və Mülkü qanunların 10-cu cildinin 2-ci hissəsi, 12-ci maddəsinə əsasən Polis İdarəsinə bildirib ki, bu şəraitdə mübaisəli torpağın sərhədləri düzgün müəyyən edilə bilməz. Bu haqda məhkəməyə bildirilib. Arayışdan aydın olur: Ermənistan Vilayəti Gəlirlər və Dövlət Əmlakı İdarəsinin Naxçıvan əyalətinin Qıvraq mülkədar kəndinin sakinləri tərəfindən Təzəkənd kəndinə məxsus olan 40 xəlvərlik xəzinə torpağının mənimsənilməsi haqqında 20 aprel 1836-cı il tarixli 1545 №-li təklifinə əsasən Əyalət məhkəməsində aparılan işə dair məruzəyə və 17 dekabr 1837-ci tarixli jurnala əsasən müəyyən olunub. Naxçıvan Polis İdarəsi tərəfindən aparılan sorğudan aydın olur ki, həmin sorğu yerində və Şərur dairə rəisinin iştirakı olmadan aparılıb. Bundan başqa Polis İdarəsi tərəfindən cavabdeh şəxs olan polkovnik Ehsan xanın tabeliyində olan Qıvraq kənd sakinlərinin sorğusu keçirilib. Onlar təkcə 1832-ci ildə torpaqdan gəlir götürdüklərini iddia etsələr də Şərur mahalının sakinləri bildiriblər ki, əkinlər 1832, 1833 və 1835-ci illərdə də aparılıb. Sonuncu ildə isə pambıq məhsulu götürüldüyünü hətta müstəntiq cənablarının özləri də təsdiqləyiblər ki, bu barədə akt tərtib olunub. Şərur mahalının və Naxçıvan əyalətinin sakinlərinin ifadələri bir-birinə zidd olduğundan məhkəmə tərəfindən 18 dekabr 1837-ci il tarixdə 345 №-si ilə Naxçıvan Polis İdarəsinə və 346 №-si ilə Şərur dairə rəisi ştabs-kapitan For-Rentelə məlumat verilmişdir və xahiş edilmişdir ki, hər iki tərəfin iştirakı ilə yerində yoxlama keçirilsin. Ehsan xanın mübaisəli torpağa hüquqlarını təsdiqləyən hansı sübutların olduğu barədə ondan qəbz alınsın, yaxşı olar ki, Ehsan xandan Qıvraq kəndinin sənədi tələb edilsin, belə ki, həmin kənd ona qardaşı Şeyxəli xan tərəfindən Rusiya hökuməti dövründə hədiyyə edilib. Bundan sonra Şərur mahalı ilə Naxçıvan əyalətinin

sənədləri müəyyən edilsin. Mübaisəli torpağın harada yerləşdiyi və 1836, 1837-ci illərdə həmin torpaqdan götürülmüş gəlirin miqdarı dəqiqləşdirilsin. Həmçinin bu dəfə Şərur mahalının yaşlı sakinlərinin və polkovnik Ehsan xan tərəfindən olan şahidlərin sorğusu keçirilsin. Qərara alınır: Naxçıavan Polis İdarəsinin rəyi və arayış barədə Ermənistan Vilayət İdarəsinə məlumat verilsin və bildirilsin ki, Polis İdarəsi tərəfindən məhkəmənin 345 №-li təliqəsinin yerinə yetirilməsi üçün səbəb kimi şəraiti göstərməsi əsassızdır, belə ki, ondan torpaq bölgüsü yox Şərur mahalı ilə Naxçıvan əyaləti arasındakı sərhədlərin müəyyən edilməsi tələb olunur ki, bunun da bölgüyə əsasən yox, xalqa məlum olan hər hansı işarələrin köməyi ilə etmək olar. Məhkəməyə bu ondan ötəri lazımdır ki, mübaisəli torpağın hansı ərazidə yerləşdiyini müəyyən etmək mümkün olsun və beləliklə də Ehsan xanın iddialarının nə dərəcədə haqlı olduğu aydın olsun. Həmçinin vilayət idarəsinə bildirilir ki, xəzinənin mülkiyyəti yerli Polis İdarəsi tərəfindən zəif müdafiə olunur buna görə də yaxşı olar ki, bu cür işlər üçün hökumət tərəfindən xüsusi məmur təyin edilsin. Əslini imzaladılar iştirak edənlər.

Düzdür. katib (imza)» (18).

11 mart 1839-cu il tarixli Naxçıvan Əyalət Məhkəməsinin protokolundan çıxarışda isə göstərilir: «Ermənitan vilayətinin rəisi, general-mayor və kavaler cənab Paskeviçin 23 fevral 1839-cü il tarixli 1919 №-li təliqəsi, hansı ki, məhkəmənin 33 və 9 №-li raportlarına cavab olaraq bildirilir ki, X cildin 828 maddəsinə əsasən mübaisəli torpaqlara baxılması və planların yerində yoxlanılması məhkəmənin vəzifələrinə daxildir. Torpaqölçən tərəfindən polis üzvünün iştirakı ilə mübaisəli malikanənin planı tərtib edildikdən sonra məhkəmə mübaisəli əraziyə getməlidir. Bu cür baxışların məhkəmə bazar və ya bayram günləri həyata keçirməlidir.

Naxçıvan Əyalət Məhkəməsində arayışdan aydan olur ki, Naxçıvan əyalətinin Qıvraq mülkədar kəndi tərəfindən Şərur mahalının Təzəkənd kəndinə məxsus 40 xəlvərlik xəzinə torpağının mənimsənilməsi haqqında məhkəmə aparılan işdən aydın olur ki, Naxçıvan naibi general-mayor Ehsan xanın həmin torpağa iddiası var, belə ki, həmin torpaq güya Təzəkənd kəndinə

yox, Qıvraq kəndinə məxsusdur və həmin kənd onun atasının ölümündən sonra qardaşı polkovnik Şeyxəli xana keçib. Şahidlərin dindirilməsi zamanı aydın olur ki, «Kəvşən» adlanan, sahəsi 40 xəlvər olan torpaq İran hökuməti dövründə Qıvraq kəndinə aid olub, hansının ki, sahibkarı mərhum Kəlbalı xan olub. Onun ölümündən sonra oğlu Şeyxəli xan olub, hansı ki, həm İran, həm də Rusiya hökumətləri dövründə torpağın gəlirlərindən istifadə edib. Şərur mahalının rəisi Məmməd Sadıq xan olduqda, o həmin 40 xəlvərlik torpağı suvarmaq üçün təzəkəndlilərə əmr edib ki, oraya su kanalı çəksinlər. Məmməd Sadıqın bu niyyətindən xəbər tutan Şeyxəli xan bu barədə Abbas Mirzə həzrətlərinə şikayət edir və həmin vaxt İrəvan sərdarı Hüseyn xana tapşırıldı ki, Məmməd Sadıq xanın qanunsuz hərəkətlərinin qarşısı alınsın. Buna görə də kanal yarımçıq qalıb və torpaq əvvəlki kimi Qıvraq kəndinə aid edilib. Bunun əksinə olaraq Şərur dairə rəisi tərəfindən aparılmış istintaqdan aydın olur ki, 24 il bundan əvvəl İran sərdarının sərəncamı ilə Vayxır kəndindən bir hissə ayrılaraq Təzəkənd kəndi (Sərdar-Abad) tikilmişdir. Bundan sonra Şərur Mirbölüyü Məmməd Sadıq xan Aladin kanalından mübaisəli torpağa su çəkilməsini əmr edib və kanalın sağ tərəfində pambıq əkib, sol tərəfi isə Qıvraq sakinlərinin istifadəsində qalıb. Qanunların 828-ci maddəsinə əsasən mübaisəli torpaqlara baxış qəza məhkəməsi tərəfindən həyata keçirilir və ancaq məhkəmənin üzvünün iştirakı ilə torpaqölçən tərəfindən torpağın planı tərtib edildikdən sonra yaxşı olar ki, bu cür baxışlar bazar günləri və ya istirahət günləri həyata keçirilsin. Bölgü qanunlarının 72-ci maddəsinə əsasən bölgü işləri yazın ilk vaxtlarında və 15 mart tarixdən gec olmayaraq aparılmalıdır. Buna görə də Naxçıvan Əyalət Məhkəməsində qərara alınıb: Yuxarıda deyilənlər vilayət idarəsinin sərəncamına təqdim olunsun və xahiş edilsin ki, Şərur mahalı ilə Naxçıvan əyaləti arasında sərhədlərin müəyyən edilməsi və və mübaisəli ərazinin harada yerləşməsini müəyyən etmək üçün torpaqölçən təyin edilməsi haqqında sərəncam verilsin, həmçinin torpaqölçənə tapşırılsın ki, sorğunun nəticələri və plan məhkəməyə təqdim edilsin. Əslini imzaladılar iştirak edənlər.

Düzdür-katib: (imza)» (19, s.3-4).

13 dekabr 1839-cu il tarixli iclas protokolunun çıxarışında göstərilir: «Ermənistan vilayətinin torpaqölçəni Titulyar Müşavir Konyuxovun 22 noyabr 1839-cu il tarixli 63 №-li təliqəsi, hansı ki, onunla birlikdə Ermənistan vilayətinin rəisi cənablarının təliqəsini yerinə yetirərək Naxçıvan Polis İdarəsinin üzvlərinin, Şərur dairəsinin deputatının imzaları olan mübaisəli sahənin planını təqdim edib. İsa Sultanın vərəsəsi Məmməd Tağı Sultan tərəfindən Şahtaxtı kəndinə aid edilmiş, general-mayor Ehsan xanın müvəkkili tərəfindən Qıvraq kəndinə aid edilmiş mübaisəli torpaq O-hərfi ilə göstərilib. Lakin həmin sahədə neçə desyatin olduğu isə planın şərhində göstərilib. Həmçinin planda Şərur dairəsi ilə Naxçıvan əyaləti arasında olan sərhəd, Məşədi Sadıq xanın çəkdiyi kanal göstərilib.Sonra cənab Konyukov bildirir ki, planda A və K hərifləri ilə göstərilmiş sahələr, Təzəkənd kəndxudasının bildirdiyinə görə qıvraqlılar tərəfindən vaxtı ilə pambıq əkilmiş və üzərində mübaisə düşmüş torpaqlardır. 40 xəlvərlik torpağa gəldikdə isə həmin torpaq əvvəllər də indi də Qıvraq malikanəsinin tərkibində olub və o Aladin kanalının yox, digər yarımçıq qalmış kanalın sağ tərəfində yerləşir. Bu torpaq mübaisəli torpaq olmaq üçün daha əlverişlidir. Həmin torpağın böyük hissəsi boş sahədir, buna görə də sakinlər oranı «Yavşan» adlandırırlar. Ola bilsin ki, Qıvraq kəndinin sahibi Şərur dairəsi ilə Naxçıvan əyaləti arasında sərhəd kimi həmin kanalı qəbul edib. Təzəkənd sakinlərinə gəldikdə isə onlar ifadələrində bildiriblər ki, həmin torpağa heç bir iddiaları yoxdur. Qıvraqlıların Təzkənd malikanəsində torpaq şumladıqların gəldikdə isə bu ondan baş verib ki, qıvraqlılar öz kanallarından təzəkəndlilərə su veriblər, bunun müqabilində isə təzəkəndlilər onlara torpaqlarını becərməyə icazə veriblər. Arayışdan aydın oldu: Naxçıvan əyalətinin Qvraq kəndi tərəfindən Şərur mahalının Təzəkən malikanəsinə məxsus olan 40 xəlvərlimk xəzinə torpağının mənimsənilməsi haqqında məhkəmədə aparılan işdən görünür ki, Qıvraq kəndi Kəlbalı xan tərəifndən oğlu Şeyxəli xana miras qalıb, ondan isə Rusiya hökuməti dövründə qardaşı Ehsan xana keçib, hansı sənəd əsasında keçməyi ilə göstərilmir. Qərara alınır: Torpaqölçən cənab Konyuxovun təliqəsi jur-

nala yazılaraq Naxçıvan polismeystrindən xahiş edilsin ki, cənab general-mayor Ehsan xana bildirsin ki, Qıvraq kəndinin sənədini, həmçinin atası Kəlbalı xan tərəfindən kəndin qardaşı Şeyxəli xana miras qoyulması haqqında vəsiyyətnamə məhkəməyə təqdim edilsin. Ermənistan Vilayəti Gəlirlər və Dövlət Əmlakı İdarəsinə bu barədə raport təqdim edilsin və xahiş edilsin ki, Naxçıvan əyalətinin Qıvraq və Şahtaxtı kəndlərinin kameral siyahısında kimin adına yazıldığı və hansı əsasla onlardan gəlir götürüldüyü barədə məhkəməyə məlumat verilsin. Əslini imzaladılar: hakim əvəzi kapitan Gerasimov, üzvlər: M.Simonov, Allahverdi Sultan və Kazar Sarkisov.

Düzdür-katib: (imza)» (20).

1834-1839-cu illər ərzində müxtəlif xarakterli: dalaşma, adam öldürmə, qaçaqmalçılıq, oğurluq, mülkü və əmlak və s. məsələlər üzrə Naxçıvan Polis İdarəsinə və Naxçıvan Əyalət naibliyinə daxil olan ərizə və şikayətlərlə bağlı açılmış və məhkəmədə baxılıb hökm çıxarılan cinayət işlərinin sayı illər üzrə aşağıdakı kimi olmuşdur, (21):

İllər	Daxil olmuş ərizə və şikayətlər üzrə işlərin sayı	Oğurluq üzrə	Dalaşma üzrə	Adam öldürmə üzrə	Qaçaqmalçılıq üzrə	Mülk və əmlak üzrə
1834	34	3	2	1	4	24
1835	49	2	8	3	11	28
1836	44	3	6	2	7	26
1837	53	4	7	1	9	32
1838	67	8	11	2	14	32
1839	61	6	9	1	8	37

Beləliklə, tərtib edilmiş cədvəldən göründüyü kimi, XIX əsrin 30-cu illərində ən çox mülkü işlər polis, məhkəmə orqanlarında baxılmış və hökmlər verlimişdir.

Qeyd olunmalıdır ki, Türkmənçay sülh müqaviləsinin şərtlərinə əsasən 1840-cı ildə geniş əraziyə malik olan Naxçıvan xanlığının varlığına, demək olar ki, son qoyuldu. Naxçıvan kiçik bir

əyalət kimi əvvəlcə Gürcüstan-İmereti və Tiflis quberniyasının, 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə qatıldı.

Naxçıvan xanlığı Rusiyaya birləşdirildikdən sonra polis rəsmi orqan kimi fəaliyyətə başlasa da ilk Naxçıvan qəza Polis İdarəsinin əsası 10 aprel 1840-cı ildə qoyulur. Eyni zamanda Şərur-Dərələyəz, Naxçıvanda və Ordubad şəhər Polis İdarələri yaradılır (22).

Polis İdarələri quberniya rəhbərliyinin tabeçiliyində olub, əsas vəzifələrini yerinə yetirməklə yanaşı, xırda cinayət hadisələrində müəyyən mənada məhkəmə funksiyasını da yerinə yetirirdi. O illərdə şəhər polismeystrləri xırda oğurluq və dələduzluq faktları üzrə özləri məhkəmə aparır və cinayətdə suçlu olanın cəzasının verirdilər. O dövrdə şəhərlərdə hələ ictimai idarəetmə orqanları yox idi. Ona görə şəhər təsərrüfatını da polis idarə edirdi. O vaxt rəsmi orqan kimi fəaliyyətə başlayan polismeystrlər və qorodniçilər, idarələrin nəzdində məhəllə nəzarətçiləri, pristavlar və polis əməkdaşları fəaliyyət göstərirdilər. Polisin əsas vəzifəsi asayişi qorumaq, baş vermiş cinayətləri açmaq, əmin-amanlığı təmin etmək idi.

Araşdırdığımız arxiv sənədlərindən məlum olur ki, Naxçıvan, Ordubad, Şərur qəza və şəhər Polis İdarələrində yüksək vəzifələrdə (pristav, pristav köməkçisi, dəftərxana xidmətçisi, tərcüməçi və s.) rus, erməni, gürcü millətləri ilə yanaşı yüksək təhsil almış Kəngərli tayfasından olan şəxslər də qulluq etmişlər.

Naxçıvan vilayətində polis idarələrində nüfuzlu xidmətlərdə çalışmış Kəngərlilərin, Naxçıvanskilərin, Vəzirovların, Bektaşilərin və digərləri haqqında oxucularımıza bir qədər ətraflı məlumat verilməsi lazım gəlir. Çünki bu tayfa başçıları Naxçıvan qəzasında böyük nüfuza malik idilər. Arxiv sənədlərindən və bir çox ədəbiyyatlardan məlum olur ki, Kəngərli tayfası qədim türk köçəri qəbilələrindən olub, Azərbaycanda həmişə hərbi, mülki işlərdə üstün mövqe tutmuşlar.

Y.Marın Kəngərlilər barədə toplayıb dərc etdirdiyi sənədlərdə göstərilir ki, Kəngərlilər köçlü qəbilə qolundan olub, Səfəvilər hakimiyyəti zamanı Naxçıvan tayfa əhalisinin tərkibinə daxil olmuşlar. Bu tayfa ayrı-ayrı oymaqlara ayrılmışdır (23).

Köçlu qolu Səfəvilər dövründə Araz çayının Cənub sahilləri boyunca səpələnmiş və Xorasan vilayətinədək yayılmışdır. Nadir şah hakimiyyəti zamanı bu qol atlı dəstəsində birləşir, Qarabağ hakimi Əfqanlı Azadxanın və Qacarların süvari xidmətində güclü Kəngərli hərbi dəstələri saxlanılır (24).

Şahzadə Abbas Mirzənin tapşırığı ilə aparılan yoxlamadan aydın olur ki, Nadir şah zamanında köçlu Kəngərli tayfa rəislərindən istifadə edilmiş, onlar isə Kabilə hərəkətə başlamışdır.

Sənədlərdən görünür ki, Kəngərli rəisləri öz adamları ilə Kabilə Hüseyn xan Malikin, Zəndilər hakimiyyətində Kərim xan Şirazdakı hərbi xidmətində fəaliyyət göstərmişlər. Lakin Kəngərlilərin əsl vətəni Naxçıvandır. Orta Şərqə qədər səpələnən bu yarım oturaq tayfalar, əsasən hərbi xidmətdə çalışmışlar.

Məhz Kəngərlilərin hərbi sənətə olan maraq və meylini, bu sahədə onların göstərdikləri xidmətləri nəzərə alan general Paskeviç Naxçıvan ölkəsinin naibliyini Kəngərli tayfasının başçısı-vəkil Ehsan xana həvalə etmişdi. Ehsan xan 1845-ci ilin dekabrında vəfat edir. Naiblik onun oğlu II Kəlbalı xana tapşırılır (25).

Türkmənçay müqaviləsindən sonra yeni inzibati ərazi bölgüsü aparılaraq, Ordubad dairə olmaqla Şərur-Dərələyəz 1828-1833-cü illərdə Naxçıvan qəzasının tərkibinə daxil edilir. 1840-cı ilə kimi dairə halında idarə olunan Şərur-Dərələyəz, 1840-cı ildə aparılan ərazi bölgüsü nəticəsində Naxçıvan qəzasının tərkibinə verilir. 1872-ci ildə Naxçıvan qəzasının tərkibindən alınıb müstəqil qəza adlandırılır və idarəçiliyi Kəngərlilərdən ibarət olan naiblərə tapşırılır.

Beləliklə, Şərur-Dərələyəz qəzası uzun müddət Naxçıvanın Kəngərli rəisləri tərəfinən idarə edilmişdir.

XIX əsrin 40-cı illərindən başlayaraq Rusiya imperiyasının milli ucqarları kimi, Naxçıvan ölkəsində də aşağı təbəqələrin vəziyyəti ağır idi. Onlar bir tərəfdən yerli xanların, bəylərin, sələmçilərin rəhimsiz istismarına, digər tərəfdən isə çarizm və onun məmurlarının milli müstəmləkəçilik zülmünə məruz qalırdılar.

Naxçıvan qəza Baş Polis İdarəsinə 1840-1877, həmçinin 1878-1890-cı illərdə vətəndaşlardan və təşkilatlardan daxil olmuş ərizə və məktubları nəzərdən keçirsək Naxçıvan, Ordubad və Şərur

qəzalarında müxtəlif xarakterli soyğunçuluq, başqasının əmlakının yandırılması, talan etmə, qəsdən adam öldürmə və s. cinayət hadisələrinin tez-tez törədilməsinin şahidi olarıq.

Həmin sənədlərdən biri mülkü işlə bağlı sentyabr 1840-cı il tarixdə Naxçıvan qəza Polis İdarəsi tərəfindən tərtib olunmuş aktdır. Aktda yazılmışdır: «Ermənistan Vilayət İdarəsinin rəisi polkovnik və kavaler Sumbatovun fevral 1840-cı il tarixli 1784 №-li təliqəsinə əsasən Ermənistan Vilayət İdarəsinin müxtəlif təlimatlar üzrə məmuru saray müşaviri Kononoviç istintaq apararaq, Naxçıvan şəhər sakinləri kapitan Eynalı Sultan, praporşiklər Qara bəy Sultan, Məmməd Qasım, Hacı İsay Sultan və oğlu Zeynal Abidin Sultan tərəfindən xəzinəyə keçməli olan mülklərin mənimsənilməsi haqda iddiasını araşdırıb. Şikayətçilər yazıblar ki, İsay Sultan və onun oğlu Zeynalabdin Sultan İmamqulu xan Kəngərlinin arvadı Telli Bəyimə xaricə qaçdıqdan sonra ondan qalmış 30 dükanı mənimsəyib. İsay Sultan Bildirib ki, o İmamqulu xan Kəngərlinin arvadı Telli Bəyimdən 30 dükanı heç vaxt almayıb və həmin dükanlar haqqında ona heç nə məlum deyil. Buna görə də onun barəsində iddia haqsızdır. Dediklərini təsdiqləmək üçün o bütün mülklərinin Naxçıvan sakini Şükürulla xana satılması haqda Təbrizdəki Rusiya baş səfirliyində təsdiqlənmitş sənədə istinad edib. Müşavir Şopenin sorğusunda da bu dükanların Telli bəyimə məxsus olmağı göstərilib. Şikayətçilər bildiriblər ki, Telli Bəyim Abbasqulu xanın oğlu və mərhum Şükürulla xanın qızının övladlarıdır və deməli onların nəvəsidir. Şükürulla xandan sonra 10 vərəsə qalıb, onun 300 dükanı olub, bunlardan 190-ı saz vəziyyətdə, 110-u isə dağılmış vəziyyətdədir. 300 dükandan Telli Bəyimin payına 30 dükan düşür. Xaricə qaçmamışdan əvvəl dükanların gəlirlərindən Telli Bəyim İstifadə edib, ondan sonra isə İsay Sultan dükanın gəlirlərini mənimsəyib, bunu onlar bildirirlər və şahidləri var, hansılar ki, lazım gəlsə təqdim edərlər.

İkinci şikayətçilər yazıblar ki, Şahsuvar Sultan Zaman xan oğlu İsay Sultanın hədələrinə dözməyərək xaricə qaçıb, onun 2 il yaşadığı, dəyəri 1000 mümən olan evini isə İsay Sultan mənimsəyib və bildirib ki, həmin ev güya ona girov qoyulmuşdur. İsay

Sultan bildirib ki, Şahsuvar Sultan Zaman xan oğlu 10 ildir ki, 1828-ci ildə həmin evi onun oğlu Məmməd Tağı Sultana girov qoyub. Daha sonra Şahsuvar Sultan ondan əlavə 12 tümən də borc götürdüyü pulun müqabilində evi ona İsay Sultana verib. Daha sonra dediklərini təsdiqləmək üçün o girov qəbaləsini təqdim edib ki, şikayətçilər cavab olaraq bildiriblər ki, girov qəbaləsi həqiqi deyil və həmin vaxt xaricə qaçmış şəxslərə mülklərini satmağa və ya hədiyyə etməyə Gürcüstandakı Baş İdarəsi tərəfindən icazə verilməmişdir. Ümumiyyətlə bu sənəd Ermənistan Vilayət İdarəsində təsdiqlənməyib və qanuni qəbalə alınması üçün təqdim olunmayıb. Bu barədə sorğusu keçirilmiş 12 nəfər Naxçıvan saknləri bildiriblər ki, onlara məlumdur ki, Naxçıvan şəhərinin Əlixanlı məhəlləsində həqiqətən yerli sakin Məmməd Xənifəyə məxsus həyətli ev olub, hansı ki, hələ bu diyar Rusiya qoşunları tərəfindən işğal olunmamışdan əvvəl yerli sakin Şah Suvar Sultan Zaman xan oğlundan 30 tümən borc götürüb. Diyar Rusiya qoşunları tərəfindən işğal olunduqdan sonra Şahsuvar bəy öz pulunu geri almadığından evi mənimsəyib, sonra isə İrana qaçıb. Bir müddətdən sonra isə hökumətin icazəsi ilə qayıdıb evini İsay Sultana satıb, neçəyə məlum deyil, nəhayət yenə xaricə qaçıb, ailəsi isə 20 gün əvvəl biletlə onun yanına gedib.

Üçüncü şikayətçilər yazırlar ki, İsay Sultan xaricə qaçmış Ağa Məmməd bəy Naxçıvanskinin qızı, Səfi bəyin oğlu İbrahim bəyin arvadı Səkinə xanımdan qalmış Naxçıvan şəhərindəki bir evi, karvansarayı və 9 dükanı mənimsəyib. İsay Sultan bildirib ki, o Ağa Məmməd bəyin qızı Səkinə xanımın malikanələrini mənimsəyib. Yalnız onun qardaşı Mehralı bəyin bir dağılmış karvansarayı, həyətli evi, 4 dükanı və dağılmış dükan yerlərini Naxçıvan Əyalət Məhkəməsində 23 aprel 1832-ci il tarixdə icra olmuş qəbaləyə əsasən İsay Sultana satıb. Əgər Səkinə xanımın həmin malikanədə payı olmasaydı onda o öz iddiasını təqdim edərdi, belə ki, həmin vaxtda o Naxçıvan şəhərində idi, xaricə isə 1836-cı ildə gedib.

Şikayətçilər bildiriblər ki, məsçidin yanındakı karvansaray Ağa Məmməd bəyə məxsus olub, ondan isə qızı Səkinə xanıma miras qalıb. İsa Sultan səhv bildirib ki, guya həmin karvan-

sarayı o Nəzərəli xandan alıb Karvansarayın Ağa Məmməd bəyə məxsus olduğunu və onun tərəfindən heç kimə satılmadığını Naxçıvan sakinləri bildiriblər və təsdiqləyə bilərlər. İsay Sultan izahatında bildirdiyinə görə Mehralı bəyn alıdığı evə gəldikdə şikayətçilər bildiriblər ki, sorğu zamanı izahat verəcəklər. Dördüncü şikayətçilər bildiriblər ki, İsay Sultan 4 xəlvərlik Qafanlı, 2 xəlvərlik Quyular, 3 xəlvərlik Kotanabad adlanan əraziləri və Orta Anzur kəndindən 2 danqanı (iri torpaq sahələri «danq» hesabı ilə saylırdı) qanunsuz olaraq mənimsəyib, hansılar ki, İmaməli bəyin arvadı Ümbulbəni xanımdan və Bala Sultanın arvadı Leyli xanımdan qalıblar. İsay Sultan bildirib ki, o heç vaxt İmaməli bəyin arvadı Ümbülbəni xanımdan malikanə almayıb. Bala Sultanın özü isə 2 il əvvəl 25 may 1838-ci ildə Şəriət vasitəsi ilə onun oğlu Məmməd Tağı Sultana aşağıdakı malikanələri girov qoyub: Kotanlı adlanan bağın 3 hissəsindən 2 hissəsi-3 1/2 xəlvərlik, Qaraqanlıq adlanan sahənin 3 hissəsində 2 hissəsi 10 xəlvərlik. Bala Sultan və arvadı Leyli xanım bir ilə yaxındır ki, xaricə qaçıblar. Kotanavar adlanan torpağın 3 hissəsini və Orta Anzur kəndinin 2 danqasını o, İsay Sultan həqiqətən alıb. O hesab edir ki, həmin malikanələrin sənədləri Məmməd Tağı Sultandadır. Quyular onun Naxçıvan şəhərində bir çox malikanələri və dükanları var, hansıları ki, o həm İran hökuməti dövründə, həm də indiki hökumətin dövründə alıb. O xahiş edir ki, hansı malikanələrin mənimsənilməsindən söhbət getdiyini şikayətçilər aydınlaşdırsınlar ki, o sübut təqdim edə bilsin. O bildirib ki, Bala Sultan və arvadı Leyli xanım bir ildir ki, xaricə qaçıblar. Əgər onların mübahisəsi olsaydı, onda təqdim edə bilərdilər, Naxçıvan şəhərindəki şumluq torpaqlar onun oğlu Məmməd Tağı Sultana girov qoyublar və ona görə də bu barədə onun özündən soruşmaq lazımdır. Kotanavar torpağı Kotanabadla eynidir, bu torpağı o alıb və bu barədə əlində sənədi var. Orta Anzur Naxçıvan əyalətinin Əlincəçay mahalında yerləşən kəndir. Həm bu kənd, həm də Kotanavar, Kalafalar və Quyular Qırağı əraziləri ona, İsay Sultana məxsusdur. Sübut üçün o, şahidlər gətirə bilər. Bununla yanaşı o, baxılması üçün dükanlara və digər malikanələrə aid 21 sənəd təqdim edib. Cavab olaraq

şikayətçilər 4 malikanə barədə bildiriblər ki, İsay Sultan və bu malikanələr barədə ətraflı və aydın izahat verməyib, ancaq oğluna istinad edib. Onlar xahiş ediblər ki, İsay Sultanın ölümü ilə əlaqədar Məmməd Tağı Sultandan bu malikanələr barəsində ətraflı izahat alınsın ki, onlar da sübut təqdim edə bilsinlər. Əks halda aydın olacaq ki, bu malikanələr xaricə qaçanlara məxsusdurlar və xəzinəyə keçməlidirlər. Onlar bildiriblər ki, onlar Quyular Qırağı barədə onlar şikayətlərində heç nə bildirməyiblər, təkcə Orta Anzur kəndinin 2 danqası və Kotanabad yerinin bir hissəsi barədə şikayəti bildiriblər. Həmin malikanələr Axund Babanın və Şərabanı xanımın qızları Ümbülbəni xanıma və Leyli xanıma məxsus olub. İsay Sultan özü etiraf edib ki, həmin malikanələri o yox, oğlu Məmməd Tağı Sultan alıb, malikanələrin qəbaləsi isə aşkar edilməyib. Kalafalar yeri xaricə qaçmış Ümbülbəni xanıma və Leyli xanıma atalarından və analarında miras qalıb. Bu malikanə də xəzinəyə keçməlidir. İsay Sultan isə onu qanunsuz mənimsəyib. Müstəntiq Kazaçenkonun sorğusuna cavab olaraq Naxçıvan Polis İdarəsi 12 iyun 1838-ci il tarixli 309 №-li məktubla bildirib ki, şəhər kənarında yerləşən malikanənin 2 hissəsi İsay Sultana məxsusdır və o, oranı Axund Baba Naxçıvanskidən alıb. Həmin torpağın qalan hissəsi isə 1837-ci ildə xaricə qaçmış Bala Sultan Kəngərlidən qalıb. Daha sonra işi qəbul etmiş müstəntiq Petlyura malikanələr barədə məlumat istəyib. Lakin şikayətçilər bu məlumatları təqdim etməyiblər. İsay Sultanın oğlu kapitan Zeynal Abdin Soltan izahatı ilə birlikdə malikanələrinə dair Naxçıvan Əyalət Məhkəməsində tərtib olunmuş 9 sənədi təqdim edib. O bildirib ki, malikanələrin onlara məxsus olduğunu təsdiqləyə biləcək şahidlər haqqında ona heç nə məlum deyil və əgər o həqiqi sənədlər təqdim edibsə, onda şahidlərə də ehtiyac yoxdur.

Beşinci şikayətçilər yazırlar ki, Naxçıvan əyalərinin bütün sakinləri həm İsay Sultan, həm də oğlu Zeynalabdin Sultandan narazıdılar. İsay Sultan öz izahatında xahiş edib ki, bütün bunların doğru olmadığını sübut etmək üçün Naxçıvan sakinlərinin sorğusu keçirilsin. Lakin İsay Sultanın ölümü ilə əlaqədar olaraq bu məsələ yoxlanılmamış qaldı.

İstintaqdan aydın olur: mərhum İsay Sultan və oğlu Zeynalabdin Sultanın xəzinə malikanələrini mənimsənilməsi haqda kapitan Eynalı Sultan Məmməd Qasım bəy, Məmməd Tağı Sultan və Cəfərqulu bəyin şikayətnaməsi əsassız hesab edilsin. Belə ki, İsay və onun oğlu özlərinə məxsus olan malikanələrdən qanuni qəbalələr və sənədlər əsasında istifadə edirlər. Şikayətçilər həmin sənədlərin həqiqiliyinə şübhə ilə yanaşsalar da bunu sübut edə bilməmişdilər. Mülkü qanunların 10 cildinin 306, 316, 1743 və 1767-ci maddələri və Ermənistan Vilayət İdarəsinin rəisi polkovnik və kavaler Sumbatovun 20 iyul tarixli 7896 №-li təliqəsinə əsasən təqdim olunmuş sənədlərə baxılması məhkəməyə aiddir. Buna görə də, mənim fikrimcə, heç bir nəticə vermədiyi üçün istintaq bağlanılsın və nəticəsi Ermənistan vilayətinin rəisinə təqdim olunsun. Bunun üçün bu akt tərtib olunub. Naxçıvan şəhəri. 1840-cı il» (26).

Bu isə Naxçıvan qəzasının Qazançı kənd sakinləri tərəfindən 7 fevral 1844-cü il tarixdə Naxçıvan Dövlət Əmlak Komitəsi vasitəsi ilə Naxçıvan qəza Polis İdarəsinin rəisi Fafanova göndərilən məktubdur. Həmin məktubda yazılır: «Naxçıvan əyalət qəyyumçusu Naxçıvan Dövlət Əmlak Palatasına 10 yanvar 1944-cü il tarixli raportunda məlumat vermişdir ki, Qazançı kəndinin sakinləri şikayət edərək bildirirlər ki, Paşa bəy xaricə qaçdıqdan sonra Əhməd ağa kəndlilərin istifadə etdiyi Yuxarı Milax adlanan torpaqlarından mülkədar vergisi tələb edir. Əhməd ağanın həmin torpaq sahəsindən 3 il ərzində istifadə etməsini nəzərə alaraq və Qazançı kəndinin sakinlərinin göstərdikləri kimi kənd sakinləri tərəfindən həmin torpaq sahəsinin istifadə edilməyə başlandığı gündən keçən 10 həftə ərzində şikayət etmədiyini nəzərə alaraq bu barədə Naxçıvan sahə müvəkkilinə (polisinə-F. C.) həmin məsələ ilə əlaqədar lazımi tədbir görməsi üçün məlumat verilmişdir.

Bununla əlaqədar olaraq Dövlət Əmlak Palatası yüksək cənabınızdan xahiş edir ki, əyalət qəyyumçusunun məlumatı ilə əlaqədar olraq ədalətli surətdə Qazançı kəndi kəndlilərinin mülkədar tərəfindən sıxışdırılmasının qarşısın alsın» (27).

Şikayət məktubu ilə əlaqədar Daxili İşlər Nazirliyinin Naxçıvan qəza polis rəisi mayor S. Fafanov 16 avqust 1844-cü il tarixdə Naxçıvan qəza Dövlət Əmlak Palatasına göndərdiyi raportunda yazırdı: «Sizin Qazançı kənd sakinlərinin Əhməd ağa tərəfindən sıxışdırılmasının qaşısının alınmasına dair cari ilin 7 fevral 683 saylı məktubunuz mənim tərəfimdən Naxçıvan sahə müvəkkilinə göndərilmişdir.

Lakin həmin tapşırığın yerinə yetirilməsi barədə məlumat almadığımdan Dövlət Əmlak Palatasının göstərişinə əsasən sahə müvəkkilinə ciddi surətdə tapşırıq vermişəm ki, bu göstəriş tezliklə yerinə yetirilsin. Ondan məlumat alan kimi mən həmin məsələ barədə yubatmadan Dövlət Əmlak Palatasına məlumat verəcəyəm.

Mayor Fafanov» (28).

Nəhayət, 4 sentyabr 1844-cü il tarixdə mayor Fafanovun Naxçıvan qəza Dövlət Əmlak Palatasına göndərdiyi raportunda əmlak palatasının göstərişi icra olunmuş və Əhməd ağanın vergi tələbi ləğv edilmişdir.

Bu illərdə müxtəlif vergilərin alınması ilə əlaqədar Naxçıvan qəzasının müxtəlif kəndlərindən və Naxçıvan şəhərindən Naxçıvan qəza Daxili İşlər Nazirliyinin Polis İdarəsinə göndərilən şikayət ərizələri ilə bağlı 10 yanvar 1845-ci il tarixdə qəza Polis İdarəsi Naxçıvan Dövlət Əmlak Palatasına sorğu kimi göndərdiyi raportdur. Həmin raportda yazılır: «Mənim rəhbərliyim altında olan mülkədar kəndlərinin sakinləri yazılı və şifahi surətdə şikayət edərək bildirirlər ki, mülkədarlar torpağın bir hissəsini şumlayırlar. Bununla əlaqədar olaraq kənd sakinləri ilə bərabər torpaqdan istifadə üçün dövlət xəzinəsinə müəyyən olunmuş miqdarda pul ödəməlidirlər. Lakin bu tələb irəli sürülərkən onlar deyirlər ki, biz Kəngərlilər nəslindən olduğumuza görə Əlahəzrətin göstərişi ilə bütün vergilərdən azad olmuşuq və buna görə də dövlət xəzinəsinə torpaqdan istifadə başqa işlər üçün pul ödəməyə borclu deyilik.

Belə bir məsələ Dövlət Əmlak Palatasına müraciət etməyə vadar edir ki, öyrənim göstərilən kəndlərdə mülkədarlar həmin torpaqlarda əkdikləri əkinlər üçün pul ödəməlidirlərmi və yaxud Kəngərli tayfasından olduqlarına görə vergi ödəməkdən azaddılarmı?» (29).

XIX əsrin 50-ci illərində dairə polis şöbələrindəki arxiv sənədlərindən, yəni istintaq işlərindən aydın olur ki, bu işlərin çox hissəsi mülk və əmlakla bağlı işlərdir.

Həmin işlərdən biri və ən maraqlısı Nəcəfqulu ağa Nəzərəli xan oğlu Naxçıvanskinin ölümündən sonra qalmış daşınan və daşınmaz mülk və əmlakları haqda varislərinin, həmçinin atası Nəzərəli xan Naxçıvanskinin bacısı Nazlıbəyimin və başqalarının şikayət və xahişnamələri ilə bağlı açılmış işdir. 1847-ci ilin iyun ayında vəfat edən Nəcəfqulu ağa Naxçıvanskinin arvadı Mələk xanım tərəfindən 22 mart 1850-ci il tarixdə Naxçıvan şəhər polis idarəsinə göndərdiyi izahatında yazırdı: «Naxçıvan Polis İdarəsinin sorğusuna cavab olaraq bildirmək istəyirəm ki, Nəcəfqulu ağaya məxsus olan və Nəzərəli xan tərəfindən gizlədilmiş daşınan və daşınmaz əmlaklar bunlardır: Əliabad kəndindən 6 danq (İri torpaq sahələri «danq» hesabı ilə sayılırdı-F.C.), Tumbul kəndindən 6 danq, Yamxana kəndindən 6 danq, Xanağa kəndindən 6 danq, Vayxır kəndindən 6 danq, Züvala kəndindən 6 danq, Zeynəddin kəndindən 3 danq, Cəfər-Abad Bağı Saray adlanan həyətli ev, 32 dükan. Bütün bu malikanələri Nəcəfqulu ağanın anası Fatma xanım 1838-ci və ya 1839-cu ildə keçmiş Naxçıvan qəza məhkəməsində təsdiqlənmiş sənədə əsasən oğlu Nəcəfqulu ağaya bağışlayıb və həmin sənəd hal-hazırda Nəzərəli xandan tələb edilsin ki, dediklərimin düzgünlüyü təsdiqlənsin. Əgər Nəzərəli xan sənədi təqdim etməkdən imtina etsə, onda sənədin surətini məhkəmə işləri arxivlərdən çıxarmaq olar. Daha sonra isə yetimin əmlakından nəyə əsasən istifadə etdiyi ondan gəlir götürdüyü və satdığı barədə Nəzərəli xan və ya Sarabəyim mənim dediklərimin yalan olduğunu bildirsələr mən onlarla üzləşərək sübut edə bilərəm ki, onlar mərhuma aid qızıl və gümüş əşyaların bir çoxunu Naxçıvan sakini Hacı Abbasa girov qoyublar, bir çoxunu isə satıblar. Halbuki Nəcəfqulu ağanın özü 8 il əvvəl atası Nəzərəli xanı nalayiq davranışına görə özündən uzuqlaşdırmışdır. Sadalanan malikanələrin həqiqətən Nəzərəli xana məxsus olduğunu Naxçıvan sakinləri təsdiqləyə bilərlər. Möhürünü qoydu.

Tərcümə etdi (imza)» (30).

Nəcəfqulu ağının bacısı, Nəzərəli xanın qızı Nazlıbəyim xanım 2 aprel 1850-ci il tarixdə Naxçıvan şəhər polis idarəsinə verdiyi izahatında isə belə yazırdı: «Naxçıvan şəhər polisinin 14 mart tarixli 465 №-li sorğusuna cavab olaraq bildirmək istəyirəm ki, bundan əvvəl mən qardaşım Nəcəfqulu ağaya anası Fatma xanımdan qalmış əmlakın atam Nəzərəli xan tərəfindən gizlədildiyinə dair İrəvan quberniya məhkəməsinə şikayət təqdim etmişdir, lakin Nəcəfqulu ağanın qızı Bulqeyisbəyim könüllü olaraq bu qəyyumların razlığı ilə oğlum Heydər xan İbrahim xan oğluna ərə gedib və Nəcəfqulu ağanın ölümündən sonra qalmış bütün daşınan və daşınmaz əmlakları atam Nəzərəli xan nəvəsi Bulqeysbəyimə verib. Bu əmlaklar aşağıdakılardır: Tumbul, Yamxana, Xanağa kəndlərinin hərəsindən 4 1/2 danq, Cəfər-Abad bağından 4 1/2 danq, Vayxır, Züvəla kəndlərindən 4 1/2 danq, Saray adlanan həyətli ev, Zeynəddin kəndindən 2 1/2 danq, bundan sonra mənim heç bir iradım yoxdur və xahiş edirəm bu iş dayandırılsın. Nəcəfqulu ağadan qalmış bütün əmlakların Bulqeysbəyimə verildiyini sübut etmək üçün Bulqeysbəyimin əri, mənim oğlumun xahişnaməsi təqdim olunur.

Tərcümə etdi (imza)» (31).

Naxçıvan I polis sahəsinin rəisi Tərxanov 14 avqust 1850-c il tarixdə Nəcəfqulu ağadan qalmış əmlakla bağlı Nəcəfqulu ağanın arvadı Sarabəyim xanıma sorğu göndərmişdir. Həmin sorğuda Tərxanov yaxırdı: «Mərhum əriniz Nəcəfqulu ağadan qalmış əmlaklara dair iş üçün mənə bəzi məlumatlar gərəkdir. Buna görə də Sizdən xahiş edirəm mənim tərəfimdən aparılan istintaqa əlavə edilməsi üçün suallarıma cavab olaraq tez bir zamanda qənaətbəxş cavablar göndərəsiniz. 1. Əriniz Nəcəfqulu ağa hansı tarixdə vəfat edib. Onun son dəqiqələrində yanında kənar şəxslərdən kimlər olub. Kağız üzərində və ya şifahi olaraq o, vəsiyyət edibmi və kimə vəsiyyət edib. Əgər bu bərədə əlinizdə sənəd varsa onda izahatınıza əlavə edin. 2.Hansı əsasla podpolkovnik Nəzərəli xan Nəcəfqulu ağanın ölümündən sonra onun əmlakını idarə edib. Əmlakları Bulqeysbəyimin qəyyumu olaraq Sizə təhvil verən zaman bütün əmlaklar yerində olubmu, yoxsa hansısa dağıdılıb. 3.Nəzərəli xan öz izahatında bildirir ki,Əliabad kəndi

kəbin haqqı kimi sizə verilib, həçinin 32 dükan və hamamın 2 danqı da Sizə məxsusdur. Əgər bu həqiqətən belədirsə, xahiş edirik izahatınıza əlavə olaraq kəbin aktını da təqdim edəsiniz və 32 dükan və hamamın 2 danqının Sizə kimdən miras qaldığını izah edəsiniz və buna dair əlinizdə olan sənədləri təqdim edəsiniz. 4. Nəcəfqulu ağanın ölümündən sonra Sizdən başqa neçə qanuni ərvadı qalıb, Bulqeyisbəyim bu arvadlardan hansından dünyaya gəlib. Bu arvadlara Nəzərəli xan tərəfindən həqiqətən kəbin pulu ödənilibmi, Bulqeysbəyim Nəzərəli xan tərəfindən necə saxlanılır. Həqiqətənmi Nəcəfqulu ağa ölərkən 2 nəfərin öz hesabına Məkkəyə göndərilməsini vəsiyyət edib. Bu məqsədlə həmin şəxslərə Nəzərəli xan tərəfindən nə qədər ödənilib.

Əslini imzaladı sahə rəisi Tərxanov» (32).

Naxçıvan I polis sahəsinin rəisi Tərxanovun sorğusuna cavab olaraq podpolkovnik Şeyxəli xanın qızı Sarabəyim 25 oktyabr 1850-ci il tarixdə Tərxanova və İrəvan quberniya məhkəməsinin iclasçısına göndərdiyi izahatında yazırdı: «Sizin 14 avqust tarixli 1208 №-li sorğunuza cavab olaraq bildirmək istəyirəm ki, 1. Mənim ərim podporuçik Nəcəfqulu ağa 1847-ci ilin iyun ayında vəfat edib, onun son dəqiqələrində yanında atası podpolkovnik Nəzərəli xan, Molla Ələkbər Molla Həsən oğlu və Naxçıvan sakinləri Baba bəy Məşədi Zaman oğlu, İsmayıl bəy Murad Əli bəy oğlu, Qəhrəman bəy Hacı Rəcəb Əli oğlu və Baba bəy Ağa Hüseyn oğlu olublar. Bu şəxslərin yanında o, şifahi vəsiyyətini edərək malikanələrini və qızı Bulqeysbəyimi atası Nəzərəli xana təpşırıb. 2. Podpolkovnik Nəzərəli xan oğlu, podporuçik Nəcəfqulu ağanın ölümündən sonra ondan qalmış əmlakları idarə etməyə başlayıb, çünki o yetimin doğma babası olduğundan onun saxlanılmasında və malikanələrin idarə edilməsində oğlu Nəcəfqulu ağanın sağ ikən sahib olduğu hüquqlara malikdir, buna görə də mən bu haqda rəhbərliyin nəzərinə çatdırmağı vacib bilmədim və həmçinin bilmirdim ki, bizim düşmənlərimizin şikayəti üzrə Nəcəfqulu ağadan qalmış malikanələr barəsində hesabat verəcəyik. Nəzərəli xan Bulqeysbəyimin qanuni qəyyumları olaraq malikanələri bizə təhvil verənədək onları 3 il idarə edib. Malikanələri biz saz vəziyyətdə təhvil almışıq, heç nə gizlədil-

məyib, heç nə dağıdılmayıb və heç nə satılmayıb, təkcə Badamlı kəndini Nəzərəli xan 2000 manata general-mayor Ehsan xanın oğullarına satıb, bu puldan da Şəriətə görə ona çatacaq 500 manatı özünə götürüb, qalan 1500 manatı da Nəcəfqulu ağanın dəfninə xərcləyib. 3. Əliabad kəndini Nəcəfqulu ağa mənə kəbin haqqı olaraq verib, bu da kəbin kağızında göstərilib, həmin kəbin kağızını təqdim edərək xahiş edirəm sonra mənə geri qaytarılsın, eləcə də Naxçıvan bazarında yerləşən 32 dükan və hamamın 2 danqı mənə məxsusdur və mən Nəcəfqulu ağa hələ sağ ikən onlardan istifadə etmişəm. Dediklərimi adları aşağıda sadaladığım Naxçıvan sakinləri təsdiqləyə bilərlər: hamam barəsində Məmiş bəy Qurbanəli bəy oğlu, Nəzər Baba bəy oğlu, Hümbətəli Məşədi Lütvəli oğlu, Kərbəlayi İsmayıl Muradəli oğlu, Baba bəy Məşədi Zaman oğlu, Ələsgər Əli oğlu, Qəhrəman Zeynal oğlu, dükanlar barəsində: İbrahim xan Şeyxəli xan oğlu, Lütvəli və Yusifəli bəy oğlu, İsa xan Şeyxəli xan oğlu, Məsum Məşədi Allahverdi oğlu, Qurbanəli Hacı Abutalıb oğlu, Məmməd Baba oğlu, Kərbəlayi Əliqulu bəy Novruzəli bəy oğlu, Məmməd Hüseyn Hacı Abutalıb oğlu, Baba bəy Məşədi Zaman oğlu, Ağa Hüseyn Həsən oğlu, Məmmədqulu Məşədi Əliməməd oğlu, Ağayar İsmayıl oğlu. Dükanlar və hamam da mənə sənəd əsasında Nəcəfqulu ağa tərəfindən verildiyinə baxmayaraq həmin sənəd itmişdir. 4. Neəcəfqulu ağanın ölümündən sonra məndən başqa daha 3 arvadı qalıb: Nehrəm sakini Tutu, Naxçıvan sakinləri Telli və Şərəf. Nəcəfqulu ağanın həmin arvadlardan övladları olmayıb. Bulqeyisbəyim isə xidmətçi Mələkdən dünyaya gəlib, hansını ki, Nəcəfqulu ağa 8 il əvvəl evdən qovub. Nəcəfqulu ağanın atası Nəzərəli xan hər üç arvadın kəbin pulunu və şəriətlə payına düşən hissəsini ödəyib: Məşədi İbrahimin qızı Telliyə 86 manat, Tutuya 70 manat, Şərəfə 86 manat, Nəzərəli xan Bulqeyisbəyimi lazımi qaydada və arvadına uyğun şəkildə saxlayıb, bu müddət ərzində Nəzərəli xan tərəfindən Bulqeysbəyimə nə qədər pul xərclədiyi mənə məlum deyil. Bilirəm ki, Nəcəfqulu ağanın vəsiyyəti üzrə onun atası Nəzərəli xan malikanələrindən əldə edilən gəlirlər hesabına Naxçıvan şəhər sakinləri Molla Əli Qulunu və Hacı Seyid Musanı Məkkəyə

göndərib və bu məqsədlə onların hərəsinə 25 manat ödəyib. Adlı möhürünü qoydu Sara Bəyim » (33).

Bir neçə il çəkən bu mübahisəyə bir neçə dəfə İrəvan Quberniya Məhkəməsində baxılmasına baxmayaraq, 12 yanvar 1854-cü il tarixdə bu işə quberniya məhkəməsi bir daha baxmışdır və belə bir qərar çıxarmışdır: «Naxçıvan sakinləri polkovnik Nəzərəli xan və poruçik Nəcəfqulu ağanın qızı Bulqeyisbəyim öz xahişnamələrində bildiriblər: Onlardan ikincisi, Bulqeysbəyim Nəzərəli xandan atasından ona qalmış əmlakı tələb edir. Bu barədə quberniya məhkəməsində iş açılıb lakin bu mübaisəni onlar sülh yolu ilə aşağıdakı şərtlərlə həll ediblər: Xanağa kəndindən 6 danq, Zeynəddin kəndindən 3 axça, Züvəla kəndindən 6 danq şumluq sahələri və otlaq sahələri ilə birlikdə Nəzərəli xanın istifadəsinə keçir, Yamxana kəndindən 6 danq, Tumbul kəndində 6 danq, Vayxır kəndindən 6 danq, Cəfər-Abad üzüm bağı, Saray adlanan ev Bulqeyisbəyimə keçir. Bundan sonra tərəflər öz iddialarını geri çəkməlidirlər. Bulqeyisbəyim də Nəzərəli xan tərəfindən satılaraq Nəcəfqulu ağanın borclarının ödənilməsinə sərf edilmiş Badamlı kəndinə iddiasını geri götürməlidir. Həmçinin, Sara bəyimin vəfatından sonra onun əri İrzaqulu xana keçmiş 32 dükan, 2 danqa hamam, ev əşyaları və Əliabad kəndinin 6 danqı barədə də Bulqeyisbəyim irəli sürməməlidir, belə ki, həmin ev əşyalarını da Bulqeyisbəyim İrzaqulu xanın istifadəsinə verir. Bundan sonra bu işin yekunlaşdırılmasını xahiş ediblər. Lakin quberniya məhkəməsi Mülkü qunların X cilid, 3183 maddəsinə əsasən 12 dekabr 1853-cü il tarixli 2741 əmri ilə Naxçıvan qəza rəisinə tapşırıb ki, izahatları alınması üçün Nəzərəli xan, Bulqeyisbəyim və onun qəyyumu Heydərqulu xan məhkəməyə gələrək öz xahişnamələrini təsdiqləyiblər. Arayışdan aydın oldu: 1. Bulqeyisbəyim 18 yaşındadır, məhkəmədə qəyyumluqdadır, öz xahişi ilə qəyyumu Heydər xan təyin edilib. Bulqeyisbəyin Nəzərəli xandan atasından qalmış əmlakı barədə iddiası üzrə quberniya məhkəməsində iş açılıb. Bu iş üzrə quberniya məhkəməsi 16 mart 1853-cü il tarixli əmri ilə Naxçıvan qəza rəisinə tapşırıb ki, bu iş barədə istintaq başlanılsın. Lakin istintaqın nəticələri Naxçıvan qəza rəisi tərəfindən hələ təqdim edilməyib.2. Bu işə

sərf olunmuş 25 vərəq üçün xəzinəyə 7 manat 80 qəpik ödənilməlidir. 3. Bulqeyisbəyim xahişnaməsi ilə birlikdə 3 manat 3 qəpik təqdim edib. Qərara alınır: Aşağıdakı sərəncamlar verilsin: Nəzərəli xanın, Bulqeyisbəyimin və qəyyumu Heydər xanın xahişnamələrini nəzərə alaraq Bulqeyisbəyimin Nəzərəli xandan əmlak iddiası üzrə açılmış iş bağlanılsın. Naxçıvan qəza rəisi vasiəsi ilə bu barədə podpolkovnik Nəzərəli xana, Bulqeyisbəyimə və qəyyumu Heydərqulu xana elan olunsun. 25 vərəq kağız üçün Bulqeyisbəyimdən və Nəzərəli xandan 7 manat 80 qəpik tutulsun. Naxçıvan xəzinədarlığına göndərilsin» (34).

1843-1848-ci illərdə təkcə Şərur qəzasında ölüm və qarətlə bağlı cinayət hadisələri aşağıdakı cədvəldəki kimi olmuşdur:

Cinayətin adları.	İllər.					
	1843	1844	1845	1846	1847	1848
1. Ölüm.	2	1	--	1	2	3
2. Qarət.	6	1	2	2	7	10
3. Məhbusda saxlanılanlar.	7	--	--	3	15	--

Qeyd: Cinayətlər bütün sahə üzrə bərabərliklə törədilmişdir. Sakinlər daha çox qarət və oğurluğa meyillidirlər (35).

Qeyd edək ki, Naxçıvan Vilayəti Rusiyanın tərkibinə daxil edildikdən sonra Kəngərlilərin xüsusi fəallığını nəzərə alan general-adyutant hərbi nazir, knyaz A.İ.Çernışev və Əlahəzrət Aleksandr İvanoviç imperatora göndərdikləri məktubda xahiş etmişlər ki, Kəngərlilər dövlət xəzinəsinə verdikləri bütün vergi və mükəlləfiyyətdən azad edilsin. Araşdırılan sənədlərdən məlum olur ki, A.İ.Çernişevin təqdimatındakı xahişini nəzərə alan imperator Kəngərli tayfasını bütün vergi və mükəlləfiyyətdən azad edir. (36).

Sənədlərdən aydın olur ki, XIX əsrin 60-70-ci illərində Naxçıvan qəza Polis İdarəsinə Şərur qəzasının Keştaz, Muğancıq, Müslüm, Dərvişlər, Kürdkənd, Aralıq, Ordubad qəzasının Unus, Dırnıs, Kələki, Yuxarı Əylis və digər kənd sakinlərindən müxtəlif məsələlr üzrə şikayət ərizələri daxil olmuşdur.

1868-1869-cu illərdə Şərur qəzasının Keştaz kənd sakinləri Dərvişlər kəndinin mülkədarı Cəfər bəydən, Muğancıq-Müslüm

kəndinin sakinləri mülkədar Məmməd Rəsul bəy Məmməd Həsən bəy oğlundan, Kürt kənd sakinləri isə Hacı Abbas bəydən Dövlət Xəzinə torpaqlarının zəbt olunması və həmin torpaqları kəndlilərə verərək zorla vergi tələb etmələri barədə şikayət ərizələri yazmışlar (37).

Naxçıvan qəza Polis İdarəsinin sənədlərini araşdırdığımız zaman bu kimi şikayət ərizələri ilə yanaşı dövlət əhəmiyyətli və Naxçıvanın yeraltı sərvətlərinin mövcudluğu, həmçinin açılmış mədənlər haqda Naxçıvan qəza Polis İdarəsinin İrəvan quberniyası Dövlət Əmlak İdarəsinə və Ordubad qəza Polis İdarəsinin Naxçıvan qəza Polis İdarəsinə göndərdikləri raport, prtokol və məktublara da rast gəlirik.

Bu sənədlərdən biri 2 iyul 1869-cu il tarixdə Naxçıvan qəza Polis İdarəsinin rəisi S.Fafanovun İrəvan quberniyası Dövlət Əmlak İdarəsinə göndərdiyi raportdur. Həmin raportda yazılır: «Qəza rəisinin keçmiş kiçik köməkçisi Kollec Assesoru Malik Atamova Dövlət Əmlakı İdarəsi tərəfindən 29 oktyabr 1868-ci il tarixli 2104 saylı məktubu ilə tapşırıq verilmişdir ki, qvardiya polkovniki Kəlbalı xan tərəfindən Parağa kənd torpaqlarında dəmir-filiz yataqları aşkar edilməsi yoxlanılsın. Kollec Assesoru M. Atamov 237 №-li əmr əsasında Parağa kənd torpaqlarına getmişdir.

Yoxlama zamanı aşkar edilmişdir ki, qvardiya polkovniki Kəlbalı xanın aşkar etdiyi dəmir-filiz yataqları «Çuxur yurd» torpaqlarında yerləşir (Hacılar dağının ətrafı, Xanlar, Sərdəhun çeşməsi və Ayı dərəsi). Bu onu göstərir ki, «Çuxur yurd» Parağa kəndindən 9 verst aralıdır. Kəndlilər həmişə bu dağa yaylağa çıxırlar. Onlar torpaqdan dövlət torpağı kimi istifadə ediblər və Kəlbalı xana vergi verməyiblər.

Qonşu kəndlərin sakinləri də qeyd edirlər ki, yuxarıda adları çəkilən torpaq sahələri dövlətə məxsusdur və onlar bilmirlər ki, bu torpaqların Kəlbalı xana nə dərəcədə aidiyyatı var... Bu haqda qəza Polis İdarəsi Dövlət Əmlak İdarəsinə hələ 29 sentyabr 1868-ci il tarixli məktubda məlumat vermişəm.

Qəza polis rəisi: (imza)» (38).

Arxiv sənədlərində Naxçıvanın yeraltı sərvətləri və açılan mədənlər barədə qəza kənd sakinlərinin şikayətləri əsasında Nax-

çıvan qəza polis rəisi işləmiş S.Fafanov, N.K.Kurvin və Ordubad qəza Polis rəisi İvanovun XIX əsrin 50-80-ci illərində Qafqaz Dağ-mədən İdarəsinə, İərvan quberniyası Dövlət Əmlak İdarəsinə göndərdikləri sorğu, raport və məktublara müxtəlif protokol və aktlara rast gəlirik.

Bu sənədlərdən bir neçəsi Ordubad polis pristavı podporuçik İvanovun Ordubad qəzasının Unus kənd sakinlərinin şikayət ərizələri ilə bağlı tərtib etdiyi prtokollar və raportlardır. 30 iyun və 27 oktyabr 1871-ci il tarixli Ordubad polis rəisi podporuçik Q.İvanov Unus kəndinə gələrək Unus kəndinə yaxın olan Danaqırt, Kələki və Dırnıs kəndlərinin bir çox sakinlərinin: Dırnıslı İbrahim Baba oğlunun, Həsən Məmməd oğlunun, Zeynalabdin Kərbəlayi Şirməmməd oğlunun, Yusif Bədəl oğlunun və Mustafa Xudaverdi oğlunun, Danaqırtdan Naxçıvana köçürülmüş ermənilərdən olan Eqiya Ter-Nikosovun, Ovanes Ambarsumovun və Avası Aryutunovun, Kələki-Saitur Minasovun, Petros Şirazovun və başqalarının iştirakı ilə tərtib etdiyi prtokollarda Kollec AssesoruTer-Mkrtçyanın və Muqdusi Ovanes Sanatovun Unus kəndi yaxınlığında olan «Fiyal», «Şəkər dərəsi» və «Çalar postu» adlanan yerdə mis filizi yatağı ilə bağlı apardığı kəşfiyyat işləri ilə əlaqədar məlumat toplamışdır. Həmin ərazilərin dövlət xəzinəsinə və yaxud Unus kənd sakinlərinə məxsus olduğu barədə sorğu protokolunda Q. İvanov göstərir ki, danaqırtlılar bu yerlərin kimə məxsus olduğunu bilmirlər. Dırnıslılar bu torpaqların unuslulara məxsus olduğunu qeyd etdilər. Kələkililər isə bu torpaqların unuslular deyil, kələkililərə məxsus olduğunu bildirirlər. Lakin nə unuslular və nə də kələkililər bu torpaqların onlara məxsus olmaları haqqında heç bir sənəd təqdim edə bilmədilər.

Ordubad polis rəisi İvanov tərtib etdiyi protokolun axırında qeyd edirdi ki, Unus kənd sakinlərinin dediyinə görə onlar 8-9 ildən artıqdır ki, bu torpaqlardan əkin və otlaq sahəsi kimi istifadə etmək məqsədi ilə bu əraziləri Yuxarı Əylis sakini Arakel Kələntərovdan almışlar.

Protokolun qərar hissəsində yazılır: «Yuxarı Əylis kənd sakini Arakel Kələntərovdan soruşmalı ki, həqiqətən bu əraziləri unuslulara satıb və buna haqqı var ya yox?

2. İrəvan quberniyası Dövlət Əmlak İdarəsindən öyrənmək lazımdır ki, bu ərazilər azad xəzinə torpağında yerləşir? (39)».

Orubad mahalının Unus kənd sakinlərinin Daxili İşlər Nazirliyinin Naxçıvan qəza Polis İdarəsinə yazdıqları şikayət ərizələri ilə bağlı Ordubad mahal Polis İdarəsinin rəisi İvanovun tərtib etdiyi sorğu prtokoluna əsasən Naxçıvan qəza polis rəisi İrəvan quberniyası Dövlət Əmlak İdarəsinə 20 avqust 1871-ci il tarixdə göndərdiyi raportunda yazırdı: «Ordubad mahalının Unus kənd sakinlərinin qəza Polis İdarəsinə göndərdikləri ərizədə izah olunur ki, onların şəxsi torpaqlarında Əylis kənd sakini Saratanov tərəfindən mis zavodu açılıb. Onlar bunun üçün rəhbərliyin qanuni icazəsini istəyiblər».

Bu işlə əlaqədar Ordubad qəza polis rəisi İvanov tərəfindən aparılan sorğu prtokollarından aydın olur ki, Qafqaz və Zaqafqaziya Dağ-mədən İdarəsi tərəfindən Saratanova və Xristofor Ter-Mkrtçyana Unus kəndi yaxınlığında yerli filiz yatağını təyin etmək məqsədi ilə verilən şəhadətnamə surətində göstərilir ki, onlara Unus kəndi yaxınlığında olan «Fiyal», «Şəkər dərəsi» və «Çalar post» adlanan yerlərdə kəşfiyyat işləri aparmağa icazə verilir. Əgər bu ərazilər azad yerlərdədisə».

Lakin Unus kənd sakinləri bu yerləri, yeni filiz mənbəyi olan yeri özlərinin şəxsi mülkü adlandırırlar. Onun üçün Sizdən öyrənmək istəyirik ki, Ter-Mkrtçyan və O. Saratanov tərəfindən mis mədəni üçün açılan yer xəzinəyə məxsusdur yoxsa unuslulara?» (34).

Polis İdarəsinin Unus kənd sakinlərinin şikayəti ilə bağlı apardığı sorğu yazışmaları uzun müddət davam etsə də nəticəsi haqda başqa bir sənədə rast gəlmədik; hər halda dədə-babalardan gələn məlumatlara istinad edən unusluların ciddi səyləri bu torpaqların onlanra məxsus olması barədə şübhə yeri qoymur.

Sənədləri vərəqlədikcə çox təəssüflənirik ki, rus imperiyası ermənilərı ərazimizdə, torpaqlarımızda yerləşdirdikləri bəs deyilmiş, üstəlik onlar üçün ata-babalarımızdan miras qalan torpaqlarımızı özümüzə satmağa şərait yaradırdılar. Bunlar bir yana, XIX əsrin ortalarından başlayaraq XX əsrin əvvəllərinə kimi Naxçıvan qəzasının yeraltı sərvətlərinə olan maraq rusların, ermənilərin, həmçinin gürcülərin bu yerlərdə axınını artırmışdı.

Naxçıvan qəza Polis İdarəsinin araşdırılan sənədləri sırasında bir çox quldur-qaçaq cinayəti ilə bağlı sənədlərə də rast gəlirik. Bu sənədlərdən birində 28 avqust 1876-cı ildə İran tərəfindən Araz çayını keçən 8 nəfər silahlanmış kürdün Naxçıvandan ulaxla duz aparan Həsənxan Kərbəlayi Niftalı oğlunu, Həmzə Baba oğlunu, Məmməd Şərif Hüseynqulu oğlunu, Sultanbəy kəndi yaxınlığında yaxalayaraq çubuqla döydükləri, ayaqlarını bağlayaraq mağaraya atdıqları və onların 9 ulağını, duzunu və başqa mallarını zor işlətməklə alıb aparmağından söhbət açılır.

Çətinliklə əl-ayaqlarını açan zərərçəkənlər mağaradan qaçaraq yaxınlıqda olan Kərməçataq kəndinə gedib oranın kənd sakini Haqverdi Məhəmməd Cahangir oğluna İrandan gələn kürd quldurları barədə məlumat vermişlər. O isə həmin hadisə barədə Buzqov polis məntəqəsinə məlumat çatdırmışdır.

Buzqov postunun nəzarətçsisi Lazım Həsən oğlu, Şirin Məmməd oğlu, Əliş Kazım oğlu, Abbas Kərbəlayi Zeynalabdin oğlu və Şirin Hacı Məmməd oğlundan ibarət 4 çaparla, hadisə yerinə gedərək cinayətkarları axtarmağa başladı. Bu zaman Göyərçin kəndində kürdlərin üçü polislərə atəş açaraq Araz çayına tərəf qaçmağa başladılar. Lazım Həsən oğlu cinayət törədən kürdlərə dayanmalarını və təslim olmalarını əmr edir. Onların tabe olmadığını görən polis starşinası Lazım Həsən oğlu öz çaparlarına atəş açmağı əmr edir. Atəş zamanı kürdlərdən biri ölür, biri yaralanır və biri isə təslim olur. 5 kürd isə irəlidə getdikləri üçün Araz çayını keçib qaçmışdır.

Tutulan cinayətkar Tazo Cahangir oğlu və yaralı Mirzə Qaso oğlunun verdikləri ifadələrdən aydın olur ki, İrana qaçan 5 kürdü bunlar arxadan mühafizə edirmişlər.

İrəvan Dairə Məhkəməsində bu cinayət işinə baxılaraq İran vətəndaşı Tazo Cahangir oğlunun və Mirzə Qaso oğlunun mülkü müsadirə edilməklə 5 il müddətinə azadlıqdan məhrum olunmaqla katorqa işlərinə sürgün edilməsinə hökm verilmişdir (35).

1882-ci ilin fevral ayında Naxçıvan şəhər Polis İdarəsinin rəisi işləyən Nikolay Kaxanovski Bakı-Gömrük Səhiyyə İdarəsinə dəftərxana işçisi vəzifəsinə dəyişdirildiyindən Naxçıvan qəza Polis İdarəsinin rəisi mayor Kurvinin təqdimatı ilə Kollec Assesoru Alek-

sandr Nikolayeviç Rozenmeyer 25 avqust 1882-ci il tarixli 42 №-li əmrə əsasən Naxçıvan şəhər Polis İdarəsinə rəis təyin edilir (36).

A. N. Rozenmeyer hələ 24 fevral 1882-ci il tarixdə Naxçıvan qəza Polis İdarəsinin rəisi mayor Kurvinə yazdığı ərizəsində göstərilirdi ki, «Polis kimi xidmətimi davam etdirmək üçün Siz Əlahəzrət cənablarına acizanə tərzdə xahiş edirəm məni Naxçıvan şəhər Polis İdarəsinin rəisi vəzifəsinə himayəçilik edəsiniz» (37).

Qəza polis rəisi mayor Kurvin 3 iyul 1882-ci il tarixdə Tiflis quberniya idarəsinə göndərdiyi raportunda A. N. Rozenmeyeri şəxsən tanıdığını, savadlı və işgüzarliğına inanaraq onun həmin vəzifəyə tam uyğun olduğunu bildirmişdir (38).

XIX əsrin ortalarından XX əsrin 20-ci illərinə kimi Naxçıvan, Şərur və Ordubad qəzalarında, həmçinin Naxçıvan şəhər Polis İdarəsində qeyri-millətlərlə yanaşı varlı və ziyalı təbəqələrdən olan onlarla Naxçıvanlı Sərvər xan Abbasqulu xan oğlu Naxçıvanski, Nəzərəli xan Abbasqulu xan oğlu Naxçıvanski, Məmməd bəy Əli bəy oğlu Vəzirov, Bəhrəm xan Aman xan oğlu Naxçıvanski, Əkbər xan Naxçıvanski, Yunis xan Bəhrəm xan oğlu Naxçıvanski, Bəhlul ağa Əli ağa oğlu Kəngərli, İbrahim ağa Kəngərli, Fərəc bəy Nəsir ağa oğlu Kəngərli, Əyyub ağa Murad ağa oğlu Kəngərli, Şirəli bəy Murtuz ağa oğlu Kəngərli, Hacı Hüseyn Qulu bəy oğlu Kəngərli, Bəhlul bəy Məmmədvəli bəy oğlu Kəngərli, Bəhlul bəy Tərxan bəy oğlu Kəngərli, Abbasqulu bəy Kəngərli, Əbdüləzim bəy Kəngərli, Məmmədsadıq bəy Kəngərli, Məmməd bəy Cəfərqulu bəy oğlu Kəngərli, Cəlil Məmmədquluzadə, Mehdi bəy Zeyıialabdinbəyov, Cabbar ağa Vəzirov, Şirəli bəy Mehbalı oğlu Vəzirov, Mirzə Məmmədqulu Məşədi Novruz ağa oğlu Novruzov, Ağa Şahtaxtınski, Cahangir ağa Şahtaxtınski, Şamdan bəy Ş ahtaxtınski, İsmayıl bəy Bekdaşi, Mirzə Nəsir Bekdaşi, Məmməd bəy Rəsul bəy oğlu Ağalarov, Məmmədhüseyn Tahirov, Abbasqulu Tahirov, Mirzə Kazım bəy Qulubəyov, Çingiz xan Məmməd xan oğlu Naxçıvanski və başqaları müxtəlif vəzifələrdə çalışmışlar (39).

Araşdırdığımız sənədlərdən aydın olur ki, Naxçıvan qəza və şəhər polis orqanlarında qulluq etmiş şəxslərdən biri böyük hərbçi olmuş II Kəlbalı xan Ehsan xan oğlu Naxçıvanski də ol-

muşdur. II Kəlbalı xan 1824-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, 1838-ci ildə Peterburqdakı zadəgan balalarına məxsus paj kursunda bir müddət təhsil almış, bəzi mənbələrə görə xəstəliyi ilə, bəzi mənbələrə görə isə atasının vəfatı onun təhsilini yarımçıq qoymasına səbəb olmuşdur. Naxçıvana qayıdan Kəlbalı xan bir müddət sonra, yəni 1848-ci ildə Naxçıvan şəhər polisinin rəisi vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1849-cu ilin may ayının axırlarına kimi işləmidir.

Kəlbalı xan 21 may 1849-cu ildə hərbiyə praporşikliyə dəyişilir və könüllü olaraq Dağıstan yürüşündə iştirak edir. (40). Kəlbalı xana 13 yanvar 1853-cü ildə podporuçik rütbəsi verilmiş, yenidən hüquq mühafizə orqanına qayıdaraq Naxçıvan və Ordubad şəhər polisinin rəisi vəzifəsində işləmiş (41), sonra o, 25 oktyabr 1853-cü ildə Krım müharibəsinin əvvəlində yenidən təşkil edilmiş 300 nəfər polisin rəisi təyin olunmuşdur. 14 may 1854-cü ildə isə o Kəngərli əsilzadələrdən ibarət suvari alayı yaradır və ona rəislik edir (42).

Podporuçik rütbəsindən general-mayor rütbəsinə kimi qalxan Kəlbalı xan Naxçıvanski 1883-cü ilin aprel ayında Naxçıvan şəhərində vəfat edir. Polis orqanlarında xidmət edən Naxçıvan sakinlərindən biri də Nəzərəli xan (Böyük xan) Naxçıvanski idi.

Qoşa adı çəkilən bu şəxs Abbasqulu xanın oğlu, Nəzərəli xanın nəvəsi, Kalbalı xanın (I-ci) nəticəsi, əsil adı olan Nəzərəli xandır. Abbasqulu xan atası Nəzərəli xanın şərəfinə oğluna bu adı qoymuşdur.

Lakin uşaqlıqdan Nəzərəli xana həmyaşıdları, ailəsi və eləcə də bütün qohumları babası Nəzərəli xanın şərəfinə Böyük xan dediklərinə görə həmin dövrün bir çox sənədlərində Böyük xan yazılmış və mötərizədə o, Nəzərəli xandır, kimi göstərilmişdir.

Buna görə də yazımızda adını Böyük xan və yaxud Nəzərəli xan çəksək də eyni adam olduğunu sizə bildirmək istəyirik.

Nəzərəli xan (Böyük xan) Abbasqulu xan oğlu Naxçıvanski 2 aprel 1871-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

1908-ci ildə Nəzərəli xanın qəza rəisi tərəfindən təsdiq edilmiş formulyar siyahısında belə yazılır: "Naxçıvan şəhər xanlarındandır. Naxçıvan şəhərində evi var, həmçinin Xanağa, Nəzərabat və

Züvəla kəndlərinin mülkədar hüququnun 1/3 hissəsinə malikdir. Həyat yoldaşının Naxçıvan şəhərində evi, dükanları, həmçinin Tirkeş, Sələsüz, Didivar, Xaçaparax, Badaşqan və Qaraçuq kəndlərinin mülkədar hüququ var" (43).

Nəzərəli xan ev təhsili almağına baxmayaraq 26 may 1906-cı ildə Naxçıvan şəhər məktəbində imtahan verərək şəhadətnamə almışdır.

Nəzərəli xan hüquq orqanlarında işləmək arzusu ilə 23 sentyabr 1904-cü il tarixdə imperator Nikolay Aleksandroviçə belə bir xahişnamə göndərir: "Naxçıvan şəhər xanlarından olan Nəzərəli xan Abbasqulu xan oğlu Naxçıvanskidən ***Xahişnamə***

Siz həzrətlərinə xidmət etmək arzusu ilə doğum haqqında 2361 №-li şəhadətnaməni, mənşəm haqqında 3061 №-li vəsiqəni təqdim edərək, məni Naxçıvan qəza polis idarəsinə X sinif məmur vəzifəsinə təyin etmək üçün göstəriş vermənizi xahiş edirəm.

İmza: Nəzərəli xan Naxçıvanski" (44).

Naxçıvan qəza rəisi kapitan Enqel 30 sentyabr 1904-cü il tarixdə İrəvan quberniya idarəsinə göndərdiyi raportunda isə belə yazırdı: "Naxçıvan şəhər sakini, xan nəslindən olan Nəzərəli xan Abbasqulu xan oğlu Naxçıvanskinin mənə həvalə edilmiş polis idarəsində X sinif məmur vəzifəsinə təyin edilməsi haqqında xahişnaməsini Sizə təqdim edərək, Quberniya İdarəsinə bildirirəm ki, Naxçıvanskinin xahişinin yerinə yetirilməsinə mənim tərəfimdən etiraz yoxdur.

Qəza rəisi: kapitan Enqel" (45).

Təhsilli olduğuna görə Nəzərəli xan (Böyük xan) hələ 30 oktyabr 1904-cü ildə İrəvan qubernatorluğunun 130 №-li əmri ilə Naxçıvan qəza polis idarəsinə 3-cü dərəcəli dəftərxana xidmətçisi vəzifəsinə təyin olunmuş və ona X sinif (dərəcə) məmuru adı verilmişdir (46).

İrəvan vitse-qubernatorunun 29 may 1905-ci il tarixli 25 №-li əmri ilə Naxçıvan qəzasının 2-ci polis şöbəsinin pristavı təyin edilmiş və 19 sentyabr 1905-ci il tarixli 117 №-li əmrlə vəzifəsindən azad edilmişdir (47).

Azad edilməsi ilə əlaqədar Nəzərəli xan 16 noyabr 1906-cı il tarixdə Naxçıvan qəza rəisinə göndərdiyi raportunda yazırdı: "Xahiş edirəm aşağıda bildirdiklərimi cənab İrəvan qubernato-

runun nəzərinə çatdırasınız: Mən, cənab qubernatorun əmri ilə 30 oktyabr 1904-cü ildə Naxçıvan qəza polis idarəsinə X sinif məmuru təyin edilmişəm. Qafqaz həyatının və ümumiyyətlə qəzamızın həyatının belə səksəkəli iki ilində işimə necə can yandırdığım barədə fikir yürütmək mənə düşməz.

Lakin Sizin simanızda rəhbərliyimə məlumdur ki, mən üzərimə düşən vəzifələri həmişə canla-başla yerinə yetirmişəm.

Öz işimin müqabilində heç bir mükafat almadan mən, erməni müsəlman toqquşmaları öz yüksək həddinə çatdığı dövrdə, Naxçıvan qəzasının ikinci polis sahəsinin rəisi təyin olunmağımla həm mənəvi, həm də maddi cəhətdən təmin olunmuşdum.

19 sentyabr 1905-ci il tarixdə işdən azad edildikdə məni bu sual düşündürdü: etibarınızı doğrultmadımmı yoxsa iş qabiliyyətimmi azalıb.

Öz köhnə vəzifəmə qayıdandan sonra mən yenə də öz işimi səylə yerinə yetirirəm.

Əgər işdən azad edilməmin yeganə səbəbi ermənilərin şikayət etmələridirsə, bu səbəb aradan qaldırılıb, çünki ermənilər öz şikayətlərini geri götürüblər.

Bunları Siz həzrətlərinizə çatdıraraq xahiş edirəm mənə hər hansı bir mülki vəzifə verəsiniz" (48).

Naxçıvan qəza rəisi Nəzərəli xanın raportu ilə əlaqədar 26 oktyabr 1907-ci il tarixdə İrəvan quberniya rəisinə göndərdiyi raportunda yazırdı: "Mənə həvalə edilmiş polis idarəsində boş olan lX sinif məmuru vəzifəsinə ştatdankənar X sinif məmuru Nəzərəli xan Abbasqulu xan oğlu Naxçıvanskinin təyin edilməsini xahiş edirəm.

Qəza rəisi (imza)" (49).

İrəvan qubernatorunun 3 noyabr 1907-ci il tarixli əmrində belə yazılmışdır: "Naxçıvan qəza polis idarəsində X sinif məmuru vəzifəsində çalışan Nəzərəli xan Abbasqulu xan oğlu Naxçıvanski birinci sinif rütbəsi verilənədək həmin idarədə lX sinif məmuru vəzifəsinə təyin edilsin' (50).

Heç bir il bu vəzifədə işləməyən Nəzərəli xan 20 mart 1908-ci ildə imperator Nikolay Aleksandroviçə (İrəvan qubernatoruna-F.C.) göndərdiyi xahişnaməsinə yazırdı: "Ailə şəraitimlə əla-

qədar Siz həzrətlərinə xidmət etməyi davam etdirə bilmirəm. Xahiş edirəm mənim xahişnaməmi lazımi yerə göndərəsiniz və sənədlərimi mənə qaytarmaqla işdən azad edəsiniz" (51).

Naxçıvan qəza rəisi tərəfindən Nəzərəli xanın (Böyük xanın) ərizəsi 22 mart 1908-ci il tarixdə İrəvan qubernatoruna təqdim edilir və 29 mart 1908-ci il tarixdə İrəvan qubernatorunun 37 №-li əmri ilə Nəzərəli xan işdən və xidmətdən azad edilir (52).

Nəzərəli xan (Böyük xan) Naxçıvanski Naxçıvan teatrının tərəqqisində yaxından iştirak etməklə böyük əmək sərf etmişdir.

Xüsusi ilə o illərdə göstərilən teatr tamaşalarından toplanılan gəlirin (pulun) xərclər və bina haqqı ödənildikdən sonra yerdə qalanı məktəblərin xərclərinə yonəlirdi.

Əli Xəlilov "Naxçıvan teatrının tarixi" kitabında isə belə yazır: "1904-cü ildən 1910-cu ilə kimi Naxçıvan teatrında rejissorluq vəzifəsini istedadlı artist kimi şöhrət tapmış Böyük xan (yəni Nəzərəli xan-F. C.) Naxçıvanlı ifa etməyə başlayır. Bu görkəmli sənətkarın Naxçıvan teatrının inkişafında böyük rolu olmuşdur" (53).

1912-ci ildə isə Nəzərəli xan Naxçıvanski Əkbər xan Naxçıvanskidən sonra şəhər başçısı (starostu) vəzifəsinə seçilməklə 1917-ci ilin fevralına kimi bu vəzifədə çalışmışdır.

Yuxarıda qeyd etdiyim kimi 1917-ci ilin fevral ayına kimi Naxçıvan şəhər başçısı işləmiş Nəzərəli xan (Böyük xan) Naxçıvan şəhər məktəblərinin, teatrın inkişafına böyük fikir verməklə, eyni zamanda şəhər müvəkkillərinin keçirdiyi iclaslarda şəhər müvəkkillərinə daxil olmuş ərizə və xahişnamələrdə göstərilən məsələlər müzakirə olunaraq qanuni qərarın verilməsində böyük xidmətləri olmuşdur.

Nəzərəli xan Naxçıvanski ailə vəziyyəti ilə əlaqədar 7 fevral 1917-ci il tarixdə İrəvan qubernatoruna yazdığı xahişnaməsində göstərirdi: "Ailə vəziyyətimlə əlaqədar olaraq Naxçıvan şəhər ictimai idarəsində xidmətimi davam etdirə bilmədiyim üçün xahiş edirəm məni şəhər başçısı vəzifəsindən azad edəsiniz.

Bütün bunlara baxmayaraq 1920-ci ilin aprelində XI Ordu Azərbaycanı işğal etdikdən sonra bolşeviklərə rəğbəti olmayan Nəzərəli xan (Böyük xan) ailəsi və qohumları ilə birlikdə Araz çayını keçərək İrana getmiş və ömürlərinin bir hissəsini orada sürmüşlər.

Naxçıvan qəza polis xidmətində qulluq etmiş şəxslərdən biri də Mirzə Məmmədqulu Məşədi Novruz oğlu Novruzov olmuşdur. Mirzə Məmmədqulu Novruzov 1 yanvar 1857-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan qəza məktəbini bitirdikdən sonra 1877-ci ildən 1883-cü ilə kimi Naxçıvan qəza Polis İdarəsində tərcüməçi və 1883-cü ildən 24 yanvar 1887-ci ilə kimi dəftərxana xidmətçisi vəzifəsində işləmişdir.

Bu sənəd isə Naxçıvan qəzasının Polis İdarəsində dəftərxana işçisi işləmiş Məmməd bəy Əli bəy oğlu Vəzirovun Naxçıvan qəza polis rəisinin adına göndərdiyi ərizəsindədir. Həmin ərizədə Məmməd bəy Vəzirov yazır: «13 iyul 1886-cı ildə verilən yüksək əmrə əsasən daimi bir vəzifə tutan şəxs I dərəcəli rütbə (çin)» verilir, bu da ki, III dərəcəli dəftərxana işçisi ilə bərabər tutulur. 1885-ci ildən könüllü Naxçıvan qəzasının Polis İdarəsində tərcüməçi vəzifəsində işləyirəm. Yuxarıda göstərilən əmrə əsasən dövlət işinə keçmək istəyirəm və bu sənədləri təqdim edirəm».

1) 165 №-li doğum haqqında şəhadətnamə, 2) 24 yanvar 1887-ci ildə Sülh (Mirovoy sud) Məhkəməsinin qərarına əsasən mənim vergi rüsumumdan azad edilməyim barədə arayış.

Sizdən xahiş edirəm ki, mənim ərizəmi nəzərə alaraq, mənim həqiqi xidmətə, III dərəcəli dəftərana işçisi vəzifəsinə keçirəsiniz. Məmməd bəy Vəzirov» (54).

Məmməd bəy Vəzirovun bu vəzifəni aparmasına baxmayaraq onun təsdiqi iki ildən sonra gəlmişdir. Məhz bu səbəbdən M. Vəzirov 2 aprel 1889-cu ildə qəza polis rəisi Qurvinin adına göndərdiyi raportunda yazırdı: «Siz Əlahəzrətlərin rəhbərlir etdiyinin qəza Polis İdarəsində 1885-ci ildən könüllü dəftərxana işçisi vəzifəsində işləyirəm. Dövlət şurasının təsdiq etdiyi qərardan sonra (76 №-li qanun və 1886-cı ildə çap edilmiş dövlət qərarına əsasən) Əlahəzrətlərdən xahiş etdim ki, məni III dərəcəli dəftərxana işçilərinə aid etsinlər».

16 mart 1887-ci il 3824 saylı təqdimat Siz Əlahəzrətlərinə Cənab İrəvan Qubernatoru tərəifndən təqdim edilmişdir. Lakin bu vəzifəni icra etməyimə baxmayaraq məni bu vəzifəyə iki ildən sonra təsdiq elədilər, yəni 9 mart 1889-cu il tarixli 1164 saylı təqdimata əsasən. İndi hansı tarixdlən III dərəcəli dəftərxana işçisi

sayılıram? Bunları Szə çatdırmaqla Ali Həzrətlərdən xahiş edirəm mənim tutduğum vəzifənin tarixi 16 mart 1887-ci il tarixdən, yəni raportumu verdiyim gündən sayılsın. Dəftərxana işçisi» (55).

Qeyd etdiyimiz kimi Kəngərli tayfasından olan bir çox şəxslər Naxçıvan qəza və şəhər Polis İdarələrində qulluq etmişlər ki, bunlardan biri də 1855-ci ildə Naxçıvan şəhərində anadan olmuş Novruzağa Mahmudağa oğlu Kəngərlinskidir.

Novruzağa Kəngərlinski Naxçıvan qəza məktəbini bitirdikdən sonra 16 may 1875-ci ildə Naxçıvan qəza Polis İdarəsinin əmri ilə qəza Polis İdarəsinə dəftərxana işçisi qəbul edilmişdir. Xidmətlərinə görə 19 mart 1881-ci ildə Daxili İşlər Nazirliyinin əmri ilə starşina rütbəsi verilmişdir (56).

1884-cü ilin iyul ayına kimi polis xidmətində işləyən Novruz ağa Kəngərlinski öz ərizəsi əsasında polis xidməğindən azad edildikdən sonra 01 iyul 1884-cü ildə ərizə yazaraq Naxçıvan Gömrükxanasında işləməyi xahiş etmiş və Bakı Gömrükxana İdarəsinin əmri ilə Naxçıvan Gömrükxanasına dəftərxana işçisi vəzifəsinə qəbul edilmişdir (57).

1886-cı ilin mart ayına kimi Naxçıvan Gömrükxanasında işləyən Novruz ağa ərizə verərək yenidən Naxçıvan qəza Polis İdarəsinə XI dərəcəli ştatdan kənar məmur vəzifəsinə dəyişilməsini xahiş etmiş və bu vəzifədə 1892-ci ilə kimi xidmət etmişdir (58).

Polis xidmətində uzun müddət çalışmış Cəfər bəy Tahirovun xidmət siyahısını vərəqlərkən məlum olur ki, 1842-ci ildə anadan olmuş və ev tərbiyəsi almışdır. Naxçıvan qəza Polis İdarəsinin təqdimatı və İrəvan quberniya İdarəsinin 3321 №-li icazəsi ilə 21 may 1860-cı ildə Naxçıvan şəhər Polis İdarəsinə dəftərxana xidmətçisi vəzifəsinə qəbul edilmişdir (59).

Cəfər bəy Tahirov 19 yanvar 1864-cü il tarixli 55 №-li əmrlə katibatlıqda iş icraçısı vəzifəsinə keçirilmiş, 7 iyul 1864-cü ilə kimi bu vəzifədə çalışmış və iyul ayında isə Polis İdarəsində tərcüməçi vəzifəsində işləmişdir.

19 fevral 1868-ci ildə inzibati məhkəmə təşkilatlarının yaradılması ilə əlaqədar Dövlət Senatının 199 №-li əmri ilə həmin ştat vahidində saxlanmışdır.

Cəfər bəy Tahirov 15 iyun 1869-cu ildə Naxçıvan qəzası Polis İdarəsinin qərarı ilə Ordubad şəhər Polis şöbəsinə tərcüməçi köməkçisi vəzifəsinə təyin edilmiş, 5 oktyabr 1870-ci ildə Dövlət Senatının 223 №-li fərmanı ilə ona Quberniya katibi dərəcəsi verilmişdir. 1 iyul 1871-ci ildə Polis İdarəsinin qərarı ilə Naxçıvan şəhər 4-cü dairəsinin polis pristavı rəisinin köməkçisi vəzifəsinə keçirilmiş və bu vəzifədə 3 ildən artıq çalışmışdır.

Sonralar Dövlət Senatının 5 sentyabr 1874-cü il tarixli 89 №-li fərmanı ilə Cəfər bəy Tahirov Kollec katibi vəzifəsinə təyin edilmiş və 1877-ci ilin sentyabr ayına kimi bu vəzifədə işləmişdir. 3 sentyabr 1877-ci ildə İrəvan Quberniya İdarəsinin fərmanı ilə Naxçıvan şəhər polis rəisi təyin edilmiş Cəfər bəy Tahirov 1882-ci ilin dekabr ayına kimi bu vəzifədə çalışmış və 1 dekabr 1882-ci ildə Naxçıvan qəza polis rəisinin göstərişi ilə Cəhri polis sahəsinə göndərmiş, 15 dekabr 1889-cu ilə kimi bu vəzifəni icra etmişdir (60).

30 ilə yaxın polis xidmətində çalışan Cəfər bəy Tahirov səhhəti ilə əlaqədar öz xahişi əsasında 15 dekabr 1889-cu ildə İrəvan quberniyası Daxili İşlər Nazirliyinin əmri ilə vəzifəsindən azad edilmişdir. Əsas səbəb isə hələ 27 mart 1887-ci ildə C. Tahirov xidməti işlə əlaqədar Cəhri polis sahəsinə gedərkən yolda atdan yıxılması və bu zaman sağ qolunun çiyin nayihəsinin zədələndiyi üçün sağ əlinin barmaqlarının iflic olması ilə əlaqədardır (61).

C.Tahtrovun xəstəliyi ilə əlaqədar Naxçıvan kiçik hərbi xəstəxanasının baş həkimi Volkov tərəfindən verilən şəhadətnamədə yazılır: «30 oktyabr 1889-cu il tarixdə Naxçıvan qəzasının Polis İdarəsində biz aşağıda imza edənlər Naxçıvan şəhər polis pristavı, Korllec Assesoru Cəfər bəy Tahirov xəstəliyinə görə ona yüksək təqaüd verilməsini xahiş edirlər. C. Tahirov 21 may 1860-cı ildən qulluq edir, 47 yaşı var.

Tahirovun xəstəliyi: sağ əlin barmaqlarının iflicidir. 27 mart 1887-ci ildə Tahirov xidməti ilə əlqadər Cəhri polis sahəsinə getmişdir. Getdiyi zaman o, atdan yıxılmış və sağ çiynindən zədə almışdır. Nəticədə sağ əlinin barmaqları iflic olmuşdur. Bu xəstəlik onun sağ qolunun işləməsinə mane olur.

Biz bunları dövlət möhürü və imzalarımızla təsdiq edirik. Naxçıvan kiçik xəstəxanasının baş həkimi Volkov»(62, s.23).

Uzun müddət polis xidmətində qulluq edənlərdən biri də Mehdi xan Zeynalabdinbəyov-Ordubadlı olmuşdur. Naxçıvan şəhər polis pristavı vəzifəsini icra etmiş Mehdi xan Zeynalabdinbəyov-Ordubadlı xidmət kitabçasını vərəqlədikdə məlum olur ki, Mehdi bəy 1852-ci ildə Ordubad şəhərində anadan olmuşdur. O, Ordubad şəhər ibtidai məktəbində təhsil almış və Naxçıvan qəza məktəbində 17 dekabr 1867-ci ildə imtahan verərək 142 saylı şəhadətnamə almışdır.

İrəvan hərbi qubernatorluğunun 17 dekabr 1867-ci il tarixli əmri ilə Ordubad əyalət Polis İdarəsində muzdlu xidmətçi kimi işə qəbul edilmişdir. Ordubad əyaləti ləğv edildikdən sonra isə Naxçıvan şəhər Polis İdarəsinə həmin vəzifəyə dəyişdirilmişdir. Bu vəzifədə işlədiyi ikinci bir vəzifə olaraq Ordubadda barışdırıcı münasibətlər sahəsində da aparmışdır.

Mehdi xan 9 iyun 1872-ci ildə Naxçıvan qəza polis rəisinin sərəncamı ilə Ordubad Polis İdarəsincdə tərcüməçi vəzifəsində işləmiş, 1878-ci ildə İrəvan qubernatorluğunun icazəsi və Naxçıvan qəza Polis İdarəsinin 30 may 1878-ci il tarixli əmri ilə Naxçıvan qəza Polis İdarəsində tərcüməçi vəzifəsinə dəyişdrilmişdir.

Mehdi xan Zeynalabdinbəyov qaçqın quldur Ağabab Məşədi Nağı oğlunun tutulmasında göstərdiyi igidliyə görə 2 dekabr 1884-cü il tarixdə İrəvan qubernatorluğunun əmri ilə ona təşəkkür elan edilmiş və o gümüş saatla təltif olunmuşdur (63). Həmçinin 1889-cu ildə İran şahı Culfadan keçərək Rusiyaya və oradan da geri qayıdarkən Mehdi xan Zeynalabdinbəyov mühafizədə göstərdiyi yaxşı xidmətinə görə 4 və 5-ci dərəcəli «Şir-Xurşud» ordenləri ilə təltif etmişdir.

28 noyabr 1890-cı il tarixdə İrəvan quberniya İdarəsinin qərarı ilə Mehdi xan Naxçıvan əyalət Polis İdarəsinə hüquq xidmətinə təyin olunmuş və 3-cü dərəcəli dəftərxana xidmətçisi dərəcəsi verilmişdir.

Naxçıvan qəza rəisinin 20 iyun 1892-ci il tarixli qərarı ilə Mehdi xan Naxçıvan şəhər pristavının köməkçisi və 28 iyun 1896-cı il tarixli İrəvan quberniya İdarəsinin qərarı ilə Naxçıvan şəhər polis pristavı vəzifəsinə təyin edilmişdir (64).

Mehdi xan polis xidmətində işlədiyi illərdə yaxşı xidmətlərinə görə bir neçə dəfə orden və medallarla mükafatlandırılmışdır. İrandan keçən quldurları təqib edərkən fərqləndiyinə görə 16 sentyabr 1895-ci il tarixdə İrəvan qubernatorluğunun əmri ilə ona təşəkkür elan edilmiş və qızıl saatla mükafatlandırılmışdır (65).

Bu sənəd Mehdi xan Zeynalabdinbəyovun müqəddəs Vladimir ordeni ilə təltif olunması haqqında Naxçıvan qəza polis rəisnin İrəvan qubernatoruna 26 iyul 1900-cu ildə göndərdiyi raportdur. Həmin raportda rəis yazırdı: «Naxçıvan şəhərinin polis pristavı Kollec katibi Mehdi xan Zeynalabdin bəy oğlunun bizə təqdim etdiyi ərizəsini Siz Əlahəzrətlərə təqdim edərkən ona 4-cü dərəcəli müqəddəs Vladimir adına ordenin verilməsini xahiş edirəm» (66).

Qəza rəisi tərəfindən verilmiş onun polis xidmətində qulluq etdiyi 33 illik bir dövrünü əhatə edən raportunda Ordubad sahəsinin İranla sərhəd zonasında müxtəlif vaxtlarda İrandan keçən quldurların təqib edilməsi və tutulmasında, 1875-ci ildə qaçaq quldurlardan olan Cəfər Bayram oğlunun, Əli Cəfər İbrahim oğlunun, Məmiş Dadaş oğlunun, Əlimərdan Əhmədxan oğlunun və sürgündə olan Muxtar Abbas oğlunun təqib edilməsində, 1879-cu ildə üç quldurun at oğurluğu faktı ilə tutulmasında, 1881-ci ildə Ordubad türməsindən bir çox cinayətlə günahlandırılan Ağabab Nağı oğlunun qaçan zaman tutulmasında, 1894-cü ildə müxtəlif cinayətlər törətmiş Rəcəbli Nəcəf oğlunun tutulmasında, 1895-ci ildə Cənnəb kəndində quldur başı Ter-Sarkisovun dəstəsi ilə vuruşmada və onların ləğv edilməsində, 1897-ci ildə 4-cü sahənin keçmiş pristavı Şumovla «Dəvə-burnu» dağında quldur Məmməd Hüseynin dəstəsi ilə vuruşmada və s. hadisələrdə Mehdi bəyin iştirak etdiyini geniş şərh edirdi (67).

Bəzi cinayət xarakterli sənədləri vərəqlədikcə 1909-cu ilə kimi polis xidmətində olan Mehdi xan Zeynalabdinbəyov bu illərdə göstərdiyi şücaətlərinin şahidi oluruq.

Araşdırılan sənədlərdən məlum olur ki, XIX əsrin 70-ci illərinin axırlarından 90-cı illərin əvvəllərinə kimi Naxçıvan qəza Polis İdarəsinə müxtəlif xarakterli: ağır və yüngül cinayətlər, oğurluq, adam döymə, öldürmə, yanğın törətmə və s. məsələlər

üzrə daxil olan sənəd və qovluqların sayının xeyli artdığını aşağıdakı cədvəl bir daha sübut edir (68).

İllər	Cəmi qəza Polis İdarəsinə daxil olub			onlardan neçəsi şəhər təsərrüfatına aiddir		
	daxil olmuş sənəd	Göndərilmiş sənəd	icraatda olan çıxan qovluqların sayı	daxil olmuş sənəd	göndərilmiş sənəd	qovluqların sayı
1879	9216	9817	815	1224	1286	62
1882	10730	11325	930	1690	1753	70
1883	11260	13497	1493	1875	1940	94
1884	15246	16356	1742	2726	3638	125
1885	17600	18309	1838	2449	5290	118
1890	21372	21181	1972	3285	3972	181

Bu illərdə Naxçıvan qəzasında törədilmiş cinayətlərlə bağlı Şərur qəza polis rəisinin İrəvan quberniya İdarəsinə verdiyi məlumata görə təkcə Baş Noraşen türməsində 1879-cu ildə 139 nəfər, 1880-cı ildə 141 nəfər, 1881-ci ildə 145 nəfər, 1882-ci ildə 161 nəfər, 1883-cü ildə 159 nəfər, 1884-cü ildə 168 nəfər, 1885-ci ildə 172 nəfər məhbus saxlanılmışdırsa 1890-cı ildə məhbusların sayı 192 nəfər olmuşdur (69).

XIX əsrin 40-cı illərində müxtəlif cinayət işləri ilə yanaşı qəsdən adam öldürmə ilə bağlı bir çox işlərə də rast gəlirik ki, həmin cinayət işlərindən biri Naxçıvan sakini Hacı Mahmud Məmməd Hüseyn oğlunun Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlu tərəfindən öldürülməsinə dair cinayət işindən çıxarışdır. İşin məzmunu aşağıdakı kimidir:

«17 aprel 1849-cu il tarixində səhər saat 10-da Naxçıvan qalabəyisi Naxçıvan sakini Hacı Mahmud Hacı Məmməd Hüseyn oğluna ölümcül xəsarət yetirilməsi haqda məlumat alaraq qəza prokuroru ilə birlikdə yaralının yerləşdirildiyi Hacı Cəfər Səfərəli bəy oğlunun evinə gəliblər. Yaralının şüuru yerində olub və on bir nəfər şahidin iştirakı ilə o qalabəyinin və prokurorun suallarına cavab olaraq aşağıdakıları birdirib. O qohumu (arvadının

qardaşı) İsmayıl Hacı Həsən oğlunu yolda yaralayıb, səbəbi isə malikanə üstündə mübaisə olub. Bundan başqa o heç nə deyə bilməyib. Bu barədə ümumi imzalarla akt tərtib olunub. Şahidlər isə qeyd olunan aktı imzalayərkən əlavə ediblər ki, adı çkilən cənablar getdikdən sonra da yaralının şüuru tam yerində olub.

Həmin gün axşam saat 11:00-da qəza həkimi Lunkeviç yaralını müayinə edərək müəyyən edib ki, ölümə səbəb qarının aşağı sol nahiyyəsinə iti silahla yetirilmiş zərbə olub, nəticədə damarlar qırılıb və qarın boşluğuna qanaxma baş verib, yoğun bağırsaqların zədələnməsi nəticəsində isə iltihab yaranıb.

Naxçıvan qalabəyisi tərəfindən şahidlərin iştirakı ilə İsmayıl Hacı Həsən oğlunun və Qasımbəy İsmixan oğlunun evlərində axtarış aparıldığı zaman aşağıdakı əşyalar aşkar edilmişdir. Bir İran qılıncı, patrondaş, barıt qabı, asiya bıçağı.

Bu hadisə barəsində Naxçıvan şəhər polisi 18 aprel tarixli 880 №-li raportla qəza rəisinə məlumat verərək əlavə edib:

1. Yaralı Hacı Mahmud gecə yarı saat 3-də vəfat edib. Onu yaralayan İsmayıl Hacı Həsən oğlu isə 18 aperl tarixində səhər könüllü surətdə polisə gəlib burada onun ayaqları qandallanaraq dustaqxanaya göndərilib.

2. Adı çəkilən İsmayıl qalabəyinin yaşadığı evin yiyəsidir buna görə da istintaqın başlanması üçün icazə istəyir.

Bunun nəticəsində qəza rəisi 18 aperl tarixli 2535 №-li tapşırığı ilə işin aparılmasını öz köməkçisi titulyar müşavir Linevskiyə həvalə edib, hansı ki, həmin gün qəza prokurorunu dəvət edərək işə başlayıb. İlk olaraq o, İsmayıl Hacı Həsən oğlunu dindirib. Onun əynində köynək olub, köynəyin düymələri qopmuş olub. Bunun nə üçün belə olduğu sualına o cavab olaraq bildirib ki, polisə gələrkən camaat cırıb. Daha sonra hadisə barəsində ona suallar verilib.

Müttəhim bildirib ki, onun 22 yaşı var, evlidir, övladı yoxdur, savadlıdır, cərimə olunmayıb. 17 aprel tarixində axşam saat 9-da o öz evində olub və səhərədək evindən heç yerə ayrılmayıb. Qohumu Hacı Mahmud Hacı Məmməd oğlunu kimin yaraladığı ona məlum deyil. Onun evində ailəsi ilə birlikdə Usta Cəfər yaşayır və onlar onun dediklərini təsdiqləyə bilərlər. Həmçinin

onunla bərabər bir həyətdə yaşayan İbrahim bəy Zaman bəy oğlu da ailəsi il birlikdə bunları təsdiqləyə bilərlər.

Həmin gün, yəni, 18 aprel 1849-cu il tarixdə müttəhimin evində yaşayan 24 yaşlı Usta Cəfər Usta Bayram Əli oğlu bildirib ki, o həqiqətən İsmayıl Hacı Həsən oğlunun evini kiralayır, İsmayıl özü isə mütamadi olaraq praporşik Qasım bəyin evində qalırdı. 17 aprel tarixində axşam işdən evə gəldikdən sonra o, namazını qılıb, yemək yedikdən sonra yatıb. Yuxuda ikən adı çəkilən İsmayıl gəlib pəncərəni döyüb, saatın neçə olduğunu o dəqiq bilmir, lakin çox gec olduğunu xatırlayır. İsmayıl xahiş edib ki, onu evə ötürsün və gecələməsinə icazə versin. İsmayıl bildirib ki, o Ter-Ovanesovun evinin yanında Hacı Mahmudla mübaisə edib, mübaisə vaxtı onların arasında dava baş verib və Hacı Mahmud bıçaqla onu, İsmayılı vurmaq istəyib, lakin özü-özünü yaralayıb. Səsə Ter-Ovanesov çıxıb. Hadisə yerində isə iki desyatnik olub. Bu hadisəni bildirmək üçün o şəhər qalabəyinin yanına gedib, lakin onu yerində tapmayıb. İsmayıl Usta Cəfərdən xahiş edib ki, onu tezdən yuxudan oyatsın. Əvəllər Novruz bayramınadək İsmayıl Qasım bəyin evinə köçəndən sonra onun, ifadə verənin evində 2-3 dəfə gecələyib, lakin Novruz bayramından sonra 17 aprel tarixində bu ilk dəfə baş verib. Xalq arasında belə şayələr gəzir ki, güya Hacı Mahmudu İsmayıl öldürüb.

23 aprel tarixində Usta Cəfər Usta Bayraməli oğlu İsmayıl Hacı Həsən oğlu ilə üzləşdirilərkən birinci ikincini yuxarıda deyilənləri ona söyləməsində ifşa edib, lakin İsmayıl deyilənlərdən imtina edib və 18 aprel tarixində verdiyi ifadəsində qalıb.

18 aprel tarixində İsmayılın qohumu İbrahim bəy Zamanbəy oğlu, 46 yaşında ifadə verərək bildirib ki, o həqiqətən Usta Cəfərllə bir həyətdə yaşayır, lakin İsmayılın 17 apreldə harada gecələməsi ona məlum deyil. Nə həmin gün, nə də sonra o, İsmayılı görməyib. 18 tarixində şəhər camaatı eşidib ki, Hacı Mahmudu İsmayıl öldürüb, lakin bunun nə dərəcədə həqiqətə uyğun olduğu ona məlum deyil.

19 aprel tarixində İsmayılın qohumu Qasıb bəy İsmixan bəy oğlu, 50 yaşında, ifadə verərək bildirib ki, aprelin 17-dən 18-nə keçən gecə o, bazarda dükanlarına qaravul çəkirdi, gecə yarısı Naxçıvan qalabəyisi onu yanına çağıraraq bildirib ki, Hacı Mah-

mud ağır yaralanıb və bu işdə o Hacı Mahmud İsmayıl Hacı Həsən oğlunu günahlandırır. Buna görə də o ifadə verəndən xahiş edib ki, İsmayılı tapsın. O öz adamı Hüseyn Əli Kərbəlayi Səfər Əli oğlunu öz evinə göndərib ki, görsün İsmayıl oradadır ya yox. Göndərilən şəxs geri qayıdaraq bildirib ki, İsmayıl evdə yoxdur və ümumiyyətlə evdə gecələməyib. Səhər isə o eşidib ki, İsmayıl özü könüllü olaraq polisə gedib və burada o həbs olunub.

19 aprel tarixində ifadə verənlər bildiriblər:

1. Naxçıvan şəhər polisinin desyatniki (onbaşı), yerli sakin Xudaverdi Səfərəli oğlu, 25 yaşında: 17 aprel tarixində o, digər desyatnik Xudayarla birlikdə bazarda olublar, qayıdarkən Səfər Məmməd Bağır oğlunun dükanına giriblər və orada bir qədər oturublar. Qəflətən səs-küy eşidilib, onlar səsə çölə çıxıblar və Ter-Ovanesovun darvazasının yanına gəliblər. Ter-Ovanesov da çölə çıxaraq bu hay-küyün səbəbini soruşub. Daha sonra onlar birlikdə irəliləyiblər və qarşıda qan içində yatan adam görüblər. Lakin qaçan adamın həqiqətən İsmayıl olduğu ona məlum deyil. Onlar həmin şəxsin dalınca qaçmayıblar, çünki Hacı Mahmud xahiş edib ki, Hacı İsmayıla və Cəfərə hadisə barəsində məlumat verilsin. Xudayar bunu yerinə yetirib. O isə hadisə barədə məhkəmə nəzarətçisi Reznikova xəbər verməyə gedib, nə hadisədən əvvəl, nə də hadisədən sonra o İsmayıl Hacı Həsən oğlunu görməyib.

2. Digər desyatnik Xudayar Ağakişi oğlu, 26 yaşında, Xudaverdi Səfəralı oğlu ilə eyni ifadə verib, ancaq qeyd edib ki, hay-küy eşidəndən sonra o hadisə yerinə gəlib və orada Hacı Mahmud İsmayıl Hacı Həsən oğlunun onu yaraladığını məhəllə nəzarətçisinə bildirməyi xahiş edib, lakin bu zaman o İsmayılın hansı tərəfə doğru getdiyini göstərməyib, həmçinin əlavə edib ki, o hadisə barədə məhəllə nəzarətçisinə xəbər verib həmin yerə qayıtdından sonra Hacı Mahmudu yerində görməyib, çünki Hacı İsmayıl onu Hacı Cəfər ağanın evinə aparıb. Hacı İsmayıl və Hacı Cəfər ağaya hadisəni kimin xəbər verdiyini isə ona məlum deyil.

3. Sadıq Məmməd Bağır oğlu 20 yaşında, 17 aprel tarixində axşam onun yanında Xudaverdi və Xudayar adlarında 2 desyatnik gəliblər. Bir müddət keçəndən sonra onlar səs eşidiblər: «Ay müsəlmanlar kömək eləyin, öldürürlər». Əvvəlcə desyatnik-

lər sonra isə o, səs gələn yerə qaçıblar. Hadisə yerinə çatmamış yaxınlıqda evi yerləşən Ter-Ovanesov da küçəyə çıxıb və onlar bir yerdə hadisə yerinə gediblər. Onlar Hacı Mahmudu uzanmış vəziyyətdə görüblər. Hacı Mahmud onlara bildirib ki, onu xəncərlə İsmayıl Hacı Həsən oğlu yaralayıb. Bundan sonra dükanda heç kim olmadığı üçün ifadə verən dükana qayıdıb. Hadisə yerində adları sadalananlardan başqa heç kimi olmayıb.

4. Praporşik Krikor Ter-Ovanesov bildiribdir ki, axşam o yatmağa hazırlaşarkən darvazanı bağlamaq üçün həyətə çıxıb və iki desyatniki yolda görüb, nə baş verdiyini soruşduqda onlar cavab veriblər ki, səs eşidiblər və həmin tərəfə gediblər. O da desyatniklərə qoşulub. Manuk Yolçuyevin evinin qarşısında onlar bir nəfəri uzanmış vəziyyətdə görüblər. Həmin adam sorğu suala cavab verərək adının Hacı Mahmud olduğunu və onu İsmayılın yaraladığını söyləyib. Daha sonra o, Ter-Ovanesov qayıdıb. Bundan başqa o hadisə barədə heçnə bilmir.

5. Hacı İsmayıl Kərbəlayi Adıgözəl oğlu, 47 yaşında, 17 aprel tarixdə axşam Hacı Mahmud onun yanına gələrək saat yarım onun yanında oturub, daha sonra evinə gedib. Bundan başqa bir müddət ötəndən sonra Hüseyn Məşədi İbrahim oğlu ona deyib ki, Hacı Mahmudu praporşik Ter-Ovanesovun evinin yanında yaralayıblar və o ifadə verəni, yəni Hacı İsmayılı çağırır. İfadə verən hadisə yerinə gəldikdə Hacı Mahmud yerdə uzanmışdır və desyatnik Xudaverdi onun başını saxlayırdı. Sadıq Məşədi Bağır oğlu isə onun ayaqlarının altında oturmuşdur. Hacı Mahmud ona söylədi ki, onu İsmayıl Hacı Həsən oğlu yaralıyıb. Lakin bu zaman başqa adamın olduğunu deməyi, sonra isə xahiş edib ki, onu yaxınlıqdakı evlərin birinə aparsınlar. Buna görə də o camaatı toplayaraq yaralını Hacı Cəfər ağanın evinə aparıb. O həmçinin əlavə edib ki, Hüseyn Məşədi İbrahim oğlu və Məmməd Mirzə Həsənəli oğlu ona, ifadə verənə bildirib ki, Hacı Mahmud yoluna davam edib. İsmayıl isə onun dalınca gedərək Ter-Ovanesovun evinin yaxınlığında onu xəncərlə vurub.

6. Hacı Cəfər ağa Hacı Səfərəli oğlu, 41 yaşındadır. 17 aprel tarixində axşam o təzəcə yuxuya getmişdir ki, darvazanın döyüldüyünü eşitdi. Həyətə çıxdıqda Hacı İsmayıl Kərbalayı Adı-

gözəl oğlu ona bildirib ki, Hacı Mahmud Ter-Ovanesovun evinin yaxınlığında yaralandığından atası onu, ifadə verəni, oraya çağırır. Hadisə yerinə gəldikdə isə o orada çoxlu insan görüb, soruşduqda Hacı Mahmud onun yaralayanın İsmayıl Hacı Həsən oğlu olduğunu bildirib. Yaralananın evi uzaq olduğuna görə onu ifadə verənin evinə aparıblar. Desyatnik Xudaverdinin ona bildirdiyinə görə hadisə yerinə gedərkən yolda o qaçan İsmayılla rastlaşıb. Naxçıvan sakini Məşədi Qasımın 18 aprel tarixində ona bildirdiyinə görə isə hadisədən 3-4 gün əvvəl o, Hacı Mahmudla barışması üçün İsmayılı yola gətirməyə çalışıb, lakin İsmayıl razılaşmayaraq Hacı Mahmudu öldürəcəyini bildirib.

25 aprel tarixində Hacı Cəfər ağa Hacı Səfər Əli bəy oğlu və Hacı İsmayıl Kəlbəlayi Adıgözəl oğlunun desyatnik Xudaverdi Səfərəli ilə üzləşdirilməsi zamanı, onlardan birinci desyatnik Xudaverdini onda ifşa edib ki, o hadisə yerinə gələrkən yolda qaçan İsmayılı görüb. İkinci isə Xudaverdini onda ifşa edib ki, o, Hacı İsmayıl hadisə yerinə gəldikdə Mahmud yerdə yaralı yatırdı, Xudaverdi isə onun başını əli ilə tutmuşdu, çuxasını isə Hacı Mahmudun üzərinə örtmüşdü. Lakin Xudaverdi Səfərəli oğlu butun bunlardan imtina edərək 19 və 20 aprel tarixlərində verdiyi izahatlarını təsdiqləyib, həmçinin əlavə edib ki, o çuxasını istidə atıb və onu Hacı Mahmudun üzərinə kimin örtdüyünü bilmir.

21 aprel tarixində ifadə verənlər bildiriblər:

Məmməd Mirzə Həsən oğlu, 18 yaşında, 17 aprel tarixində axşam atası onu pendir almaq üçün bazara göndərib, ora çatdıqda o çoxlu camaatın tolplandığını görüb. Camaat davanın olduğunu ona deyib və o da onlarla birlikdə hadisə yerinə gedib. Həmin yerdə Hacı Mahmud yaralı vəziyyətdə yatmışdı və onun bildirdiyinə görə onu İsmayıl yaralayıb. Bundan başqa ifadə verən heç nə bildirmədiyini söyləyib. Hacı İsmayıl Kəlbəlayi Adıgözəl oğluna isə o heç nə deməyib.

23 aprel tarixində Hacı İsmayıl Adıgözəl oğlu Məmməd Mirzə Həsən oğlu ilə üzləşdirilərkən birinci ikincini onda ifşa edib ki, o Hacı Mahmudun evə qayıdarkən yolda İsmayılla mübaisə etdiyini ona söyləyib. Məmməd Mirzə Həsən oğlu isə əvəlki ifadəsini təsdiqləyib.

20 aprel tarixində Hüseyn Məşədi İbrahim oğlu, 24 yaşında, bildirib ki, 17 tarixində axşam o qonaq gedib və qayıdarkən desyatnik Xudayarla qarşılayıb. Xudayar ona bildirib ki, Hacı Mahmudu yaralıyıblar və o küçədə yatır, buna görə də o ifadə verən, bunu bildirmək üçün Hacı İsmayıl Kəlbəlayi Adıgözəl oğlunun yanına gedib sonra isə Hacı Mahmudun qardaşı Məşədi Şeyxəlinin yanına edib, yolda dəyirmanın yanında podpolkovnik Nəzərəli xanın dalınca Seyid Feyzullanı görüb, burada ifadə verən və seyid həmin dəyirmanın yanında İsmayıl Hacı Həsən oğlunu görüblər. İfadə verən Hacı Mahmudun hamının yanında mübaisə etdiyini, onları aralaşdırdığını sonra isə İsmayılın Ter-Ovanesovun evinin yanında Hacı Mahmudu bıçaqla vurduğunu Hacı İsmayıl Adıgözəl oğluna demədiyini bildirib. Hadisə barədə ümumiyyətlə heçə nə bilmir və eşitməyib.

Məşədi Qasım Zeynalabdin oğlu, 52 yaşında, 21 aprel tarixində ifadə verərək bildirib: Hacı Mahmud yaralananda 3-4 gün əvvəl o, həqiqətən İsmayıl Hacı Həsən oğlu ilə Hacı Mahmudun mübaisə etdiklərini görüb və onların barışmaları üçün İsmayılı yola gətrməyə çalışıb, lakin İsmayıl bundan boyun qaçıraraq bildirib ki, barışmaq niyyətində deyil və əlindən gələni Hacı Mahmuda edəcək. Bundan başqa ifadə verən heç nə bilmir. O, həmçinin əlavə edib ki, hadisə yerinə gəldikdə Hacı Mahmudu artıq Hacı Cəfər ağanın evinə aparmışdılar.

20 aprel tarixində ifadə verən mərhum Hacı Mahmudun qardaşı Məşədi Şeyxəli Hacı Məmməd Hüseyn oğlu 25 yaşında, bildirib 17 aprel tarixində gecə o, qardaşının yaralandığını eşidərək Cəfər ağının evinə gəlib. Həmin vaxt cənab qalabəyi və cənab prokuror da orada idilər. Qardaşı onu İsmayıl Hacı Həsən oğlu yaralıdığını deyib. Camaatdan eşitdiyinə görə hadisə yerinə ilk əvvəl desyatniklər Xudaverdi və Xudayar, Sadıq Məşədi Bağır oğlu və praporşik Ter-Ovanesov gəliblər. Onlardan Xudayar görüb ki, İsmayıl papağını Hacı Mahmuddan almağa çalışır. Muxtar Bayraməli isə İsmayılı hadisə yerindən qaçan görüb. Naxçıvan sahə idarəsinin məmuru Məmməd Zeynal oğlu İsmayıl Hacı Həsən oğlu ilə qarşılaşıb və sonuncu ona deyib ki, Hacı Mahmud barəsində şikayət etmək üçün qalabəyinin yanına gedib, Məm-

məd Hacı Hüseyn xan oğlu hadisədən bir neçə gün əvvəl İsmayılın onun qardaşı ilə mübaisə etdiyini görüb. Hacı İsmayıl Məşədi Mehdi oğlu hadisədən bir neçə gün əvvəl İsmayılı görüb və Hacı Mahmudla barışması üçün onu yola gətirməyə çalışıb, lakin İsmayıl bunlarla razılaşmayıb və bildirib ki, Hacı Mahmudu öz əlləri ilə öldürəcək. Bu deyilənlərin hamısını o camaatdan eşidib. Adları çəkilən şəxslərdən isə ancaq Hüseyn Məşədi İbrahim oğlu onun qohumudur, qalanları isə kənar adamlardır.

Muxtar Bayraməli oğlu, 22 yaşındadır, 21 aprel tarixində ifadə verərək bildirib: 17 aprel tarixində axşam evdən çıxaraq dükana gedib, yolda adamlar ona deyiblər ki, Hacı Mahmud Ter-Ovanesovun evinin yanında bıçaqlanıb, buna görə də ifadə verən də həmin yerə gedib. Hacı Mahmud deyib ki, onu İsmayıl yaralayıb. Bundan sonra onu həkimi dalınca Bünyatovların evinə göndəriblər. Yolda məktəbin qarşısındakı meydanda o İsmayıl Hacı Həsən oğlu ilə rastlaşıb. İsmayılın hara gedirsən sualına o, cavab verib ki, tələsir. Həkim dalınca gedir. Məmməd Hacı Hüseyn xan oğlu, 24 yaşında, 17 aprel tarixində axşam dükanında tək idi, səs-küy eşidən zaman digər dükançı Sadıq desyatniklərlə və başqa adamlarla birlikdə səs gələn tərəfə gedib və qayıtdığı zaman ona ifadə verənə bildirib ki, İsmayıl Hacı Mahmudu yaralayıb. Onun özü dükandan heç bir yerə ayrılmayıb və İsmayıl Hacı Həsən oğlunu görməyib, həmçinin İsmayılla Hacı Mahmudun mübaisə etmələri haqda da heç nə bilmir.

Molla Ələsgər Molla Həsən oğlu, 28 yaşında: 17 aprel tarixində Hacı Mahmudun ailəsində onun yaralandığını eşidərək hadisə yerinə gəlib. Yolda o İsmayılla rastlaşıb. Sonradan Hacı Cəfər ağanın evində Hacı Mahmud onu İsmayılın yaraladığını bildirib.

Hacı İsmayıl Məşədi Mehdi oğlu, 40 yaşında İsmayıl Hacı Həsən oğlu ilə Hacı Mahmudun yolda mübaisə etmələrindən 2 ay əvvəl o onları barışdırmaq istəyib, lakin İsmayıl bunu dinləmək istəməyərək bildirib ki, Hacı Mahmudla bildiyi kimi davranacaq. Hacı Mahmudun yaralanması haqda o bazarda eşidib və eşitdiyinə görə bunu İsmayıl törədib.

Naxçıvan sahə idarəsinin məmuru Məmməd Zeynal oğlu, 26 yaşında: 17 aprel tarixində axşam, sahə iclasçısı ilə birlikdə qəza rəisi

cənablarının yanında olub və iclasçının əmri ilə rus keşişini mənzilinə yola salıb qayıdarkən hamamın yaxınlığında körpünün yanında toplanmış camaatı görüb və eşidib ki, Hacı Mahmud yaralanıb, daha sonra qəza idarəsinin yerləşdiyi binaya yaxınlaşarkən binanın yanındakı bağda İsmayıl Hacı Həsən oğlu ilə rastlaşıb. Onun əynində cırılmış asiya köynəyi olub. İsmayıl bildirib ki, Hacı Mahmudla mübaisə edib və ondan şikayət etmək üçün qalabəyinin yanına gedib, lakin qalabəyini yerində tapmayıb. O İsmayıla deyəndə ki, Hacı Mahmudu yaralayıblar İsmayıl cavab veribki , bu yalandır.

Naxçıvan qəza idarəsinin tərcüməçisi Avetis Tarumov, 21 aprel tarixində ifadə verərək bildirib: 17 aprel tarixində hadisədən sonra o, öz eyvanında Naxçıvan sakini Krikor Andrisovla söhbət edirmiş. Bu vaxt onların yanından İsmayıl Hacı Həsən oğlu keçib. Belə gec vaxtda hara gedirsən sualına o cavab verib ki, Hacı Mahmud adamları ilə birlikdə ona hücum edərək döyüblər, buna görə də o cənab qalabəyinin yanına şikayətə getmişdir. Lakin qalabəyini yerində tapmayıb.

22 aprel tarixində ifadə verən Naxçıvan qalabəyisinin denşiki (denşik-zabitə xidmət edən əsgər deməkdir-F.C.) Pyotr Çernov, 40 yaşında, ifadə verərək bildirib: 17 aprel tarixində axşam saat 10-da qalabəyinin mənzilinə evin yiyəsi İsmayıl Hacı Həsən oğlu gəlib və ifadə verənə bildirib ki, Hacı Mahmud onu döyüb. Lakin ifadə verən onu deyib ki, qalabəyi qəza rəisinin yanındadır. Bundan sonra İsmayıl hara gedib, ona məlum deyil. Bir müddət sonra məhəllə nəzarətçisi Reznikov gəlib və İsmayılı axtararaq bildirib ki, o Hacı Mahmudu yaralayıb.

Şahidlər: Avetis Tarumov, Krikov Andriasov, Məmməd Zeynal oğlu və denşik Pyotr Çernov and içdirərkən İsmayıl Hacı Həsən oğlu İştirak edib və o, ilk 3-nü mübaisələri olduğu üçün 4-nü isə düşmənçiliyi olduğu üçün kənarlaşdırılıb. Həmçinin Molla Ələsgər Molla Həsən oğlunu, Məşədi Qasım Zeynlabdini və Seyid Feyzula Mir Mustafa oğlunu Hacı Mahmudla dostluqları olduğu üçün kənarlaşdırıb. Lakin bunu sübut edə bilmədiyi üçün müstəntiq onların şahidliyini qəbul edib.

24 aprel tarixində mərhum Hacı Mahmudun qardaşı Məşədi Şeyx Əli Hacı Məmməd Hüseyn oğlu Naxçıvan qəza rəisinə aşa-

ğıdakı məzmunlu izahat göndərib: Desyatnik Xudaverdi Məşədi İbrahim Kəlbəlayi Nağı oğluna, Ağa Hüseyn Kəlbəlayi Adıgözəl oğluna, Əttar Molla Kərimə, Molla Əli Əsgər Molla Həsən oğluna, Məmməd Sadıq Hacı İmamqulu oğluna, tacir Məmməd Qasıma, İbrahimə, Hacı Cəfər ağaya, Cəhri kənd sakinləri Hacı Məmməd və Məşədi Əli xana və bostançı Kərbəlayi Əli Məmmədə deyib ki, Hacı Məmmədin öldürülməsi zamanı o səs eşidərək onun yanına gedib, yolda qaçan İsmayılla rastlaşdığını eşitməyib və bu barədə heç nə bilmir. Məşədi Qasım Zeynalabdin oğlu bildirib ki, Xudaverdi ona hadisə yerinə gedərkən İsmayıl Hacı Həsən oğlu ilə rastlaşdığın deyib. Molla Kərim Molla Qulu oğlu və Ağa Hüseyn Kərbəlayi Adıgözəl oğlunun 25 aprel tarixli sorğuları keçirilmişdir. Onlar Məşədi Qasım Zeynalabdin oğlu ilə eyni ifadə vermişlər. Xahişnamdə adları çəkilən digər şəxslər mərhumla qohum olduqları üçün Hacı Məmməd, Məşədi Əlixan və Kərbəlayi Əli Məmməd səfərdə olduqları üçün sorğuları alınmamışdır. Bu barədə 25-də akt tərtib olunmuşdur. İsmayıl Hacı Həsən oğlu İrəvan qəza məhkəməsində 16 may 1849-cu il tarixində ifadə verərək bildirmişdir ki, 17 aprel 1849-cu il tarixində əzən oxunarkən o evdə olub və səhərədək evdən çıxmayıb, qohumu Hacı Mahmud Hacı Məmməd Hüseyn oğlunu kimin yaraladığını bilmir, ancaq özü bunu etməyib. Onun evində usta Cəfər yaşayır, hansı ki, onun həmin gün evdə gecələdiyini bilib-bilmədiyi ona məlum deyil. Usta Cəfərlə onun heç bir dostluq əlaqəsi olmayıb, əksinə mübaisəsi olub. Ona yer hazırlaması və Usta Cəfərin ifadəsində qeyd etdiyi digər məsəllər barəsində onlar arasında söhbət olmayıb. Həmçinin onunla bir həyətdə yaşayan İbrahim Zaman oğlunun onun həmin gün evdə gecələdiyini bilib-bilməməsi də ona məlum deyil. Həqqətən onun qohumu Hacı Mahmudla atasından miras qalmış 5925 manat üstündə mübaisəsi olub, lakin bu barədə hələ heç yerdə iddia irəli sürülmüyib. Əynindəki köynəyi 18 aprel tarixində qalabəyinin yaşadığı evdən polisə gətirilərkən Naxçıvan sakinləri Hacı Cəfər ağa Hacı Səfərəli bəy oğlu və Əli xan qəssab tərəfindən cırılıb. Hadisədən əvvəl o, nə Məşədi Qasım Zeynal oğlu, nə də başqaları vasitəsiylə Hacı Mahmuda hədə-qorxu gəlməyib. 17 aprel tarixində o, Naxçıvan qəza

idarəsinin tərcüməçisi Avetis Tarumovu və Krikor Andirasovu görməyib və onlar ondan heç nə soruşmayıblar və heç nə deməyiblər. Əgər onlar onun əlehinə ifadə veriblərsə bu ona görədir ki, onlarla onun mübaisəsi var. Naxçıvan qəza idarəsinə bitişik bağda Əylis sakini Məmməd Zeynal oğlunu o görməyib, ondan heç nə soruşmayıb və ona heç nə deməyib. Həmçinin məktəbin qarşısındakı meydanda Məmməd Mirzə Həsən oğlunu o görməyib və ondan heç nə soruşmayıb. Ümumiyyətlə 17 aprel tarixində Hacı Mahmud barəsində şikayətçi qalabəyinin yanına gəlməyib, desyatnik P. Sernovu görməyib və ona heç nə deməyib. İstintaq zamanı ona tərəfkeşlik edilməyib.

2-ci şöbə 9 iyun 1849-cu il tarixdə 2 №-li İrəvan qəza məhkəməsinin I şöbəsinə bildirib ki, Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlu 3 fevral 1849-cu il tarixdə atasından miras qalmış 5424 manata görə Naxçıvan sakini Hacı Mahmud barəsində iddia təqdim edib, lakin müvafiq qanunlara riayət edilmədiyi üçün iddia Naxçıvan şəhər polisinin 25 fevral tarixli 523 №-li təliqəsi ona geri qaytarılmışdır.

18 aprel tarixindən 6 may 1849-cu il tarixədək müttəhim İsmayıl Hacı Həsən oğlu Naxçıvan şəhər həbsxanasında, həmin tarixdən isə İrəvan həbsxanasında saxlanılır.

İmza: (katib)» (70).

22 iyul 1849-cu il tarixdə Naxçıvan sakini Hacı Mahmud Hacı Məmməd Hüseyn oğlunun Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlu tərəfindən öldürülməsi haqqında İrəvan qəza Məhkəməsindən təftişə göndərilmiş işinə dair Tiflis Cinayət və Mülkü Məhkəmə Palatasının 1-ci şöbəsinin rəisinin rəyində yazılmışdır: «İrəvan qəza Məhkəməsi cinayət işini mülkü qanunların 1170, 1171, 1173, 1174, 1193, 1203 maddələri, 1205-ci maddənin 1-ci və 2-ci bəndləri, 1207-ci maddəsinin 1, 6, 7 bəndləri, cəza qanunlarının 21-ci maddəsinin 3-cü bəndi və 1925-ci maddəsi ilə uyğunlaşdırılaraq qərara alır: Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlu həmşəhərlisi Hacı Mahmud Hacı Məmməd Hüseyn oğlunu qəsdən öldürdüyünə görə Naxçıvan şəhərində 70 çubuqla cəzalandırılsın, daha sonra bütün hüquqlardan məhrum edilərək 12 ilə mədən işlərinə sürgün edilsin.

Palatanın I-ci şöbəsinin rəisi işi araşdıraraq müəyyən edib: İsmayıl Hacı Həsən oğlu həmşəhərlisi Hacı Mahmud Hacı Məmməd Hüseyn oğlunun öldürdüyünü etiraf etməsə də, onların mübahisələrinin şahidi olmasa da müttəhim İrəvan qəza məhkəməsinin rəyində göstərilən hallarla cinayətdə ifşa olunur. Rəydə göstərilib ki, İsmayılın bu cinayəti törətmə səbəbi 5924 manat miras qalmış puldur. Bu sübut edir ki, qətl təsadüfən və ya mübaisədən yox, əvvəlcədən düşünülmüş şəkildə həyata keçirilib. Qəza məhkəməsinin bu işə dair 10 iyul tarixli rəyinə əsasən Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlu həmşəhərlisi Hacı Mahmud Hacı Məmməd Hüseyn oğlunu qəsdən öldürməkdə günahkar bilinir, buna görə də şöbə rəisi həmin rəyi dəyişdirməyə ehtiyac görmür.

Müşavir: (imza)» (71).

«Tiflis Cinayət və Mülkü Məhkəmə Palatası 29 iyul 1849-cu il tarixdə bu rəyi dinləyərək qərara alıb: Naxçıvan sakini İsmayıl Hacı Həsən oğlunun bütün hüquqlarından məhrum edilərək 70 çubuqla cəzalandırılması və daha sonra 12 il müddətinə mədənə sürgün edilməsi haqda palatanın 1 şöbəsinin rəisinin rəyi qanunlara uyğun olduğu üçün düzgün hesab edilsin və icra olunsun. Bu barədə protokol tərtib edilsin. Əsli ilə düzdür. İmzaladılar iştirak edənlər.

Katib: (imza)» (72).

Başqa bir qəsdən adam öldürmə ilə bağlı 14 dekabr 1855-ci il tarixli Naxçıvan sahə polis rəisinə göndərdiyi raportunda yazılmışdır: «Naxçıvan sahəsinin Bənəniyar kəndinin kəndxudası 13 dekabr tarixli raportu ilə mənə bildirib ki, həmkəndliləri Qəmbərəli Mərdan oğlu və Abdulla Əli Məmməd oğlu axşam saat 12-də Abdullanın evində bir-biri ilə mübaisə ediblər və o Qəmbəri bıçaqla vurub, nəticədə Qəmbər səhər vəfat edib.

Bu hadisə barəsində Siz Əlahəzrətlərə çatdıraraq bildirmək istəyirəm ki, mən bu hadisə barəsində istintaq açmışam və nəticəsini tezliklə təqdim edəcəyəm.

Düzdür: sahə rəisi (imza)» (73).

Ölümlə bağlı sahə polis rəisi tərəfindən keçirilmiş baxış aktında göstərilir: «14 dekabr 1855-ci il. Naxçıvan sahə rəisi aşağıda imza edən şahidlər Bənəniyar kəndinin kəndxudası Hacı Murad Allahverdi oğlu, həmkəndlisi Hacı Hüseyn Kəlbəlayi Abbasəli oğlu,

Kırna kəndinin kəndxudası Əlif Əmi oğlu, həmkəndliləri Novruz Əli Hacı Baba oğlu, Saltax kəndinin kəndxudası Əli Zeynalabdin oğlu, həmkəndlisi Səbzəli Baba oğlunun iştirakı ilə mərhum Qəmbərəli Mərdan oğlunun meyidinə baxış keçiriblər və müəyyən ediblər ki, meyid evdə imiş, daha doğru Qəmbərin özünün otağında, üzərinə çadra örtülmüşdür. Çadranı qaldırdıqda aydın oldu ki, əynində paltarı olmayıb, təqribən 30 yaşlarında, orta boylu, zəif bədən quruluşlu idi, başında və bədənin başqa yerlərində yara izləri olmayıb. Sol tərəfdə qabırğadan aşağıda uzunluğu bir qarış, dərinliyi 1,5 qarış olan xəncər yarası olub. Ola bilsin ki, daxilində bağırsaqlar zədələnib və Qəmbərəli Mərdan oğlunun ölümünə səbəb olub. Gördüklərimizi imzalarımızla təsdiq eləyirik.

Baxışı keçirdilər: Naxçıvan sahə rəisi, quberniya katibi (imza)» (74).

14 dekabr 1855-ci il. Bənəniyar kənd sakini Qəmbərəli Mərdan oğlunun öldürülməsi haqda Naxçıvan sahə rəisi tərəfindən Bənəniyar kəndinin kəndxudası Hacı Murad Allahverdi oğlunun sorğusu keçirilmişdir. Sorğuda yazılır: «Adım yuxarıda qeyd olunan kimidir, 45 yaşım var, məhkəməyə cəlb olunmamışam, evliyəm, övladlarım var, müsəlmanam. Bu ayın 12-də axşam mən öz həyətimdə idim. Qəflətən bir səs eşitdim və həmin dəqiqə ora qaçdım. Abdulla Əliməmməd oğlunun evindən 10 sajen aralıda mən həmkəndlim Qəmbərəli Mərdan oğlunun gördüm. O iki əlli qarnından tutaraq mənə dedi ki, Abdulla Əliməmməd oğlu onu yaralayıb, lakin harada və nəyə görə demədi. Bu vaxt mən öz həyətində duran Abdullanı gördüm. Mən onun qolundan tutdum və öz evimə gətirdim ki, o heç yerə qaçmasın. Səhər gün tezdən mənə bildirdilər ki, Qəmbər vəfat edib, buna görə də mən Sizə raport yazdım. Nəyə görə, necə və kimin yanında Abdulla Qəmbəri yaralayıb bunu bilmirəm. Mənə təkcə məlumdur ki, onlar və ailələri arasında indiyədək mübaisə və ədavət olmayıb, əksinə onlar bir qohum kimi çox mehriban yaşayırdılar. Raportumda isə mən tələsikdən və səhvən bildirmişəm ki, Abdulla və Qəmbər mübaisə ediblər. Qəmbərin arvadı və Abdullanın qohumları bildirirlər ki, bu hadisə ehtiyatsızlıq ucbatından baş verib. Bundan başqa mənə heç nə məlum deyil.

İfadəmi möhürümlə təsdiqləyirəm, əvəzimə imzalamağı isə Axund molla Rza Axund Əliqulu oğluna həvalə edirəm.

İfadəni aldı: Naxçıvan sahə rəisi, quberniya katibi (imza) (75).

31 yanvar 1856-cı il. İmperator həzrətlərinin əmri ilə İrəvan Quberniya Məhməsində eşidildi: Naxçıvan qəzası və sahəsi Bənəniyar kənd sakini Abdulla Əliməmməd oğlu tərəfindən həmkəndlisi Qəmbərəli Mərdan oğlunun öldürülməsi haqda cinayət işinin əsli və işdən çıxarışda isə belə yazılmışdır: «Hadisənin gedişatı aşağıdakı kimidir: Həmin kəndin kəndxudası 13 dekabr 1855-ci il tarixli raportu ilə Naxçıvan sahə rəsinə bildirib ki, kəndliləri Abdulla Əliməmməd oğlu və Qəmbər Əlimərdan oğlu 12-də öz aralarında mübaisə ediblər və Abdulla Qəmbəri xəncərlə yaralayıb. Nəticədə o həmin günün səhəri vəfat edib. Mərhum Qəmbərin meydinə müstəntiq və şahidlər tərəfindən keçirilmiş baxış haqqında ayın 14-də tərtib olunmuş aktdan görünür ki, mərhumun bədəninində yara yerindən başqa heç bir zədə yoxdur. Xəncər yarasının uzunluğu 1, dərinliyi 1, 5 qarışdır. Ölümün səbəbəi də ola bilsin daxildə bağırsaqların zədələnməsi olmuşdur. Bu işə dair istintaq apararkən həmin kəndxuda öz izahatının əksinə olaraq bildirib ki, 12 dekabr 1855-ci il tarixdə öz həyətində idi. Birdən hay-küy eşidib və həmin tərəfə qaçıb. Abdullanın evindən 10 sajen aralıda əlləri ilə qarnının tutmuş Qəmbərəli Mərdan oğlunu görüb. Qəmbər kəndxudaya deyib ki, onu Abdulla yaralayıb, nəyə görə və harada deməyib. Buna görə də o, kəndxuda Abdullanı həyətdə gördükdə onun qolundan tutaraq evinə gətirib və həbs edib. Səhəri gün isə Qəmbərin öldüyünü eşitdikdə sahə rəisinə məruzə yazıb. Hadisənin necə baş verdiyi ona məlum deyil, ancaq əmindir ki, Abdulla ilə Qəmbər arasında mübaisə olmayıb. Qəmbərin arvadı Almaxatun bildirib ki, 12- dekabr tarixində o əri ilə qızını evdə tək qoyaraq qardaşı Yaqub Bədəl oğlunun evinə gedib, hansının ki, arvadı Balaxanım doğurmuş. Bir saat və ya daha artıq vaxt keçəndən sonra əri qardaşı Yaqub ilə bir həyətdə yaşayan qohumları Abdulla Əliməmməd oğlunun evinə gedib və o da qızını Abdullanın evinə apararaq onu Qəmbərə tapşırıb. Bu zaman onlar hamısı kürsünün altında oturmuşdular, mübaisə etmirdilər. Abdullanın bacıları Şahnisə və Fatma-

nisə də orada idi. Sonra o qardaşının evinə qayıdıb, qardaşları İbrahimin arvadı Səlbi, Hüseyn xanın arvadı Anabacı və Abdullanın anası Xan Bəni də orada idi. Qəflətən Balaxanımın vəziyyəti pisləşib, buna görə də evdəki qadınlar hay-küy qaldırıblar. Daha sonra Almaxatun ərinin səsini eşidib həyətə çıxıb. Həyətdə Abdulla bacıları ilə durmuşdu. Bir qədər aralıda isə Qəmbər əlləri ilə qarnının tutaraq yolda gedirdi. Əri ona deyib ki, Abdulla ilə birlikdə qapıdan çıxanda onun xəncəri qarnına batıb. Bunu eşitdikdə Almaxatun uca səslə ağlamağa başlayıb. Səsə kəndlilərdən: Xəlil Məmmədcəfər oğlu, Hacı Hüseyn, Kərbəldayi Əsgər Kərbəlayi Niftəli oğlu, Musa Əliqulu oğlu, Məmməd Məmmədbağır oğlu və Hüseyn Əli oğlu gəliblər. Ərini evə apararkən o, yuxarıda adları çəkilən şəxslərin yanında xahiş edib ki, Abdulla bu hadisələ günahkar bilinməsin. Səhərədək Qəmbərin şüuru yerində orlub və o hadisənin təsadüfən baş verdiyini təkrarlayıb. Bunu evdə olan adamlar və Axund Molla Rza da eşidib, təkcə kəndxuda ərinin yanına gəlməyib. O həmçinin əlavə edib ki, Abdulla ilə Qəmbər heç vaxt mübaisə etməyiblər, əksinə həmsişə dost olublar. Müttəhim Abdulla Əliməmməd oğlu Qəmbəri qəsdən öldürməkdə təqsirli bilməyərək bildirib ki, 13 dekabr tarixində axşam o, bacıları və anasının xalası oğlu Qəmbər ilə öz aralarında söhbət edirdilər. Qəflətən Yaqubun evindən hay-küy eşidilib. Abdulla müsəlman adəti ilə Yaqubun arvadının başının altına qoymaq üçün xəncərini çıxarıb. Abdulla otaqdan çıxanda Qəmbər də onun dalınca gəlib və necə olubsa onun xəncərinə keçib. O özü buna fikir verməyib. Yaqubun qapısın qarşısında o eşidib ki, onun qızı olub. Geri qayıdanda o bacılarının ağladığını və Qəmbərin əlini qarnına tutub yolda getdiyini görüb. O bacılarından nəyə görə ağladıqlarını soruşub. Bu zaman kəndxuda gəlib və onu öz evinə apararaq həbs edib. Abdulla bildirib ki, Qəmbərin yaralanması qəsdən yox, onun özünün ehtiyatsızlığı üzündən baş verib və onların arasında heç vaxt mübaisə olmayıb, əksinə dostluq olub. Abdullanın evində keçirilmiş baxış aktından görünür ki, evin uzunluğu 1 rus arşını, hündürlüyü 1 xan arşını olan qapısı var. Abdullanın ifadəsini onun bacıları təsdiqləyiblər. Lakin Qəmbərin bacısı müttəhim Abdullanın anası Canbəni, Hüseyn xanın arvadı anabacı

öz ifadələrində bildiriblər ki, hadisənin şahidi olmayıblar, lakin onun Abdullanın dediyi kimi baş verdiyini eşidiblər. Abdullanın əmisi oğlu Yaqub Bədəl oğlu, İbrahim Bədəl oğlu, Hüseyn xan Bədəl oğlu hadisənin necə baş verdiyini görmədiklərini bildiriblər. 4-cü qardaşları Məhərrəm isə bildirib ki, o səs eşidib küçəyə çıxanda görüb ki, Qəmbəri evə aparırlar. Qəmbər əlləri ilə qarnını tutaraq Abdullanın xəncərinin təsadüfən ona batdığını, hadisədə Abdullanın günahı olmadığını deyirdi. Axund Molla Rza and içdirmədən, 30 nəfər Bənənəniyar sakini isə and içdirilərək Qəmbərin arvadının ifadəsini təsdiqləyiblər və bildiriblər ki, Qəmbərlə Abdulla arasında heç vaxt mübaisə olmayıb. Cinayət qanunlarının 15 cildi 1266-cı maddəsi, cəza qanunlarının 1966-cı maddəsi. Qərara alınır: İşdən göründüyü kimi istintaq zamanı Qəmbərin qəsdən öldürüldüyünə dair heç bir fakta rast gəlinmədiyindən, müttəhim Abdulla bunu etiraf etmədiyindən və sorğumu keçirilmiş bütün şəxslərin hadisənin qəsdən törədildiyini eşitmədiklərini bildirdiklərindən İrəvan Quberniya Məhkəməsi Naxçıvan qəzası və sahəsi Bənəniyar kənd sakini 27 yaşlı Abdulla Əliməmməd oğlu təsadüfən Qəmbəri yaralıdığına görə 2 həftə müddətinə həbs olunqmasına qərar verib.

Sədr: (imza) *Müşavir: (imza)* *Katib: (imza)»* (76).

Bədənə xəsarət yetirmə ilə bağlı polis tərəfindən aparılmış ilkin istintaq sənədləri, sorğuları və verilmiş izahatlar çox maraqlıdır. Bədənə xəsarət yetirmə ilə əlaqədar şahid sifəti ilə 22 fevral 1849-cdu il tarixdə sahə polisi tərəfndən alınmış ifadədə yazılır: «Mən aşağıda imza edən, Naxçıvan sahəsi Nurs, Məzrə kənd sakini Qasım Əhməd oğlu Naxçıvan sahə iclasçısına bildirirəm ki, bacım Bibixanım 3 il Ordubad sahəsinin Yaycı kənd sakini Allahverdi Məmməd Şəfi oğlunda ərdə olub. Bu müddət ötəndən sonra öz istəkləri və şəriətin icazəsi ilə onlar boşanıblar. Bacımın əlində buna dair şəriət kağızı var. Boşanandan 4 ay sonra adı çəkilən Allahverdi bizim kəndə gələrək bacımdan ikinci dəfə ona ərə gəlməyini xahiş edib, lakin bacım bunu qəbul etməyi. Bir həftədən sonra Alahverdi yenidən bizim kəndə gəlib. Bibixanım və 2 azyaşlı uşuqdan başqa evdə heç kimi olmadığından istifadə edərək onu döyüb və burnunu kəsib. Mən bu vaxt

qonşunun naxırında idim. Kəndlilərimiz Kazar, Sarkis, Arutyun, Arakel və Akop da orada idi. Qəflətən səs eşitdik və naxırdan çıxdıq. O isə bu vaxt mənim naxırımda gizlənmişdir. Mən bacımın yanına gəldikdə onu qan içində gördüm və hadisə barədə kəndlilərimizə danışdım. Biz Allahverdini axtarmağa başladıq və onu naxırda tapdıq. Bıçağı əlindən aldım və təqdim edirəm. Əvəzimə imzalamağı Mirzə Qasıma Həvalə edirəm.

İfadəni aldı: sahə iclasçısı (imza)

Tərcumə etdi: (imza)» (77).

24 fevral 1849-cu il tarixdə qəza prokurorunun iştirakı ilə Naxçıvan sahə polisi tərəfindən Allahverdi Məmməd Şəfi oğlundan aparmış sorğuda göstərilirdi: «Adım Allahverdi Məmməd oğludur, 40 yaşım var, savadsızam, evliyəm, övladlarım var, müsəlmanam, məhkəməyə cəlb olunmamışam, cərimə olunmamışam. Yaşayış yerim Naxçıvan şəhərinin Təzəkənd kəndidir. 4 il bundan əvvəl mən Nurs-Məzrə kənd sakini Qasım Əhməd oğlunun bacısı Bibixanımla evlənmişəm, 3 il onunla birlikdə Təzəkənd kəndində yaşadıqdan sonra Ordubad sahəsinin Yaycı kəndinə köçdük, burada da 6 ay yaşadıqdan sonra daimi yaşamaq üçün Naxçıvan sahəsinin Nurs-Məzrə kəndinə köçdük. Bu kənddə 4 ay yaşadıqdan sonra Bibixanım mənimlə yaşamaq istəmədyindən və boşanmaya təkid etdiyindən biz Naxçıvan şəriətinə getdik və boşandıq. Bundan sonra Bibixanım qardaşı Qasımın evində yaşamağa başladı, mən isə həmin kənddə qaldım. 4 aydan sonra mən onun evinə getdim və ondan xahiş etdim ki, yenidən mənim arvadım olsun. Lakin o mənim bu təklifimi rədd etdi. Bir həftədən sonra mən təkrarən onun evinə getdim. Bu vaxt o uşaqlarla evdə tək idi. Bibixanım məni ikinci dəfə rədd edəndən sonra mən palazın üstündəki bıçağı götürüb onun burnunu kəsdim. Bu cinayəti mən qəsdən yox hirsli vaxtımda törətmişəm, buna görə də cəzanın yüngülləşdirilməsini xahiş edirəm. Ərizəmi imzaladı: Mirzə Qasım.

İfadəni aldı: sahə iclasçısı (imza)

İştirak etdi: qəza prokuroru (imza)

Tərcümə etdi: (imza)» (78).

Bu cinayət işə İrəvan qəza Məhkəməsində baxılmışdır. Məhkəmənin iclas protokolunda yazılmışdır: «Eşidildi: Naxçıvan sahəsi Nurs-Məzrə kənd sakini Allahverdi Məşədi Şəfiqulu oğlu tərəfindən keçmiş arvadı Bibixanımın burnunun kəsilməsi haqda cinayət işinə dair hökmün vitse qubernator cənabları tərəfindən təsdiqlənməsi haqqında Tiflis Cinayət və Mülkü Məhkəmə Palatasının 14 oktyabr tarixli 3472 №-li əmri. Məhkəmənin rəyinə əsasən Palata həmin hökmlə qərara alıb: Müttəhim Allahverdi Məmməd Səfiqulu oğlu, 40 yaşında, özü etiraf etdiyinə görə keçmiş arvadı Bibixanıma xəsarət yetirdiyinə görə Qanunların 5-ci cildinin 1180-cı maddəsinə, 140 maddəsinin 2-ci bəndinə, 1948-ci maddəsinin 1-ci bəndinə əsasən bütün hüquqlardan məhrum edilməklə 22-ci maddədə nəzərdə tutulmuş sayda, yəni 15 çubuqla cəzalandırılaraq Sibirə sırgün edilsin. Həmçinin Allahverdi Şəfiqulu oğlundan bu iş üçün sərf olunmuş 10 manat 80 qəpik yol pulu tutulsun. Hökmün yerinə yetirilməsi barədə Palata Tiflis Quberniya İdarəsinə məlumat verərək məhkəməyə tapşırır ki, hökm cinayətkar Allahverdi Məmməd Səfiqulu oğluna elan olunsun. Qərar: İrəvan həbsxanasında saxlanılan məhbus Allahverdi Məmməd Səfiqulu oğlu həbsxanadan çıxarılaraq cinayət palatasının hökmü ona elan olunsun, daha sonra onun barəsində xüsusi sərəncam verilənədək yenidən həbsxanaya göndərilsin. Əslini imzaladılar iştirak edənlər.

Düzdür: katib (imza)» (79).

XIX əsrin 50-ci illərində polis orqanlarında mübaisəli mülkü işlər, xüsusi ilə torpaqla bağlı açılmış işlər də çox olmuşdur. Həmin işlərdən biri Ordubad qəzasının Tivi bəyldəri tərəfindən Biləv kənd sakini Əli ağa Kazım ağa oğlundan And və Top torpaqlarını tələb etməsi haqda şikayəti ilə əlaqədar Ordubad qəza rəisinin 2 iyul 1857-ci il tarixli rəyində yazılır: «Ordubad qəzasının Tivi kəndində yaşayan bəylər Biləv kənd sakinləri Əli ağa Kazım ağa oğlu və onun qohumu praporşik Kərim Sultan tərəfindən Vənənd və Tivi kəndləri yaxınlığında yerləşən və onlara məxsus olan And və Top torpaqlarının qanunsuz mənimsənildiyinə dair iddia təqdim ediblər. Nəticədə bu məsələyə dair ətraf kəndlərin: Parağa, Bist və Beyrut kənd sakinlərinin sorğusu

keçirilmişdir. Aydın olmuşdur ki, bir-birinə bitişik olan və sərhədləri qərbdən Qaraçeşmə bulağı və Əliyar yarğanı, arxasında isə tivililərin torpağı, şimaldan əkin apardıqları Suludüz düzənliyi, şərqdən Ağbist və Qarlam-Qum Qışlağı, arxasında isə nəsirvazlıların torpaqları, cənubdan Qız-Gəlin Çuxuru təpəsi Kərkəbin pirinədək, arxasında isə Urumcu Daşı və Parağa kəndinin torpaqları olan And və Top torpaqları nəinki mübaisə başlamazdan 4 ay əvvəl, hətta uzun illərdən bəri Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultanın istifadəsində olub.

Bunları işlə uyğunlaşdıraraq və mülkü qanunların X cildin 2044 və 2045-ci maddələri və II cildin 2531-ci maddəsini əsas götürərək mən hesab edirəm: mübaisəli And və Top torpaqları əvvəlki kimi Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultanın istifadəsində qalmalıdır, tivili bəylərə isə təklif olunmalıdır ki, həmin torpaqlara olan hüquqlarını məhkəmə yolu ilə sübut etsinlər. Bu barədə qərar həmin kəndlərin kəndxudaları vasitələri ilə tərflərə elan olunsun və onlardan buna dair qəbz alınaraq qəza idarəsinə təqdim olunsun.

Ordubad qəza rəisi vəzifəsini icra edən (imza)» (80).

31 iyul 1857-ci il tarixdə Ordubad şəhər polis idarəsi mübahisəli torpaqla bağlı apardığı sorğudan sonra Tivi və Biləv kənd kəndxudalarına 9 oktyabr 1857-ci il tarixli 1405 №-li əmr göndərir: Tivi kənd kəndxudasına göndərilən əmrdə yazılırdı: «Tivi kəndində yaşayan bəylər tərəfindən Biləv kəndinin sakini Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultandan And və Top torpaqları tələb etmələrinə dair apardığım sorğu nəticəsində aydın olub ki, bu torpaqlar uzun illər Əli ağa və Kərim Sultana məxsus olub. Buna görə də mən Mülkü qanunların 10 cildinin 2044 və 2045-ci, həmçinin 2531-ci maddəyə əsaslanaraq And və Top torpaqlarını əvvəlki kimi Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultanın istifadəsində saxlayıram. Tivili bəylərə isə təklif edirəm ki, öz hüquqlarını məhkəmə yolu ilə müdafiə etsinlər. Xahiş edirəm bunu onlara bildirəsiniz və onlardan qəbz alaraq qəza idarəsinə təqdim edəsiniz» (81).

Biləv kənd kəndxudasına göndərilən əmrdə isə belə yazılmışdır: «Xahiş olunur ki, bu əmr Əli ağa Kazım ağa oğluna və praporşik Kərim Sultana elan olunsun.

Katib köməkçisi: (imza)» (82).

9 oktyabr 1857-ci il tarixdə göndərilmiş əmrlə bağlı Tivi kənd sakinləri Ordubad qəza rəisinə verdikləri qəbzdə yazırlar: «Bizlər aşağıda imza edən Tivi kənd sakinləri bəylər bu qəbzi Ordubad qəza rəisinə veririk ondan ötəri ki, Biləv kənd sakinləri Əli ağa Kazım ağa oğlu və onun qohumu Kərim Sultan tərəfindən bizdən And və Top torpaqlarının tələb edilməsinə dair Ordubad qəza rəisi tərəfindən kəndimizin kəndxudasına göndərilmiş əmr kəndxuda tərəfindən bizə elan olunub və narazı tərəfə məhkəmə yolu ilə iddia qaldırmaq hüquq verən 10 cildin 2045-ci maddəsi və iddia başlamaq üçün narazı tərəfə 4 həftəlik müddət verilməsi haqda həmin cildin 2047-ci maddəsi bizə izhah olunur. Bunu imzalarımızla təsdiqdəyirik.

Qəbzi aldı: Ordubad qəza rəisi vəzifəsini icar edən (imza)» (83).

Ordubad qəza rəisi 22 yanvar 1858-ci il tarixdə İrəvan hərbi qubernatoru İvan İvanoviç Nazarova göndərdiyi raportunda isə belə yazırdı: «Tivi bəyləri ilə Biləv sakinləri arasında And və Top torpaqlarının mülkiyyəti üstündə baş vermiş mübaisəyə görə mən mübaisəli ərazidə oldum və tərəflərin göstərdikləri sərhədlərə baxış keçirdim, torpaq işğallarına dair məsələlərin həllinin polis hakimiyyətinə həvalə edən 10 cildin 2044-cü maddəsinə əsasən mən həmin torpaqlarla qonşu olan kəndlər: Parağa, Bist və Beyrut sakinlərini dəvət etdim. 12 nəfər Tivi bəylərinin və Biləv kənd sakinləri Əli ağa Kazım ağa oğlu və Kərim Sultanın iştirakı ilə onlar and içdirildilər. Aqdiçmə vərəqəsinin imzalanması Tivi bəylərinə təqdim olunduqda onlar bundan imtina edərək bildirdilər ki, qonşu kəndlərin sakinlərinin onlarla düşmənçiliyi var. Bundan başqa onlar qışqırmağa başlayıblar. Buna görə də mən və iştirak edənlər ümumi imzalarla akt tərtib edərək Tivi bəylərinin iştirakı olmadan kəndlilərin sorğusuna başladıq.

Parağa, Bist və Beyrtu kəndlərindən sorğusu keçirilmiş 30 nəfər yekdilliklə bildiriblər ki, And və Top torpaqları həmişə Əli ağa və praporşik Kərim Sultana məxsus olub.

Deyilənləri nəzərə alaraq və qanunların 10 cildinin 2044, 2045 və 11 cildinin 2531 maddələrinə əsaslanaraq mən qərara aldım ki, And və Top torpaqları əvvəlki kimi Əli ağa və praporşik Kərim Sultanın istifadəsində qalsın, əks tərəfə isə təklif olunsun ki, hüquqlarını məhkəmə yolu ilə müdafiə etsinlər. Qərarın tərəflərə elan olunması üçün 1904 №-si ilə Tivi, 1905-si ilə Biləv kəndxudasına götərişlər verilmişdir. Bu qərar veriləndən sonra Tivi bəyləri mənə təqdim etdikləri 2 xahişnamədə bildiriblər ki, onlar qonşu kəndlərin sakinlərinin sorğusunun keçirilməsi ilə razı deyillər, çünki onlar arasında ədavət var. Bundan sonra onlar müxtəlif bəhanələrlə 1905-li əmrin onlara elan olunduğuna dair qəbz verməkdən imtina ediblər. Əks tərəf isə ötən ilin 9 oktyabr tarixində qərarın onlara elan olunduğuna dair qəbz verib. Sorğunun nəticələrini Sizə təqdim edirəm.

Ordubad qəza rəisinin vəzifəsini icar edan (imza)» (84).

Tivi bəyləri tərəfindən Biləv kənd sakinləri Əli ağa Kazım ağa oğlu və qohumlarından tələb edilən And və Top yaylaqları barədə Ordubad qəza idarəsi 25 dekabr 1858-ci il tarixdə belə bir qərar qəbul etmişdir. Qərarda göstərilir:

«1857-ci ilin iyun ayında Ordubad qəzasının Tivi kəndində yaşayan bəylər Biləv kənd sakini Əli ağa Kazım ağa oğlu və qohumu praporşik Kərim Sultanın Parağa və Tivi kəndi yaxınlığında yerləşən And və Top məzrələrinin qanunsuz mənimsədiklərinə dair şikayətnamə təqdim edib. Nəticədə qonşu Bist, Parağa, Beyrut kənd sakinlərinin sorğusu keçirilmişdir. Müəyyən edilmişdir ki, mübaisəli And və Top torpaqları Əli ağa və Kərim Sultana məxsusdur. Bu torpaqların arxasında nəsirvazlıların torpaqları, cənubdan isə Qarğaburun-Pirə və Urumuş daşı qayasınadək Qızıl-Gəlin çuxuru dağları, onun arxasında isə Parağa kəndinin torpaqları başlayır. Nəinki mübaisədən 4 ay əvvəl, hətta uzun illərdən bəri torpaqlar Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultanın istifadəsində olublar. Bunları nəzərə alaraq və Mülkü qanunların X cildinin 2044 və XI cildinin 2531-ci maddələrinə əsaslanaraq qəza rəisi vəzifəsini icra edən ştabs rotmisters knyaz Tarxan Maurov 2 iyul 1857-ci il tarixdə qərara alıb: mübaisəli And və Top torpaqları əvvəlki kimi Əli ağa Kazım ağa oğlu və

Kərim Sultanın istifadəsində qalsın. Tivi bəylərinə isə təklif olunmuşdur ki, hüquqlarını məhkəmə yolu ilə müdafiə etsinlər, bu barədə 1904 №-si ilə Tivi, 1905 №-si ilə Biləv kəndxudalarına əmrlər göndərilərək tapşırılmışdır. Qərar tərəflərə elan olunsun və 10 cildin 2047-ci maddəsi onlara izah olunsun. Qərardan sonra Tivi bəyləri qəza rəisinə təqdim etdikləri iki xasiyyətnamədə bildiriblər ki, onlarla düşmənçilikləri olan kənd sakinlərinin sorğuya çəkilməsinə razı deyillər. Bundan sonra onlar 1905 №-li əmrin onlara elan olunduğu barədə qəbzi verməkdən imtina ediblər. Əks tərəf isə 9 oktyabr 1857-ci il tarixində əmrin onlara elan olunduğuna dair qəbz verib. Tivi bəyləri And və Top məzrələrinin onlardan qanunsuz olaraq alındığına dair İrəvan Hərbi Qubernatoru cənablarına şikayət təqdim edəndən sonra qubernator həzrətləri qəza rəisindən izahat və işin əslini tələb edərək müəyyən edib: Sorğusu keçirilmiş 30 nəfərdən 10 nəfərinin ifadəsinə görə Tivi bəylərinin tələb etdiyi torpaqlar əks tərəfə məxsusdur. Qalan 20 nəfərin ifadəsi isə ondan ibarətdir ki, bu torpaqlar həmişə əks tərəfin ata və babalarına məxsus olub.

Bu ifadələr qərar verilərkən əsas sayıla bilməz, çünki həmin ifadələrdən mübaisə başlamazdan 4 ay əvvəl torpaqların kimin istifadəsində olduğu aydınlaşdırılmayıb. Belə ki, onlar da qeyd olunub ki, torpaq cavabdehlərin babalarının istifadəsində olub, hal-hazırda kimin istifadəsində olduğu isə aydınlaşdırılmayıb. Malikanəyə qiymət qoyulmayıb, belə ki, həmin qiymətdən məsələnin həlli aydın olacaq, yəni qəza rəisinin məsələni məhkəmə yolu ilə həll edəcəyi aydınlaşacaq. Əlbətdəki bu cür nöqsanlar olarkən mübaisənin həlli əsaslı və düzgün sayıla bilməz. Bu da Tivi bəylərinə əsas verib ki, And və Top məzrələrinin onlardan qanunsuz alındıqlarına dair şikayəti bildirsinlər. Hərbi qubernator cənabları şikayətçilərin əlehinə onların qəbz verməkdən imtina etmələrinə dair akt aşkar etsə də bildirib ki, şikayətçilərin işdə nöqsanlara yol verildiyinə dair şikayətləri olduğu şəraitdə onlara qarşı irəli sürülmüş ittiham öz qüvvəsini itirir. Bütün yazışmaları qəza rəisinə qaytararaq qubernator həzrətləri tapşırıb ki, Mülkü Qanunların X cildin 2661, 2662-ci maddələri, 25/01-ci maddəsinin 1-ci bənidinə uyğun şəkildə mübaisəli torpağın

dəyəri müəyyən edilsin və əgər bu qiymət 100 manatdan artıqdırsa onda mübaisə məhkəmə yolu ilə həll edilsin. Əgər mübaisə barədə yekun qərar vermək mümkün deyilsə, onda şikayətçilərin göstərdiyi şahidlərin ifdaləri alınaraq mübaisədən 4 ay əvvəl torpaqların kimin istifadəsində olduğu müəyyən edilsin. Mübaisə Mülkü Qanunların X cildin 2044-cü maddəsinə uyğun şəkildə həll edilsin, narazı tərəf isə İrəvan qubernıya məhkəməsinə yönəldilsin. Qərar mübaisə gedən tərəflərə elan edilsin.

İşi tamamlamaq isə qəza rəisinin köməkçisi Sakvarovidzeva həvalə edilsin. Sakvarovidzev işi tamamladıqdan sonra 25 noyabr 1858-ci il tarixli raportla qəza idarəsinə təqdim edib. Sakvarovidzevun raportundan aydın olub: 1) Nəsirabad və Tivi kənd sakinləri Hacı Nəsir bəy Həsən bəy oğlu və Əliqulu bəy Məmməd Həsən bəy oğlu 26 iyul 1858-ci il tarixli izahatlarında bildiriblər: a) And və Top məzrələrindən (sahələrindən) ibarət torpağın sahəsi 7-8 xəlvərdir, taxıl əkmək üçün yararlıdır, lakin heç vaxt əkilməyib, ancaq otlaq kimi istifadə olunub, b) And və Top məzrələrinin dəyəri 500 manatdır, v) Bu torpaqların sənədləri Tivi bəylərinin əlindədir, q) Sənədlərdən başqa onlar Çənnəb, Üstüpü, Urumuş və Nürgüt sakinlərinin şahidliyinə əsaslanırlar, lazım gəlsə onlar şahidlərin adlarını da çəkə bilərlər. 2) Əks tərəf, yəni Biləv mülkədarları Əli ağa Kazım ağa oğlu və praporşik Kərim Sultan mübaisəli malikanənin dəyərinin 500 manat olduğunu təsdiqləyiblər. 3) Cənab Sakvarovidzev hadisə yerinə gələrək Tivi və Nəsirabad bəylərindən tələb edib ki, onlar izahatlarına uyğun olaraq Üstüpü, Çənnəb, Urmis və Nürgüt kənd sakinlərindən şahid göstərsinlər. Lakin onlar məlum səbəblərdən həmin kəndlərin sakinlərindən şahid göstərməkdən imtina ediblər. Buna görə də cənab Sakvarovidzev bu barədə protokol tərtib edərək ətraf kəndlərin sakinlərini sorğuya çəkib. 4) Erməni və tatarlardan (azərbaycanlılardan) sorğusu keçirilmiş 101 nəfər Bist, Parağa, Beyrut, Nürgüt. Üstüpü, Ələhi, Urumis, Çənnəb sakinlərindən 99 nəfər bildiriblər ki, And və Top adlanan torpaqlar uzun illərdən bəri Biləv bəyləri praporşik Kərim Sultan, Əli ağa Kazım ağa oğlu və qohumlarının istifadəsində olub. Mübaisə başlanmazdan 4 ay əvvəl də bu belə olub. Nürgüt sakinlərindən 2 nəfər isə bildirib ki,

valideyinlərindən eşitdiyinə görə And və Top torpaqları Tivi və Nəsirvaz bəylərinin istifadəsirdə olub, biləvlilər isə həmin ərazilərdən yaylaq kimi istifadə ediblər. Tivi və Nəsirvaz bəyləri isə Biləv bəyləri arasında mübaisə başlamazdan 4 ay əvvəl torpaq birincilərin istifadəsində olub.

Qətnamə.Tivi və Nəsirvaz bəyləri arasında mübaisəli And və Torp tolrpaqnları barədə köməkçim saray müşaviri Sakvarovidzev tərəfindən aparılan sorğudan aydın olur: a) tərəflərin bildirdiyinə görə mübaisəli torpaqların dəyəri 500 manatdır, b) Tivi və Nəsirvaz bəyləri 26 iyul tarixli izahatlarında Çənnəb, Üstüpü, Urumis və Nürgüt kəndlərinin sakinlərini şahid göstərsələr də sonradan məlum olmayan səbəblərdən həmin kəndlərin sakinləri şahidlikdən imtina ediblər, v) Sorğusu keçirilmiş Çənnəb, Üstüpü, Urmis və Nürgüt kənd sakinləri bildiriblər ki, mübaisə başlamazdan 4 ay əvvəl mübaisəli torpaqlar Biləv sakinləri praporşik Kərim Sultan, Əli ağa Kazım ağa oğlu və qohumlarının istifadəsində olublar. Buna görə də deyilənləri nəzərə alaraq və Mülkü qanunların X cildinin 21 və 22-ci maddəsinə əsəslanaraq qərara alıram:

«Mübaisəli And və Top torpaqları Biləv kənd sakinləri praporşk Kərim Sultanın, Əli ağa Kazım ağa oğlunun və onların qohumlarının istifadəsinə verilsin, əks tərəfə isə bildirilsin ki, onlar Mülkü qanunların X cildin 24-cü maddəsinə uyğun olaraq 4 həftə müddətində İrəvan quberniya məhkəməsinə şikayət edə bilərlər. Daha sonra isə mübaisə edən tərəflər qəza idarəsinə çağrılaraq qərar onlara elan olunsun və işdə sərf edilmiş 20 vərəq kağıza görə Tivi və Nəsirvaz bəylərindən 3 manat tutulsun və Naxçıvan qəza xəzinadarlığına göndərilsin. Bütün bunlar icra olunandan sonra İrəvan hərbi qubernatoruna məlumat verilsin. Daha sonra iş bitmiş hesab edilərək arxivə göndərilsin» (85).

II FƏSİL.
XIX əsrin axırları XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyəti

Bütün zamanlarda dövlət quruluşundan asılı olmayaraq onun ictimai qayda-qanun gözləyən, sabitliyi təmin edən sistemə həmişə ehtiyac olub. Ona görə də XIX əsrin axırları XX əsrin əvvəllərinə başqa sistemlərlə yanaşı ilk növbədə hüquq-mühafizə orqanlarını yaratmaqla onun möhkəmlənməsinə xüsusi diqqət göstərilmişdir.

Söhbət açdığımız dövrlərdə polis idarəsinin nəzdində atlı polis kazak dəstələri də fəaliyyət göstərirdi. Onların əsas fəaliyyəti qəzada və mahalda asayişi qorumaqla yanaşı sərhəd zonalarında qaçaqmalçılığa qarşı mübarizə aparmaqdan ibarət idi. Polis kazak dəstələrinin saxlanması üçün lazımi dövlət binalarının olmaması üzündən hər bir qəza və mahalda onlar üçün evlər, həyətlər, atların saxlanılması üçün tövlələr və s. yardımçı binaların kirayə verilməsinə dair bir çox sənədlərə rast gəlirik ki, həmin sənədlərdən biri də Ordubad şəhər polis idarəsinin rəisi P. Levitskinin 3 aprel 1893-cü il tarixdə İrəvan Quberniya idarəsinə göndərdiyi raportdur. P. Levitski raportunda göstərirdi ki, 24 mart 1888-ci il tarixdə Mehdi bəy Hacıyevlə bağlanmış müqaviləyə əsasən polis kazaklarının 7 nəfərdən ibarət komandası üçün 23 may 1892-ci il tarixdə otaqlar kirayə götürülmüşdür.

Ordubad polis idarəsi yanında fəaliyyət göstərəcək kazak dəstəsi üçün kirayə edilmiş otaqların illik kirayə haqqı 144 manatdır. Lakin bu otaqlar elə bərbad vəziyyətdədir ki, kazakların orada yaşaması mümkün deyil. Ona görə də başqa, daha rahat yaşayış üçün daha yararlı otaqlar axtararaq Ordubad sakini Balabəy Əlixanovdan 4 ədəd işıqlı otaq kirayə etmək məcburiyyətində qalaraq 1893-cü ilin fevralın 1-dən kazakların həmin yeni otaqlara köçməsini təşkil etdim. Əlavə kirayə edilmiş Mehdi bəy Hacıyevə məxsus olan otaqlar yaşayış üçün yararsız olmaqla yanaşı, həm də rütubətli idi və damı damırdı. Yeni otaqların sahibi Əlixanov həmin otaqları ildə 120 manat kirayə haqqı ilə 5 illiyə kirayəyə verməyə razı olmuşdur ki, bu da əvvəl kirayə edilən otaqların illik kirayə haqqından 24 manat ucuzdur.

Bu raportla bağlanmış müqavilənin layihəsini Sizə göndərirəm və quberniya idarəsindən acizanə xahiş edirəm ki, mənə layihədə göstəlilən şərtlərlə B. Əlixanovla müqavilə bağlamağa icazə verəsiniz (86).

Balabəy Əlixanov ilə Ordubad polis pristavı P. Levintski ilə bağlanmış müqavilənin layihəsində göstərilirdi: «15 mart 1893-cü il tarixdə Ordubad şəhər sakini Balabəy Əlixanov və Ordubad şəhər polis hissəsinin rəisi pristav Levintski aşağıdakı şərtlərlə bu müqaviləni bağladı:

1. Müqaviləni mən, Balabəy Əlixanov, Ordubad polis idarəsi yanında 7 kazak üçün Ordubad şəhərinin Ambaras küçəsində olan 4 otaqdan ibarət mənziliini, 7 at üçün nəzərdə tutulmuş tövləni, ayrıca həyəti, anbar, onlardan kazarma üçün nəzərdə tutulmuş iki otağı, uryadnik üçün kiçik otağı və yem taxılı üçün nəzərdə tutulmuş otağı kirayə verirəm.

2. Bu otaqları mən 1 fevral 1893-cü il tarixdən 1 fevral 1898-ci il tarixədək beşillik müddətə verirəm. Bu kontrakt layihəsi təsdiq olunduqdan sonra mən Əlixanov bütün otaqların tavanın əhənglə ağartmağı, ümumiyyətlə Ordubad şəhər polis hissəsi rəisinin göstərdiyi lazımi təmir işləri aparmağı və kazarmalarda yatmaq üçün taxtalar düzəltməyi öhdəmə alıram.

3. İllik kirə haqqı 120 manat müəyyən edilir və hər ilin üçüncü ayında mənə verilir.

4. Müqavilənin müddəti qurtaranədək mən Balabəy Əlixanov kirayə verilmiş otaqları geri almaq və eləcə də qarşı tərəf kazak dəstəsini ləğv edilməsi və başqa yerə köçürülməsi, hökumətin göstərişi ilə yeni bina tikilməsi istisna olaraq digər hallarda müqavilənin müddəti qurtaranadək kirayə edilmiş otaqları geri qaytarmaq hüququna malik deyiləm. Yuxarıda göstərilən müstəsna hallarla əlaqədar kazak dəstəsi kirayə götürülmüş otaqlardan gedərlərsə mən onların gedən günə qədər mənə çatacaq kirayə haqqını alacağam.

5. Müqavilənin (kontraktın) davam etdiyi müddətdə otaqların cari və əsaslı təmiri, habelə sobaların borularının təmizlənməsi polis hissəsi rəisinin birinci tələbi ilə mənim hesabıma aparılır. Əks halda mənim heç bir etirazım olmadan həmin işlər qarşı tərəfdən kirayə haqqı hesabına görülür.

6. Əgər mənim kirayə verdiyim otaqlar zəlzələ və digər atmosfer hadisələri nəticəsində uçub dağılarsa və yanğına məruz qalarsa onda mən, Balabəy Əlixanov yaranmış zədələnmələr aradan qaldırılanadək və ya otaqlar yenidən qurulanadək polis rəisinin tələbi ilə öz hesabıma başqa yararlı otaqlar kirayə etməyi öhdəmə alıram.

7. Müqavilənin davam etdiyi müddətdə məndən kirayə götürülmüş otaqlar üçün, eləcə də bundan sonra təyin olunan pul mükəlləfiyyəti mənim hesabıma ödəniləcəkdir.

8. Bu müqavilə bağlanarkən bütün xərcləri mən öz üzərimə götürürəm.

9. Bu müqavilə vicdanla və dəqiq yerinə yetirilməlidir. Müqavilənin əsli Ordubad şəhər polis idarəsində saxlanılır, onun surəti isə mənə verilir.

10. Bu müqavilə bütün hallarda nəzərdə tutulmuş qaydalar qanunda nəzərdə tutulanlara uyğun olaraq yerinə yetirilir və bütün bunları öz imzamla təsdiq edirəm.

İmza: Balabəy Əlixanov.

İmza: Ordubad şəhər polis idarəsinin rəisi P. Levintski» (87).

XIX əsrin 90-cı illərində tələbnamə, ərizə və şikayətlərin, həmçinin cinayət xarakterli işlərin olduqca çoxaldığından yeni ştat vahidinin verilməsinə dair Ordubad şəhər polis idarəsinin rəisi P. Levintskinin Naxçıvan qəza polis idarəsinə xahiş məktubu ilə əlaqədar Daxili İşlər Nazirliyinin Naxçıvan əyalət rəisi podpolkovnik Slavatin 21 aprel 1894-cü ildə İrəvan qubernatoruna göndərdiyi raportunda yazırdı: «Hazırda qüvvədə olan inzibati idarə ştatları qüvvəyə minənədək Naxçıvan əyalətinimn sabiq rəisi podpolkovnik Kurvin 2 mart 1886-cı il tarixli 2695 saylı raportu ilə Siz zatialilərin canişini qarşısında Ordubad şəhərində polis hissəsinə rəhbərlik etmək üçün şəhər pristavının müavini vəzifəsinin təsis olunması haqqında vəsatət qaldırmışdır. Lakin bu vəsatət təmin olunmadığından Ordubad şəhəri polis vəzifəsi sahə pristavının üzərinə qoyulmuşdur. Ordubad əyaləti ləğv edildikdən sonra əyalət rəisləri daim olaraq Ordubad sahəsinin pristavına köməklik göstərmək üçün əyalət polis idarəsinin vəzifəli əməkdaşlardan ora göndərilsə də bu iş əyalət polis idarəsi şəxsi heyətinin zərərinə olaraq görülür.

Naxçıvan əyalətini idarə etdiyim iki il ərzində əyalət dairəsində xalqı idarə etməyim bütün şərtlərini kifayət qədər öyrəndikdən sonra özümə borc hesab edirəm ki, mənim tabeliyimdə olan bütün icraçı vəzifə sahiblərindən geridə qalanı Ordubad sahəsinin pristavıdır. Keçən il də polis idarəsinin işini nəzərdən keçirərək mən bu fakt üzərində dayanmışdım. Zatialilərimizə təqdim edəcəyim məlumatlar məndə belə bir qəti inam yaradır ki, mənim tabeliyimdə olan sahə pristavları arasında əmək bölgüsü tamamilə qeyri normaldır. İl ərzində 4 polis sahəsinə daxil olan tələbnamələrə digər sahələrə göndərilənlərdən 3 dəfə çox olur. Sonra polis pristavının fəaliyyətinin ən mürəkkəb sahəsinə diqqət yetirdikdə məlum olur ki, nə qədər alacağı əvvəldən bilinməyən vergilərin yığılması zamanı Ordubad sahəsində olan 52 kənddən 26-nın mövsümü işlə məşğul olan sakinləri bu vergilərin böyük bir hissəsini ödəyir. Bu insan kütləsi qarışıq peşə sahibləridir və sövdələşmənin ən böyük hissəsini onlar həyata keçirir. Bununda nəticəsində onlardan cərimə, kommersiya ödəmələri və s. şəkildə böyük məbləğdə dövlət vergiləri alınır. Əgər tək əyalətdə deyil bütün Zaqafqaziyada nəzərə çarpan böyük ticarət dövrüyyəsi, təhsilli adamları və ipək istehsal edən fabrikləri olan Yuxarı Əylis kəndində bu kəndlərin siyahısına qatsaq yerli pristava göndərilən yazılı və şifahi tələbnamələrin nə qədər çox olduğunu müəyyən etmək o qədər çətin olmaz, halbuki, onun vəzifəsi tək bunlarla bitmir.

5 min nəfər əhalisi, böyük bazarları, buxarla işləyən fabriki, xüsusi şəhər təsərrüfatı olan Ordubad şəhər pristavının küllü miqdarda vaxtını alır ki, bu da onun başqa sahələrə diqqət yetirməsində böyük çətinliklər yaradır. Ordubadda xəzinədarlığın olmaması sahə pristavının fəaliyyətini heç də yarıtmır, onun işini mürəkkəbləşdirir. Müxtəlif ticarət sənədlərinin, gerb rəmzlərinin verilməsi və onların mürəkkəb hesabatlarının hazırlanması və pristavın vəzifəsinə daxildir. Bütün bunlara əlavə etsək ki, sahə polis pristavının bir başa vəzifəsinə vergilərin yığılması, yolların düzəldilməsi, poçt marşrutuna nəzarət edilməsi, ticarət yerlərinin yoxlanılması, çağırışçıların siyahısının tərtib edilməsi, yerlərdə cinayət işi və hərəkətləri üzrə istintaq işlərinin aparılması

və başqa polis vəzifələrinin yerinə yetirilməsini də əlavə etsək və bütün bunların hüquqi cəhətdən bir adamın, Ordubad polis pristavının üzərinə düşdüyü təsəvvürümüzə gətirsək bunun hətta müəyyən dərəcədə ağılagəlməz öldüğünü görərik.

Bütün bu tələblərin bir nəfər tərəfindən yerinə yetiriməsi fiziki cəhətdən mümkün deyil və bu işdə ciddi boşluqların, nöqsanların yaranmasına gətirib çıxarır ki, bu da xidməti işinə bir sıra hallarda ciddi zərər verir.

Işin xətirinə əməyi daha səmərəli bölünməsi qayğısı məni vadar edir ki, mənə tapşırılan əyalətdəki 4-cü polis sahəsində 1888-ci ldə Kutaisi quberniyasının pristavlığında olduğu kimi bir ştatın təsis edilməsi sahə pristavı yanında köməkçi vəzifəsini və kargüzarı olan dəftərxananın yaradılmasını zatialinizdən xahiş edəm.

Naxçıvan əyalət rəisi podpolkovnik Slavatinski» (88).

Sənədlərdən aydın olur ki, XIX əsrin 70-ci illərinə nisbətən 90-cı illərində Naxçıvan qəzasında başlıca dövlət orqanı kimi sayılan polis idarələrində ştat vahidlərinin sayı xeyli artmışdır.

Əgər 1870-ci ildə bütövlükdə Naxçıvan, Ordubad, Şərur, Dərələyəz qəzasında polis ştatlarının sayı 109 nəfər olmuşdursa, 1880-cı ildə 197 nəfər, 1890-cı ildə 212 nəfər, 1900-cu ildə isə 316 nəfər olmuşdur.(89).

XIX əsrin axırları və XX əsrin əvəllərinddən Naxçıvan, Ordubad, Şərur qəzalarında Naxçıvan şəhər polis idarələrində və onun dairələrində müxtəlif vəzifələrdə Kəngərli tayfalarından, həmçinin Naxçıvanın bir çox yüksək təbəqələrindən olan şəxslər də çalışmışlar.

Bu şəxsiyyətlərdən biri də Çingiz xan Kəlbalıxanovdur.

Çingiz xan Məmməd xan oğlu Kəlbalıxanov 1867-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhər məktəbini bitirdikdən sonra 3 iyun 1887-ci ildə İrəvan quberniyası idarəsinin 1954 №-li əmri ilə Şərur-Dərələyəz qəza polis idarəsinə tərcüməçi vəzifəsinə qəbul edilmiş və 1889-cu ilin 1 iyununda 2-ci dərəcəli dəftərxana işçisi vəzifəsinə keçirilmişdir.

Göstərdiyi xidmətlərinə görə 1890-cı ildə 5-ci dərəcəli fars kavaleri «Şir» və «Günəh» ordeni ilə təltif olunmuşdur.

Çingiz xan Kəlbalıxanov 1893-cü ilin may ayının 14-də Dövlət Senatının 75 saylı fərmanı ilə Kollec qeydiyyatçısı təyin edilmiş, əhalinin siyahıa yalınmasında göstərdiyi əməyə görə 1897-ci ildə əlahəzrətin əmri ilə III İmperator Aleksandrın ildönümü münasibəti ilə gümüş medalla təlif edilmişdir.

Çingiz xan Kəlbalıxanov 1897-ci ilin iyun ayında qulluğunu dəyişdirilməsi barədə ərizə vermişdir. Çingiz xan Kəlbalıxanov ərizəsində yazır: «Siz imperator əlahəzrətlərin himayəsi altında xidməti borcumu yerinə yetirmək üçün Naxçıvan şəhər polis rəisinin köməkçisi vəzifəsinə təyin olunmaq üçün xahiş edirəm» (90).

Ç. Kəlbalıxanovun ərizəsi ilə əlaqdar Daxili İşlər Nazirliyi Naxçıvan qəza polis idarəsinin rəisi Engel 6 iyul 1897-ci ildə İrəvan qubernatoruna göndərdiyi raportunda yazırdı: «30 iyun 1897-ci il tarixli 2391 №-li əmrə əsasən Siz əlahəzrətlərin diqqətinə çatdıraraq bildiriəm ki, Naxçıvan şəhər polis rəisinin köməkçisi Nikolayevin İrəvan quberniyasının Yenibəyazid şəhərinin polis rəisi vəztifəsinə keçməsi ilə əlaqədar əlahəzrət cənəblarından acizanə xahiş edirəm ki, Nikolayevin yerinə məmur olan mənim tanıdığım və etibar etdiyim Şərur-Dərələyəz qəza polis idarəsində tərcüməçi işləyən, Kollec qeydiyyatçısı olan Çingiz xan Kəlbalıxanovu təyin edəsiniz. 1894-cü ildə xəstəliyi ilə əlaqədar olaraq xidmətini yarımçıq qoyan və haliyədə tam sağalan və fəaliyyət göstərən bir şəxs kimi, öz xidməti ilə özünü doğruldacaqdır.

Ç. Kəlbalıxanovun sənədləri İrəvan quberniya idarəsində saxlanılır. Engel» (91).

Çingiz xan Kəlbalıxanov İrəvan quberniyasının 22 avqust 1897-ci il tarixli sərəncamı ilə Naxçıvan şəhər polis pristavının köməçisi vəzifəsinə təyin edilir. 1908-ci ilin fevralına kimi həmin vəzifədə çalışan Çingiz xan xəstəliyi ilə əlaqədar İrəvan quberniyasının 27 yanvar 1908-ci il tarixli əmri ilə xidmətdən azad edilərək, təqaüdə buraxılır. 1915-ci ilin aprel ayında xəstəliyi ilə əlaqədar olaraq vəfat edir (92).

Araşdırdığımız sənədlərdən ən maraqlısı böyük satirik və mütəfəkkir Cəlil Məmmədquluzadənin 1897-1901-ci illərdə İrəvan və Naxçıvan şəhər Polis İdarələrində işlədiyi dövrə dair

sənədlərdir ki, bu sənədlərdən bir neçəsi barədə monoqrafiyada məlumat verilməsini məqsədə uyğun bildik.

Məlumdur ki, 22 fevral 1869-cu ildə Naxçıvan şəhərində anadan olan C.Məmmədquluzadə 1887-ci ildə Zaqafqaziya (Qori) müəllimlər semenariyasını bitirdikdən sonra həmin ilin sentyabr ayında İrəvan qəzasının Uluxanlı qəsəbəsindəki, birinci dərəcəli məktəbdə pedoqoji fəaliyyətə başlamışdır. Az sonra, yəni oktyabrda Şərur qəzasının Baş Noraşen ikisinifli zemstvo məktəbinin keçmiş müəllimi Əliməmməd Xəlilovun xəstələnib müalicəyə getmək zərurəti qarşısında qaldığından müvəqqəti olaraq İrəvan Quberniyası Xalq Məktəbləri İdarəsi C. Məmmədquluzadəni Baş Noraşen məktəbinə dəyişmişdir.

1890-cı ilin yanvar ayına kimi Baş Noraşen məktəbində müəllimlik etmiş C.Məmmədquluzadə 15 yanvar 1890-cı ildə valideyinlərinin yaşıdığı Naxçıvan şəhərinin cəmi 5 verstliyində olan Nehrəm məktəbinə təyinat ala bilmişdir. 1897-ci ilin iyul ayında burada çalışan C. Məmmədquluzadə öz ərizəsi əsasında Nehrəm məktəbinin müdiri vəzifəsindən azad edilmiş, İrəvana gedərək avqust 1897-ci ildən İrəvan qəza Polis İdarəsində tərcüməçi vəzifəsində işləmişdir.

Bu sənəd C. Məmmədquluzadənin Naxçıvan şəhər Polis İdarəsinə dəyişilməsi haqqında özünün əlyazması ilə yazdığı məlumt xarakterli məktubdur. Məktubda yazılır: «İrəvan quberniya İdarəsinə İrəvan qəza Polis İdarəsinin tərcüməçisi Mirzə Cəlil Məmmədquliyevdən məlumat məktubu. Mən 10 il xalq müəllimi kimi qulluq edib, 1897-ci ildə İrəvan qəza Polis İdarəsinə tərcüməçi kimi o məqsədlə girdim ki, kələcəkdə daxili polis xidmətinə keçim. Lakin daxili polisə girməyin yaxın vaxtlarda mümkün olmayacağını görəndə mən İrəvanda məktəb müdirinin müavininə müəllim vəzifəsinə yerimi dəyişməyim haqda ərizə vermişdim. İndi Naxçıvanda açılan polis pristavının köməkçisi yerinin boş olduğunu nəzərə alıb Əlahəzrət cənab İrəvan qubernatorundan acizanə xahiş etməyi şərəf hesab edirəm ki, Əlahəzrət məni bu vəzifəyə yerimi dəyişsin. Mirzə Cəlil Məmmədquliyev. 18 fevral 1899-cu il» (93).

C.Məmmədquluzadənin yazmış olduğu məktubu ilə əlaqədar İrəvan quberniya İdarəsi 2 mart 1899-cu ildə İrəvan Polis İdarəsinə göndərdiyi məktubda yazırdı: «İrəvan quberniya İdarəsinin 1 mart 1899-cu il sərəncamı ilə İrəvan qəza Polis İdarəsində tərcüməçi işləyən Məmmədquliyev Naxçıvan şəhər Polis İdarəsinə pristav köməkçisi təyin edilmişdir.

İrəvan quberniya İdarəsi bu haqda Polis İdarəsinə bildirməklə yeni vəzifəyə təyin edilmiş Məmmədquliyevi həmin yerə göndərsin» (94).

C. Məmmədquluzadə 1899-cu ilin mart ayından 1901-ci ilin fevral ayına kimi Naxçıvan şəhər 2-ci dairə polis pristavının köməkçisi vəzifəsində işləmişdir.

Bu sənəd isə C. Məmmədquluzadənin tutduğu vəzifədən azad olunması haqqında 22 yanvar 1901-ci ildə yazdığı ərizədir. C.Məmmədquluzadə ərizəsində yazırdı: «Siz Əlahəzrətlərinə yazdığım ərizəmlə bildirmək istəyirəm ki, sağlamlığımın pozulması il əlaqədar bundan sonra qulluğumu davam etdirə bilmədiyimi nəzərə alıb məni işdən azad edəsiniz və xahiş edirəm ki, işə girməyim və çıxmağım haqda attestatımı özümə qaytarasınız. Cəlil Məmmədquliyev» (95).

Naxçıvan qəza Polis İdarəsi 26 yanvar 1901-ci ildə C.Məmmədquluzadənin işdən azad edilməsi haqda İrəvan quberniya İdarəsinə göndərdiyi məktubda yazırdı: «Naxçıvan şəhər polis pristavının köməkçisi Cəlil Məmmədquliyevin xahişini nəzərə alaraq 23 yanvar 1901-ci ildə onun tutduğu vəzifədən azad edildiyindən onun qulluğu haqqında olan attestatını özünə qaytarmasını xahiş edirəm» (96).

Polis idarəsinin arxiv sənədlərində Məmməd Hüseyn Novruzov (1907-1914-cü illərdə), Hüseynqulu bəy Hacı Xosrov oğlu Kəngərlinski (1906-1909-cu illərdə), Bəhrəm xan Naxçıvanski (1894-1910-cu illərdə), Nəzərəli xan Naxçıvanski (1904-1908-ci illərdə), Bəhlul Vəli bəy oğlu Kəngərlinski (1911-1917-ci illərdə) və başqalarının polisdə işləməyinə dair sənədlərə rast gəlirik.

XIX əsrin axırları və XX əsrin əvvəllərində çar hakimiyyətinin Azərbaycanda, eləcə də Naxçıvan qəzasında yaratdığı faciələr kəndliləri acınacaqlı hala salmışdır. Əhalinin yaşayış

vəziyyəti ildən-ilə pisləşirdi. Şərur qəzasının Aralıq, Xok kənd əhalisi İrəvan xəzinə əmlak idarəsinə 1905-ci ildə yazdıqları ərizələrdə göstərirdilər ki, 2 ildir məhsulumuz gəlmir, ildən ilə kasıblaşırıq. Bu vəziyyətin qəza rəisinə məlum olmasına baxmayaraq bizdən polislər vasitəsi ilə, şallaq gücünə 367 manat kənd təsərrüfatı vergisi alınır (97).

Naxçıvan qəzasının Nors kənd əhalisi vergi ilə bağlı İrəvan qubernatoruna göndərdikləri ərizələrində yazırdılar: «Əhali tamam talanmışdır. İndi kəndlilər ac və dilənçi halındadılar, buna baxmayaraq Qarabab polis starşinası bizdən 765 manat miqdarında məktəb üçün ümumi mükəlləfiyyət tələb edir ki, bunu ödəməyə imkanımız yoxdur» (98).

Bu məzmunda Şərur qəzasının Maxta kənd əhalisinin ərizəsi daha xarakterikdir. 1907-ci ildə Maxta kəndliləri İrəvan qubernatoruna yazdıqları ərizələrində göstərirdilər ki, 1905-ci ildən hərbi məxaric üçün alınan artıq məsarif kəndimizi talayır. Unun pudunu 1 manat 80 qəpiyə alırıq. Buna görə kəndimizin əhalisi olduqca yoxsullaşmışdır (99).

Göstərdiyimiz bu faktlar Naxçıvan qəza kəndlərinin ağır vəziyyətə düşməsi, kəndlilərin əlində olan var-yoxunun mülkədara verilməsi, dövlətə müxətlif mükəlləfiyyət və vergi verməklə özlərinin ac-yalavac qalması, bununla yanaşı təhqir olunub, zor gücünə tələb olunan vergiləri ödəməsi, xalqın gələcəkdə öz ağasına və çar hökmutinə nifrətini artırmaqla geniş kəndli hərəkatına, qaçaqçılıq və şəhərdə isə azadlıq uğrunda mübarizəsinə rəvac verirdi.

Naxçıvanda kəndli hərəkatının ilk dövrlərində, qaçaq mübarizəsi tarixində, Nəbi şübhəsiz ki, fəxri yer tutur. Nəbi təkcə Zəngəzur qəzasında deyil, Naxçıvan, Şərur-Dərələyəz və Yelizavetpol qəzalarında da xanlara, bəylərə, çar məmurlarına qanlı divan tuturdu.

XIX əsrin ikinci yarısında yayılan qaçaq hərakatında bizi daha artıq maraqlandıran Nəbinin mübarizəsidir. Bu haqda Əhliman Axundovun «Qaçaq Nəbi» və Süleyman Rüstəmin «Qaçaq Nəbi» dram əsərləri və bir sıra kiçik monoqrafiya, məqalə və xatirələri nəzərə almasaq, əlimizdə çox geniş tədqiqat işi yoxdur.

Qaçaq Nəbi haqqında əsaslı məlumatı arxiv sənədləri və qəzet materiallarından ala bilərik. Bu mənbələrin bir qismini nağıllar,

xatirələr, arxiv və qəzet sənədləri bizim əlimizdə olsa da xeyli qismi də İran arxivlərində hərəkətsiz halda qalır və bəlkə də məhv olubdur (100).

Nəbi Yelzavetpol quberniyası Zəngəzur qəzasının, Mollu (hazırki Qubadlı rayonu) kəndində təxminən 1854-cü ildə yoxsul kəndli ailəsində anadan olub, daima yoxsulluq və ehtiyac içərisində gün keçirmişdir. Nəbinin ailəsi, həmçinin kəndlilər mülkədarlar bəy-xan zülmündən ağır əzablar çəkirdi. Bu da gənc yaşlı Nəbiyə artıq təsir edirdi. Nəbi kəndlilərin feodal təhkimçilik həyat keçirməsinə davam gətirmir: o,bəy, xan və çar məmurlarına qarşı dərin kin və nifrət bəsləyirdi. Onun atası Alı kişi çox yoxsul olduğundan ailəsini dolandıra bilmirdi. Bunun üçün də Alı kişi azyaşlı Nəbini Aşağı Mollu kəndində Kərbəlayi Cəfər adlı bir qolçomağa muzdur vermişdir. Kərbəlayi Cəfər çox insafsız bir adam idi. Onun yanında il boyunca çalışanlar əmək haqqı ala bilməzdilər. Hərəni bir bəhanə ilə qapısından qovub, əmək haqqından məhrum edərdi. Kərbəlayi Cəfər Nəbini də bir neçə il işlətdikdən sonra haqqını verməmiş və qovmuşdur.

Kərbəlayi Cəfərin dostu olan yüzbaşı Ala Mahmudbəy (boynu ala olduğuna görə belə çağırırmışlar) Yuxarı Mollu kəndinə gələrək, kənd yoxsullarını şallaq gücü ilə biyara aparır, onlardan rüşvət alır və qız-gəlinlərinə sataşardı. Nəbinin atası Alı kişi də bu döyülən kəndlilərin arasında idi. Doğrudan da, Alı kişi Ala Mahmud bəy tərəfindən çox rəhimsizcəsinə və ağır surətdə döyülmüşdür. Nəbi çöldə qoyun otardığı zaman tövcü verə bilməyən kəndlilərin və atasının döyüldüyünü eşidir. Dərhal kəndə gəlir, çar polis faciəsini gördükdə Ala Mahmud bəyi çomağa verib, möhkəmcə əzişdirir. Beləliklə də polis idarəsi tərəfindən Nəbi ciddi surətdə təqib olunmağa başlayır.

Bir gün də bəylər kəndlilərin malını camaat otlağından qovub çıxardığı zaman Nəbi orada olur. Nəbi bəylərin haqsız hərəkətinə dözə bilməyib strajnikin silahını əlindən alır və Məhəmməd bəyi güllə ilə yaralayır. Polis idarəsi Nəbini həbs etmək üçün atlı dəstə göndərir. Həmin gündən sonra Nəbi Gorusa gedib gizli yaşamağa başlayır. Nəhayət, Sisyan nahiyəsinin Salavrtı kəndində həbs edilmişdir (101).

Nəbi həbsdən qaçır, dağlarda və meşələrdə gizli surətdə yaşamağa başlayır. O yenə həbs edilir. Lakin ikinci dəfə həbsxanadan qaçır. Bundan sonra Nəbi qaçaq adlandırıldı adı dillərdə dastan olur. Nəbi tez-tez yerini dəyişdirməyə məcbur olurdu. O, Gorusdan Naxçıvan qəzasının Əbrəqunus və Ordubad kəndlərinə gəlir və kəndlilər tərəfindən müdafiə olunurdu. Naxçıvan qəza rəsisi Slavoçinski Nəbinin Əbrəqunus və Ordubad kəndlərinə gəldiyini eşitdikdə xeyli miqdarda kazak dəstəsi ilə Nəbini təqib edir. Bu xəbər Nəbiyə çatan kimi o, öz dəstəsi ilə dağ kəndlərinə və oradan da indiki Culfa rayonunun Ərəfsə kəndinin yaylaqlarına çəkilir. Lakin Nəbi qəflətən yaxalanıb Naxçıvan həbsxanasına salınır. «Qafqaz» qəzetinin verdiyi məlumata görə Nəbi həbsxanada ölən İranlı Nəbinin sənədlərini götürüb Naxçıvan həbsxanasından qaçır. Hadisənin əslini anlamayan polis idarələri hər tərəfə şaiyə yayır ki, qaçaq Nəbi ölmüşdür. Həqiqətdə isə Nəbi öz dostlarının yanına gedib qaçaq dəstəsinə başçılıq etmişdir (102).

Nəbi həbsdən qaçdıqdan sonra ətrafına xeyli adam toplayaraq, varlılara divan tutmağa başlayır. Onun qardaşı Mehdi də qaçaq dəstəsinə qoşulur. Nəbinin tərəfdarları gündən-günə artır və yoxsul kəndlilərdən ibarət böyük atlı dəstəsinə çevrilir. Onlar Zəngəzur və Naxçıvan dağlarında və kəndlərində gəzərək, bəy və xanlar, hökumət məmur və polisləri ilə qanlı vuruşmalar aparırdılar. Nəbi qardaşı Mehdi ilə Əbrəqunus dağlarına gəldikləri zaman, həmin rayonun Başkənd əhli Hüseyn və onun qardaşları da (onlar 4 qardaş olmuşlar) hökumət tərəfindən ciddi təqib edildiklərinə görə Nəbinin dəstəsinə qoşulmuşlar. Şahhüseyn, Ağahüseyn, Məmmədhüseyn və Gül Hüseyn Nəbinin dəstəsinə qoşulub vuruşmalarda böyük igidlik nümunələri göstərirdilər. Şahhüseynin düşməni olan qolçamaq Kərbəlayi Heydər polis idarəsinə xəbər vermişdir ki, Şahhüseyn və onun qardaşları Nəbinin yaxın adamlarıdır və ona həmişə maddi yardım da edirlər. Doğrudan da, Əlincə dərəsində Nəbinin tərəfdarları olan Şahhüseyn və onun qardaşları onu müdafiə edirdilər. Şahhüseynin qaçaq olmasına dair vaxtı ilə Naxçıvan qəza rəisinin polis hissəsi üzrə müavini, sonralar Novbəyazid qəza rəisi Karqanov çox maraqlı və ətraflı məlumat verir. Karqanov 1905-ci ildə Qafqaz Canişini Vorontsov-Daşkovun adına

yazdığı məktubunda göstərmişdir: «Birisi pristava xəbər vermişdir ki, Nəbinin dostu Şahhüseyn də bacarıqlı çobandır və saxta gümüş pul kəsməklə məşğuldur. Həqiqətən belə iş olmamışdır... Pristav işi dərk etmədən, verilən məlumatın dürüstlüyünü yoxlamadan çobanın həbs ediməsinə sərəncam vermişdir. Lakin onu həbs etmək pristava müyəssər olmamışdır. Şahhüseyn qaçmışdır» (103).

Yuxarıda göstərildiyi kimi, Şahhüseyn heç bir zaman saxta gümüş pul kəsməyi bacarmayan, savadsız bir çoban olmuşdur. Onun bu qədər avam olmasına baxmayaraq, üzərinə bir qolçamaq tərəfindən böhtan atılmış, bu da onun çöllərə düşməsinə səbəb olmuşdur. İndən belə Şahhüseyn və onun qardaşları Nəbinin dəstəsinə qoşulurlar. Onlar kəndlilər tərəfindən müdafiə olunub, maddi cəhətcə yardım alır, silah və patron ilə təmin olunurdular.

Karqanov düzgün olaraq qeyd edir ki, Nəbi və Şahhüseyn hərəkatı o qədər genişlənmişdir ki, iki quberniyanın (Yelizavetpol və İrəvan quberniyalarının) kazak və xəfiyyə dəstələri 5 il ərzində onlar ilə bacara bilməmişlər. Karqanovun yuxarıda xatırlatdığımız məlumatında göstərir ki, bu da hökumətin torpaq, suvarma və inzibati qanunlarındakı sistemsizləşmədən əmələ gəlmişdir. Bunun nəticəsi idi ki, kəndlilər hökumət qanunlarına hörmət etmir, mülkədar və xəfiyyə təyziqinə qarşı dəstələr düzəldir və qaçaqların çoxalmasında fəal iştirak edirdilər. Əhalinin hökumət və mülkədarlara qarşı olan ümumi narazılığı gündən günə artırdı. Bu narazılıq azərbaycanda geniş şöhrət tapmış qaçaq Kərəm, Nəbi, Şahhüseyn, Dəli Alı, Tarverdi və bir çox görkəmli qaçaq dəstələrinin faliyyətində öz ifadəsini tapır (104).

Qaçaq Nəbi dəstəsinin hökumət, bəy və xanlar üçün ciddi təhlükə əmələ gətirməsi, Naxçıvan polis rəisi müavini Mehdi bəy Zeynalabdinbəyovun çar II Nikolaya yazdığı məktubunda daha ətraflı təsvir edilmişdir. Zeynalabdinbəyov 33 il polis idarəsində xidmət edib. Uzun müddət Ordubad, Əbrəqunus, Naxçıvan və Şahbuz dağlarında qaçaq Nəbi dəstəsi ilə vuruşmalarda olub. Onlar da Nəbi kimi çox mübariz olmuşlar. Bu haqda Mehdi bəy Zeynalabdinbəyov 1900-cu ildə yazdığı məktubunda göstərir ki, 1867-ci ildən Naxçıvan kəndlərində və eyni zamanda Ordubadın dağ yerlərində kəndli dəstələri əmələ gəlmiş və həmin dəstələr

polis hissələri ilə mütəmadi mübarizə aparmışlar. Bu dəstələrlə olan vuruşmalardan bəhs edərək Zeynalabdinbəyov yazmışdır: «1875-ci ildə Qaçaq Cəfər Bayram oğlu, Əlicəfər İbrahim oğlu, Məmiş Dadaş oğlu və Nəsir Kərbəlayi oğlunu arayıb həmin ildə qaçaq Əlimərdan Əhməd xan oğlu və katorjnik Muxtar Abbas oğlunun öldürülməsində, 1880-ci ildə sürgündən qaçıb, Ordubad qəzasına gələn qaçaqların məhv edilməsində, 1881-ci ildə Ordubad həbsxanasından qaçan Ağabala Tağı oğlunun axtarılmasında iştirak etdim, 1893-cü ildə İrəvan Qubernatorunun sərəncamı ilə Ağabəy və Əkbərin dəstəsini arayıb və məhv etmək üçün İrəvana ezam edildim. Təşəbbüsüm və çalışmağım sahəsində dəstə məhv edildi, onlardan Kərbəlayi Rza tutuldu və onları mühafizə edən Berher (İranda F. C) əyalətinin rəisi Qulu xan işdən götürüldü. 1894-cü ildə Ordubad həbsxanasından qaçan qaçaq Rəcəbalı yenədə tutulmuşdur» (105).

Zeynalabdinbəyovun məktubu Nəbinin başçılığı ilə Naxçıvan Ordubad və Sisyan rayonlarında qaçaq hərakatının genişlənib, hökümət üçün qorxulu bir şəkil aldığını aydıncasına göstərir.

1895-ci il sentyabr ayının 16-da Nəbinin dəstəsi ilə qəza polis dəstələri arasında çox şiddətli vuruşma olmuşdur. Vuruşma Nəbinin qələbəsi ilə qurtarmışdır. Nəbi 1895-ci il sentyabr ayının 16-da 40 nəfər atlı ilə «Donuzqırılan»da Zeynalabdinbəyovun kazak, xan və bəylərdən düzəldilmiş dəstəsinə möhkəm divan tutmuşdur. Bu vuruşmada Ordubad rayonunun Çənnəb starşinası Ter-Sarkisov kənd varlılarından ibarət dəstəsi də iştirak edirdi. Vuruşma çox ciddi olduğundan Ordubad, Naxçıvan, Gorus məntəqələrinin pristavları, polis dəstələri, bəy və xanları də öz dəstləri ilə burada iştirak edirdilər. Zeynalabdinbəyovun II Nikolaya məktubunda «Donuzqırılan» vuruşmasından bəhs edərək yazmışdı: «1895-ci il sentyabr aynın 16-da «Donuzqırılan» adlanan yerdə 40 nəfərdən ibarət məşhur qaçaq Nəbi dəstəsini izləyərək...Çənnəb kənd yüzbaşısı Ter-Sarkisov ilə birlikdə qaçaq dəstəsi ilə güllələşdim...Buna görə qubernator general leytenant Frezedən mükafat olaraq qızıl saat aldım» (106).

Yuxarıdakı sənəddən aşkar görünür ki, 1895-ci ildə qaçaq hərəkatı xeyli genişləndiyi kimi, onlarla vuruşma da çox ciddi

şəkil almışdı. Nəbinin atlı dəstəsi çox qorxulu olduğundan İrəvan, Naxçıvan və Zəngəzur qəzalarının polis və kazak dəstələri tamamilə ayağa qaldırılmışdır. Əldə olan sənədlərdən görünür ki, 1894-cü ildən 1897-ci illər arasında olan qaçaq vuruşmaları daha ciddi xarakter alır. Belə vuruşmalara sadəcə qaçaq vuruşması kimi baxmaq olmaz. O, kəndli hərakatının bir forması idi.

Azərbaycan, Gürcüstan və Naxçıvan dövlət arxivlərində olan sənədlərdən məlum olur ki, 1860-cı ildən başlayaraq 1917-ci ilə kimi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Zəngəzur qəzalarında qaçaq kəndli vuruşmaları çox ciddi olmuşdur. Bu haqda Naxçıvan və Ordubad polis idarələrində müxtəlif vaxtlarda çalışan polis rəislərindən Simicin (1875-1876), Sultanovun (1877-1880), Sulxanovun (1881-1887), Qurişinin (1888-1890), Ostanovçin, Slovaçinskinin (1895-1897), M.Zeynalabdinbəyovun, Karqanovun və başqalarının məlumatları daha maraqlıdır.

Müasirlərin, xəfiyyə idarələrinin, «Qafqaz» və başqa qəzetlərin verdikləri məlumatlar göstərir ki, Nəbi, doğrudan da, dillərdə səslənən dastanlara layiq olmuş, çar hökuməti və mülkədarlar üçün böyük qorxu törətmişdir.

Xalq arasında dillərdə dastan olan Nəbi, doğrudan da, mülkədarlara, bəylərə, xanlara və polislərə qənim olmuşdur. Çox cəsur olan Nəbi inzibati idarələrin xəbəri olana qədər gah İrana keçir, gah Naxçıvan və Şərur-Dərələyəz qəzalarında görünür, varlılara amansız divan tuturdu.

1894-cü il noyabr ayında polis orqanları şaiyə yayırlar ki, güya Nəbi irandan Naxçıvana keçdiyi zaman tutulmuşdur.

«Qafqaz qəzeti» tənə ilə yazmışdır ki, bu şaiyə vaxtından əvvəldir. Polis İdarəsinin tədbir və şaiyələri dalbadal boşa çıxırdı.

Nəbinin adı bütün Zaqafqaziyaya yayıldığı kimi, Peterburq inzibati dairələrinə, qəzet və məcmuələrinə da çatmışdı. Peterburqda «Новая Время» məcmuəsi daxili məlumatlar şöbəsində yazmışdır: «Nəhayət, Nəbi tutulmuşdur», «Qafqaz» qəzeti «Новая Время» məcmuəsinə gülərək yazır ki, «Redaksiya sevindiyindən dağıstanlı, ləzgi Nəbi ilə, azərbaycanlı Nəbini qarışdırmışdır...».

Həqiqətən həbs olunan Nəbi (ləzgi, dağıstanlı) keçən il Şıx Zaidin dəstəsinə daxil olub, ancaq Quba qəzasında xeyli illər

hərəkət etmişdir. Məşhur qaçaq Nəbi öz dəstəsi ilə heç vaxt Quba qəzasında olmamışdır» (92).

Bu sənəd onu göstərir ki, Nəbi Zaqafqaziyada böyük şöhrətə malik olduğu kimi, imperiyanın baş polis idarələrinin və mətbuatının da nəzərini özünə cəlb etmişdir. «Qafqaz» qəzetinin yazdığı kimi Nəbi Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz, İrəvan qəzalarında və Cənubi Azərbaycanın Təbriz, Salmas, Xoy və Makı mahallarında hərakat edib, hökumət və bəy-xan dəstələri ilə inadla vuruşurdu. Yerli hökumət idarələri Nəbi ilə aparılan mübarizənin çətinliyini görərək bir sıra inzibati tədbirlər qəbul edilir və Nəbi tərəfində olan kəndlilərə divan tuturdular. Ordubad məntəqəsinin inzibati idarəsi Yuxarı Əylis və onun ətrafında olan kəndlərdə qaçaq dəstələri ilə aparılan mübarizənin çətinliyini görərək, belə bir qərar qəbul etməyə məcbur olmuşdur: «Dəstəni (yəni qaçaq dəstəsini) təqib və məhv etmək üçün hər ev 3 manat verməli idi. Üç kənd əhalisinə (Tivi, Nəsirvaz və Anzir) qaçaqlara daha artıq kömək edib, onları gizlətdikləri üçün 3 manat xərcdən başqa, 300 manat əlavə vergi qoyulsun. Bununla bərabər onlara elan edilsin ki, hərgah kəndlərdən biri gələcəkdə qaçaqlara pul köməkliyi edərsə, alınan xərcdən on dəfə artıq cərimələnəcək» (107).

Yuxarıda tanış olduğumuz sənəd göstərir ki, zəhmətkeş əhali qaçaq dəstələri ilə yaxın münasibətdə olub, onları çar polis orqanlarının əlinə vermək istəmirdilər. Çar hökumət orqanlarının cəza tədbirləri kənd zəhmətkeşlərini qorxutmadı. Kəndlilər yenə də Nəbini müdafiə edir və onun olduğu yeri hökumət orqanlarına xəbər vermirdilər. Nəbinin yaxın adamlarından Musa Məmmədhəsən oğlu qaçaqların yerini demədiyindən həbs edilir. Nəsirvazlı Qalus məhkəməyə verilmişdir.

1895-ci ilin may ayında İrəvan qubernatoru Qafqaz Ali mülkü hissəsi rəisinə bildirir ki, «Naxçıvan qəza rəisi may ayının 5-də verdiyi raportunda xahiş etmişdir ki, Nəbinin dəstəsinə daxil olub, Karçıvan kənd varlılarının və tacirlərinin qarət edilməsində iştirak edən Musa Məmmədhəsən oğlu tutulub məhkəməyə verilsin» (108).

Karçivan hadisəsi əsasən belə olmuşdur: kəndin varlıları və tacirləri kənd yoxsullarını insafsızcasına istismar edib və müami-

ləçilik yolu ilə onların var-yoxlarını əllərindən alır və dilənçi vəziyyətinə salırdılar. Bu vəziyyət Nəbiyə çatdırıldıqda o, 1894-cü il iyul ayının 23-də öz dəstəsi ilə Karçivan kəndinə gəlmişdir. Kəndə girmədən Nəbi, öz yoldaşlarından iki nəfərini, o cümlədən Musa Məmmədhəsən oğluna çapar libasını geyindirib, qabaqlarına Ordubad həbsxanasından qaçmış Qənbər adlı birisini qataraq Karçıvana göndərir. Güya o həbsdən qaçdığından pristav tərəfindən tutulub Görusa göndəriləcəkdir. Çapar kəndə çatan kimi dərhal kənd hampalarına xəbər verir ki, onların arxasınca qəza rəisi kəndə gəlməkdədir. Həqiqətən bir qədər sonra qəza rəisi libasında Nəbi və kazak libasında onun atlıları kəndə daxil olmuşdu. Nəbini müşayət edən «kazaklar» 18 nəfər atlıdan ibarət idi. Kəndin hampaları və keşişləri rəisi pişvaza çıxırlar. Nəbini pişvaza çıxan hampaları məsləhət adı ilə kilsəyə çağırır və kilsənin qapısını bağladıqdan sonra onların evlərini talamağa başlayırlar. Nəbi əldə edilən qənimətlərin bir qismini yoxsullara paylayıb, qalanını isə 17 dəvəyə yükləyib Arazın o tərəfinə keçirmişdir. «Mşak» və «Qafqaz» qəzetlərinin verdiyi məlumata görə hampa və varlı keşişlərdən qarət edilən şeylərin qiyməti 29 min manatdan artıq idi.

Bu hadisədən sonra qəza rəisi həmin kəndə gəlmişdir. Ona xəbər verilir ki, Musa Məmmədhəsən oğlu da Nəbinin dəstəsi ilə gəlmişdir. Karçivan hampalarının qarət edilməsində iştirak edən Musa Məmmədhəsən oğlu həbs edilmişdir. Ona görə də rəisi İrəvan qubernatorundan xahiş etmişdir ki, həmin adam hərbi məhkəməyə verilsin və başqaları haqqında ən ağır cəza tədbiri görülsün.

1894-cü il oktyabr ayında «Qafqaz» qəzetinin Culfa qəsəbəsində olan müxbiri çox qəribə bir hadisənin şahidi kimi yazır: «Oktyabr ayının 12-də, axşam burada (yəni Culfada) məlumat alınmışdır ki, Nəbi öz dəstəsi ilə bizim tərəfə keçəcəkdir. O haqda, burada olan atlı dəstəsinə inzibati hissəsinə və sərhəd mühafizə dəstəsinin komandanlığına xəbər verilib və məcbur edilmişlər ki, qəflətən baş verəcək hadisəyə qarşı hazırlıq aparılsın, yerli mühafizə atlıları postlara göndərilsin. Eyni zamanda baş unterzabitin komandası altında yerli sərhəd atlılarından bir qədəri postlara göndərilsinlər. Qəsəbədən bir qədər kənarda

qəflətən adda-budda güllələr açılır, yerli sərhəd mühafizə dəstəsinin komandiri özü ilə 6 nəfər əsgər götürüb hadisə olan tərəfə gedir. Lakin vuruşmaya gecikmişdir. Məlum olmuşdur ki, rəisin komandanlığı altında qonşu postları xəbərdar etmək üçün göndərilənlər qabaqlarında 4 nəfər qaçağı rahatca buraxıb, qalan qaçaqlar da onların dalınca Arazdan keçdikdən sonra qaçaqların arxasınca yaylım güllələr atmışlar, onlar qaçaqlardan cavab atəşi almışlar. Xoşbəxtlikdən heç bir insan tələfatı olmadan kazaklar atlarını qaytarıb, posta dönmüşlər» (109).

Müxbirin yazdığından daha aydın görünür ki, yerli sərhəd mühafizə dəstələri Nəbidən bərk qorxub, onu təqib etməyə cəsarət edə bilmirdilər. Kazak dəstələri Nəbinin qorxusundan qaçaqlara yol verib onların dağlara çəkilməsinə imkan vermişlər. Müxbirin yazdığı kimi Nəbinin dəstəsi Araz kənarına çatmadan sərhəddə lazımı hazırlıqlar görülməsinə baxmayraq onunla vuruşa bilməmişlər.

Culfada müxtəlif dövlət müəssisələri-tamojna, poçt kantorası yerləşirdi. Oraya hər gün küllü miqdarda pul və qiymətli şeylər gətirilirdi. Bundan başqa Culfada hökumət adamları yaşayırdı. Culfa qəsəbəsinin bu qədər əhəmiyyətli olmasına baxmayaraq, onun mühafizəsi çox zəif qurulmuşdur. Qaçaqlar ilə mühafizə dəstəsinin arasında olan vuruşmanın ertəsi günü məlum olmuşdur ki, Nəbi həmin dəstədə olmayıb, həmin vuruşmada qaçaq dəstəsinə başçılıq edən onu arvadı Həcər imiş. Atışma gedən yerdə heç bir nişanə tapılmamışdır, təkcə Həcərin zontiki (günlüyü) qalmışdır. Bu onu göstərir ki, Həcərin başçılıq etdiyi qaçaq dəstəsi çox hazırlıqlı gəlmiş və özünü tamamilə sərbəst aparmışdı. Nəbi dillərdə dastan oluğu kimi, arvadı Həcər də əhali arasında şöhərt qazanmışdı. Nəbinin şan-şöhrəti ellərdə yayıldığı kimi, arvadı Həcərin də adı mahallarda yayılıb, dillərdə əzbər olmuşdur. Həcərin qoçaq azərbaycanlı qızı olduğunu və mərdliklə vuruşmasını ellər unutmayıb, onun naminə təriflər demişlər. Belə təriflər 70 ilə yaxındır ki, xalqımız arasında yaşamaqdadır.

Əlavə edilən sənədlərdən məlum olur ki, Nəbinin dəstəsi İran Culfasından Naxçıvan tərəfə keçdiyi zaman iki hissəyə bölünmüşdür. Bir hissəsi «Qafqaz» qəzeti müxbirinin 1894-cü il ok-

tybarın 12-də verdiyi məlumata görə Əbrəqunus dağlarına tərəf getmişdir. Digər hissəsi isə oktyabr ayının 29-da Nəbinin başçılığı ilə Zəngəzur məntəqəsinə gedib, bir gün Pusqa kəndində qaldıqdan sonra o da Həcərin dalınca Naxçıvan qəzasının Əbrəqunus, Ərəfsə (ehtimal ki, Zəngəzur qəzasındakı Ərəfsəyə) kəndinə gəlmişdir. Qafqaz qəzetinin 1894-cü il oktyabr ayının 12-də Həcərin və 29-da Nəbinin Naxçıvana tərəf keçmələrinə dair verdiyi məlumatlar göstərir ki, Nəbi ilə Həcər iki dəstəyə ayrılıb. Araz çayının ayrı-ayrı yerlərindən keçib, müxtəlif yollarla gəlib Ərəfsə kəndində birləşmişlər (110).

Nəbinin Ərəfsə kəndinə gəlməsi xəbəri Zəngəzur qəza rəisi müavini Mirzəyeva çatdırıldıqda o, böyük bir atlı və piyada dəstə ilə Ərəfsəyə tərəf hərəkət edir. Zəngəzur qəza rəisinin və başqa qəza rəislərinin gəlməsi Nəbiyə də xəbər verilir. Nəbi ilə kazak dəstələri arasında şiddətli vuruşma başlayır. Vuruşmada çoxlu adam ölür və yaralanır. Həmişə olduğu kimi, yenə də Nəbi qalib gəlir.

Nəbinin şücaəti hər yerə yayılmışdır. Onun adını eşidən kənd hampaları, bəy, xan, məliklər və hökumət məmurları qorxularından titrəyirdilər. «Nordar» qəzeti xəbər verir ki, «alınan məlumata görə məhşur Kərəm İranda bir xanı öldürüb, yenidən Zəngəzur qəzasına qayıdıb, Nəbinin dəstəsi ilə əlaqədar olaraq gediş-gəliş o qədər çətinləşmişdir ki, hətta vəzifəli şəxslər iş üçün bir yerdən başqa yerə asudəliklə gedə bilmirlər.

Nəbinin mübarizəsi çar hökuməti orqanları, bəy və xanlar üçün o qədər qorxunc şəkil almışdır ki, Qafqaz rəisliyinin rəsmi orqanı olan «Qafqaz» qəzeti onunla mütamadi surətdə məşğul olmuşdur. Nəbinin mübarizəsi 1885-1896-cı illərdə daha kəskinləşir. «Qafqaz» qəzeti təkcə 1895-ci ilin sentyabr ayında Nəbinin 4 böyük vuruşmasını qeyd etmişdir. Qəzetin verdiyi məlumata görə Nəbi bir həftə ərzində Makı, İrəvan, Şərur-Dərələyəz, Naxçıvan və Zəngəzur qəzalarını keçib, varlılara divan tutmuşdur. O avqust və sentyabr aylarında Cənubi Azərbaycanda böyük bir qüvvə toplayıb, İrəvan quberniyasının Çimənkənd əhli Hacı Nəcəf oğlu (qaçaq) ilə birləşərək həmin kəndin hampalarına qanlı divanlar tutmuşdur. Nəbi İrəvan qəzasının Vedi kəndindən Xanbala Sultan oğlu və onun qohumlarını, Vedidən sibirə sürün edilib, oradan qaçan

Heydəri də bu dəstəyə qəbul edir. Vedililər 30 nəfər atlı və piyada dəstədən ibarət idilər. Nəbi və onun yoldaşlarının dəstəsi 75-80 nəfərdən ibarət olmuşdur. Birləşmiş qaçaqlar dəstəsi Arazdəyən ilə Dəvəli (Ermənistan) arasından keçərək sərhəm mühafizə dəstələri ilə azca vuruşandan sonra Vedi və Çəmənkəndə çatmışlar. İrəvan general qubernatoru general leytenant Freze Nəbi və onun Çəmənkəndli dostlarının surətli hərəkatından bəhs edərək, Qafqaz canişinliyinə yazmışdır: «Məşhur Nəbi və Şahhüseynin qaçaq dəstəsi, İrəvan qəzasından ona qoşulan 30 nəfərədək adam, sentyabrın 8-də İrəvan qəzasına daxil olub, sürətlə Çəmənkəndə hərəkət edərək, orada İrəvan qaçaqlarının qanlısı olan, yerli əhali İsmayıl Usub oğlunun (kənd mülkədarı) evinə hücum edib, onu evində tapmadıqda onun anasını, qardaşını və qohumlarından birini öldürmüşlər. Evdə olan qiymətli şeylərdən heç nə götürməmişlər. Qaçaqlar sürətlə Çəmənkənddən Novobəyazid sərhədlərinə çəkilərək, oradan Şərur-Dərələyəz sərhədlərinə getmişlər» (111).

İrəvan qubernatoru Frezenin yazdığına görə, Nəbi sentyabrın 16-da Naxçıvan qəzasında olub, əhalinin ən varlı hissəsini talamaq istəmişdir». Yerli hampaları, bəy və xanları Nəbinin əlindən xilas etmək məqsədi ilə İrəvan general qubernatoru qəza rəisinə əmr etmişdir ki, Naxçıvan qəzasında kazak və yerli zadəganlardan ibarət dəstələr düzəldib, Əbrəqunus, Şahbuz və Ordubad dağlarına çıxarsın. Əlincə çayı boyunca və dağların keçidlərində, dərələrdə, uzaq kəndlərdə güclü keşikçilər dəstəsi düzəldilsin. İrəvan və Şərur-Dərələyəz qəzalarından keçib Naxçıvanın Şahbuz məntəqəsinə gələn qaçaq dəstəsinin qabağı kəsilib məhv edilsin. Doğrudan da Nəbinin dəstəsi Dərələyəzdən keçib Şahbuz məntəqəsinin Mahmudava kəndinə gəlir. Qaçaq Nəbinin 1895-ci il Mahmudava vuruşması haqqında həmin kənd sakini 80 yaşlı Əkbər Nurməmmədov xatirələrində belə yazır: «Mənim o zaman 13-14 yaşım olardı. Nəbi öz dəstəsi ilə bizim kəndə gəldi. Kəndin altında «Yarğanbaşı» adlanan yerdə onun atlıları dayanaraq yanlarında olan qəndi, çayı, çiti bizə payladı, çoxlarımıza da pul verdilər» (112).

Əkbər kişi göstərir ki, «O zaman Mahmudavanın ağası olan Hacı Qara xalqı çox incidirdi. Qaçaq Nəbi Hacı Qaranı çağırıb ondan pul və qoyun alıb kasıblara payladı. Hacı Qara Qaçaq

Nəbinin qorxusundan xalqa verilmiş pul və qoyunları heç kəsdən çürət edib ala bilmədi. Qaçaq Nəbi kasıbların halına çox yanırdı, kasıbların halını soruşur və onlara pul verirdi» (113).

Nəbinin dəstəsi «Yarğanbaşı»nda duranda məntəqə polis idarəsinə xəbər verilmişdir. Bir azdan sonra pristav Nəbinin dəstəsinin əhatəyə aldı. Nəbi özünü itirmədən pristavın adamları ilə döyüşə girdi. Doğrudan da Nəbi əvvəl Əkbər kişi deyən kimi uryadniki vurmuşdur. Vuruşmada Nəbinin adamlarından Məmmədhüseyn, İsmayıl, Şahhüseyn, Mehdi, Telli Qara və s. xüsusi ilə fərqlənmişdilər. Nəhayət, vuruşma Nəbinin qələbəsi ilə qurtarmışdır.

1895-ci il may ayının 25-də Mahmudvav vuruşmasından sonra Nəbi öz dəstəsi ilə Ordubad rayonunun Bist, Nəsrivaz, Ələhi kəndlərinə getmişdir. Nəbi göstərilən kəndlərə çatan zaman Ordubad pristavı, dağıstanlı Əliyev, xeyli sayda atlı dəstəsi ilə Bist və Nəsirvaz kəndlərində şallaq gücünə qızıl pul vergisi toplayırdı. Bu əhvalat Nəbiyə çatdırıldı, o tələb etmişdir ki, pristav Əliyev vergi toplamaqdan əl çəkib, kəndi tərk etsin. Pristav Əliyev Nəbinin tələbini rədd edərək silaha əl atmışdır. Əliyevin polis dəstəsi ilə Nəbi arasında vuruşma başlamışdır. Nəticədə Əliyev öldürülür, onun dəstəsi kənddən qovulur, kəndlilər isə qızıl pul vergisindən azad edilirlər. Ordubad rayon Bist kənd sakini 1868-ci ildə anadan olimuş Stepan Bədəlov 1950-ci ildə vəfat etmişdir. Nəbi ilə pristav Əliyevin vuruşmasını belə nəql eliyir: «Nəbi Dərələyəz varlıların talayıb 63 at gətirmişdi. O vaxt Nəbinin adına Hacı ağa deyirdilər. Pristav Əliyev Nəbini təqib edirdi. Onlar «Gen yurd»da üz-üzə gəldilər. Nəbinin başında 50-60 nəfər atlısı var idi. Vuruşmada çoxlu kazak və Əliyev öldürüldü. Hökumət adamları qaçdılar» (114).

Ordubad məntəqə polis rəisi öldürüldükdən sonra onun köməkçisi Hacıyev ilə qarşılaşaraq şiddətli vuruşmuşdur. Bu vuruşmadan bir az sonra qəza rəisi quberniya inzibati orqanlarından teleqram almışdır ki, Nəbinin dəstəsi Əbrəqunus tərəfinə Əlincə çayı boyunca hərəkət edərək, Araz kənarlarına yaxınlaşıb İrana keçmək fikrindədir. Naxçıvan qəza rəisi dərhal kazak və polis dəstələrinə, eyni zamanda bəylərdən və mülkədarlardan təşkil edilmiş atlılara sərəncam verir ki, onlar Əlincə çayı tərəfə

toplaşsınlar, distansiyaların keşikçisi hissələri artırılsın, hər bir təsadüfə hazır olsun. Doğrudan da çox çəkmədən yerli mühafizə uryadniki Xalatov Naxçıvan məntəqə rəisi ilə Əbrəqunus məntəqəsi arasında olan Güznüt kəndində də Nəbinin dəstəsi ilə qarşılaşdı. Çox ciddi vuruşmadan sonra Xalatovun dəstəsi məğlub olur özü isə öldürülür. Nəbinin dəstəsində olan 40-45 nəfər atlı və piyada dəstə sağ-salamat Arazdan keçib Təbriz, Xoy və Salmas vilayətlərinə gedirlər (115).

Buradan görünür ki, Nəbi Arazın o tayında çox dayanmayıb 1895-ci il oktyabrın 28-29-da Zəngəzura qayıtmışdır. Çünki bu zaman Həcər həbs edilmişdir. Nəbi Həcərin ikinci dəfə pristav Şəfi bəy tərəfindən həbsxanaya salınmasına dözə bilməzdi. Bu haqda «Qafqaz» qəzetinin 1895-ci il 28 oktyabr tarixli 257 №-də dərc edilən məqaləsində göstərilir ki, Nəbi Gorusa gəlib Həcərin həbsdən azad edilməsini qəza rəsindən tələb etmişdir. Nəbi tələb etmişdir ki, əgər Həcər həbsxanadan buraxılmasa həbsxananı dağıdıb onu azad edəcək.

Qəzetin müxbiri eyni zamanda əlavə edir ki, Nəbini yerli əhali müdafiə edərək qəzada olan bütün məlumatları ona çatdırırlar. Bu işdə İsgəndər və Nəsir Məmməd oğlu çox fəaliyyət göstərirlər. Naxçıvan və Zəngəzur qəza rəisləri (Slavoçinski və Səlimbəy) həbsxananın dağılmasından qorxub Nəbinin arvadı Həcəri həbsdən buraxmağa məcbur olmuşlar. Həcərin həbsdən azad edilməsi təhlükəni daha da artırırdı. Buna görə qəza rəisləri xeyli kazak dəstəsi toplayıb Əlincə kəndlərini möhkəmləndirir. Nəbi və onun dəstəsinin İrana keçməsinin qarşısın almağı çalışırlar. Slavoçinski (Naxçıvan qəza rəisi) Əlincə qalasına çoxlu miqdarda kazak, polis və xan-bəylərdən ibarət yerli mühafizə dəstələri toplayır. Doğrudan da Nəbinin dəstəsi Gorusdan keçərək Naxçıvan Ərəfsəsinə gələrək Əlincə qala tərəfdən hərəkət edib Arazdan keçmək istəyirdi. Əlincə qalası yaxınlığında hökumət yerli mühafizə dəstələri ilə Nəbinin arasında ikinci dəfə çox ciddi vuruşması olmuşdur. Vuruşmada bir neçə strajnik, çoxlu əsgər və uryadniklərdən Qalabəyov Lazım və Əliyev öldürülmüşlər. Qəza rəisi Nəbinin öhdəsindən gələ bilməyib, onu Araz tərəfə buraxmağa məcbur olmuşdur. Nəbi öz dəstəsi ilə Arazın o biri tərəfinə, Cənubi Azərbaycan kəndlərinə getmişdir (116).

Əldə edilən məlumatlardan aydın olur ki, 1895-ci ilin sonlarında Nəbi öz dəstəsi ilə Arazın o tərəfinə, Cənubi Azərbaycana keçəndən sonra bir daha Naxçıvan, Zəngəzur qəzalarına qayıtmamış və orada öldürülmüşdür.

Nəbi öldükdən sonra onun dəstəsindən olanlar dalbadal fəlakətə uğrayırlar. Şahhüseyn, Məmmədhüseyn və başqaları Dırnıs dərəsində məhv edilirlər. Nəbinin yaxın dostu Musa Məşədi Həsən oğlu həbs edilib hərbi məhkəməyə verilir.

İrəvan quberniya hərbi məhkəməsi 1896-cı il aprelin 9-da Naxçıvan şəhərində Musa Məmmədhəsən oğlunun işinə baxıb belə bir hökm çıxarır: «İran təbəəsi (Cənubi Azərbaycan) məhkum Musa Məmmədhəsən oğlu bütün əmlak hüququndan məhrum olunmaqla ölüm cəzasına məhkum edilsin» (117).

İrəvan hərbi məhkəməsinin qərarı təsdiq üçün Qafqaz Ali məhkəmə idarəsinə təqdim edilir. Ali məhkəmə idarəsinin sədri qraf Tatişev belə bir dərkənar vermişdir: «Məhkəmə tərəfindən təyin edilən cəzanı yüngülləşdirib müyyən edirəm: məhkum Musa Məmmədhəsən oğlunu bütün əmlak hüququndan məhrum etməklə 20 il katorqa işinə göndərmək... 24 iyul Tiflis şəhəri, general infanter qraf Tatişev» (118).

Nəbi öldürüldükdən sonra onun yoldaşlarına beləcə divan tutulurdu. Ali Məhkəmənin hökmü ilə 20 il katorqa cəzasına məhkum olunan Musanın ailəsi dilənçi kimi yaşayırdı. Ordubad pristavı Musanı katorqa işinə göndərərkən onun acınacaqlı vəziyyətini gördükdə demişdir: «Sənin evin Sibirdən də pisdir. Doğrudan da qaçaqların əksəriyyəti ağır həyat keçirdiklərinə görə dağlara düşüb gəzərki yaşayışa dözməli olurdu» (119).

Bu illərdə Quba, Bakı, Lənkəran, Qazax, Şuşa, Elizavetpol. Gəncə, Zəngəzur, eləcə də Naxçıvan və Şərur qəzalarının kəndliləri mülkədar malikanələrini dağıdır, yaylaq, biçənək, meşə təsərrüfatını əllərindən alıb ondan istifadə edirdilər.

Əldə olan arxiv sənədlərində göstərilir ki, Naxçıvan və Şərur qəzalarında olan 240-dək kənddə 124-ü mülkədar mülkiyyəti idi. Təkcə bunu qeyd edək ki, adları çəkilən qəzalarda torğağın 53,8 faizi mülkədar, 35,5 faizi xəzinə, 2,8 faizi məsçidlərin 7,9 faizi kəndlilərin istifadəsində idi. Aydın məsələdir ki, kəndlilər göstərilən torpaqlar-

dan icarədarlıq, bəhrəgirlik, payalmaq və başqa ağır şərtlərlə istifadə edirdilər. «Pay» torpaq almağı şərtləri o qədər ağır idi ki, hətta Qafqaz canişini Vorontsov-Daşkov etiraf edib bildirmişdir ki, Şərur qəzasının Keşdaz kəndliləri 34 il ondan istifadə edə bilməmişlər.

Torpaqların xəzinə və mülkədar mülkiyyəti olmasına daha xarakterik dəlillərdən biri də kəndin bir neçə mülkədar mülkiyyəti olmasından ibarətdir. Misal: Naxçıvan qəzasında Şəkərabad 8, Sələsüz 11, Baş-Anzur 11, Çeşməbasar 16, Ordubad məntəqəsinin Behrut kimi balaca bir kəndi, Tivi 8, Nəsirvaz 75 mülkədarın malikanəsi idi. Beləliklə bütün torpaqlar bəylərin, xanların və xəzinənin əlində olmuşdur. Torpaqsız kəndlilər mülkədarların hər bir ağır şərtlərinə razı olmağa məcbur idilər (120).

Bir tərəfdən ağır mülkədar istismarı, digər tərəfdən alınan çox miqdarlı vergilər kəndliləri yoxsullaşdırıb dilənçi halına salmışdı.

Bu yoxsullaşmanın nəticəsidir ki, kəndlilər xəzinə vergilərini ödəyə bilmirdilər və onların üzərində vergilərin qalıqları ildən-ilə artırdı.

Əhali torpaqsızlıqdan, mülkədarın ağır istismarından, çarizmin milli müstəmləkə zülmündən cana gəlmişdir. Ağır yaşayışa dözməyən kəndlilər çar və polis orqanlarına ərizələr yazır, vəkillər seçib göndərirdilər. Lakin çar məmurları kəndlilərə kifayətləndirici cavablar vermirdilər. Kəndlilərin çar orqanlarına verdikləri ərizələr illərlə cavabsız qalırdı və bu baxımdan çar üsul idarəsinə qarşı narazılıq get-gedə artırdı.

Kəndlilər acından ölməmək üçün dəstələr düzəldib dağlara qaçanda da, onlar «soyğunçu», «quldur», «qaçaq» elan edilirdilər, onlara qarşı nizami qoşun göndərilir, kəndlilərə ağır işgəncələr verilir, onları möhkəm döyürdülər. Hökumətin və mülkədarların bu vəhşi hərəkətlərinə qarşı çıxış edib dəstə düzəldənlərdən Ordubad mahalında Cəfər Bayram oğlu, Əlicəfər İbrahim oğlu, Məmiş Dadaş oğlu, Nəsir Kəlbalı oğlu, Əlimərdan Əhməd oğlu, Sibir katorqasından qaçan Muxtar Abbas oğlu, Əbrəqunus məntəqəsində Şahhüseyn, Ağahüseyn, Gülhüseyn və başqalarını qeyd etmək olar.

Naxçıvan, Ordubad və Şərur kəndliləri təhkimçilik qalıqlarına, bəylərin, xanların insafsızcasına istismarına qarşı mübarizəyə qoşulurdular.

Torpaq əldə etmək üçün kəndlilər müxtəlif vasitələrə əl atırdılar. Çarın mərhəmətinə inanan sadəlövlər çara, canişinə, qubernatora ərizələr yazaraq onlara torpaq verilməsini xahiş edirdilər. Badamlı və Yuxarı Remeşin kəndlilərinin «Bostan çuxuru» adlanan sahədən əkin yeri istəmələrinə qubernator qətiyyətlə belə bir cavab vermişdir: «Bostan çuxuru» sahəsindən yalnız oraya köçürüləcək rus kəndliləri üçün əkin sahəsi ayrılması nəzərdə tutulmuşdur (121).

1905-ci ilin ikinci yarısndan kəndli çıxışlarının xarakteri xeyli dəyişir, silahlı çıxışlara çevrilir. Misal:Naxçıvan qəzası Şahbuz məntəqəsinin Keçili kəndliləri silahlanaraq Külüs kəndində Rəhim xana məxsus olan yaylağı tutmuşlar. Rəhim xanın xahişi ilə gələn qəza polis dəstəsi kəndlilərin çox ciddi müqavimətinə rast gəldiyindən 40 nəfər silahlı kəndli dəstəsinin müqaviməti ilə geri qayıtmışdır (122).

Naxçıvan qəzası Şahbuz məntəqəsinin Badamlı və Yuxarı Remeşin kəndlilərin ərizə və şikayətlə torpaq sahəsi ala bilmədiklərini görən Keçili və Külüs kəndliləri 1905-ci ilin yazından Rəhim xan və Cəfər qulu xan qardaşlarına məxsus «Hüyseyn yurd» və «Güney yurd» yaylaqlarını zəbt edib orada yurd salırlar. Mülkədarlar isə polis gücünə yurdları geri almağa səy göstərirlər. Kəndlilərin vəkilləri Qəhrəman İsmayıl oğlu və Fətəli Qulu oğlu polis rəisinə bildirirlər ki, «Onlar heç vəchlə yurdu tərk etməyəcəklər» (123).

Naxçıvan qəza rəisi İrəvan qubernatorluğuna belə bir məlumat verir: «Polis tərəfindən külüslülərə təklif edilir ki, mülk sahibkarları Naxçıvandakılar ilə razılığa gələnədək sahə tərk edilsin». Lakin kəndlilər bu təklifi rədd edir, otlaqdan çıxmırlar. Keçili, Külüs kəndlilərinin mütəşəkkil hərakatından ruhlanan Tivi kəndliləri bəylərin tutmaq istədikləri «And-top» sahəsindəki 150 desyatin icma torpağında yurd salirlar və silaha əl atırlar.

Ordubad pristavı Tivi kəndlilərinin həyacanlı çıxışları barədə İrəvan quberniya idarəsinə xəbər verib kömək istəyir. Quberniya idarəsi 19 may 1905-ci il tarixdə Ordubad yerli kamanda rəisinə bildirir ki, qəza xalqlarının ixtişaşını yatırmaq üçün qubernatorun sərəncamı ilə bu gün ona tabe olan komandan Tivi kənd pristavının köməyinə göndərir (124).

Tivi kəndinin əhalisi komanda gələnədək yaylaqları tərk etmir və qəza hökumətini də saymır. Bu kənd tarixən üsyankar kənd idi. Qaçaq Nəbinin, Şah Hüseyn qardaşlarının düşərgəsi idi. Nəbiyə qoşulan Telli Qara qızı bu kənddən idi. Qaçaq Ağahüseynin arvadı bu kənddə yaşayırdı və s.

Böyük xalq həyacanları ilə əlaqədar olaraq 1905-ci ilin may ayında Kutaisi quberntaorı general Əlixanov Avarski Naxçıvana gəlir. Qəzanın dağ yerlərindəki kəndli çıxışlarının getdikcə güclən-

diyini görüb 5-ci qəza kazak komandasından yüzbaşı Mironovu Şahbuz dairəsindəki üsyanı yatırmağa göndərir və Şahbuz üsyanını yatırdıqdan sonra Tivi kəndlilərinə divan tutmağı tapşırır. Bundan əlavə quberntorunun sərəncamı ilə Kənəkir hərbi düşərgəsindən Naxçıvana tələb olunan hərbi qüvvələr göndərilir (125).

Naxçıvan qəzasının dağlıq yerlərindəki xalq həyəcanları ilə əlaqədar olaraq «Qafqaz» qəzeti 17 may 1905-ci il tarixli nömrəsində yazırdı: «Qara vəng» malikanəsinin qarət olunması ilə əlaqədar olaraq İrəvan qubernatorundan may ayının 14-də daha iki batalyon piyada, 300 nəfər kazak və artileriya göndərilməsi tələb olunur. Doğrudan da qubernatorun sərəncamı ilə Kənəkir hərbi düşərgəsindən Naxçıvana istənilən hərbi qüvvə göndərilir (126).

«Qafqaz» qəzetinin yazdığı hadisə təkcə Ordubad məntəqəsinin Əylis kəndinə xas olan hal deyildi. Belə vəziyyət bütün qəzanın hər yerində mövcud idi. Bu fövqəladə vəziyyəti aradan qaldırmaq üçün Naxçıvan, Culfa və Ordubad şəhərlərində, həmçinin Şahtaxtı stansiyasında xeyli miqdarda nizami qoşun saxlanırdı.

Keçili və Tivi kəndlərinin hökumətə qarşı mübarizəsi birinci rus inqilabından sonrakı illərdə də davam edir. 1906-cı ilin iyul ayında Qafqaz polis idarəsinə verilən məlumatda göstərilirdi: «Tatarlar (azərbaycanlılar) üç versədək məsafədə hündür təpələri tutmuşlar. Qoşunla atışma başlayır. Kazaklar tərəfindən 1000 patron atılmışdır». Beləliklə Keçili-Külüs kəndlərinin otlaq-yaylaq torpaqları uğrunda mübarizəsi hökumət hərbi qüvvəsi ilə silahlı toqquşmalarla nəticələndi (127).

1906-cı ilin sentyabr ayında Ordubad məntəqəsinin Üstüpü kəndində çoxlu torpaq və meyvə bağına malik Qafar bəy və Xosrov bəy kəndlilər tərəfindən öldürülmüşlər Həmin ilin ok-

tyabr ayında böyük mülk və Süst kəndindəki duz mədəninin sahibi, icarədar, sələmçi Zaxar Canpoladov Naxçıvan məntəqəsinin Kültəpə kəndində kəndlilər tərəfindən düzələn suiqəstçiliklə öldürüldü (128).

Qaçqınlıq formasında olan kəndli çıxışları 1906-1907-ci illərdə xeyli genişlənmiş və partizan hərakatı formasını almışdır. Bu zamankı qaçaqçılıq mübarizəsində Əbrəqunus məntəqəsinin Haçaparax kəndindən olub mülkədar və hökumət əleyhinə hərəkətlərinə görə Sibirə sürgün edilmiş qaçaq Heydər Kərbəlayi İsmayıl oğlu, həmin məntəqənin Ərəfsə kəndindən olan Həsən Hüseyn oğlu 1905-ci ildə Kutaisi Quberniyasında kəndli üsyanlarında iştirak etdiyinə görə həbs edilib Naxçıvan həbsxanasına göndərilmiş və buradan qaçaraq yerli qaçaq dəstəsinə qoşulmuşdur.

İrəvan qubernatoru Qafqaz canişininə 27 iyun 1907-ci il tarixdə göndərdiyi məlumatında etiraf edir ki, qaçaq dəstələrinin kökünü kəsmək baxımından Naxçıvan qəzası ən çətinlərindəndir. Bu faktlar Naxçıvan bölgəsində azadlıq düşüncəsinin, gerçəklik duyğusunun tarixən üstünlük təşkil etdiyini göstərir.

Partizan mübarizəsi xasiəti daşıyan qaçaq dəstələri ilə mübarizənin çətinliyini görən çar hökumətinin yerli inzibati orqanları Naxçıvan və Şərur qəzalarında daha ciddi tədbirlər görür və ali orqanlarından hərbi qüvvə istəyirdilər. Bu barədə İrəvan qubernatoru 1907-ci il 27 sentyabrda Qafqaz canişini Vorontsov Daşkova göndərdiyi hesabatında yazmışdır ki, qaçaq dəstələrinin məhv edilməsi işində ən çətini Naxçıvan qəzasıdır. Qubernator yazmışdır ki, Naxçıvan qəzasındakı qaçaqlar əsasən azərbaycanlılardan ibarətdir (129).

Naxçıvan qəzasında çox ciddi siyasi vəziyyəti görən İrəvan qubernatoru Naxçıvan, Culfa və Ordubad məntəqələrində polis mühafizə dəstələrin artırır, buraya əlavə kazak sotnları göndərir, Culfa və Ordubad şəhərlərində ayrıca polis şöbələri təşkil edir. Bununla brabər hərbi-polis quvvələrinin saxlanılmasına buraxılan məbləğin miqdarı xeyli artırılır.

Bunu Naxçıvan şəhər gəlirinin bölünməsində daha aydınlığı ilə görmək olar.

1905-ci ildə Naxçıvan şəhər gəlirindən hərbi polis xidmətlərinə hərgah 6189 manat, 1906-cı ildə 10730 manat xərclənmişdirsə, 1907-ci ildə həmin məqsədə 28232 manat sərf edilmişdir. Halbuki marif üçün 1680, tibb işləri üçün 1070 manat buraxılmışdır (130).

Naxçıvan şəhər starostu (başçısı) Cəfərqulu xan Naxçıvanski şəhər Dumasının 1907-ci il 22 may iclasında qəzadakı siyasi vəziyyətdən bəhs edərək demişdi ki, əhalini sakiləşdirmək üçün 1905-1906-cı illərdə Naxçıvan şəhərinə gətirilən hərbi hissələrdən 6-cı nişançı batalyonun 2-ci bölüyü və kuban kazak polkunun 300 nəfərli dəstəsi qalır ki, bu da azdır. Şəhər Duma iclası qəzada və cənubi Azərbaycandakı vəziyyətlə əqalədar olan siyasi coşğunluğa görə İrəvan qubernatorundan xahiş edirik ki, Naxçıvan şəhərində saxlanan hərbi hissələrin azlığını nəzərə alıb buraya daha bir neçə hərbi hissə göndərilsin (131).

Doğrudan da 1906-1907-ci illərdə fövqəladə vəziyyət var idi. Təkcə daxili sinfi ziddiyyətlər deyil, sərhəd boyunda Səttarxan hərakatı ilə əlaqədar olaraq Arazın sağ tərəfindəki kəndli çıxışları çar hökumətini məcbur edir ki, Culfa, Şahtaxtı, Alışar, Qarahəsənli, Kərimbəyli və Arazdəyən postlarında çoxlu hərbi və sərhəd mühafizə dəstələri saxlasın. İrəvan müvəqqəti general qubernatoru Rjevuski xüsusi müşavirə çağırıb Şərur və Naxçıvan qəzalarında sərhəd kənarlarının möhkəmləndirilib arazın sağ və sol kənarları kəndlilərinin birləşməsinə imkan verilməsini tapşırır.

Naxçıvan sərhəd rəisi etiraf etmişdir ki, sərhəd boyunda sakitlik saxlamaq mümkün deyildir, nəiki sərhəddi keçmək, hətta İran Culfasına silah və sairənin aparılması halları da vardır.

Qafqaz canişni Vorontsov-Daşkov İrəvan müvəqqəti general qubernatoru, qofmeystr İ.D.Şirinkina (Rjevuskidən sonra, İrəvanın general qubernatoru) xüsusi göstəriş vermişdir ki, Şərur və Naxçıvan qəzalarında sərhəd boyu mühafizə dəstələri möhkəmləndirilib kəndli ixtişaşlarının qarşısı alınsın, onların Cənubi Azərbaycana, Səttarxanın köməyinə getmələrinə yol verilməsin. Canişin özü 25 noyabr 1908-ci ildə Naxçıvan qəza rəisinə tapşırmışdır ki, Culfa körpüsündən etibarsız adamlar buraxılmasın, ziyarət adı ilə İrana gedən gənclərə pasport veril-

məsin. İcazə ilə Cənubi Azərbaycana gedən şəxslər diqqətlə yoxlanıldıqdan sonra onların üzərində ciddi nəzarət qoyulsun (132).

Polis inzibati idarələri daxili ixtişaşların öhdəsindən gələ bilmirdilər. Çar polis inzibati idarələrinin gördükləri tədbirlərə baxmayaraq Naxçıvan, Culfa, Şəhtaxtı, Qaraçuğ, Alışar postlarından silahlı dəstələr seçib Səttarxana, Təbriz üsyançılarına köməyə gedirdilər.

Naxçıvan qəza rəisnin müavini, sonra Novabəyazid qəza rəisi Karqanov Qafqaz canişini Vorontsov-Daşkov yazdığı məktubda Naxçıvan qəzasındakı vəziyyətdən bəhs edərək yazmışdı ki, Naxçıvan qəzasında nəinki ayrı-ayrı şəxslər, bütün kəndlər düşmənçilik edirlər, bu təsadüfi deyil, ümumi hadisədir. O, göstərir ki, mövcud düşmənçiliyin əsas hissəsi torpaq mübaisələrindən, hüquqsuzluqdan, qayda-qanunsuzluqdan, yerli idarə qaydasızlığından meydana çıxır.

Çar hökuməti mərkəzdə və uɔqarlarda ictimai və milli azadlıq hərakatını yatırmaq məqsədi ilə hər cürə fitnəkarlıqlara, böhtançılığa və qardaş qırğınına əl atırdı.

Bu illər ərzində Naxçıvan dağlarında hökumət və onun polis və hərbi qüvvələri ilə vuruşan qaçaqlardan Keçili kənd sakini Kəlba Teymur və Zəngəzurdan gəlmiş Kəlba Murtuz xüsusi ilə qeyd edilməlidir. Üsyankar Keçili kəndlilərinin başında duran Kəlba Teymur xanların müdafiəçisi olan çar hökumət orqanlarının ədalətsiz hərəkətlərinə qarşı barışmaz mübarizəsini davam etdirərək 1908-ci ildə 12 nəfərlik kiçik, lakin cəsur dəstəsi ilə xanların obalarına basqın edir. Bu dəstə Şərurdan Həmzə Tarverdi oğlunun, Zəngəzurdan Murtuz və Mirzə Tağı oğlunun dəstələri ilə birləşib çar inzibati orqanlarını və xanları bərk lərzəyə salır. Az sonra Naxçıvan qəza polis idarəsinin və onun agentlərinin, həmçinin xanların yalan vədlərinə inanan Kəlba Teymur silahı yerə qoyub təslim olur. Kəlba Teymur Cəfərqulu xan tərəfindən dərhal məhkəməyə verilir. Bir çox yalan və böhtançı ittihamlara əsasən ədalətsiz məhkəmə Kəlba Teymura 15 il iş kəsib Sibirə göndərilməsi barədə hökm çıxarır. Lakin Naxçıvan polis orqanları onu Sibirə göndərə bilmirlər. O, Naxçıvan həbsxanasından məhbusların köməyi ilə ayağındakı qandalı qırır, keşikçini öldürür və silahını götürərək həbsxanadan qaçır.

Bu hadisədən xəbər tutan Naxçıvan şəhər polis idarəsi öz kazak dəstədərini, həmçinin xanları və mühafizəçilərini ayağa qaldırır. Lakin Kəlba Teymuru ələ keçirmək mümkün olmur. Çox keçmədən Keçili dağlarına çəkilən Kəlba Teymur və ona qoşulan Zəngəzur qaçaqları polis və hökumətin hərbi dəstələri ilə vuruşmadan salamat qurtarıb İran ərazisinə keçirlər. Lakin onlar Cənubi Azərbaycan ərazisində də təqibdən yaxa qurtara bilmirlər.

Kəlbalı Teymur və ona qoşulan Zəngəzur qaçaqlarına qarşı yalnız Naxçıvan polisi deyil, Şərur-Dərələyəz, Zəngəzur qəzalarının polis dəstələri, kazak dəstələri və eləcə də İran-Qaradağ sərhəd mühafizəçiləri də mübarizə aparırdılar. Bütün bu təqiblərə baxmayaraq qaçaqlar döyüşlərdən salamat çıxıb İrana keçirlər. Çar polisi və xəfiyyəsi İranda da Kəlbalayi Teymuru təqib etməkdən əl çəkmir. Bu cəsur insanı döyüşlərdə öldürməyin mümkün olmadığını görüb xəyanətə əl atırlar. Çar xəfiyyəsinin məharətlə qurduğu xəyanət baş tutur. İrəvan qubernatoru 1908-ci ilin dekabr ayının 22-də Qafqaz canişinliyinə sevinclə bildirir ki, Naxçıvan qəza rəisi qaçaq Kərbəlayi Teymur Hacı Xudakərim oğlunun və Heydər Pirkətan oğlunun İranda öldürülməsini təsdiq edir.

İrəvan qubernatorunun 1908-ci il 22 dekabr tarixli məlumatında göstərilir ki, qaçaq Kəlba Teymur Hacı Xudakərim oğlu və Külüslü Heydər Pirkətan oğlu İranda öldürülmüşlər. Orada çar hökumətinin xəfiyyə idarəsi ilə şah xəfiyyəsi əlbir işləyirdi. Qaçaq Nəbi, Şahhüseyn və başqa mübariz adamlar da bu orqanların agentləri tərəfindən öldürülmüşlər (133).

1907-1909-cu illərdə çar hökuməti orqanları və mülkədarlar üçün qorxulu rəqib Murtuz Kərbəlayi Nuru oğlunun başçılıq etdiyi kəndli qaçaq dəstəsi sayılırdı. Naxçıvan qəza polis idarəsinin məlumatından aydın olur ki, Murtuz Kərbəlayi Nuru oğlu Zəngəzur qəzasının Ərikli və Mirzə Tağı oğlu Mağara-Qışlaq kəndində idilər. Bunlar da kəndlilər üçün ağır olan həyatdan, mülkədar iztirablarından və çar polis xəfiyyə orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün dağlara çəkilmişlər.

Naxçıvan qəza polis idarəsi İrəvan qubernatoruna xəbər verərək bildirmişdir ki, Murtuz 20 ildən artıqdır ki, axtarışdadır. Onun təqib olunmasında 200 nəfərlik kazak polis dəstəsi iştirak

etmişdir (134). Naxçıvan pristavı Novitski 50 nəfər yerlinin və stajnikin köməyi ilə iki gün qaçaq Murtuzla vuruşsa da bir nəticə verməmişdir.

Murtuzun dəstəsinin Zəngəzurdan Naxçıvan qəzası ərazisinə keçməsi xəbəri alınan kimi Naxçıvan birinci nahiyyə polis pristavı Navitskiyə qəza polis rəisi tərəfindən əmr verilir ki, Kükü-Zərnətün dağlarında Mürtüzün dəstəsinin qarşısını kəssin. Eyni zamanda pristav Duşinskiyə əmr verilir ki, vuruşma yerinə 12 nəfər kazak polis dəstəsi göndərilsin. Uryadnik Çermakov da onlara qoşsun (135).

Qarababa (Şahbuz kəndi) polis starşinası başda olmaqla 1-ci yerli kazak polis dəstəsi Payız-Qarabağlar tərəfə göndərilir. Pristav Novitski başda olmaqla ikinci dəstə Məmmədrza (indiki Babək rayonu) kəndinə istiqamət alır. Çünki Murtuz öz dəstəsi ilə Qaraçuğ kəndi yaxınlığında Arazdan keçib Təbrizə getmək istəyirdi. Murtuz gecədən gəlib Məmmədrza kəndinə Fərrux bəy və Hacı Sübhanverdi Allahverdiyevlərin evində gecələyir. Bu xəbər yerli polis agenti vasitəsi ilə pristav Novitskiyə çatdırılır. Mühasirəyə düşən qaçaq dəstəsi ilə kazaklar arasında qızğın atışma başlayır. Murtuz bir neçə kazakı sıradan çıxarır. Vuruşma səhər saat 3-dək davam edir. Kazak polis dəstələri tez-tez dəyişilir və gücləndirilir. Qaçaqlar döyüş taktikasının dəyişir, gah bu, gah da başqa yerdən kazaklara həmlə edir, mühasirədən çıxmağa can atırdılar. Lakin kazakların gücünün qat-qat artdığını və qaçaqların vuruşmada yorulub əldən düşdüyünü görən Murtuz silahı yerə qoyub təslim olmağı qərara alır.

Qaçaqların təslim olması barədə Naxçıvan qəza polis rəisi İrəvan qubernatoruna, eyni zamanda canişinliyə yazdığı raportunda göstərirdi ki, tutulmuş qaçaqlar Naxçıvan həbsxanasında saxlanılır və çox çəkmədən məhkəmə tərəfindən ən ağır cəzaya məhkum ediləcəklər (136).

Bununla bir vaxtda Həmzənin başçılıq etdiyi Şərur qaçaqları da Dərələyəz nahiyyəsinin Qayalı kəndində güclü kazak və yerli polis dəstələri tərəfindən mühasirəyə alınıb dağıdılır.

Həmçinin Şahbuzda baş vermiş münaqişələrlə əlaqədar Naxçıvan Daxili İşlər Nazirliyinin Naxçıvan qəza polis idarəsi 11

oktyabr 1913-cü ildə İrəvan qubernatoruna göndərdiyi raportunda yazır: «Bu ilin 9 iyul tarixində 760№-li məktubla Qarababa kəndxudası 4-cü şöbənin Barışdırıcı Münsifinə bildirib ki, Şahbuz kəndinin əksər sakinləri, nüfuzlu şəxslər başda olmaqla həmin kənddə yerləşən «Paladin» adlanan torpaq sahəsini mənimsəmək məqsədi ilə orada özbaşına şumlama işləri aparırlar. Kəndlilər onun tələblərinə tabe olmaqdan imtina etdiklərindən, Barışdırıcı Münsifdən xahiş edib ki, onurı yanına kömək üçün keşikçilər göndərsinlər. 4-cü şöbənin Barışdırıcı Münsifi 9 iyul tarixində 280 № ilə sahibkarların hüquqlarını müdafiə etmək üçün mənim sərəncam verməni istəyib. Elə həmin gün mənim tapşırığımla 2-ci sahənin pristavı Şahbuz kəndinə yola düşüb, kəndlilər həmin sahədən uzaqlaşdırılıblar və qəza qaydalarının 142 maddəsinə əsasən cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün protokol tərtib olunaraq Məhkəməyə təqdim olunub. 10 iyul, daha sonra 28, 30 iyul, 4, 12 avqust tarixlərində kəndlilər tərəfindən həmin sahənin zorla işğal edilməsi haqda ərizələr daxil olub və hər dəfə kəndlilər bu torpaqdan qovulublar. Qarababa kəndxudası bu məsələyə səthi yanaşdığı üçün mənim tərəfimdən inzibati qaydada həbs edilmişdir. Həm o, həm də Şahbuz kəndinin kəndxuda köməkçisi «Paladin» sahəsinin zəbt edilməsinə dair kəndlilərin özbaşına hərəkətləri barədə vaxtında rəhbərliyə məlumat vermədikdə məsuliyyətdən xəbərdar edilmişdilər. Bütün kəndlilər də həm mənafdaş, həm Barıdırıcı Münsif, həm də Pristav tərəfindən xəbərdarlıq edilmişdilər və sonuncu dəfə 21 avqust tarixində onlardan qəbz alınmışdır. Hadisənin başında duranlar Şahbuz kənd sakinləri: 1. Kərbəlayi Məmməd Qulu Allah Qulu oğlu, 2. Əli Kərbəlayi Məmməd Qulu oğlu, 3. Məşədi Muxtar Məmməd Bağır oğlu, Aliman Ələkbər oğlu, 5. Kazım Kərbəlayi Qərib oğlu, 6. Məşədi Qəmbər Kərbəlayi İrza Qulu oğlu olublar. Onlar kəndliləri öyrədərək işğalda iştirak etməyə sövq ediblər.

Kəndlilərin bu cür hərəkətləri alqı qaydaları tətbiq olunandan sonra müşahidə olunmağa başlayıb və bu iş barəsində dəfələrlə mənə, Barışdırıcı Münsifə şikayətlər və ərizələr daxil olub.

İndiyədək kəndlilərin hərəkətləri ancaq işğalla müşahidə olunurdu. Buna görə də Polis Qafqazdakı Mülkü hissənin rəisinin

25 dekabr 1885-ci il tarixli 62 №-li və 22 yanvar 1902-ci il tarixli 1026 №-li təlimatını əldə rəhbər tutaraq hər dəfə mülkiyyəti bərpa edərək günahkarları cəza qaydalarının 142 maddəsinə əsasən məsuliyyətə cəlb etmək üçün protokol tərtib edərək məhkəməyə verib. Kəndlilər isə Məhkəmədə işin gecikdiyini və nəticədə çox cüzi miqdarda cərimələndiklərini görərək daha çox özbaşınalığa yol veriblər və bununla nəinki, maddi zərər vurublar, hətta digər kəndlərə də təsir göstəriblər.

Təqdim olunan yazışmadan aydın göründüyü kimi Paladin sahəsi mülkədar hüququnda Rüstəm xan Naxçıvanski və Məşədi Qurban Baba oğluna məxsusdur. Şahbuz kənd sakinləri isə qəbz vermələrinə baxmayaraq polisin tələbini yerinə yetirməyə özlərini məcbur bilmirlər.

Qəzada ictimai asayişin və sakitliyin bərqərar etmək məqsədi ilə deyilənləri Sizə çatdıraraq xahiş edirəm səbəbkarların inzibati qaydada cəzalandırılması üçün sərəncam verilsin.

Qəza rəisi polkovnik: (imza)» (137).

Keçili kəndliləri ilə torpaq sahibkarları arasında baş verən torpaq münaqişələri ilə bağlı Naxçıvan qəza rəisinin 18 may 1914-cü il tarixli İrəvan qubernatoruna göndərdiyi ikinci raportunda yazırdı: «24 mart 1913-cü il tarixli 1461 №-li məktubla mənə İrəvan quberniya barışdırıcı münsiflərinin adına olan məxfi tapşırığın surəti göndərilmişdir. Bu tapşırıqda göstərilir ki, sahibkarlarla kəndlilər arasında baş verən torpaq münaqişələri zamanı barışdırıcı münsiflər həmin münaqişələri yoluna qoymaq və həll etmək üçün dərhal hadisə yerinə getməlidirlər. Polis məmurlarını iştirakına gəldikdə isə Barışdırıcı Münsiflərin adına olan həmin tapşırıqda deyilir: «qəza rəislərinə tapşırılır ki, torpaq istifadəsi zəminində sahibkarlarla kəndlilər arasında hər hansı bir münaqişə baş verdikdə bu barədə dərhal Barışdırıcı Münsiflərə məlumat versinlər».

Keçmiş kənd sakinləri tərəfindən Züvələ kəndinin mülkədarları Böyük xan və Sərvər xan Naxçıvanskilərə aid olan «Vələver» adlı otlağın işğal olunması haqda 2 şöbənin Barşdırıcı Münsifinin 4 may tarixli 300 №-li raportunu aldıqda mən 3-cü sahənin pristavına tapşırdım ki, dərhal hadisə yerinə getsin, məsələnin

nədən ibarət olduğunu aydınlaşdırsın və İmperator həzrətlərinin Qafqazdakı canişininin 5 yarvar 1914-ci il tarixli 90 №-li sərəncamına uyğun olaraq həmin işğalı aradan qaldırmaq üçün tədbirlər görsün. 3-cü sahənin pristavı bu işə dair mənə məlumat verərək 8 yanvar tarixli raportunda bildirib ki, hadisə yerinə gəldikdə o, butun Keçili əhalisinin məskunlaşdığı 5 müxtəlif yerdə 40 yaxın çadır görüb. Ətrafda isə onlara məxsus 3000-ə yaxın iri və kiçik buynuzlu mal-qara otlayırdı. Bunları gördükdə pristav keçililəri yığaraq onlara elan edib ki, özbaşınalığa yol vermək olmaz və təklif edib ki, «Vələver» torpağını tərk etsinlər.

Həmin kəndin kəndliləri adından çıxış edən Kərbəlayi Xudakərim Əliməmməd oğlu, Hacı Abbas Hacı Məmməd oğlu, Hacı Kərim Əliməmməd oğlu, Kərbəlayi Cabbar Kərbəlayi Məmməd oğlu, Qasım Əli Eyvaz oğlu, Qafar Əsəd oğlu, Kərbəlayi Ağa Kərbəlayi Qulam oğlu, Əhmədəli Səfərəli oğlu bildiriblər ki, onlar heç kimin torpağını işğal etməyiblər, ancaq alqı hüququ ilə onlara məxsus olan torpaqda yaylaqlayırlar və həmin torpaq alqı hüququna əsasən onlara məxsusdur. 4-cü şöbənin Barışdırıcı Münsifi tərəfindən onlara elan olunmuşdur ki, onların icmaları ancaq nizamnamə fərmanında göstərilən sərhədlər daxilindəki torpaqları ala bilərlər. Bu sərhədlər şərqdən «İlanlı dağı»nın təpəsi, cənubdan «Sultan Pir», cənub-qərbdən «Sarı Təpə» dağı və qərbdən «Allah Aman» dağıdır. Daha sonra pristav bildirir ki, onun izahlarına baxmayaraq keçililər yüksək tonla ona bildiriblər ki, nə qədər ki, ödəmələr onların üzərindən götürülməyib, onlar bu sahəni özlərinin ki, hesab edəcəklər və nə hökumətin, nə də xanların tələblərinə baxmayaraq bu torpağı keçmiş sahibkarlarına verməyəcəklər. Pristavla birlikdə gələn Qazançı kəndxudası bu cür davranışla siz qəti tədbir görməyə məcbur edirsiz dedikdə, keçililər sərt şəkildə cavab verdilər ki, hamısını öldürə bilməyəcəyik, könüllü isə onlar getməyəcəklər. Sonra keçililər pristava bildirdilər ki, onlar işğal etdikləri torpağın ödəmələrindən azad edilib-edilməyəcəyini öyrənmək üçün 3 gün müddətində özlərinə nümayəndə seçəcəklər və 4-cü şöbənin Barışdırıcı Münsifinin yanına göndərəcəklər. Müsbət cavab aldıqları təqdirdə torpağı tərk edəcəklər, əks halda isə getməyəcəklər. Pristav keçililərin

yüksək əhval-ruhiyyədə olduqlarını görərək və kifayət qədər polis keşikçisi məmurlarına malik olmadığından böyük ərazidə səpələnmiş keçililəri və onların mal-qaralarını güclə uzaqlaşdırmaq üçün tədbir görməyib, ancaq deyilənlər barədə məruzə edərək 20 keşikçinin yanına ezam ediləmsini xahiş edib. Yuxarıda deyilənlərdən aydın olduğu kimi Keçili kənd sakinləri tərəfindən «Vələver» adlanan və 2-ci şöbənin Barışdırıcı Münsifinin bildirdiyinə görə Naxçıvan xanlarının axça torpaqlarını təşkil edən torpaq sahəsinin işğalı barədə mübaisəni arzu olunmaz nəticələrə yol açacaq güc tədbiq edilmədən həll etmək mümkün olduğundan mən, 2-ci və 4-cü şöbələrin Barışdırıcı Münsüflərindən xahiş etdim ki, keçililərə onların tələblərinin əsassız olduğunu izah etmək üçün hadisə yerinə yollansınlar və nəzərdə tutdum ki, özüm də şəxsən və ya köməkçim ora yola düşək. 2-ci şöbənin Barışdırıcı Münsifi buna razılıq verdi. 4-cü şöbənin Barışdırıcı Münsifinə gəldikdə isə, hansı ki, Sizin yuxarıda qeyd olunmuş tapşırığınıza əsasən kəndlilərlə sahibkarlar arasında torpaq istifadəsi zəminində baş vermiş hər hansı münaqişə zamanı hadisə yerinə getməlidir, mənə təqdim olunmuş 11 may tarixli 400 №-li təliqəni Sizə göndərərək xahiş edirəm məni məlumatlandırasınız ki, bu haldan əvvəllər də olub ki, keçmiş mülkədar kəndlərinə torpaq işğalı zamanı Barışdırıcı Münsiflər sərhədləri göstərmək üçün hadisə yerinə getməkdən imtina ediblər, halbuki, onlar şəxsən iştirak etsələr baş vermiş münaqişə dərhal həll edilə bilər, lakin Barışdırıcı Münsiflər imtina edərək bildirirlər ki, mülkiyyət hüquqların polis qorumalıdır, onlar isə iş həll etməlidir.

Mübaisə edən tərəflərin çox gərgin vəziyyətdə olduqlarını, buna görə də kiçik bir səbəbdən zorakılığa, hücumlara və qətillərə səbəb olacağını nəzərə alaraq mən hesab edirəm ki, Barışdırıcı Münsiflərin vəziyyəti izah etməsi və sərhədləri göstərməsi bütün bunların qarşısını ala bilər. Buna görə də bu cür hadisələr zamanı Barışdırıcı Münsiflərin hadisə yerində iştirakı vacibdir, çünki polislərin bu cür məsələləri həll etməyə imkanları və hüquqları yoxdur.

Qeyd etmək istəyirəm ki, 4-cü şöbənin Barışdırıcı Münsifinin, pristavların onu kəndliləri mülkədarlara qarşı qızışdırmaqda haqsız ittihamı barədə qeydinin heç bir əsası yoxdur və buna

görə də əgər kəndlilər torpaqlarının sərhədlərini səhv göstərdiyinə görə öz hüquqlarını elan edərkən ona istinad edirlərsə, polislər bu barədə Barışdırıcı Münsifə xəbər veriblər, işin məğzinə isə toxunmayıblar.

Yuxarıda deyilənləri çatdıraraq bildirmək istəyirəm ki, keçililərin bir hissəsi 4-cü gün işğal etdikləri ərazini tərk ediblər, daha çox inadkarlıq edənlər isə bir neçə gündən sonra polislər tərəfindən qovulublar. Keçililərin yenidən torpağı zəbt edəcəyindən qorxaraq xahiş edirəm «And-top» torpaqlarının sərhədlərinin onlara izah edilməsi üçün 4-cü şöbənin Barışdırıcı Münsifi hadisə yerinə ezam olunsun. Həmçinin xahiş edirəm ki, hadisəni törədənlərdən, raportumda adları çəkilmiş Keçili kənd sakinləri inzibati qaydada cəzalandırılsınlar, çünki kəndlərin sakinləri də qonşularının cəzasız qaldığını görərək həmin şeyi təkrar edə bilərlər. «Vələver» torpağının sahibkarlarının iddialarına gəldikdə isə onlara dəymiş zərər barəsində akt tərtib edərək həmin sahələrin sahibkarlarına təqdim olunub.

Naxçıvan qəza rəisi, polkovnik: (imza) (138).

Naxçıvan qəza polis rəisi polkovnik Zençenkonun 18 iyun 1914-cü il tarixdə İrəvan qubernatorunun adına göndərdiyi raportunda isə tivililərin Biləv kənd sakinlərinə məxsus olan «And-top» adlanan torpaqların tutması ilə əlaqədar toqquşmalar və polislərlə tivililər arasında baş vermiş vuruşmalar haqqında raportunda göstərirdi:

1. Müqavimət, hədə-qorxu və tabe olmama.

2. 10, 12 və 13 iyun tarixlərində 4 polis sahəsinin Tivi kəndi yaxınlarında həmin sahənin Biləv kənd sakinlərinə məxsus olan «And-top» otlağında baş verib.

3. İstintaqı mən aparmışam.

4. Zərərçəkmiş- 4-cü polis sahəsinin pristav vəzifəsini icra edən və Biləv kənd sakinləri.

5. Günahkarlar-Tivi kənd sakinləri həbs olunublar.

6. Deyilənlər barədə istintaq aparılaraq protokol tərtib olunub və Ordubad Barışdırıcı-istintaq sahəsinin müdirinə təqdim olunub.

Zençenko raportunda qeyd edir ki, iyun ayının 10-da Biləv kəndində yaşayan bəylər: Fərəc ağa və Əli Murad ağa Kəngərlilər

4-cü polis sahəsinin pristavı Vəzirovun yanına gələrək bildiriblər ki, Tivi kənd sakinləri Biləv kəndlilərinə və bəylərinə məxsus olan «And-top» otlağını tütüblar, oradan çobanları və mal-qaranı qovaraq öz mal-qaralarını ötürüblər. Pristav bu ərizəyə əsaslanaraq Aza keşik dəstəsinin polis pristavı Fedot Sayenkonu 3 keşikçi ilə birlikdə ədalətin bərqərar edilməməsi, günahkarların üzə çıxarılmaması və prtokolun tərtib olunması üçün hadisə yerinə ezam edib. Ertəsi gün 11 iyun tarixində pristav 3-cü şöbənin Barışdırıcı Münsifinin 9-u tarixli 441 №-li təliqəsini alıb. Həmin təliqədə Tivi kənd sakinləri tərəfindən Nizamnamə fərmanına əsasən Biləv bəylərinə məxsus olan «And-top» torpağının işğalı barədə məlumat verilərək xahiş olunub ki, tivililər dərhal həmin torpaqdan uzaqlaşdırılsınlar. Nəticədə, pristav həmin sahəyə Çənnəb postının uryadniki Mixail Tokarevi və 2 keşikçini ezam edib və Tivi kəndlilərinə elan olunması üçün Barışdırıcı Münsifin təliqəsinin əslini onlara verib. Uryadnik Sayenko 11-i tarixində hadisə yerinə gələrək sahəyə buraxılmayıb. Belə ki, 5 nəfər tivili onu nalayiq sözlərlə təhqir ediblər və sahədə işləyən kəndlilərini göstərərək «And-top» torpaqlarından qovulacqları təqdirdə müqavimət göstərəcəklərini bildiriblər. Tivililərdən bəziləri isə keşikçilərə atəş açıblar. 12-si tarixində hadisə yerinə uryadnik Tokarev gəlib. O, uryadnik Sayenko ilə birləşərək işlə tanış olduqdan sonra başda keçmiş Çənnəb kəndxudası Şahvələd Kərbəlayi Tağı olmaqla bir neçə tivilini yanına dəvət edib, Barışdırıcı Münsifin və pristavın sərəncamlarını onlara elan edib və hökumətin qanuni sərəncamına tabe olmağa çağırıb. Tivililər bu təklifə rədd cavabı verərək uryadnikləri və keşikçiləri söyüblər. Keşikçilərlə uryadniklər və bəzi biləvlilər görüblər ki, 12 iyun səhərdən Tivi kəndinin bütün sakinləri, qadınları, uşaqları götürərək və İran tüfəngləri ilə silahlanaraq adı çəkilən sahəyə yollanıblar. Onlar həmin otlağın ən yuxarı təpələrində yerləşiblər. Keçmiş kəndxuda Şahvələd Kərbəlayi Tağı oğlu və Tivililərdən bəziləri, hansıların ki, şəxsiyyətləri istintaq zamanı müəyyən olunub keşikçiləri hədələyiblər və bildiriblər ki, əgər onlar sahəyə qalxsalar, onda sonuncular onlara müqavimət göstərəcəklər, eyni ilə onlar biləvlilərin mal-qarasını da sahəyə buraxmayacaqlar. Günahkarları, tivililərdən kimin müqavimət göstərəcəyin müəyyən

etmək üçün cavan qoyunlardan 45-50 baş sahəyə ötürülmüşdür. Tivililər onların yolunu kəsərək biləvlilərə daşlar atmağa başlayıblar, lakin keşikçilər onları dayandırıblar. Dağın yamacındakı tivililərdən 50 nəfər 150 addım məsafədən keşikçilərin üzərinə hücum çəkiblər, dağların başındakı tivililər isə üç dəfə atəş açıblar. Bununla onlar demək istəyiblər ki, biləvliləri atəşlə qarşılamağa hazırdılar. Vəziyyətin bu cür olduğunu və silahlı tivililərin qəzəbli olduğunu görərək uryadniklər Sayenko və Tokarev aktiv müdaxilə etməmək qərarı veriblər və baş verənlər barəsində Çənnəb kəndindən pristava teleqraf göndəriblər. Ertəsi gün, yəni 13-ü tarixində saat 9-da hadisə yerinə 7 nəfər polis keşikçiləri ilə birlikdə pristav gəlib, hansı ki, sahədə uryadniklər Sayenko, Tokarev və keşikçilərlə və bir neçə Biləv sakinləri ilə qarşılaşıb. Atıcılarla onların yanına qalxmaq mümkün olmadığından pristav atını aşaığda qoyaraq bir neçə keşikçi ilə birlikdə tivililərin yanına qalxmağa başlayıb, hanılar ki, pristavı görərək Şahvələd Tağı oğlu ilə birlikdə bir neçə nümayəndələrini onun yanına göndəriblər. Gəlişinin məqsədini izah edərək və gələcəkdə onlara müqavimət göstərməməyi məsləhət görərək pristav «And-top» otlağının Biləv bəyləri və kəndlilərinə məxsus olduğunu sübut etməyə başlayıb. Bununla bərabər o Biləv kəndlilərinin əlində olan nizamnamə fərmanında həmin kəndin sərhədlərini izah etməyə başlayıb və təklif edib ki, qonşu kəndlərin sakinləri ilə birlikdə sərhədlərə baxılsın. Ancaq tivililər pristavın üstünə qışqıraraq bildiriblər ki, bütün bunlar onlara lazım deyil və onlar bu torpağın özlərinin ki, hesab edirlər. Pristavı hədələyən adamlar saxlanılaraq müstəntiqin ixtiyarına verilmişdir. Bununla yanaşı Tivililərdən Kərbəlayi Şirəli bəy oğlu dava salmaq məqsədi ilə Əli Murad ağa Kəngərlinin üzərinə hücum çəkib və onu vurmaq istəyib, lakin vaxtında saxlanılıb. Pristav Sayenko onu həbs edərək onu da vurmaq istəyib, lakin zərbə keşikçi Cahagir Sarkisova dəyib. Bundan sonra o qaçaraq tivililərin arasında gizlənib. Tivililər keşikçilərin onu tutmaq istədiklərini görəndə «nə durmusuz, atəş açın» qışqırıblar. Onların bu əmri dərhal yerinə yetirildi, belə ki, dağın başından 3 tərəfdən dərhal atəş açıldı. Güllələr pristav, keşikçilər və onların yanıda olan 10-12 nəfər biləvlinin başlarının üstündən keçdi. Güman

etmək olar ki, tivililər öz adamlarını yaralamaqdan qorxurdular. Belə ki, tivililər geri çəkilən kimi tüfəng ilə pristava, Biləv kənd sakinlərinə, keşikçilərə yönəldi. Biləv kənd sakini Ağayar Ağayar oğlu ayağından yaralandı. Şahıdlərin ifadələrinə görə tivililərin atəşlərinin sayı 150-dən az olmayıb. Tivi kənd sakinlərindən atəş əmri verənlərdən əksəriyyəti və silahı olan tivililərdən bəziləri saxlanılıblar. Digərlərinin şəxsiyyətləri müəyyən olunub və onlar 35-40 verst aralıdan yaylaqda gizləndiyindən onları yaxalamaq üçün tədbirlər görülüb. Ərazi dağlıq olduğundan atəş açanlara qarşı hücum etmək mümkün olmayıb. Buna görə də pristav mənasız insan itkisinin qarşısın almaq üçün yaralı biləvlini götürərək geri çəkilməyi əmr edib.

İmzaladı: Naxçıvan qəza rəisi polkovnik Zençenko» (139).

Bu çarpışmada çoxlu adam yaralanır və ölür. Əhalinin hücumuna davam gətirə bilməyən xanlar və polis pristav müavini Cabbar ağa Vəzirov başda olmaqla polis kazak dəstələri «Andtop» yaylağı ərazisindən qovulur.

Naxçıvan qəza polis rəisinin İrəvan qubernatoruna yazdığı kimi, xan və polis kazak dəstəsinə qarşı vuruşmada təkcə kişilər deyil, qadınlar və uşaqlar iştirak edirdilər. Qadınlardan Şərəbanı Tağı qızı (Qulamalı Şirin oğlunun arvadı) Xanımcan Budaqova, Ölkə Hüseynxan qızı və başqaları çox fəallıq göstərmiş və polis kazak dəstəsinin daşa basmaqla onları geri oturtmuşlar.

Bu hadisdən 3 gün sonra, yəni iyun ayının 16-da Tivi əhalisinə qarşı Ordubad polis pristavının müavini Cabbar ağa Vəzirov, Çənnəb, Aza və Vənənd yüzbaşıları və uryadnikləri başda olmaqla 300-dən artıq kazak polis dəstəsi və xanlardan ibarət silahlı qüvvə göndərilir. Bu güclü qüvvəyə müqavimət göstərə bilməyən əhali kəndi tərk edib dağlara və ətraf Bist, Nəsirvaz və kəndlərə üz tuturlar.

Ordubad polis pristavının müavini Cabbar ağa Vəzirov başda olmaqla hücumla kəndə girən polis kazak dəstələri kəndi talayır, mal-qaranı qırır, meyvə ağaclarını balta ilə doğrayıb yerə tökür və kənddə qalan 22 nəfər ağsaqalları həbs edirlər. Həbsə alınanlardan biri də kəndin yüzbaşısı Şahvələd Bağırov idi. Onun kəndlilərə qarşı xeyirxah xidmətləri hələ 1909-cu ildən

kəndin iri buynuzlu mallarını kəndlilərin xeyrinə hökumətdən gizlətdiyinə görə məhkəməyə verilmişdir (140).

Tivi kəndli çıxışlarının təşkilatçılarından Şirin Qulaməli oğlu başda olmaqla 22 nəfər məhbus Ordubad şəhər həbsxanasına salınır. Həbs olunanların istintaqı məhkəmə tərəfindən müsətəntiq, yarım liberal Mirzəəliqulu Rəsulbəyova tapşırılır. Müstəntiq belə məsləhət görür ki, şahidlər həm çox sayda, həm də uzaq yerlərdən göstərilsin. Bu o deməkdir ki, müharibə şəraitində (1914-cü il) istintaq yubandıqca, iş uzandıqca məhbusların müqəssirliyi öz əhəmiyyətini itirə bilər.

Bu belə də oldu. İstintaq işi 1915-ci ilə kimi uzandı. Şahidləri bir yerə yığıb danışdırmaq mümkün olmayırdı. Camaat tərəfindən İrəvandan 800 manata tutulan vəkil Karanert Yalaq oğlu iş ilə tanış olduqda demişdir ki, bu ittiham işinə baxmaq üçün iki-üç il lazımdır. O vaxta qədər də dünya bir tərəflik olar. Ona görə də məhbuslar zamına verilməlidir. Əhalinin və vəkilin təkidi ilə müqəssirlər zamına verilir. Polis idarəsi Şahvələd Bağırovdan başqa məhbusları zamına verir. Bu işdən halı olan məhbuslar zamından imtina edirlər. Bu zaman polis idarəsi xəyanətə əl ataraq Şahvələdi zəhərlədi. Ordubaddan həkim Hacı Mir Həsən ağa xəstənin müalicəsini öhdəsinə götürür. Ordubad ictimaiyyətinin təkidi ilə Şahvələd zamına verilmir, lakin 3 aydan sonra vəfat edir (141). 21 məhbusun istintaqı 1917-ci ilin yazına kimi uzanır. Bu zaman çar hakimiyyəti yıxılır. Bütün siyasi məhbuslar kimi onlar da cəzadan yaxa qurtarırlar.

Artıq birinci dünya müharibəsində vəziyyət daha da gərginləşdi. Naxçıvandan Qafqaz cəbhəsinə, mal-qara və ərzaq göndərildi. Bu zaman Tivi kəndliləri əlehinə qaldırılan siyasi ittihamlar da demək olar ki, öz əhəmiyyətini itirmişdir.

Bu illərdə qaçaqçılıq hərakatında Tivili Süleymanın da böyük rolu olmuşdur.

Naxçıvanın başqa kəndlərində olduğu kimi Tivi kəndində yaşayan kəndlilərin də vəziyyətləri ağır keçirdi. Kəndlilər öz uşaqlarını dolandırmaq məqsədi ilə varlıların əllərinin altında işləməyə məcbur idilər.

Ağır güzəranla yaşayan kəndlilərdən biri olan Piriş kişi ailəsini dolandırmaq üçün Biləv kənd əhli Kərim Sultanın yanında işləməyə məcbur olmuşdur.

1890-1895-ci illər ərzində Pirşi kişi çox az əmək haqqı almaqla öz ailəsini dolandırmağa başlayaraq həmişə bəylərin, xanların ağır zülmünə qarşı öz ailəsi və yoxsul kəndlilərlə dərdləşirmiş.

Nəhayət Kərim Sultanın zülmünə tab gətirə bilməyən Piriş kişi onun yanında işləməkdən boyun qaçırmaq istəmiş Kərim Sultan Piriş kişini döyərək incitmiş və ona çıxıb gedərkən heç bir zəhmət haqqı verməyəcəyini bildirmişdir.

Dözülməz ağır təyziqi nəticəsində Piriş kişi Kərim Sultanın yanından çıxararaq heç bir əmək haqqı almadan Tivi kəndinə qayıtmışdır.

Ağsaqqal atasının döyülməsi, əmək haqqı almaması onun oğlu İsmayılov Süleymanı narahat etməyə bilməzdi. Süleyman bu cür haqsızlıqlara tab gətirə bilmir və 1896-cı ildə Süleyman qaçaraq bəy və xanlara qarşı mübarizə aparmağa başlamışdır.

Kərim Sultanın ilxısından at və lazımi qənimətlər ələ keçirərək ondan qisas almağa başlamışdır. Kərim Sultan və başqa varlılar müxtəlif vasitələrə əl atmağa başlayaraq Süleymanı tutdurmaq qərarına gəlmişlər.

Artıq Süleyman izləndiyini başa düşərək 1902-ci ildə Arazı keçərəkə İranın Kukəmər (Seyidlər) kəndinə getmişdir.

Süleyman bir neçə il İranın Kukəmər kəndində yaşamışdır. Lakin Suleyman uzun müddət burada yaşaya bilməzdi. Onun ata-anası və yaxın qohumları Azərbaycanda qaldığından o, 1905-ci ildə vətənə qayıdaraq öz mübarizəsini davam etdirməyə başlayır. İrandan gələrkən onunla birlikdə iki nəfər yoldaşı da var imiş.

Süleymanın qayıdıb Tivi kəndinə gəlməsini eşidən Kərim Sultanın oğlu Novruz ağa Süleymanın qaçaqlıqdan əl çəkməsi üçün bir neçə dəfə Süleymana sifarişlər göndərmiş və ona küllü miqdarda əmlak, mülk və vəzifə veriləcəyini vəd etmişdir.

İsmayılov Süleyman Novruz ağanın sifarişlərinə dəfələrlə rədd cavabı göndərmişdir. Lakin ona dönə-dönə göndərilən sifarişlərə nəhayət inanan Süleyman 1912-ci ildə üzə çıxmışdır.

Novruz ağa Süleymana taxıl və s. ərzaq verməklə ona bir ədəd də alman silahı bağışlamışdır.

İsmayılov Süleymanı mübarizədən yayındırmaq üçün Novruz ağa Naxçıvanın naçalniki ilə danışmış, onu Şahbuz rayonuna uryadnik təyin edirlər. Süleyman 3-4 ay həmin vəzifədə işləmiş, bəylərin, xanların yoxsul kəndlilərə verdiyi əziyyətlər Süleymanı artıq dərəcədə narahat etmiş və nəhayət Süleymanın keçmiş qaçaq yoldaşı Kəlba Kərim ona xəbər göndərmişdir ki, Süleman səni hiylə ilə aldadıblar. Onların hiyləsinə aldanma, çox çəkməz ki, sizi naçalnik tərəfindən həbs etdirəcəklər.

Süleyman artıq başa düşmüşdür ki, doğrudan da Novruz ağa ona hiylə işlətmiş, onu vəzifə ilə aldatmışdır.

1912-ci ilin son aylarında Süleyman yenidən qaçaraq Tivi kəndinə gəlmiş özünə münasib adamları başına toplamış, yenidən öz mübarizəsini davam etdirməyə başlamışdır. Varlıların mal-qarasın, qoyunlarını, ev əşyalarını əllərindən alaraq kəndin yoxsul əhalisinə paylamışdır.

Bu zaman Süleymanın dəstəsində olan yoldaşlarından Naxçıvanın Zeynəddin kəndindən Kəlba Kərim. Ordubad rayonunun Pəzməri kəndindən Layış oğlu Hüseynqulu, Cəbrayıl rayonunun Havıslı kəndindən Qaraş və İranın Kükəmər kəndindən iki nəfər seyidi qeyd etmək olar.

Deyilənlərə görə, İranda olan Səttar xanın Süleymanın dəstəsinə çoxlu köməyi olmuş, onun gücünə arxalanmışlar. Səttar xan Süleymanın dəstəsinə maddi cəhətdən hər tərəfli yardım etmişdir.

1918-ci ilin mart-aprel aylarında ermənilərlə müsəlmanların kəskin mübarizəsi nəticəsində Tivi, Xurs, Nurgüt kəndləri dağıdılmış, əhali qaçaraq aran kəndlərində mühacir olmuşlar.

1918-ci ilin iyun-iyul aylarında Tivi, Bist, Parağa, Nəsirvaz, Xurs, Nurgüt kəndlərindən ağsaqqallar barışıq qoymaq, orada olan ziddiyyətlərin aradan götürülməsi üçün Tivi kəndinə toplaşmışlar.

Bu ərəfədə Çənnəb və Tivi kəndlərinə daşnakların böyük bir dəstəsi gəlmişdir. Daşnakların başçılar Çənnəb kəndində qalmış ikinci dəstənin başında Əbrəqunus sakini Hayrik dururdu.

Hayrik əlaltı kəndin qabaqçıllarını, o cümlədən Süleymanı yanına çağırıb dilə tutmuş və biz sizinlə həmişəlik dost olacayıq deyə onu aldatmışdı. Kəndin sürcü massivində qonaqlıq təşkil etmiş, bu zaman kəndin adlı-sanlı adamlarının hamısı o yığın-

caqda iştirak etmədiyindən Hayrik hiylə işlədərək söhbətlərini ikinci günə saxlamışdır ki, bütün adlı-sanlı adamları bir yerə toplayıb qırsın. Hayrik Sülemanla çox mehriban danışmış, balaca oğluna üstəlik olaraq bir ədəd naqan bağışlamışdır.

Bu zaman Tivi kənd sakinləri kəndin yaxınlıqlarında dalda-lanaraq kəndə girməyə qorxurdular. Hayrik Tivi kənd əhli Əsədov İbiş adında bir nəfəri Tivi camaatının yerləşdiyi yerə göndərərək barışmaq üçün gəlmələrini bildirmişdir.

Süleyman camaata xəbər vermiş ki, Hayrikin dəstəsi barışıq üçün gəlmişlər, heç bir başqa fikir olmayacaq, yığışın gedək kəndə. Lakin kəndin qabaqcıl adamlarından Bağırov Babəmir, Xanvələd və bu kimi yoldaşlar getməyi məsləhət görməmişlər, daşnaklar hiylə işlədirlər, onlardan dost çıxmaz demişlər.

Hayrik artıq dərəcədə Süleymana dil tökdüyündən başına 16 nəfər toplayıb kəndə getmişlər. Hayrik həmin 16 nəfəri kəndin Narzan suyunun qırağında başına toplamış, dilə tutmuş və Sülemana keçən gün verdiyi sözü bir daha təkrar etdikdən sonra Süleymanın hansı evdə yaşamasını və camaatı çıxarmaq üçün onun evinə getməyə qərara almışdır.

Nəhayət, 16 nəfəri hiylə ilə Süleymanın yaşadığı evə gətir-mişlər. Onları Sülemanın otağına yığdıqdan sonra Hayrik Süley-mandan soruşmuşdur ki, siz neçə il qaçaq olmusunuz. O, 16 il qaçaq oldğunu bildirdikdə Hayrik kinayəli bir surətdə gülmüş-dür. Artıq gec idi İsmayılov Süleymanı və onun yoldaşlarını tam silahsız vəziyyətdə öz evinə hiylə ilə gətirdən Hayrikin və onun fitnəkar yoldaşlarının hərəkətləri baş tutmuşdur.

Nəhayət Süleymanın dəstəsini çox böyük vəhşiliklə öldür-müşlər. Süleymangili çağırmağa gedən Əsədov İbişi isə sağ buraxmışlar. Kəndin böyük məsçidini odlamışlar. Süleymanın evini və öldürülənləri yandırmışlar (142).

Naxçıvan, Ordubad və Şərur qəzalarında ayrı-ayrı kəndli çıxışlarının müvəffəqiyyətsizliyinin və kütləvi silahlı üsyanlara çevrilməməsinin səbəblərindən biri də bu illərdə mülkədarların və çarizmin çirkin milli qırğınlar təşkil etmələri idi. Bunun nəticəsində mülkədar və çarizmin əsarəti altında əzlən Azər-baycan kəndliləri ümumi düşmənə qarşı birləşə bilmədilər.

III FƏSİL.

Erməni-müsəlman toqquşmaları, Naxçıvanda demokratik hərəkat və polis orqanlarının demokratik qüvvələrə qarşı mübarizəsi

Azərbaycanda, o cümlədən Naxçıvan qəzasında çar hakimiyyətinə qarşı kəndli çıxışları və milli azadlıq hərakatı get-gedə güclənirdi. Xalqların ümumi hərakatından qorxan və Rusiyanı artmaqda olan inqilabi hərəkatdan uzaqlaşdırmaq istəyənlər 1905-1907-ci illərdə bir sıra yerlərdə olduğu kimi Zaqafqaziyada da milli qırğın törətməyə başladı. Məhz bu səbəbdən də ərazi iddiasında olan erməniləri qızışdırıb azərbaycanlılara qarşı qaldırmağa nail oldular.

Sənədlərdən məlum olur ki, 1906-cı ilin may ayının 5-də Naxçıvan qəzasında rus və ermənilər tərəfindən böyük qırğınlar törədilmiş bir çox yerlər dağıdılaraq viran edilmişdir.

1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında Rus imperiyası və Tiflis daşnak şurasının rəhbərləri başda olmaqla yerli erməni daşnakları tərəfindən erməni və müsəlman xalqları arasında nifaq salınaraq böyük qırğınlar törədildi.

Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar Ordubad rus hərbi hissəsinin komandiri kapitan Prixniyan (milliyətcə erməni) Peterburq Ali Baş Ştabının ünvanına göndərdiyi 20 may 1905-ci il tarixli teleqramında yazırdı «Tivi kəndində xalqlar arasında baş verən hərc-mərcliklə əlaqədar kömək məqsədi ilə oraya 488 nəfər əsgər və 33 nəfər zabit göndərildi» (143).

Məlum olur ki, bu hərbi hissə oradakı müsəlmanları qırmaq və onları öz yurdlarından qovmaq üçün ermənilərə kömək məqsədi ilə göndərilmişdir.

17 iyun 1905-ci ildə isə Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə ilə əlaqədar Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandiri 18 iyunda Baş Ştaba göndərdiyi raportunda yazır: "Ermənilərlə müsəlmanlar arsında baş vermiş münaqişələrin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədilə, mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun ta-

rixdə axşam 8-də silah işlətməyə məcbur olub, nəticədə Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür..."

Həmçinin başqa bir raportda həmin ilin iyul ayının 5-də Nors kəndində ermənilərlə müsəlmanlar arasında olan münaqişədə rus kazaklarının ora göndərilməsi nəticəsində dağlarda gizlənib ermənilərdən özlərini müdafiə edən Nors kəndinin sakinlərindən 4 nəfərinin öldürüldüyü və 11 nəfərin yaralandığı haqda məlumat verilirdi.

Çox maraqlıdır ki, göndərilən raportlarda bir nəfər də olsun ermənilərdən öldürüldüyü qeyd olunmur. Deməli, rus kazakları ermənilərə kömək məqsədilə göndərilmiş, ermənilərlə birlikdə müsəlmanları qırmışlar.

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa yaşayış yerlərini də əhatə etdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci ilin noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur.

Sənədlərdən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində rus imperiyası və Tiflis daşnak şurasının rəhbərləri başda olmaqla yerli erməni daşnakları tərəfindən erməni-müsəlman arasında dəfələrlə nifaq salaraq böyük qırğınlar törətmişdilər.

1906-cı ilin mart ayında Naxçıvan qəza polis idarəsinin fəaliyyəti ilə bağlı təftiş aparmış İrəvan quberniya idarəsinin mülkü müşaviri Ter-Saakov yazmış olduğu arayışında Naxçıvan qəza polis idarəsində fəaliyyət göstərən cinayət və təsərrüfat şöbəsində və onun tabeliyində olan dairə polis məntəqəsində olan bir çox nöqsanları göstərməklə 1905-1906-cı illərdə erməni-müsəlman arasında baş vermiş milli ədavətlərin, qırğınların törədilməsində başlıca günahları müsəlmanların üzərinə yıxmışdır. O bunlarla qarşı heç bir tədbir görülmədiyini bildirərək yazmış olduğu arayışla bağlı izahat verilməsini tələb etmişdir.

Təftişlə bağlı Naxçıvan qəza rəisi polis polkovniki Slavinski 1 iyun 1907-ci ildə İrəvan qubernatoruna göndərdiyi raportunda yazırdı: «Quberniya idarəsi üzrə 26 may tarixli 1251 saylı gös-

tərişinizdə quberniya idarəsinin müşaviri Ter-Saakov tərəfindən aparılan təftiş zamanı polis idarəsində aşkar olunmuş özbaşınalıq, səliqəsizlik, kargüzarlıq işindəki lənglik sahə pristavları tərəfindən yol verilən bütün nöqsanlarla yanaşı işə can yandırmamaq, başdansovdu iş görməyin səbəbləri haqqında məndən izahat istənilmişdir.

Siz əlahəzrətlərə aşağıdakı məlumatları verirəm: «1906-cı ilin yanvarında erməni-tatar (müsəlman) münaqişəsinin qızğın vaxtında mən Naxçıvan əyalətinin idarə etməyə başladım və bu zaman qarşıma qoyduğum əsas vəzifə bu münaqişəyə son qoymaq idi. Mən bu işdə tam müvəffəqiyyət qazandım. Belə bir vəziyyətdə işə başladığım ilk günlərdən demək olar ki, hər gün hadisə yerlərinə getməklə düşmənçilik edən millətləri barışdırmaq üçün yaradılmış komissiyasının işində və digər işlərdə iştirak etmək məcburiyyətində olduğumdan tez bir zamanda polis idarəsindəki kargüzarlıq işləri, sahə və şəhər pristavlarının fəaliyyətləri ilə dərindən tanış ola bilmədim. Ona görə də mən Siz əlahəzrətlərdən polis idarəsində və pristavların fəaliyyətində yol verilmiş nöqsanları, çatışmamazlıqları aşkar etmək üçün bu işlərin təftiş olunmasını xahiş etdim ki, bundan sonra həmin nöqsan və çatışmmazlıqları aradan qaldırmaq mümkün olsun.

Təəssüf ki, müşavir Ter-Saakov tərəfindən 1906-cı ilin mart ayında aparılmış təftiş hesabatı mənə təftiş başa çatdıqda il yarım sonra bu il mayın axırında göndərilmişdir ki, bu da məni hesabata uyğun olaraq aşar edilmiş bütün nöqsanlar və çatışmamazlıqları aradan qaldırmağa imkan verməmişdir.

Müşavir Ter-Saakovun təftişi haqqında hesabatı əsas etibarı ilə 1906-cı iləndək, yəni mənim Naxçıvanı idarəyə başladığım vaxtadək olan dövrü əhatə edir. Ona görə də təftiş zamanı aşkar edilmiş nöqsanlar və çatışmamazlıqlar haqqında izahatı məndən yox, podpolkovnik Engeldən və onun sabiq köməkçisi Qoqoberidzedən, Qrinkoviçdən, katib Molodovdan, sahə pristavları Filipovdan, Roborovskidən, şəhər pristavı Poqovdan, Zeynalabdinbəyovdan, kargüzarçı Ter-Qukasovdan, Naxçıvan həbsxanasının nəzarətçisi İvanovdan tələb etmək lazımdır.

Yalnız təftiş hesabında göstərilən bəzi çatışmamazlıqlar haqqında mənim sabiq kargüzarçım, hazırda polis idarəsinin katibi

işləyən Kazım bəy Qulubəyovdan və pristav Kovriyevdən izahat tələb etmək imkanım var. Təftiş hesabatında göstərilən nöqsanların və çatışmamazlıqların böyük bir hissəsi mənim gördüyüm tədbirlər nəticəsində hələ hesabat alınan günədək aradan qaldırılmışdır. Qalan nöqsanları aradan qaldırmaq üçünsə xahiş edirəm mənə bir ay yox üç ay vaxt verəsiniz. Ümid edirəm ki, bu müddətin sonunadək kargüzarlıq işlərini və sahə pristavlarının fəaliyyətini tələb olunan səviyyəyə qaldırmaq mümkün olacaqdır. Naxçıvan qəza polis rəisi Slaviniski» (144).

Raportdan göründüyü kimi 1905-1907-ci illərdə iki xalq arasında çar rusiyası tərəfindən törədilən qırğınlar, dağıntılar nəticəsində Naxçıvan qəzasında əhalinin vəziyyəti olduqca ağırlaşırdı. Çar polis orqanları tərəfindən azərbaycanlılara qarşı haqsız həbslərin başlanması nəticəsində Naxçıvan qəzasından yüzlərlə adam tutularaq İrəvan, Naxçıvan qəza, Baş-Noraşen və Ordubad şəhər həbsxanalarına salınır.

20 fevral 1906-cı ildə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov müşavirə çağırıb Azərbaycan-erməni qırğınları məsələsini müzakirə etmiş və yeni qırğınlar üçün istiqamət vermişdir. Müşavirə iştirakçılarından canişinin polis işləri üzrə köməkçisi Malama demişdir: «Cənablar, siz ümumiyyətlə buraya ondan ötəri çağırılmısınız ki, sülh bağlayıb və maddələr üzrə razılığa gələsiniz... Sülh çox yaxşı sözdür, fəqət təcrübə göstərir ki, ermənilər ilə müsəlmanlar arasında asayiş yolu ilə sülh qoymaq mümkün deyil» (145).

General Malamanın çıxışından sonra erməni-azərbaycan qırğınları yenidən qızışır. Naxçıvan, Şuşa, Cəbrayıl, Şamaxı və s. qəzalarda ikinci dəfə qırğınlar başlanır. Bu qırğınlar nəticəsində Naxçıvan qəzasının Küznürt, Çeşməbasar, Şıxmahmud, Yamxana, Yarımca, Cəhri, Şurut, Əbrəqunus, Şahbuz nahiyyəsinin Nors, Arınc, Şərur qəzasının Ulya-Noraşen, Ələkli, Aşağı Daşarx kəndləri yandırılır. Azərbaycanlılardan və ermənilərdən çoxlu əhali məhv olur.

Naxçıvan ölkəsində erməni-müsəlman qırğınları Qafqaz canişini general İllarion İvanoviç Varantsov-Daşkov tərəfindən göndərilən İrəvan qubernatoru Baranovski və İrəvan şəhər qlavası Ağamanov tərəfindən törədilmişdir.

Bu qırğınların qarşısının alınması İrəvan qubernatorundan xahiş edilikdə, cavabında qubernator azərbaycanlılara demişdir ki, «Əgər onlar (ermənilər) sizə atəş açırlarsa, siz tutub onların tapancalarını alın» (146) Verilən cavab çox gülünc idi.

Bununla da çar hökuməti, onun çinovnik və agentləri kimi xalq arasında qırğınları şüurlu surətdə təşkil edib qızışdırırdılar. Çar hökuməti, kapitalist və mülkədarlar hər bir vasitəilə qırğınlara kömək edib iki xalq arasında sülh bağlanmasına imkan verməməyə çalışırdılar.

Naxçıvanda fəaliyyət göstərən demokratik qüvvələr xalq kütlələrini başa salırdı ki, milli qırğınlar çar hökuməti və onun istinad etdiyi xanlar, bəylər və mülkədarlar tərəfindən təşkil edilmişdir. Buna görə də demokratik qüvvələr milli qırğınların ümumi sinfi mübarizəyə, çarizm və mülkədarlara çevrilməsini tələb edirdilər.

Onu da qeyd edək ki, xalq çıxışlarının təsri altında Demokratik hərəkat genişlənməyə başlayır. Demokratik hərəkatın başında C.Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsər, Eynallı Sultanov kimi qabaqçıl ziyalılar dururdular. Belə maarifpərvər ziyalılar məhz əsər və məqalələri ilə əsl həqiqətləri izah edirdilər.

1905-1907-ci illər inqilabının təsiri ilə Naxçıvan demokratik qüvvələri Mirzəli bəy Bekdaşyev, Mirbağır Mirheydərzadə, Nəsrullah Şeyxov, Heydər Məmmədov, Nəcəfqulu və Rzaqulu Nəcəfovlar, Məşədi Əhməd Əzimov və başqaları «Hümmət» təşkilatının Naxçıvan qrupunu təşkil edib, mütləqiyyət, xan, bəy münasibətlərinə qarşı daha geniş mübarizəyə qoşuldular.

Mirzəli bəy Bekdaşyev «Hümmət»in inqilabi komitəsini polis xəfiyyə təqiblərindən saxlamaq məqsədi ilə Puşkin küçəsində (indiki İstiqlal) «Ülfət (Dostluq) adı altında bir çayxana açır. Bura çayxana deyil, qərargah rolu oynayırdı. Çünki bura «Hümmət» və «Mücahid» təşkilatlarına mənsub olub, monarxiya əleyhinə təbliğat aparan inqilabçıların görüş yeri idi. Bu onu göstərir ki, Naxçıvanda demokratik azadlıq uğrunda mübarizə aparan təşkilat öz işinə 1905-ci ildən başlayaraq çar mütləqiyyəti yıxılana kimi davam etdirmişdir. Bununla yanaşı Naxçıvan dəmir yol fəhlələri arasında fəaliyyət göstərən inqilbai təşkilatın apardığı iş də diqqəti cəlb edir. Bu təşkilatın başında Məşədi Əhməd Əzimov və Anton Belidze dururdu.

Naxçıvan şəhər polis xəfiyyə təqibləri Mirzəli bəyin başçılıq etdiyi təşkilatın fəaliyyətini dayandıra bilmirdi. Çayxana pərdəsi altında müharibə əleyhinə aparılan iş yenidən polis xəfiyyə idarəsinin nəzərinə çatdırır və təqib daha da gücləndirilir. «Çayxana»dakı siyasi işlər barədə İrəvan quberniya polis idarəsinin rəisi polkovnik Vasilyev tərəfindən Qafqaz canişinliyi dəftərxanasına göndərilən bir məlumatda göstərilir ki, dərnəyin üzvləri öz işlərini yalnız və ancaq şifahi aparır, bütün yazışmalar və məktublar qəti qadağandır. Bununla bərabər dərnəyin üzvləri daimi bir-birlərini şərti işarələrlə tanıyırlar, çünki yazının tapılması üzündən onlar həmin vaxtının qanunu ilə ciddi cəzalandırıla bilərdilər» (147).

Polis xəfiyyə agentlərinin məlumatı əsasında 1907-ci ilin sonlarında M.Bektaşinin «Ülfət» adlı çayxanasında axtarış aparan Naxçıvan qəza polis rəisi Sorokin Qars şəhərindən olan məşhur inqilabçı Abbas ağanı, onunla bərabər Kərbəlayi Məmməd ağanı, Heydər Məmmədovu, Nəcəfqulu Nəcəfovu həbsə alıb Naxçıvan ərazisindən sürgün edir, çayxana isə İrəvan qubernatorunun əmri ilə bağlanır. Bu hadisədən hiddətlənən «Ülfət»in digər üzvləri inqilabi işə mane olan xəfiyyə agentlərini aradan qaldırmaq məqsədi ilə müəyyən tədbirlər həyata keçirirlər. Onların adına təhqir edici məktublar yazılır, həyatlarına sui-qəsd hazırlayırdılar. Tbilisi şəhərində yaşayan naxçıvanlı demokratlar Naxçıvan qəzasının sabiq polis rəisi, sonralar Kutaisi hərbi qubernatoru Slavatinskinin adından fəaliyyətləri ilə seçilən agentləri məhv etmək məqsədi ilə onlara töhfə adı altında «cəhənnəm maşını (yeşikdə partlayıcı bomba) göndərirlər. Bu, terrorçuluq olsa da, inqilabi tədbir idi. Bu hədiyyədən şübhələnən polis agentləri Slavaçinski adından göndərilən töhfəni açmağa cürət etmirlər. Çünki Mərənd qubernatoru, ən mürtəce Hacı Sultan Şücai Nizamıda belə bir töhfə ilə aradan götürülmüşdür. Buna görə də töhfənin açılmasına 1-ci dairənin pristavı Berdzinyevi, onun köməkçisi Ternoru, rayon mühafizə rəisinin adyutantı, yasavul Nefedyevi dəvət edirlər. Slaviçinski adından göndərilən bu töhfə nişana qoyulub atıldıqdan sonra partlayır, onun «cəhənnəm maşını» olduğu məlum olur». Baş vermiş hadisədən sonra demokratik hərəkatın başçılarına qarşı polis xəfiyyə təqibi daha da güclənir. Bütün bunlara baxmayaraq Mirzəli bəy

Bektaşi, Mirheydər Mirbağırzadə kimi cəsur demokratlar xəfiyyə polis təqiblərindən qorxmur, gizli fəaliyyətini davam etdirirlər.

Mütləqiyyət quruluşuna qarşı demokratik inqilabçılardan biri olan Mirbağır Mirheydər oğlu Mirheydərzadə 1877-ci ildə Ordubad qəzasının Nürgüt kəndində yoxsul ruhani-kəndli ailəsində anadan olmuşdur. Nürgüt kəndi mülkədarı Abbas bəy Cəfərqulu bəy oğlunun və Məmmədhəsən bəyin mülkü olduğundan kəndlilər ağır həyat tərzinə görə öz doğma kəndlərini tərk edib başqa yerlərə köçürdülər. Mirheydər də ailəsi ilə birlikdə Naxçıvan şəhərinə köçmüş, Mirbağırı atası 1887-ci ildə ruhani məktəbinə qoymuş və Mirbağır 1896-cı ildə ruhani məktəbini bitirmişdir.

Mirbağır Mirheydərzadə Ali ruhani məktəbinə göndərilir. Orada 3 il təhsil aldıqdan sonra, yəni 1899-cu ildə Naxçıvana qayıdır, lakin ruhanilik sahəsində iş tapa bilmədiyindən Tiflis şəhərinə gedir və ruhanilikdən daha artıq demokratik hərakata meyl göstərir. Mirheydərzadənin işi və ictimai fəaliyyəti Zaqafqaziyada Şeyxul İslama xoş gəlmədiyindən 1904-cü ildə o, ruhanilik işindən azad edilir. 1907-ci ildə isə bütünlüklə ruhanilik hüququndan məhrum olunur.

Mirheydərzadə öz tərcümeyi halında belə yazır: «Nəhayət mənim işim Şeyxul İslama xoş gəlmədiyindən məni işdən götürdü. Bu zaman Rus-Yapon müharibəsi başlanır. Müharibə və çar quruluşuna qarşı inqilabi situasiya haqqında qəzet və jurnallar oxuyub dinləyiciləri başa saldım, elə bu zamandan də məndə inqilabi duyğu, çar hökumətinə və mütləqiyyətə qarşı düşmənçilik əmələ gəlir. Buna görə mən Tiflis inqilabçıları ilə tanış olub, onların iclaslarında olurdum».

Elə bu zamandan da Mirheydərzadənin inqilabi fəaliyyəti başlayır. 1905-ci il 9 yanvar güllələbaranı ilə əlaqədar olaraq Tiflisdə, Aleksandr adlanan bağda çağırılan mitinq çıxışlarında: «Bizə nə lazımdır? Silahlanma, silahlanma və yenə də silahlanma» şüarı Mirheydərzadənin ictimai və siyasi görüşünə böyük təsir edir və mütləqiyyət quruluşuna qarşı təbliğat və təşviqat işini daha da genişləndirir. İnqilabi hərakat yoluna düşən Mirheydərzadə Azərbaycan sosial-demokrat partiyasının «Hümmət» şöbəsinin rəhbəri Nariman Nərimanov ilə 1905-ci ildə tanış olur. Bu zaman N.Nərimanov İran təbəəsi olan azərbaycanlılar arasında inqilabi iş apa-

raraq onlara günün aktual mövzularında mühazirələr oxuyurdu. Tiflisdə Nərimanovla tanış olan Mirheydərzadə tez-tez onun yanında olub söhbətlər edir və mühazirələrinə qulaq asmışdır.

Nərmanovun siyasi mövzularda oxuduğu mühazirələrdən geniş təəssüratlar alan Mirheydərzadə 1905-ci ilin yaz aylarında «Hümmət» təşkilatına, eyni zamanda Nərimanov və Əzizbəyovun rəhbərlik etdiyi İran inqilabçı sosial-demokrat «Mücahid» partiyasına daxil olur.

Siyasi fəaliyyət dairəsini genişləndirən Mirheydərzadə Tiflisdə inqilabçılar dəstəsi ilə yaxından tanış olur. Onlardan Əşrəf Yüzbaşev, Əli Tağızadə, Setrak. Çaparidze, Banoviçi M.Mirheydərzadənin yaxın siyasi məsləhətçiləri olurlar.

Mirheydərzadə göstərir ki, mənim işimin başlıca hissəsi Tiflis tütün fabrikasındakı azərbaycanlı fəhlələr arasında təşviqat aparmaqdan ibarət idi.

Bununla bərabər Tiflis «Hümmət» təşkilatı Mirheydərzadənin Batumi, Bakı, Petrovski (Maxaçqala), Vladiqafqaz, Kars, İrəvan və Naxçıvan şəhərlərində təşviqat və təşkilatı iş aparmaq üçün ezam edir. Zəhmətkeşlərin azadlığı naminə din xadimliyindən əl çəkən Mirheydərzadə ezam olunduğu şəhərdə inqilabi «Hümmət» qrupun təşkilində və fəhlələr arasında təbliğat-təşviqat işlərinin qoyuluşunda çox əhəmiyyətli işlər görə bilmişdir.

Çar və İran monarxiya quruluşuna qarşı mətanətlə mübarizə aparan «Hümmət» və «Mücahid» partiyalarının görkəmli təşkilatçısı və təbliğatçılarından biri olan Mirheydərzadə polis-jandarm idarələrinin nəzərinə çatdırılır və ciddi təqib olunmağa başlanır. Mirheydərzadə çar polis-jandarm idarələri tərəfindən təqib olunduğu kimi, İran xəfiyyələri və konsul agentləri tərəfindən də ciddi təqib edilirdi. Çünki Mirheydərzadə bütünlüklə mütləqiyyət ÜSUlunun - həm çar, həm də şah monarxiyasının əleyhinə idi. Mirheydərzadənin İran şah monarxiyasının düşməni olduğunu bilən İranın Tiflisdəki Baş konsulu əlahəzrət İmperatorun Qafqaz Canişinliyinin Daxili İşlər Nazirliyi Koxanovskiyə yazaraq bildirmişdir ki, Naxçıvan sakini Mirheydərzadə 1905-ci ilin noyabr ayında müsəlmanlar arasında hökumət əlehinə təşviqat ideyası məqsədi ilə 10-12 nəfərdən ibarət komitə yaratmışdır (148).

Doğrudan, Mirheydərzadə hər iki monarxiya hökumətinin əleyhinə olub böyük təbliğat və təşviqat iş aparır. Tiflis təşkilatının tapşırığı ilə Kars, Batumi, İrəvan, Naxçıvan, Təbriz, Rəşt və başqa şəhərlərə gedir. Mirheydərzadə demokratik quruluşun fəal təbliğatçısı kimi hərəkət etməyə başlayır.

Xəfiyyə idarəsinin verdiyi məlumata görə Mirheydərzadə ümumi müsəlman komitəsinin Tiflis şöbəsini yaradaraq, Azərbaycan dilində bəyannamə buraxmışdır.

Konsul və çar xəfiyyə idarəsinin verdiyi məlumatlardan aydın olur ki, bəyannamə Tiflisdə yaşayan Naxçıvan sakini Qulu və İrəvan sakini Kərim tərəfindən yayılmışdır.

Beləliklə din xadimlərindən olan Mirheydərzadə birinci rus inqilabının təsiri altında demokratik hərəkata qoşularaq mütləqiyyət quruluşuna qarşı çıxır, Tiflisin mütərəqqi ictimaiyyəti ilə yaxınlaşaraq inqilabçılara qoşulur, buna görə də xəfiyyə idarələri tərəfindən ciddi surətdə təqib ediliri. Mirheydərzadə haqqında Qafqaz canişinliyinə təqdim olunan bir xəfiyyə məlumatının üzərində Əlahəzrət imperatorluğunun Canişini Vorontsov-Daşkov belə bir dərkənar edir: «Polkovnik Zasıpkinə-hər üçünü həbs etmək» (149).

Qafqaz canişininin sərəncamı ilə bəyannamənin müəllifi Mirheydərzadə və bəyannaməni yayanlar-Qulu və Kərim (sənəddə soyadları göstərilməyib) Tiflisdə polis polkovniki Zasıpkin tərəfindən həbs edilib Metex həbsxanasına salınır. Həmin həbs barədə Mirheydərzadə belə yazır: «Nəhayət, 1906-cı ildə həbs olundum və Metex həbsxanasına salındım, orada Mamdjovidze ilə bir kamerada oturdum» (150).

M.B.Mirheydərzadə bir neçə ay Metex həbsxanasında yatandan sonra azad edilir. O yenidən öz fəaliyyətini davam etdirərək Bakı sosial-demokratik partiyasının və Tiflis «Hümmət» şöbəsinin tapşırığı ilə İran təbəəli fəhlələr arasında inqilabi-təbliğat işi aparır. Ciddi polis nəzarətinə baxmayaraq Tiflisdə iranlı fəhlələrin tez-tez yığıncaqları çağırılır, «Mücahid» partiyasına yeni-yeni üzvlər yazılır, Təbriz inqilabı barədə məlumatlar verilir.

Tiflis xəfiyyə idarəsinin verdiyi məlumata görə Mirheydərzadə şübhəli adam kimi 28 avqust 1907-ci ildə ikinci dəfə olaraq həbs edilərək Metex həbsxanasına göndərilir. Mirheydərzadəyə qarşı

düzəldilən xəfiyyə fitnəsi baş tutmur, iki aydan sonra, 2 oktyabrda həbsdən buraxılır, elə bu zaman da o rəsmi surətdə dini xadimlikdən imtina edərək onu birdəfəlik olaraq öz üzərindən atır.

15 yanvar 1908-ci ildə Azərbaycan sosial-demokrat partiyasının «Hümmət» təşkilatına mənsub olan M.B.Mirheydərzadə axtarılaraq həbs edilir və 20 günlük istintaqdan sonra həbsxanadan azad edilir. Həmin ilin yanvar ayında İrəvan quberniya xəfiyyə idarəsinə xəbər verilir ki, Mirheydərzadə Tiflis poçtundan Naxçıvan şəhər sakini Heydər Kərbəlayi Əli oğlu Məmmədova Qafqaz sosial-demokrat partiyası «Hümmət»in üzvülük haqqı qəbzini göndərmişdir.

Doğrudan da, Mirheydərzadənin Naxçıvan sosial-demokrat partiyası «Hümmət» ilə nəinki, əlaqəsi olmuş, hətta onun təşkilatçılarından biri olmuşdur. Bu zaman Tiflisdə yaşayan naxçıvanlılardan Rzaqulu və Nəcəfqulu Nəcəfovlar, Eynəli bəy Sultanov, Mirheydərzadə, Mirzə Cəlil Məmmədquluzadə və başqaları açıq fikirli adamlar olub mütləqiyyət üsuluna, habelə onun çirkin milli siyasətinə qarşı mübarizə apararaq demokratik inqilabı təbliğatçılar idilər. Naxçıvan ilə bilavasitə əlaqə saxlayan Mirheydərzadə və Nəcəfovlar burada və Culfada «Hümmət» və «Mücahid» təşkilatlarının yaradılmasında mühüm rol oynayırlar.

Naxçıvanda inqilabçılar təşkilatlarının olmasından xəbərdar olan polis xəfiyyə idarələri burada nəzarəti artırır. 30 noyabr 1907-ci il tarixli bir polis məlumatında göstərilir ki, məxfi axtarışlar nəticəsində Naxçıvan şəhər sakini Hüseyn Əliqulu oğlundan (həmin Hüseynağa Əliqulu oğludur) foto qruppada təsvir etdiyi «Mücahid»lər təşkilatının başqa üzvləri ilə birlikdə kitabça ələ keçirilmişdir (151).

Yenə də həmin polis sənədində göstərilir ki, məxfi axtarışda Naxçıvan şəhər sakini Kərbəlayi Məhəmməd Tağıyevdən onun mənsub olduğu İran «Mücahid»lər şöbəsi «Hümmət» partiyasının bileti tapılmışdır. Bundan başqa Naxçıvan şəhər sakini Heydər Məmmədov Kərbəlayi Əli oğlundan Naxçıvan şöbəsinin «Mücahid»lər təşkilatına iki aylıq üzvülük haqqı qəbzi və Tiflis sosial-demokrat şöbəsi «Hümmət» partiyasının bileti polis xəfiyyə idarəsi tərəfindən ələ keçirilir (152).

Doğrudan da, bu zaman Naxçıvanda Nəsrulla Şeyxovun, Mirzəli bəy Bekdaşyevin və b. başçılığı ilə «Hümmət» qrupu yaradılır və fəaliyyət göstərməyə başlayır.

Tiflis xəfiyyə idarəsinin tapşırığı ilə İrəvan quberniya xəfiyyə idarəsi tərəfindən də Naxçıvan şəhərində axtarış aparılır. Axtarış zamanı həqiqətən «Hümmət» təşkilatına mənsub olan Heydər Kəlbalı oğlu Məmmədovdan «Mücahid» təşkilatının Naxçıvan şöbəsinin üzvülük haqqı qəbzi, sosial-demokrat «Hümmət» təşkilatı Tiflis şöbəsinin kitabçası və 2 aylıq üzvlük haqqı qəbzi tapılmış və Məmmədov həbs edilmişdir.

Birinci rus inqilabı, Bakı və Tiflisdə baş verən fəhlə tətil və nümayişlərinin təsiri nəticəsi olaraq Naxçıvanda inqilabçılar dəstəsi və inqilbaçı təşkilatlar yaranır. Bakı və Tiflisdən rəhbərlik olan və bilavasitə əlaqə saxlayan Naxçıvan inqilabçıları əhəmiyyətli surətdə fəaliyyət göstərməyə başlayır.

Naxçıvanda inqilabçı sosial-demokrat partiyası təşkilatlarından başqa terrorçuluq yolu ilə gedən təşkilatlar da var idi. Belə bir təşkilatın başında Əsədağa Kəngərli dururdu. Özünü inqilabçı adlandıran komitə sədri Əsədağanın əmri ilə Naxçıvan şəhər yüzbaşısı Mirzə Sadıq Xəlilov öldürülür. Komitənin mənfəətinə zorakılıq yolu ilə pul vəsaiti toplanır və bir sıra varlılar hədələnir və s.

Sosial-demokrat «Hümmət» qrupu və «Mücahid» təşkilat başçıları arasında də terrorçuluq yolunu müdafiə edənlər az deyildi. Terrorçuluq ideyası dalınca gedənlər (Hacı Mehdi Bağırov kimiləri) Naxçıvan inqilabçılarına maneçilik göstərən, polis agenti Sultanovu, Məşədi Qədim Qədimovu Cənubi Azərbaycan inqilabının qəddar düşməni, Mərənd qubernatoru Hacı Şücai Nizami aradan qaldırmaq üçün Kutaisi şəhərindən cəhənnəm maşını (bomba) göndərtirməyi qərara alır. Tiflisli inqilabçıların köməyinə, doğrudan da, Naxçıvan çar agentlərinin dostu, sabiq qəza rəisi, sonralar Kutaisinin hərbi qubernatoru Slavaçinskinin adından Ərdəbil qubernatoru Hacı Şücai Nizama və Qədimova töhfə göndərilir. Töhfəni acgözlüklə ailədə açan Hacı Şücai Nizami və oğlu dərhal həlak olur. Naxçıvanda Qədimov təcrübəli agent olduğundan töhfəni nahiyyə pristavı Berdzinyevin, onun köməkçisi Ternovun, rəisin adyutantı Nifedyevin iştirakı

ilə «Köhnə qala»da açır. Orada güllə ilə atəş atdıqda töhfənin cəhənnəm maşını (bomba) olduğu aşkara çıxır (153).

Mirheydərzadə göstərir ki, bizim bu hərəkətimiz terrorçuluq olsa da inqilabi işimizə maneçilik göstərən Hacı Şücai Nizami və Qədimov kimi çar agentləri aradan qaldırılmalı idilər.

Naxçıvanda Mirheydərzadə və Mirzəli bəyin başçılıq etdiyi «Hümmət» qrupu leqal ədəbiyyatın yayılmasında da çox mühüm rol oynamışdır. Bu işdə Rus Culfasında ticarətlə məşğul olan M.S.Ordubadi, M.N.Şeyxov, N.Nəcəfov, Naxçıvan dəmir yol stansiyasında çilingər Məşədi Əhməd Əzimov, Anton Balidze və başqaları əhəmiyyətli işlər görürlər. Bir polis məlumatında göstərilir ki, «Hümmət»in Culfada yaşayan xadimləri İrandan aldıqları hər cür leqal ədəbiyyatı öz həmfikirlərinə göndərir...əhali arasında yayırdı (154).

İnqilabçılar dəstəsinə daxil olub dəmir yol fəhlələri arasında inqilabi fikir və leqal Marksist ədəbiyyat təbliğ edən Məşədi Əhməd Əzimov (Ordubad rayonunun Parağa kəndindən) Tiflis «Hümmət» şöbəsi ilə canlı əlaqə saxlayır leqal ədəbiyyat alır və fəhlələr arasında yayır. 1908-ci ildə Vahan Vartazoroviç Osipov adında bir şəxs ilə (Tiflis sosial-demokrat təşkilatına mənsub) Naxçıvanda dəmir yolunda çilingər Məşədi Əhməd Əzimovun adına 81 nüsxə rus dilində leqal kitabçalar göndərilir. 24 dekabr 1908-ci ildə gecə saat 11-də Naxçıvan stansiyasına çatan V. Osipov jandarm idarəsi tərəfindən yaxalanır, onun gətirdiyi kitabçalar və Məşədi Əhmədin adına yazılan kağız ələ keçirilir. Karandaş ilə yazılmış kağızda göstərilir ki, kitabçalar Naxçıvan stansiyasından deponun çilingəri Əhməd Əzimova (Məşədi Əhməd Əzimov jandarm polis idarəsinin fikrini yayındırmaq məqsədi ilə Əzizbəyov, Əzimbəyov familyalarını daşıyırdı) və konduktor Balidzeyə çatacaqdır. Kağız keçən kimi Məşədi Əhmədin və Balidzenin evlərində axtarış aparılır. Jandarm idarəsini maraqlandıran şübhəli heç bir şey tapılmır. Çünki qabaqcıl fəhlələrin jandarm idarəsi tərəfindən ələ keçirilən 81 nüsxə kitabçanın 10 nüsxəsi Tiflis bolşeviklərinin orqanı «Borba», 10 nüsxəsi «Raboçaya biblioteka» idi. «Borba» kitabçasında bolşeviklərin menşevik ideyasına qarşı mübarizəsi, proletariatın müstəqil çı-

xışı və sosial-demokrat tələbləri, mütləqiyyətin yıxılması, inqilabda proletariatın hegemonluğu və s.məsələlər təhlil edir (155).

Bu kimi faktlar göstərir ki, Mirheydərzadə və Mirzəli bəy Bekdaşyevin başçılıq etdikləri Naxçıvan «Hümmət» qrupu sosial-demokrat partiyasının Tiflis komitəsi ilə bilavasitə əlaqədə olub proletariatın inqilabi ideyasını Naxçıvanda təbliğ edir və yayırlar.

Bolşevik ədəbiyyatının Naxçıvana gətirilməsi bir daha göstərir ki, Naxçıvan «Hümmət» qrupu və onun başçıları nəinki, çar Rusiyasında, eləcə də İranda mütləqiyyət üsulunu yıxmaq üçün proletariatın birləşib inqilabda hegemonluğunu əsas götürmüşdür.

1908-ci ilin əvvəllərində Bakı komitəsinin tapşırığı ilə Mirheydərzadə «Hümmət» və «Mücahid» təşkilatlarının işini yoxlamaq üçün Təbriz və Xoy şəhərlərinə göndərilir. Bu zaman çar hökumətinin tapşırığı ilə İran məclisi Şah tərəfindən qovulur. Şahın hərəkətinə qarşı ixtişaşlar qalxır. Təbrizdə inqilabçılar dəstəsi ilə hökumət qoşunları arasında silahlı toqquşma baş verir. Toqquşmanın ikinci həftəsində silah və hərbi sursatın çatışmaması nəticəsində inqilabçıların Şah qoşunları ilə vuruşması çətinləşir. Buna görə Təbrizin inqilabi komitəsi Mirheydərzadəni beş nəfər silahlı «Mücahid»in müşayəti ilə Təbrizdə inqilabi vəziyyət barədə Tiflis və Bakı komitələrində məruzə üçün Naxçıvan Culfasına göndərir. Bu zaman Mərənd yolu Şah qoşunları tərəfindən tutulub nəzarət altına alındığından Mirheydərzadə və onu müşayət edən şəxslər Güney və Xoy yolu ilə Culfaya gəlməli olurlar. Xoydan keçərkən, Xoy qubernatoru Heydər xanın atlı dəstələrinə rast gələn Mirheydərzadə və onu müşayət edən «Mücahid»lər çox çətinliklə Culfa yoluna düşüb İran Culfasına keçirlər.

Tiflis «Hümmət» şöbəsinin qərarını yerinə yetirmək, Təbriz inqilabına kömək etmək məqsədi ilə azərbaycanlı, gürcü və başqalarından ibarət mübariz dəstə bir qədər patron, bomba və revolver hazırlayıb, Təbrizə göndərilməsi üçün Mirheydərzadə Bakı komitəsinə çağırılır və orada Məşədi Əzizbəyov tərəfindən təlimatlandırılır.

50-60 nəfərdən ibarət mübariz dəstəni və bir sıra hərbi ləvazimatın Təbriz inqilab komitəsinin sərəncamına yetirmək barədə Mirheydərzadə öz xatirələrində belə yazırdı: «Bakı təşkilatı (Bakı komitəsi) İranda başlanmış inqilabi hərəkata rəhbərlik etmək

və qüvvə göndərməyi lazım gördü... Mən və İran inqilabının liderlərindən Heydər əmi oğlu RSFP-nın üzvü olduğumuzdan... təlim almaq üçün yoldaş Əzizbəyovun yanına getdik. İran inqilabının gedişatı və irəliləməsi üçün olan ehtiyac barəsində Səttar xanın Bakı komitəsindən etdiyi xahiş müzakirə edildi.

Bu görüşdən bir neçə gün sonra Məşədi Əzizbəyov məni öz yanına çağırtdırdı... 60 nəfərə yaxın Zaqafqaziyalı və İran inqilabçılarının və 3 çəmədan silahı aparıb Təbriz şəhərində İran inqilab komitəsinə yetirməyi mənə tapşırdı.

Bununla bərabər lazım olan xərc məsarifi şifahi göstərişlə mənə tapşırıldı. Mən bu fədakar inqilabçıları və silah ilə dolu çəmədanları Təbrizə yetirmək məqsədi ilə Qarabağ təriqilə getmək üçün Yevlax stansiyasına yola çıxdım. Yevlax stansiyasına çatarkən jandarmlar tərəfindən silah çəmədanlarından 2-si Mehdiqulu və Abbasəli yoldaşın əlində tutuldu. Qarabağlı komisiyonçunun vasitəsi ilə jandarmların rəisinə 150 manat rüşvət verib tutulan çəmədanları eyni ilə geri alıb Qarabağ-Şuşa şəhərinə yola düşdük. Şuşada Rəhim əmi deyilən bir şəxsin mehmanxanaya bənzər çoxotaqlı bir çayxanası olan iri bir yerdə mənzil etdik... Rəhim əminin vasitəsi ilə Şuşada məhşur qaçaqmalçılardan Cavad kişi ilə görüşüb silahların və 60 nəfərdən ibarət inqilabçı dəstəsinin aparılmasını danışdıq. Bu adamları və silahla dolu çəmədanları İrana aparıb Qarabağ mahalının Musa kəndinə qoyandan sonra 40 manat almalı idi. Burda Ələsgər və Mirzəməmmədin İran tərəfindən sağ-salamat keçmələri barədə verdikləri kağız əsasında ödənilməli idi» (156).

Formaca din xadimi, məzmunca inqilabçı demokrat, mütləqiyyət quruluşunun barışmaz düşməni olan Mirheydərzadənin bacarıqlı göstərişi ilə qaçaqmalçı Cavad kişinin 60 nəfərədək inqilabçılar dəstəsi Qarabağ-Təbriz yoluna çıxarılır. Acı çayı boyunca Təbrizə tərəf irəliləyən drujina şahpərəst, monarxist İzzətullah xan Makunin atlı dəstəsi ilə vuruşa girir. Şiddətli, qanlı süngü vuruşması nəticəsində Şah qoşunları sındırılır. İzzətullah xan isə öldürülür. Beləliklə inqilabçılar dəstəsiTəbriz «Mücahid»ləri ilə birləşib və strateji əhəmiyyətə malik Acı kör-

püsü Təbriz inqilabçı dəstəsinin əlində qalır. Bu hadisə İran inqilabının səhifəlrində şanlı xatirə kimi saxlanır.

İnqilabçıları dəstəsinin köməyi ilə yola salan Mirheydərzadə Bakı komitəsinə qayıdır. Bakı komitəsindən, şəxsən Məşədi Əzizbəyovdan tapşırıq alan Mirheydərzadə Tehrana gedir. Bu zaman Batum və Kutayıs komitələrinin qərarı ilə Tehrana iki nəfər bomba hazırlaya bilən mütəxəssis göndərilir. Göndərilən mütəxəssislərdən Valeko, Kolya və başqa inqilabçıların silahlandırılmasında çox böyük fədakarlıqlar göstərmişdilər.

Mirheydərzadə ilə birlikdə Səttar xan Moxi və Mirzəli Məmməd xan da Gilana göndərilirdi. Onlar müəllim adı ilə Sərdar Moxinin əmisi Yusif xanın evində yaşayıb bomba və başqa partlayıcı maddələr hazırlamaqla məşğul olurlar. Doğrudan da, onların apardığı hazırlıqlar nəticəsində Rəştdə üsyan qaldırılıb şəhər ələ keçirilir. Bu zaman Bakı komitəsinin tapşırığı ilə Mirheydərzadə Rəştdə qayıdıb, şəhərdə təbliğat və təşkilati işlərlə məşğul olur. Orada bir ay işlədikdən sonra Mirheydərzadə xəstəliyə görə Bakıya çağırılıb mineralvoda müalicəyə göndərilir.

Müalicədən qayıdan Mirheydərzadə əvvəlcə Rəştdə, sonra bir daha Tehrana göndərilir. Bu zaman mübaliqəsiz demək olar ki, bütün Zaqafqaziya idarələri Mirheydərzadə haqqında axtarış aparırlar. Xəfiyyə idarələri tərəfindən aparılan axtarışlardan bixəbər olan Mirheydərzadə 1912-ci ilə kimi İran şəhərində (Azərbaycan hissəsində) qalıb inqilabi təbliğati-təşviqati və təşkilati işlə məşğul olmuşdur.

Mirheydərzadənin partiya siyasi fəallığından bəhs edən bir polis xəfiyyə məlumatında göstərilir ki, «Naxçıvan şəhər sakini Mirbağır Mirheydərzadə ideyalı, köhnə sosial-demokrat, 1905-1907-ci illərdə Tiflis həbsxanasında saxlanılıb və İran inqilabında iştirak etmiş adamdır... Onu Qafqazda, xüsusən də gürcü demokratları arasında partiya işçisi kimi yaxşı tanıyırlar, bununla bərabər o, İran inqilabında iştirak edib və orada tanınmışdır. Bu deyilənlərə əsasən Mir Bağırın Qafqaz və İranda əhəmiyyətli dərəcədə partiya münasibətləri vardır» (157).

Xəfiyyə agentlərinin məlumatı ilə 1910-cu ildə xəfiyyə rotmistri Burkoseli tərəfindən M.Bektaşi və M.B.Mirheydərzadənin evlərində axtarış aparılır. Lakin polis idarəsini maraqlandıran

heç bir sənəd ələ keçmir. Bundan sonra irtica güclənir, gizli təşkilatlar üzərində xəfiyyə-polis nəzarəti daha da artır. Təşkilatın başçısı Mirzəli bəy həbs olunur.

M.Bektaşyev və M.B.Mirheydərzadənin evində aparılan axtarışdan sonra təşkilatın gizli fəaliyyəti daha da mürəkkəbləşir. Bu vəziyyət təşkilat üzvlərinin daha ehtiyatlı fəaliyyətini tələb edir. Belə ki, yazılı sənədlər ehtiyatlı saxlanılır və çox hallarda aparılan danışıqlar sənədləşdirilmir. Əldə olan bir məlumata görə 1910-cu il axtarışında çox mühüm bir sənədi gizlətmək mümkün olmadığından həmin sənəd təşkilatın bir üzvü tərəfindən çeynənib yeyilmişdir.

O dövr çox diqqəti cəlb edən Təbriz inqilabında yaxından iştirak etmək məqsədi ilə Naxçıvan təşkilatının üzvü M.B.Mirheydərzadə Culfaya göndərilir. Orada siyasi inqilabi iş aparmaq məqsədi ilə mehmanxana saxlanması ona tapşırılır. Mehmanxana sahibi B. Mirheydərzadənin Təbrizdən aldığı hər cür məlumat və ədəbiyyatları dərhal Naxçıvana Mirzəli bəyə göndərir. Məlum olduğu kimi Təbriz inqilabı zamanı Təbriz-Tbilisi arasında Culfa və Naxçıvan tranzit şəhər idi.

Belə ki, Səttar xandan alınan məlumatlar məhz Culfadan Zaqafqaziyaya çatdırılırdı. Bu işdə Kərbəlayi Nəsrulla Şeyxov, Bax-şəli ağa Şahtaxtınski, Mirbağır Mirheydərzadə, Məmməd Səid Ordubadi və başqaları çox mühüm rol oynamış və Naxçıvan təşkilatı ilə Təbriz inqilab komitəsi arasında yaxından əlaqə saxlamasına kömək etmişlər. Belə inqilabi fəaliyyətə görə onlar Təbriz dəstəsinin rəisi, polkovnik Snarinokinin sərəncamı ilə 1913-cü ildə həbs edilib və inzibati qaydada Culfadan sürgün edilmişdir.

Təşkilat üzvlərinin Culfadan sürgün edilməsindən sonra Mirzəli bəy inqilabi komitənin gizli iş sistemini dəyişir və xəfiyyə-polis agentlərinin nəzərini yayındırmaq üçün Elçiyevin evində yenidən çayxana açır. Əvvəllər də olduğu kimi yenə də Mirzəli bəyin çayxanası təbliğat-təşviqat otağı olur. Oraya toplaşan Məşədi Ələkbər Səfərov, Möhsün Səlimov, Məşədi Əhməd Əzimov və başqaları (40-45 nəfər) o dövrün siyasi vəziyyətindən söhbət açır, inqilabi qəzetlər oxuyur, gələcək üçün mübarizə yolları düşünürdülər.

Gizli təşkilatın fəaliyyətinə dair bir polis məlumatında göstərilir ki, onlar (çayxanaya gələnlər) tatar dilində (Azərbaycan) qəzet

oxuyur, müxtəlif siyasi mövzuda söhbətlər aparırlar. Lakin qəbul edilən tədbirlərlə heç bir şey aşkara çıxarmaq mümkün olmur. Çünki iclas çay içməklə gizlədilir və polis məmurları gələn kimi heç bir əhəmiyyəti olmayan adi söhbətə keçirlər. Beləliklə, polis bu və ya digər qiymətli məlumatları əldə etmək imkanına malik ola bilmir. Buna görə polis idarəsi agent məlumatlarına əsaslanmalı olur (158).

1913-1914-cü illərdə Naxçıvanda «Hümmət» qrupu öz fəaliyyətini xeyli genişləndirərək əhali arasında çarizmə qarşı təbliğat işini nəzərə çarpacaq dərəcədə gücləndirir. Lakin çox çəkmədən birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq «Hümmət» qrupu dərin gizli iş metoduna keçir, üzvlərin xeyli hissəsi dağılırlar, hərbi vaxtın ağır və ciddi təqiblərinə baxmayaraq təcrübəli inqilabçı Mirheydərzadə, Mirzəli bəy Bekdaşyev partiya işini hərbi vaxt şəraitinə uyğunlaşdırır və «Hümmət» qrupunun fəaliyyətini davam etdirməyə başlayır.

1915-1916-cı illərdə Naxçıvan «Hümmət» qrupunun tərkibi xeyli dəyişir və müxtəlif ideyalı adamlardan ibarət olur. Bir qrup Mirheydərzadə, Mirzəli bəy Bekdaşyev, N. Şeyxov başda olmaqla «Hümmət»in inqilabi ənənəsini davam etdirərək mütləqiyyət quruluşuna, qanlı müharibə törədənlərə qarşı ciddi mübarizə aparırdı. Digər bir qrup Kərbəlayi Qafar Ağa Səfərəlibəyov, Rauf bəy Səfərəlibəyov, Seyidəli, «Papış» ləqəbli Əliməmməd Əliyev və başqaları terrorçuluq yolunu tutmuşlar.

Araşdırılan polis xəfiyyə məlumatı və sənədlərindən aydınlaşdırmaq olar ki, Naxçıvanda demokratik hərakata, milli azadlıq mübarizəsinə «Hümmət» qrupu rəhbərlik etmişdir. «Hümmət» başçılarından Mirheydərzadə və Mirzəli bəy Bekdaşyev bütün məsələlərdə həlledici rol oynayırlar.

Qafqaz canişinliyinin xəfiyyə idarəsinin İrəvan quberniya xəfiyyəsinə verilən çox ciddi və qəti tapşırığa görə Naxçıvanda hələ 1905-1907-ci ildən mövcud olan siyasi təşkilatların («Hümmət» qrupu, «Mücahid» partiyası, sonralar milli azadlıq xarakterdə demokratik təşkilat) və partiya xadimlərinin üzərində xəfiyyə və polis nəzarəti qoyulur. Bu işə nəzarət və onlara qarşı əməliyyat keçirilməsi İrəvan quberniya xəfiyyə idarəsinin rəisi polkovnik Vasilyevə tapşırılır.

Polkovnik Vasilyev topladığı məlumatlar əsasında 24 sentyabr 1916-cı il tarixdə Qafqaz Polis Departamentinin rəisinə göndərdiyi arayışında yazırdı: «Bu ilin yazından mənə həvalə olunan idarəyə Naxçıvan şəhərində məqsədi yerli tatar (Azərbaycan) əhalisi arasında müsəlmanların birləşməsi barədə təbliğat aparmaq olan kiçik panislamist dərnəyinin yaranması haqda məlumatlar daxil olub.

Dərnəyin səyləri həmçinin ona yönəlmişdir ki, müsəlmanlar da özünü dərk hissi, Türkiyə ilə həmrəylik hissi oyatsın və sonuncuya hər cür yardım etməyə təhrik etsin.

Həmin dərnəyin mövcudluğuna dair kəşfiyyatın ilk məlumatları ondan başlayır ki, indiki üzvlərdən biri Naxçıvan şəhər sakini Kərbəlayi Qafar ağa Səfərəlibəyov 1915-ci ilin sentyabr ayında Rəştdə ruslar tərəfindən türk səfiri (konsulu) həbs olunan vaxt keçirdiyi hisslərdən danışırdı. Məsələ ondadır ki, bu konsul Qafqazdakı panislamist hərakatına dair bütün məlumatları özündə saxlayırdı, vəziyyət barədə yazılı məruzələr ona daxil olurdu. Səfirin həbsindən bir neçə gün əvvəl panislamizmə dair şəxsi məruzə üçün onun yanına Tiflisdən Zeynal Məmmədov yola düşüb və özü ilə bir neçə şəxslərin, o cümlədən «Molla Nəsrəddin» jurnalının əməkdaşı Faik Nemanzadənin, Tiflis şəhərində yaşayan, ləqəbi «Sultanov» olan Eynalı bəy Sultanovun, Naxçıvan şəhərində yaşayan Kərbəlayi Qafar ağa Səfərəlibəyovun işgüzar məktublarını aparıb. Bunları bilərək və məktublarının rus hökumətinin əlinə keçəcəyindən qorxaraq Kərbəlayi Qafar ağa dərhal Naxçıvan şəhərindən Bakı şəhərinə gedib və qızının da təhlükəsizliyi üçün Bakı məktəblərinin birinə yazdırmaq üçün aparıb. Tiflisdən keçərkən qeyd olunan şəxs həyacanlanıb yoldaşlarından türk səfiri həbs olunarkən hansı yazışmanın ələ keçdiyi barədə soruşub. Orada Səfərəlibəyov danışırdı ki, Naxçıvandakı panislamist dərnəyi İranın Xoy şəhərindəki panislamist dərnəyi ilə əlaqəlidir, Kərbəlayi Əli Babayev vasitəsi ilə ora məktublar göndərilir.

Səfərəlibəyovun dedikləri kiçik bir təşkilatın mövcud olduğuna dəlalət edib, onu tədqiq etmək üçün isə ona kəşfiyyat qoşmaq lazım idi, bu isə çox çətin iş idi. Səfərəlibəyov çox ehtiyyatlı davranırdı, sirrlərini heç kimə açmırdı, lakin uzun müddətdən sonra sistematik müşahidə nəticəsində bəzi faktlar

əldə olunurdu, müqaisə olunurdu və Naxçıvan şəhərindəki panislamist dərnəyinin fəaliyyəti aydınlaşırdı.

Kəşfiyyatın məlumatlarına görə dərnəyə aşağıdakı şəxslər daxildir: Hacı Mir Bağır Mirheydərzadə-Naxçıvan sakini, köhnə sosial demokrat, 1905-1907-ci illərdə Tiflisdə nəzarətdə saxlanılıb, İran inqilabında iştirak edib, onun Qafqazda və iranda böyük partiya əlaqələri var. Peyğəmbər nəslindəndir.

Kərbəlayi Qafar ağa Səfərəlibəyov-İran təbəəsidir, Naxçıvan şəhərində yaşayır və əkinçiliklə məşğuldur, fanatik insandır, çox işgüzardır.

Qardaşı Rauf bəy Səfərəlibəyov-İran təbəəsidir və Culfada İran konsulunun agentidir, orada da yaşayır, işi ilə əlaqədar İran fəhlələri ilə daim əlaqədə olur, onlar arasında antirus təbliğatı aparır.

Mirzəli bəy Bektaşov-1916-cı ilədək Naxçıvan şəhərində çayxana saxlayıb, mütamadi olaraq oraya dərnəyin üzvləri toplanırdılar, orada təbliğat-təşviqat planları tərtib olunurdu.

Hacı Hüseynəli Qurbanov-Naxçıvan şəhərindəki dəri zavodunun sahibi, işi ilə bağlı olaraq daim ətraf kəndlilərlə əlaqəsi olur, böyük hörmətə sahibdir, bacarıqlı təbliğatçıdır.

İsmayıl bəy İsmayılbəyov-cavandır, Naxçıvan şəhərində bakkal dükanı işlədir, məkrlidir, maddi mənfəət olan tapşırıqları yerinə yetirir.

Əli Məmməd Əliyev-ləqəbi «Papış», Naxçıvan yaxınlığındakı Bulqan kənd sakinidir, meşəbəyi vəzifəsini icra edib, savadsızdır, lakin fiziki cəhətdən sağlamdır, dərnəyin göstərişi ilə silah daşıyıb. Xoya hərbi məlumatlar aparıb. Qafqaz hərbi dairəsinin baş rəisinin sərəncamı ilə o, qanunsuz silah alverinə qoşulduğuna görə hərbi əməliyyatlar zamanı Qafqazda olması qadağan edilib.

Mirəli (Seyidəli) Abdullayev-Culfada yaşayır, Rauf bəylə birlikdə İrandan gəlmiş fəhlələr arasında təbliğat aparır.

Tərkibinə görə azsaylı olan dərnəyin nüvəsi Mirzəli bəy Bektaşevin saxladığı çayxanada formalaşıb və günün hadisələri, xüsusən də Rusiya-Türkiyə müharibəsi barədə söhbətlər aparılan klub formasında olub. Əgər hərbi əməliyyatlar səhnəsindən rusların uğurları barədə məlumatlar daxil olanda bu dərnək üzvlərinin kədərinə səbəb olurdu, onlar çalışırdılar ki, hər yolla rus-

ların uğurlarını kiçiltsinlər və ümid verirdilər ki, türklər dirçələcək və rusları qıracaqlar. Əgər cəbhədən türklərin irəliləməsi barədə məlumatlar gəlirdisə, bu dərnəkdə sevinc və ruh yüksəkliyi yaradırdı və ümid verirdi ki, rus ərazisində türk qoşunları görünəcək. Bir dəfə dərnəyin üzvü Rauf bəy Səfərəlibəyov, Culfada olarkən oraya gələn iranlı fəhlələrə danışırdı ki, güya Rusiya İranı işğal etmək istəyir, xristian qanunlarını yaymaq, müsəlmanları məhv etmək istəyir, əgər bu baş versə məsçidlərdə kazakların atlarını saxlayacaqlar, qadınları məcbur edəcəklər ki, üzü açıq gəzsinlər və heç kimin öz arvadı, qızı və bacısı üzərində hüququ olmayacaq. Rusiya Məhəmməd Peyğəmbərə nifrət edir, buna sübut olaraq Rauf bəy qeyd edirdi ki, güya 4 il əvvəl ruslar Məşhəddə İmam Rzanın məqbərəsini bombalayıblar.

Dərnəyin üzvü Mirzəli bəy Bektaşev öz çayçısında deyirdi ki, güya ruslar Karaklisdə məğlub olublar və qoşunlar İqdıra qaçıblar.

Dərnəyin digər üzvü Kərbəlayi Qafar ağa Səfərəlibəyov bildirib ki, onlar bu haqda hər yolla türklərə yardım etməlidirlər, həmçinin böyük dəstəsi olan quldur Süleymanla əlaqəyə girməlidirlər.

«Məhərrəm» ayının gəlişi ilə şəhər və kəndlərin məsçidlərində ayinlər keçirilirdi, xalq böyük kütlələrlə toplanırdı, dərnəyin üzvləri bundan istifadə edərək məsçidlərdə açıq panislamizm təbliğatını aparırdılar. Bunun üçün xüsusi təbliğatlar hazırlanmışdır. Ruhanilərin adından Mirzə Cabbar Bektaşev və Molla Mahmud Molla Ələkbər oğlu danışmalı idilər. Lakin bu plana Naxçıvan qazısı Şeyx Kərim Axundov mane oldu. Hansı ki, məsçiddəki moizələrdə siyasətə toxunmağı qəti qadağan etdi. Dərnəyin üzvləri bu sərəncamı yerinə yetirməsələr də bu onların açıq çıxış etmələrinin qarşısını aldı. Xalqın arasında gəzərək onlar söhbətlər edirdilər ki, bu günlərdə xatirəsini yad etdikləri peyğəmbərin nəvəsi müsəlman qırğının, onların təriqətlərə bölünməsinin qarşısını almağa, müsəlman aləmi üçün vahid din yaratmağa çalışıb. Peyğəmbərin nəvəsinin bu cəhbləri o vaxtkı ruhanilərin xoşuna gəlməmişdir, onlar öz məkrli niyyətlərinə görə onu öldürüb, təriqətlər: sünni, şiyə yaratdılar. Xoşbəxtlikdən indiki ruhanilik yaxşı tərəfə dəyişib və qabaqcıl insanlarla birlikdə müsəlmanların həm siyasi, həm də dini zəmində qırğının qarşısını almaq istəyir.

Qalanlar isə bu insanlara kömək edərək birləşmə məqsədi üçün nəinki əmlaklarını, hətta həyatlarını belə qurban vermişdilər. Onda başda xəlifə olmaqla vahid müsəlman imperiyası yaranacaq.

Dərnəyin üzvləri dini və ictimai həyatın bütün məqamlarını panislamizmin təbliğatı məqsədi üçün istifadə etməyə çalışırlar, məsələn: «Məhərrəm» ayının 10-cu günündə şiyələrin qanun ilə peyğəmbərin nəvəsinin çəkdiyi əzablara şərik olmaq naminə küçələrdə ümumxalq başyarma mərasimi keçirilməli idi. İctimai asayiş üçün təhlükə yaratdığına görə Qafqaz canişinliyinin ümumi sərəncamı ilə bu mərasimi küçələrdə və meydanlarda qadağan edilərək, məscidlər hüdudunda keçirilməsinə icazə verilmişdir. Deyilən sərəncam əsasında Naxçıvan qəza rəisi Naxçıvan şəhərinin müsəlman əhalisinə dini ayin üçün küçələrə çıxmağı qadağan etmişdir. Panislamistlər dərnəyi dərhal bu qadağadan istifadə etdi, dərnəyin üzvü Hacı Hüseynəli Qurbanov xalq arasında təbliğata başladı. O deyirdi ki, rus hökuməti müsəlman dininə qarşı çıxır, dini cəhətdən xalqı sıxışdırır və əsrlərdən bəri keçirilən dini ayinlərə qadağa qoyur. Qurbanov çox həyacanlanaraq hirsindən əynindəki paltarını çıxarır, üzərinə ağ kəfən atır və ağlamağa başlayır. O bu yolla rusiya hökumətinə qarşı etirazını bildirir, fanatik kütlə arasında dərhal Qurbanovla həmrəy olanlar tapıldı, onlar polisin qadağasını pozaraq küçələrə çıxmağı tələb etməyə başladılar. Əgər qəza rəisinin bacarığı olmasaydı qeyd olunan hadisə xalqın bu cür əhval-ruhiyyəsində böyük qırğına səbəb ola bilərdi. O, ictimai asayişin pozulmayacağına dair Hacı Hüseynəli Qurbanovdan söz alandan sonra kütləyə küçəyə çıxmağa icazə verir. Polisin bu cür güzəştə getməsi barədə Qurbanov sonralar xalq arasında deyirdi ki, müsbət nəticələr verir və bu hadisə onları birləşməyə sövq etməlidir. Lakin ayin başa çatdıqdan sonra xalq adından küçəyə çıxmaq tələbi irəli sürdüyü üçün hökumətin sərəncamını pozduğunu və bunun üçün ciddi cəza çəkə biləcəyini anlayan Qurbanov bir neçə şəxsin müşayiəti ilə qəza rəisinin yanına gedərək hərəkətinə görə üzr istəyib. Beləliklə, Qurbanov və onun yoldaşları bir tərəfdən xalqın şüuruna birləşmək ideyasını bacarıqla yeritdilər, digər tərəfdən özlərinin cəzasızlığını təmin etdilər.

Qeyd olunan hüzn günlərində panislamist təbliğatı üçün və-
saitlər toplanırdı. Dərnəyin üzvləri hər gün Bektaşevin çayxa-
nasında toplanırdılar, dini söhbətlər adı altında xalq arasında
təbliğatın ən yaxşı vasitəsini axtarırdılar. Bu cür iclasların bi-
rində dərnəyin üzvü Kərbəlayi Qafar ağa Səfərəlibəyova tap-
şırılmışdır ki, kənd məsçidlərində təbliğat aparılması üçün lazımi
adamları dəvət etsin, onun qardaşı Rauf bəy Səfərəlibəyova isə
İran konsulunun agenti olduğuna və Culfada yaşadığına görə
tapşırılmışdır ki, Culfaya gələn iranlı fəhlələrə Rusiyaya nifrət
hissi aşılasın. Hacı Hüseynəli Qurbanov savadsız olsa da xalq
arasında böyük hörmətə malik idi. O şiyə tatarları və sünni
türklərinin yaxınlaşdırılması və bununla da siyasi və dini
birləşməyə zəmin hazırlaması işini öz üzərinə götürmüşdür.

Qars şəhər sakini İbrahim bəy adlı şəxs İran inqilabında
yaxından iştirak edib, sonra isə Türkiyənin tərəfində Balkan
muharibəsində, indi isə 400 nəfərlik dəstənin başında Xəlil bəyin
rəhbərliyi altında ruslara qarşı vuruşub. Naxçıvan panislamist
dərnəyi qeyd olunan İbrahim bəylə yaxın əlaqədədir, 1915-ci ilin
yayında Xəlil bəy Salmasda göründəndən sonra onun rəhbərliyi
altında olan İbrahim bəyə hərbi müvəffəqiyyətlərinə görə təbrik
məktubu göndərilmişdir. Həmin məktubu Səfərəlibəyov qar-
daşları, Hacı Mirbağır, Bektaşev, Qurbanov, Seyidov, Molla
Mahmud Molla Ələkbər oğlu və başqa şəxslər imzalamışdırlar.

Bu məktubu kimin apardığı məlum deyil, Xoydan cavabı
gətirib Rauf bəy Səfərəlibəyova verən Naxçıvan sakini Kərbəlayi
Əli Babayev olub. Bu məktubda İbrahim bəy naxçıvnlılara
təbrikə və hansısa xidmətlərinə görə təşəkkür edirdi.

Panislamist dərnəyinin türklərə kömək barədə təbliğatı
həmrəy olanları hərəkətə gətirirdi, belə ki, 1915-ci ilin payızında
Naxçıvan sakini İsmayıl bəy Camalbəyov Culfada yaşayan
Təbriz sakini Mirəli Seyidəli Abdullayevin köməyi ilə Təbrizdə
bir nəfərə türklər üçün 20 min qızıl pul göndərib.

Sonradan məlum olduğu kimi bu iki şəxs xüsusi tapşırıq
alıblar ki, hərbi qoşunlar gələndə vağzala getsinlər və hansı
hissələrin, qoşunlarının getdiyi, neçə nəfər olduğu, hara getdiyini
müəyyən etsinlər. Alınmış məlumatları onlar Bulqan kənd sakini

Əli Məmməd Əliyevə ötürüblər, o isə onları Xoya Məmmədəli bəy Arzanlıya, ondan isə türklərə ötürürdü.

İşin daha müvəffəqiyyətlə həyata keçirilməsi üçün İsmayıl bəy Camalbəyov Seyidəli vasitəsi ilə türklərdən böyük məbləğdə pul alıb, güya ki, ticarət etmək üçün. Bu məqsədlə o, ticarət adı altında Tiflis, İrəvan, Naxçıvan şəhərlərini gəzərək müxtəlif hərbi məlumatlar toplayıb. Bundan başqa Camabəyov Əliyev vasitəsiylə tez-tez Maku kərdlərinə silah və patron göndərib. Bəzən bu əməliyyatlar uğursuzluqla nəticələnir. Məsələn: 12 dekabr 1915-ci il tarixdə gecə, Bulqan kəndi yaxınlığında Rusiyadan Araz çayı üzərində qənd, çay və silahdan ibarət qaçaq mal keçirilirdi.

Əsgərlərin sərhəd postları onlara atəş açıblar, lakin heç kimi yaxalaya bilməyiblər, ancaq 9 tay qənd, 2 1/2 pud çay müsadirə ediblər. Bu atışmadan narahat olan Camalbəyov ertəsi gün səhər İrana gedib, axşam isə qayıdaraq bildirib ki, yükün bir hissəsi batıb: 2 tüfəng, 3500 patron və çayla qənd, qalan 10 tüfəng, 6500 patron və yazışma müvəffəqiyyətlə Qızıl-Qışlaq kəndinə Məşədi İbadulla Eyyub oğlunun evinə çatdırılıb, oradan isə kürdlərə ötüləcək. Atışma zamanı müsadirə edilmiş qənd gömrük tərəfindən aşağı qiymətə elə həmin Camalbəyova satılıb.

Naxçıvanda və ətrafında panislamist təbliğatı ilə kifayətlənməyərək, qeyd olunan dərnəyin üzvləri qəzaların daxilində iş görməkdən kifayətlənməyərək İranın da hüdudlarına daxil olublar. Belə ki, 10 dekabr 1915-ci il tarixində yenicə Xoydan qayıtmış, dəriçi Hacı Hüseynəli Qurbanovun anbarında dərnək üzvləri Hacı Mirbağır Mirheydərzadə, Seyid Rza Seyidov, Mirzəli bəy Bektaşev, Kərbəlayi Qafar ağa Səfərəlibəyov, İsmayıl bəy Camalbəyov toplanaraq Xoydakı vəziyyət haqqında məruzəni dinləyiblər. Qurbanov bildirib ki, bu şəhərdə olarkən təbliğat üçün müxtəlif evlərdə olurdu, əsasən də Məşədi Əli ağa Rzayevin evində, oraya çoxlu adam toplanırdı. O, xoyluları hərəkətsizlikdə ittiham edərək qeyd edir ki, əvvəllər Azərbaycan ilk olaraq xalqın hərakatlarının önündə gedirdi, məsələn: inqilab vaxtı, indi isə yerini şərqi və cənubi İrana verib. Əvvəllər azərbaycanlılar farsları qorxaq hesab edirdilər, indi isə belə çıxır ki, əksinədir. Xoyluların günahlarını azaldan yeganə amil kimi

Qurbanov Xoyda rus qoşunlarının olmasını görür. Məruzəni qurtararaq Qurbanov İştirak edənlərə təklif edib ki, türklərə rus qoşunları haqqında məlumatları toplayıb çatdırdıqlarına görə İsmayıl bəy Camalbəyova, Seyidəli və «Papış»a minnətdarlıq bildirilsin. Güman ki, Xoyda olarkən Qurbanov qeyd olunan şəxslərin cəsur fəaliyyəti barədə məlumatlar alıb.

Bu ilin yanvar ayının ortalarında Molla Mahmud Molla Ələkbər oğlu Tiflisə, Yelezavetpola və Ağdaşa gedib orada məscidlərdə dini ayinlər icra edərək camaata indi islamın necə çətin dövr keçirdiyini izah edib, müsəlmanları birliyə çağırırdı. Həmin mollanın fikrincə Ağdaş camaatı panislamist ideyalarını mənimsəməkdə çətinlik çəkirdi. Molla Mahmud Molla Ələkbər oğlu ilə eyni vaxtda Tiflisdə Rauf bəy Səfərəlibəyov da olub, o orada tanışlarının vasitəsi ilə özünə İranın İrəvandakı konsulunun köməkçisi vəzifəsini almaq istəyib, lakin bu iş baş tutmayıb. Rauf bəyin İrəvana təyin olunması üçün çox cəhdlər edildi çünki onun vasitəsi ilə bu şəhərdə panislamist təbliğatını yaymaq istəyirdilər.

Bu ilin fevral ayının 4-də Naxçıvan şəhərində Ərzurum qalasının ruslar tərəfindən işğal olunduğuna dair ilkin məlumatlar daxil oldu. Bu xəbər dərnək üzvlərinə böyük zərbə vurdu, onlar bu hadisəyə inanmaq istəməyərək məsələni müzakirə etmək üçün Bektaşevin çayxanasına toplaşdılar. Mirzəli bəy Bektaşev, Kərbəlayi Qafar ağa Səfərəlibəyov, Hacı Mehdi Bağırov və İsmayıl bəy Camalbəyov buraya toplaşmışdılar. Onlar eşitdikləri xəbərə inanmaq istəmirdilər, lakin tezliklə Bektaşev əlində Ərzurumun alınması haqqında teleqramla gəldikdə şübhələr dağıldı. Toplaşanlar bu hadisəinin müsəlman beyinlərinə təsirini azaltmaq yollarını müzakirə etməyə başladılar. Qərara alınmışdır ki, Ərzurumun təslimini türklərin hərbi bicliyi kimi qələmə versinlər. Güya bununla türklər rusları öz ərazilərinə çəkmək, sonra isə qırmaq istəyiblər. Bundan sonra türklər Ərzurumu və bütün Qafqazı işğal edəcəklər.

Səhəri gün, fevral ayının 5-də Naxçıvan şəhərində Ərzurumun işğalına həsr olunmuş nümayiş keçirildi. Dərnəyin üzvlərini təəssüfləndirən hal bu nümayişdə nəinki ermənilərin, hətta çoxlu sayda tatarların iştirak etməsi oldu. Qəza qazisi Şeyx Kərim Axund da

rus qoşunlarının şücaətindən bəhs edən uzun nitq söylədi. Bu nitq dərnək üzvlərinin hiddətinə səbəb oldu, onlar qazinin, müsəlmanların başçısının rusların tərəfdarı olması fikri ilə barışa bilmirdilər. Bunu unutmaq olmaz və əgər türklər gəlsə onda «qazini öz əllərimlə öldürəcəyəm»-deyə Kərbəlayi Qafar ağa bildirdi. Bu nümayiş zamanı 70 yaşlı Qasım ağa Elçiyev Ərzurumun işğal olunmasından məmnun olduğunu bildirərək tezliklə İstambulun da alınacağını dedi. Bu sözlərdən hiddətlənən Kərbəlayi Qafar ağa qışqıraraq qocanı öldürməklə hədələdi. Bu münaqişə barəsində məmurlar arasında klubda uzun müddət söhbətlər getdi. Dərnək üzvlərinin bütün səylərinə baxmayaraq Ərzurumun işğalı tatarlara pis təsir etdi. Bu məsələ barədə 7 fevral tarixində Bektaşevin çayxanasında, Qurbanovun anbarında, axşam isə Camalbəyovun evində dərnək üzvlərinin tam tərkibdə yığıncaqları oldu. Oraya Culfadan gəlmiş Seyidəli Abdullayev və Naxçıvan şəhər 2-ci sahənin pristavı Kəngərlinski də dəvət olunmuşdular. Qərar alınmışdır ki, türklərin Ərzurumu qəsdən tərk etdiyinə dair fikirlər geniş yayılsın. Bu qərarı icra etmək üçün Bektaşev Hacı Mirbağır Abdullayev, Qurbanov və Hacı Mehdi Bağırov şəhərin müxtəlif yerlərinə və bazarlara gedərək əhalini inandırmağa çalışırdılar ki, güya Ərzurum yenidən türklər tərəfindən mühasirəyə alınıb, rusların işləri çox pisdir, onlar ərzuruma kömək üçün qonşularını İrandan çıxarırlar və güya bütün bu məlumatları onlara teleqraf məmurları veriblər.

Culfada yaşayan dərnək üzvü Rauf bəy Səfərəlibəyova tapşırılmışdır ki, iranlı fəhlələri buna inandırsın və Ordubada məlumat versin.

Ərzurumun işğalına dair nümayiş dərnək üzvlərini o qədər hiddətləndirirdi ki, onlar başlarını itirərək, nümayişin əsas iştirakçıları olmuş, onların dinini təhqir edən ermənilərin qırğınını törətmək barədə fikirləşirdilər. Bu məqsədlə dərnək 9 fevral tarixində Əhməd bəy Hacı Suxanverdi oğlunu və Uzunoba kəndindən bir neçə naməlum şəxsi Naxçıvan şəhərinə çağırdı. Bu şəxslərə tapşırılmışdır ki, erməni kəndlərinə hücumlar təşkil etsinlər, lakin hansısa tatarın (Azərbaycanın) təsiri ilə qırğının qarşısı alınmışdır.

İşin bu cür gedişatından Kərbəlayi Qafar ağa narazı qaldı, hansı ki, ümid edir ki, başlanmış qırğın bir çox adamı, quldur

Suleymanı və farsları cəlb edəcək. İş böyüyə bilərdi, rusların başını qata və türk hücumuna kömək edə bilərdi.

Tezliklə qəzetlərdə belə bir məlumat yayıldı ki, quldur Süleyman Yelizavetpol qubernatorunun yanına gələrək dəstəsi ilə birlikdə Rusiyanın xidmətinə keçməyi təklif edib. Bu hadisə dərnək üzvlərinə pis təsir etdi və onlar qəzetdə yazılanların həqiqət olub-olmadığını yoxlamaq üçün Zeynəddin kənd sakini Kərbəlayi Qasım-Hüseynqulu oğlunu İrana Süleymanın qış iqamətgahı olan Kələntər kəndinə göndərdilər. Həmin şəxs qayıtdıqda bildirdi ki, nə Süleymanı, nə də onun dəstəsini o görməyib və hesab edir ki, onlar rusların xidmətinə keçiblər.

Bu ilin fevral ayının sonunda mart ayının əvvəlində dərnəyin üzvü Hacı Mir Bağır panislamist təbliğatı ilə Maku xanlığına gedib, lakin heç bir uğur əldə etməyib, Qızılqışlaq kəndində isə hətta onu döymək istəyiblər. Bu xanlıqda panislamizmin tərəfdarları ancaq Qəmbərkənd sakini Məşədi Tağı Əsəd oğlu və 4 oğludur.

Dərnəyin uğursuzluqları onun üzvlərinin həvəsini də azaltdı, çünki onların arzularının reallaşması uzaq gələcəyə qalırdı. Bununla belə dərnək üzvləri bir-birlərini ruhlandırır və möhkəm olmağa çağırırdılar.

Bektaşevin çayxanasında baş tutan iclaslardan birində Tehrana rus qoşunlarının gəlişi, onların digər İran şəhərlərinə dolması, iranlıların ruslara qarşı çıxış edə biləcəyi ehtimalı, bunun isə müsəlmanların cihadına gətirə biləcəyi haqda qızğın mübaisələr gedirdi. Bundan irəli gələrək dərnək üzvləri kiçik hərbi qruplaşmaların yaxşı hazırlaşdırılması, sonra isə onların partizan dəstələrinə çevilməsi üçün tədbirlər görməyi lazım bildilər. Bu məqsədlə onlar ətraf kəndlərin sakinləri, həmçinin qeyd olunan quldur Süleymanla əlaqəyə girdilər. Həmin Süleyman Şuşa qəzasının Arayatan sakinlərindəndir, quldur əməlləri ilə butun Yelizavetpol və İrəvan quberniyasında məhşur idi, qışda İran şəhəri olan Aqarada yaşayırdı. Dərnək üzvləri Zeynəddin kənd sakini Kərbəlayi Qasım Hüseynqulu oğlu vasitəsilə qeyd olunan Süleymanla daim işgüzar əlaqələr saxlayırdılar. Dərnək hərdənbir bu quldura əhəmiyyətli yardımlar edirdi, məsələn: 1915-ci ilin yayında onun xahişi ilə ona 25 türk tüfəngi və on iki min yarım

patron göndərilmişdir. 1915-ci ilin noyabırında Cəhri kəndindən Naxçıvana yerli sakin Məşədi Abbas Zal oğlu və Nehrəm kəndinin kəndxudası Kərbəlayi Muxtar gəlmişdilər. Hər iki şəxsin Bektaşevlə, Qurbanovla və Kərbəlayi Səfərəlibəyovla görüşləri olmuşdur, hansılar ki, gələnlərə müsəlman dövlətlərinin ağır vəziyyətini, müsəlman dininə qarşı vuruşmaq gərəyini izah edirdilər. Abas Zal oğlu və Kərbəlayi Muxtar öz tərəflərindən söz vermişdilər ki, bu fikirləri öz kəndlərinin sakinlərinə aşılayacaqlar və Gərəncə kəndlərdə döyüş dəstələri belə yaradacaqlar.

Bu sözlər görünür ki, boş sözlər deyildi, belə ki, 1915-ci ilin dekabrında dərnək tərəfindən məlumat alınmışdır ki, qeyd olunan Abbas Zal oğlu Molla Hüseyn Molla Əli oğlunun köməyi ilə Cəhri kəndlilləri arasında o qədər güclü təbliğat aparıb ki, əvvəllər onlara düşmən olan türklər-sünnülər indi onların hörmətli adamları olublar, türk qoşunlarının gəlişi isə arzu olunan idi. Bundan başqa Cəhri kəndi lazım olduğu zaman türklərə 100 silahlı adam verməyi öhdəsinə götürüb.

Digər ətraf kəndlər də panislamizm ideyasını qəbul etdilər və şiyələrə düşmən olan sünnü-türklərlə barışandan sonra səbirsizliklə onların gəlişini gözləməyə başladılar.

Nehrəm kəndinə gəldikdə isə 4 dekabr 1915-ci il tarixində yuxarıda qeyd olunan kəndxuda Kərbəlayi Muxtar Naxçıvana gəlib, Bektaşevin çayxanasında olub, dərnək üzvləri də orada olublar, onlardan Kərbəlayi Qafar ağa Səfərəlibəyov kənddəki vəziyyətlə maraqlanıb. Muxtar cavab verib ki, çoxdan bəri kəndxuda vəzifəsini daşıyır, rus hökumətinə sadiqdir və ona qarşı çıxa bilməz. Muxtarın bu bəyanatı dərnək üzvlərini lap çaş saldı.

Dərnəyin həmin iclasında Cəhri kənd sakini Məşədi Abbas Zal oğlu da iştirak edirdi, o, dərnəyə təklif etdi ki, lazım gələrsə bir neçə dəstə yaradılsın və partizan hərakatları ilə ruslar dağlara cəlb edilsinlər və onların qüvvələri zəiflədilsin.

İclasda iştirak edən Bulqan kənd sakini «Papış» ləqəbli Əlimməmməd Əliyev dərnəyə bildirdi ki, o, sərhədyanı Maku kəndlərinin sakinləri ilə danışıqlar aparır və həmin kəndlərin sakinlərindən ibarət dəstə hazırlamağı və rusların sərhəd postlarına hücum etməyi planlaşdırır. «Papış»ın bu təklifi dərnək tərə-

findən məmnuniyyətlə qəbul edildi. Aydın olub ki, bu «Papış» sərhədyanı İran əhalisini daim silahla və patronla təmin edib, bu meşə gözətçisi kimi ona əlverişlidir, həmçinin ona görə ki, onun qardaşı Bulqan gömrükxanasında inspektordur və o, Araz çayı üzərindən keçid saxlayır.

Dərnəyin qeyd olunan iclasında Hacı Mir Bağır da iştirak edib. O, ruslara qarşı açıq çıxış etmək istəyini bildirib, lakin Kərbəlayi Qafar ağa bu tədbir üçün erkən olduğunu bildirərək onun qarşısını alıb.

Dərnəyin Culfa ilə, həmçinin ətraf kəndlərlə və İran şəhərləri ilə əlaqəsi ən fəal üzvlərindən biri, Culfa şəhərində yaşayan, iran konsulunun agenti olan Rauf bəy Səfərəlibəyov vasitəsi ilə həyata keçirilirdi. Məhərrəm ayı ərəfəsində Rauf bəy Culfaya gələn fəhlələr arasında güclü təbliğat aparırdı, hər yerdə ruslara qarşı nifrət aşılayırdı.

Rauf bəyin təsiri Ordubad şəhərində və Yaycı kəndində daha çox hiss olunurdu. Sonuncunun sakinləri Rauf bəyin təbliğatı nəticəsində ruslara qarşı müharibə elan etmədiklərinə görə iranlıları qınayırlar. Bu kəndin sakini Hacı Cabbar və Məşədi Qasım Hacı Əli oğlu Rauf bəyin təsiri ilə öz kəndliləri arasında təbliğat apararaq onları hər an ruslara qarşı çıxış etməyə hazır olmağa, silah, patron almağa çağırırdı.

Yuxarıda qeyd olunmuşdur ki, dərnək üzvlərindən biri, Hacı Mir Bağır Mirheydərzadə Ordubadda panislamizm təbliğatı aparıb. Onun bu işi nəticəsində ordubadlılar da tam inanıblar ki, bu türklərin hərbi planıdır və tezliklə rus qoşunları darmadağın ediləcəkdir.

İsti yay günlərinin gəlişi ilə Bektaşev çayxanasını başqa şəxsə verdi, yay boyunca dərnəyin toplantıları əsasən bağlarda keçirilirdi. Bu dövrdə hərbi vəziyyət rusların xeyrinə dəyişsə də dərnəyin üzvləri ruhdan düşmürdülər, öz işlərini davam etdirirdilər, çünki onlarda türklərin yayda hücuma keçəcəyinə dair məlumatlar var idi.

Bu vaxt rus və ingilis qoşunlarının Bağdadın cənubunda çətin vəziyyətə düşməsinə dair xəbərlər gəlirdi. Nəticədə dərnək üzvləri İsmayıl bəy Camalbəyov və Mirəli Abdullayev Dəclə və Fəratda rus və ingilis qoşunlarının darmadağın edildiyi, türk-

lərin isə Ərzuruma böyük qüvvələrlə irəlilədiyinə dair şaiyələr yaymağa başladılar.

Türklərin bu hücumu ərəfəsində Təbrizdə yaşayan Xoy sakini Məmmədəli bəy Maku xanlığının «Dallay» kürd tayfalarının yanına gedərək orada onları türklərə kömək etməyə, ruslara qarşı çıxışlar etməyə çağırırdı. Məmmədəli bəyin təklifini kürdlərin başçılarından biri olan Əlihüseyn qəbul etsə də onların planları baş tutmadı, çünki kürdlər onların məsləhətlərinə qulaq asmaqdan imtina etdilər.

Ötən yay türklərin hücuma keçəcəyinə dair məlumatlar hücumdan xeyli əvvəl dərnəkdə alınmışdır. Sonradan bu məlumatlar özlərini doğrultdu, belə ki, iyul və avqustda türklər həqiqətən də rusları sıxışdırırdılar.

Qeyd olunan hücumdan əvvəl türklərə bizim qoşunların miqdarını və yerləşdirilməsini bilmək lazım idi. Bu vaxtdan dərnəyin fəaliyyəti təkcə panislamizmin təbliğatına deyil həm də qoşunlar barədə məlumatların toplanılmasına yönəldilmişdir.

Kəşfiyyatdan əlavə türklər dərnək üzvlərinə sırf təsərrüfatla bağlı tapşırıqlar da verirdilər, belə ki, bu ilin iyul ayında Xoydan İsmayıl bəy Camalbəyova və Mirəli Abdullayevə 14000 manat göndərilmişdir və tapşırılmışdır ki, bu pula Zaqafqaziyada mitkal alınaraq Xoya göndərilsin, Xoydan isə mitkal Konyan kəndinə daşınacaq, qoruyucu rəngə boyanaraq türklərə göndəriləcəkdir. Qeyd olunan 14000 manata görə Abdullayevlə Camalbəyov arasında mübahisə baş verir, çünki hər ikisi pulları özü idarə etmək istəyirdi.

Qeyd olunan mitkal həqiqətən də böyük miqdarda alınmışdır və İranla sərhədə gətirilmişdir, lakin Araz çayı üzərindən gizli yolla keçirilərək Qaraçuq kəndi yaxınlığında ələ keçirilmişdir. Bu zaman yaxalanmış Mirəli Abdullayev, Naxçıvan şəhər sakinləri İsmayıl bəy Camalbəyov və Kərbəlayi Ələkbər Baba oğlu Qafqaz baş rəisinin qərarı ilə müharibə dövrü ərzində Qafqazdan kənarlaşdırmışdılar. Mitkalın qalan hissəsi yenə də İrana keçirilmişdir və təyinatına göndərilmişdir. Yuxarıda qeyd olunmuşdur ki, dərnəyin üzvləri İsmayıl bəy Camalbəyov, Əliməmməd Əliyev və Mirəli Abdullayev məlumat toplayaraq Xoya göndərirdilər, oradan isə Qurbanov vasitəsi ilə onlara təşəkkür bildirirdi. Türklərin hücumları

barədə məlmutalar alınandan sonra həmin şəxslərin hərbi kəşfiyyatı daha da intensivləşdi. Rauf bəy Səfərəlibəyov və Seyid Əliyev ya özləri çıxır ya da adamlarını Culfa vağzalına göndərərək rus qoşunlarının miqdarını və hara yola düşdüyünü öyrənirdilər.

Bununla belə dərnəyin üzvləri müsəlmanlarda fanatizm oyatmağa çalışaraq onlara danışırdılar ki, türküstan müsəlmanları türklərə qarşı vuruşmaqdan imtina edərək rus hökumətinə müqavimət göstəriblər. Bu da rusların represiyalar törətmələrinə səbəb olub, onlar çoxlu sayda müsəlmanı asıblar, qalanları isə tabe olmaqdan imtina edərək dağlara çəkiliblər və oradan partizan müharibəsi aparırlar.

Bununla yanaşı İbrahim bəy və Hacı Həsən ağa Xoyda farsları inandırmağa çalışırdılar ki, rusların geri çəkilməsi türklərin hərbi planının nəticəsidir. Bu hücum müsəlmanların qələbə çalması ilə nəticələnəcək, buna görə də onlar müqəddəs müharibəyə hazırlaşmağa çalışırdılar.

Bununla da panislamist dərnəyinin bu ilin 20 sentyabr tarixinədək fəaliyyətinin tədqiqi başa çatır. Daha sonra bu dərnəklə bağlı olan Xoydakı xüsusi casus təşkilatının fəaliyyəti təsvir olunacaq.

Bu yazışmanı yekunlaşdıraraq qeyd etmək istəyirik ki, dərnəyin üzvləri öz işlərini ancaq şifahi yolla aparıblar, bütün yazılar və məktublar isə qəti qadağandır, dərnək üzvləri birbirinə daim xatırladırdılar ki, işlə əlaqədar heç bir yazı yazılmasın, çünki yazıların üzə çıxması hərbi dövrün qanunları ilə ciddi cəzaya səbəb ola bilərdi. Buna görə də əvvəlcədən demək olar ki, axtarışların keçirilməsi ilə hansısa dəlil üzə çıxarmaq mümkün olmayacaq.

Polkovnik (imza)» (159).

Naxçıvan şəhərində keçiriləcək siyasi əməliyyat, nəhayət, İrəvan quberniya xəfiyyə idarəsinin başçılığı altında 1916-cı ilin oktyabr ayında həyata keçirilir.

Gizli təşkilat üzvlərinin həbs edilmələri barədə Mirheydərzadə öz qısa tərcümeyi-halında belə yazır: «Gizli polis məlumatına əsasən 1916-cı ilin oktyabr ayında mənim evimdə axtarış aparılandan sonra mən İrəvan quberniya jandarması tərəfindən həbs edildim. Məndən başqa yoldaş Bekdaşyev, Səfərəliyev və

başqaları da həbs olundular. Bizi əvvəlcə Naxçıvan həbsxanasına salıb, sonra İrəvan quberniya həbsxanasına göndərdilər» (160).

Mirheydərzadə tərcümeyi-halında göstərdiyi kimi Naxçıvanda hökumət əleyhinə olan gizli təşkilatın sirri açılır və üzvlər arasında kütləvi həbslər aparılır. İrəvan quberniya xəfiyyə idarəsinin məhbusları siyahısında 40 nəfər ittiham edilənlərdən 9 nəfəri həbs etmək mümkün olmadığından 31 nəfər həbsə alınır (161).

Naxçıvan şəhər sakini M.B.Heydərzadə, Hacı Mehdi Bağırov, İsmayıl bəy Camalbəyov Naxçıvan qəzasının Qaraçuq kənd sakini K.Ələkbər, K.Baba oğlu, Cəhri kənd sakini Məşədi Abbas Zal oğlu, Naxçıvan qəzasının Yaycı kənd sakini Cabbar Hüseyn oğlu, Molla Mahmud Çakər, Qasım Hacıəli oğlu, Naxçıvan qəzası Zeynəddəin kənd sakini K.Qasım Hüseyn oğlu, Naxçıvan qəzası Parağa kənd sakini M.Hüseyn Əliyev, Nehrəm kənd sakini Mirzə Mahmud Əsgərov və başqaları həbsə alınıb İrəvan quberniya həbsxanasına göndərilirlər (162).

Naxçıvan «Hümmət» qrupunun həbs olunan üzvləri 1917-ci il fevral inqilabına kimi İrəvan quberniya həbsxanasında siyasi məhbus kimi saxlanılmışdır. Sonra Mirzəli bəy başda olmaqla «Hümmət» qrupunun üzvləri həbsdən azad olub Naxçıvana qayıdaraq öz işlərini davam etdirərək Naxçıvan qəza rəisi Mamulaşvilini və başqa polis başçıların həbsə alırlar. Lakin gücsüzlükdən yerli hakimiyyəti ələ ala bilmirlər. Bir tərəfdən Naxçıvanda güclü fəhlə qüvvəsinin olmaması, digər tərəfdən Bakı inqilabçılarından uzaq olması üzündən hümmətçilərin hakimiyyəti ələ almaq imkanı yox idi.

Mirzəlibəyin başçılıq etdiyi «Hümmət» qrupunun işi daşnak ermənilərinin və ingilis-amerikan müdaxiləçilərinin Naxçıvanda cövlan etdiyi dövrdə (1918-1920) daha ağır olur.

Beləliklə, fevral inqilabı Naxçıvan zəhmətkeşlərinin iqtisadi-siyasi həyatında əsaslı dönüş yarada bilmədi. İstismar, milli məhdudiyyət, siyasi özbaşınalıq qorunub saxlanıldı.

III FƏSİL.
Naxçıvan polisi 1917-1920-ci illərdə

Adını qeyd etdiyimiz illərdə Naxçıvan polisinin fəaliyyəti barədə geniş söhbət açmazdan əvvəl həmin dövrün tarixi şəraitinə nəzər yetirmək lazım gəlir. 1917-1920-ci illər Azərbaycan, o cümlədən Naxçıvanda ictimai-siyasi vəziyyət çox çətin və mürəkkəb idi. Təkcə onu göstərmək kifayətdir ki, qüdrətli bir dövlət kimi tanınan Rusiyada dünyanı lərzəyə salan bir inqilab baş verdi. Söz yox ki, inqilab tufanı Rusiyanın ucqar əyalətlərinə də öz təsirini göstərmişdir. Belə ki, 1917-ci ilin fevral inqilabı nəticəsində «xalqlar həbsxanası» olan çarizm devrildi. Bu qədər dövlətin müstəmləkə məngənəsindən azad olmuş xalqların taleyində yeni bir dövr başlandı.

Çar hökuməti yıxılan zaman Naxçıvan və Culfa şəhərlərində, eləcə də Şahtaxtı dəmir yol stansiyasında fəhlə-kəndli əsgər vəkilləri sovetləri təşkil edilir. Sovetin icraiyyə komitəsi Petroqradda bərqərar olan fəhlə-kəndli hakimiyyətinə təbrik teleqramı göndərib onu alqışlayır. Şahtaxtı sovetlərinin rol və təsir dairəsi getdikcə artır və kəndli kütlələrini də bürüyür.

Sovetlərin təsir dairəsinin genişlənməsində İrandan rus-türk cəbhəsindən qayıdan əsgərlər arasındakı əsgər vəkilləri sovetlərinin rolu daha böyük olur. O zaman Şahtaxtı fəhlə-kəndli deputatlar soveti icraiyyə komitəsinin katibi Əbdülqasım Qazıbəyov yazır ki, onların (əsgərlərin-F.C.) Rusiyaya çəkilməsi ilə əlaqədar olaraq yerli sovetlərin gücü xeyli zəifləyir və çox çəkmədən dağılır, milli ədavət törədilir (163).

Çar hökuməti yıxılandan sonra müvəqqəti hökumətini yerlərdəki orqanları əmələ gəlmiş siyasi vəziyyətinin öhdəsindən gələ bilmir. Belə olan surətdə müvəqqəti hökümət yerli orqanların seçkilərinə və təlimatlandırılması işinə rəhbərlik, əhali arasındakı hərc-mərcliyə son qoymaq məqsədi ilə Əlahiddə Qafqaz komitəsi öz əməkdaşı A.A.Kalujskini Naxçıvana göndərir.

1917-ci ilin iyul-sentyabr aylarında A.Kalujskinin rəhbərliyi ilə aparılan seçkilər başa çatmamış Baxşəli ağa Şahtaxtınski müvəqqəti olaraq Əlahiddə Qafqaz Komitəsinin Naxçıvan qəzası üzrə

müvəkkili təyin edilir. Müvəkkilliyə bəzi hüquqlar verilir. Ona müavinlər seçilir və onun möhkəmləndirilməsi üçün bir sıra tədbirlər görülür. Lakin əhalini itaət altında saxlamaq mümkün olmur.

Mövcud vəziyyətin çətinliyini duyan müvəkkil B.A.Şahtaxtınski Əlahiddə Qafqaz komitəsinin üzvü Cenkeliya 10 oktyabr 1917-ci ildə belə bir teleqram göndərir: «Qəza son vaxtlar çox pisləşibdir. Hökumət olmadığına görə təşkilat dayanmışdır. Qəza polis komissarı istefaya çıxıb və azad olunmasını gözləyir, mövcud icraiyyə komitələri fəaliyyətsiz dayanmış, istefa verənlər nə işdən çıxarılır, nə azad edilir, nə də onlardan istifadə olunur. Fəhlə və əsgər vəkilləri şuraları hər bir işə qarışır və çoxtərəfli hökumət yaradır. Bu həftə çoxlu oğurluq və ölüm var, bir həftədən çoxdur ki, müavinlərim ən ucqar kəndlərə getmişlər və onlardan heç bir xəbər yoxdur. Müvəkkil B.A.Şahtaxtınski» (164).

Naxçıvan ölkəsindəki vəziyyət B.A.Şahtaxtınskinin Qafqaz komitəsinə verdiyi məlumatdan da pis idi. Müxtəlif partiyalara mənsub qruplar əhalini çaşdırırdı

1917-ci il oktyabrın 28-də Petroqraddan Xalq Daxili İşlər Komissarlığı tərəfindən ölkənin hər bir yerinə teleqram göndərilərək bu məzmunda göstəriş verilir.

1. Bütün fəhlə və əsgər deputatları sovetləri fəhlə milisini təsis etməlidir.

2. Fəhlə milisi bütünlüklə və qəti olaraq fəhlə və əsgər deputatları sovetlərinin tabeliyində olmalıdır.

3. Hərbi nümayəndələr, hakimiyyət orqanları fəhlə milisinin silahlanmasına hərtərəfli kömək etməli, onları texniki qüvvələrlə, hətta dövlət hesabına silahla da təchiz etməyə ixtiyarlıdır.

Bu sovet dövlətində fəhlə-kəndli milisinin yaranmasının başlanğıcının əsasını qoyan ilk normativ sənəd sayılır.

Rusiyada Sovet hakimiyyəti qələbə çalsa da onun ucqarlarından sayılan Azərbaycanda və eləcə də Naxçıvan qəzasında çar rejimi üsul idarəsi hələ də yaşamaqda idi. Buna baxmayaraq bir çox demokratik fikirli partiyaların nümayəndələri «Naxçıvan qəzasının ağır vəziyyətdən və daxili hərc-mərclik qurtarmaq istəyirdilər».

Naxçıvanın qabaqcıl ziyalılarından Əziz Şərif (mərhum professor Əziz Şərif-F.C.) daxili hərc-mərcliyə yol verməmək məq-

sədi ilə 1917-ci ilin axırlarında Naxçıvanın fəhlələrindən, küstar və yoxsul kəndlilərindən ibarət «Qırmızı qvardiya» təşkil edir (165). Bu qırmızı qvardiyanın tərkibində çar rusiyası dövründə polis sistemində çalışmış nümayəndələr də var idi.

Bunu Naxçıvan əyalət polisində işə girmək istəyənlərin siyahısından da aydın görmək olar.

Adı, familiyası.	Daim yaşadığı yer.	İstintaq və məhkəməyə düşüb.
1. İbrahim bəy Rüstəmov	Naxçıvan əyalətinin Cəhri kəndi	İstintaq və məhkəməyə düşməyib
2. Əli Məmməd oğlu	Ərəfsə kəndi	yox
3. Cəfər Məmməd oğlu	Naxçıvan şəhəri	yox
4.Kərbəlayi Heydər Bayram oğlu	Naxçıvan əyalətinin Baş Anzır kəndi	yox
5. Məmmədqulu Nəcəf oğlu	Naxçıvan əyalətinin Qahab kəndi	yox
6. Mehrəli Mirəli oğlu	Qahab kəndi	yox
7.Məmməd xan Bayram oğlu	Qahab kəndi	yox
8. Rzaqulu Abdulla oğlu	Naxçıvanı şəhəri	yox
9. İmaməli Rzayev	Naxçıvanı əyalətinin Qara-qala kəndi	yox
10. Mirəli Seyidov	Naxçıvan şəhəri	yox
11.Abbas bəy Allahverdiyev	Naxçıvan əyalətinin Məmmədrza-dizə	yox
12. Dadaş Kər. Cavad oğlu	Naxçıvan əyalətinin Qıvraq kəndi	yox
13.Niftəli Kərbəlayi Əli oğlu	Qıvraq kəndi	yox
14. Kər. Muxtar Kər. Cavadxan oğ.	Qıvraq kəndi	yox
15. Hüseyn Salmanov	Qıvraq kəndi	yox

Siyahının axırında əyalət polis komissarı yazırdı: «Bu siyahı İrəvan Quberniyası polis inzibati və məhkəmə işləri üzrə cənab inspektora göndərilir. Xahiş edirəm bu siyahıda göstərilən şəxslərin 20 dekabr 1917-ci il tarixdə işə qəbul edilməsi haqqında sərəncam verilsin.

Əyalət Komissarı: /İmza/. 31 dekabr 1917-ci il» (166).

Əziz Şərifov başda olmaqla şuraya 45 nəfər daxil olur. Bunlardan Məşədi Məhəmmədəli Rəhimov, Əbdüləzim Rüstəmov, Əkbər Abbasov, Hüseyn Məşədi Salman oğlu, Abbasqulu Əliyarov, Əli Fətullayev, Heydər Novruzov və başqalarının adlarını çəkmək olar.

Naxçıvanda təşkil olunan «Qırmızı qvardiya»nı silahlandırmaq məqsədi ilə Qvardiyanın başçısı Əziz Şərifov Culfa topçuluq anbarından silah buraxılması barədə Zaqafqaziya Komissarlığından xahiş edir, lakin silah anbarı yerli əhali tərəfindən dağıdılır. Bu zaman yerli hökumət tamamilə gücdən düşdüyündən daxili qayda-qanun saxlamağa imkan tapmır.

Belə ki, Naxçıvan qəza polis idarəsində 1904-1914-cü illərdə qulluq etmiş Böyük xan Naxçıvanski hökuməti idarə etmək məqsədi ilə yerli xanlar ilə sazişə gələ bilməyən Böyük xan Naxçıvanski xəlvəti Naxçıvan ölkəsini tərk edir. Əlbəttə, belə bir mövqe ermənipərəst hakimlər üçün sərfəli bir mövqe idi və Tiflis erməni hərbi ittifaqı Xarazyanı Naxçıvana göndərir. Beləliklə də Naxçıvandakı ittifaq bütünlüklə daşnak partiyasının nəzarəti altına keçir. Naxçıvanda Xarazyanı daha çox maraqlandıran Culfada rus qoşunlarının hərbi cəbbəxanası idi. Onun amalı cəbbəxananı dağıtmaq, yerli daşnak dəstələrini silahlandırmaq və beləliklə də hakimiyyəti idarə etmək idi.

Ermənistan Daxili İşlər Nazirliyində Xarazyan barədəki bir sənəddə göstərilir: «Xarazyan ilk dəfə Tiflis erməni hərbi ittifaqı tərəfindən, sonra biz onu erməni milli şurasından Naxçıvana müvəkkil təyin etdik... əmri telefonoqram ilə general Silikov vermişdir» (167).

1917-ci ilin noyabr ayında daşnak partiyasının Naxçıvandakı fəaliyyəti daha da artır. Naxçıvanın daşnaklar tərəfindən idarə olunması üçün Xarazyan başda olmaqla hərbi tədbirlər görülür və Naxçıvanda erməni «milli komitəsi» yaradılır.

O dövrdə Xarazyan, Sarkisov və digərlərinin başçılıq etdikləri erməni Milli Komitəsinə qarşı 1917-ci il noyabr ayının 15-də Nehrəm kəndində «hümmət»çi Kərbəlayi Abdulla Adıgözəlovun başçılığı ilə kəndli üsyanı başlayır. Səhəri gün Mirzə Nəsrulla

Əmirov, Şeyx Kərim Qazıyev başda olmaqla nümayəndə heyyəti Nehrəmə gedir və üsyan yatırdılır.

Daxili vəziyyəti bərpa etmək məqsədi ilə Naxçıvanda yaranan fəhlə və əsgər deputatları Sovetinin icraiyyə komitəsinin sədri Əziz Şərifov hələ 10 yanvar 1918-ci ildə Zaqafqaziya komissarlığına göndərdiyi məktubunda yazırdı: «Naxçıvan qəzasında anarxiya gündən-günə artır. Buna görə Naxçıvan şəhərində təşkil olunan Qırmızı qvardiyanın silahlandırılması məqsədilə yüzdən əksik olmayaraq silah, 45 tapança, 2 pulemyot göndərilməsinə sərəncam verilməlidir. Yoxsa Naxçıvan qəzasını anarxiyadan xilas etmək imkan xaricindədir» (168).

Lakin Zaqafqaziya komissarlığından heç bir cavab alınmayır. Əziz Şərifov 1 fevral 1918-ci ildə Zaqafqaziya komissarlığına ikinci dəfə teleqram göndərərək xahiş edir ki, burada asayişi saxlamaq məqsədi ilə İran şərəfxanasındakı topçu cəbbəxanasından fəhlə və əsgər deputatları Soveti İcraiyyə Komitəsinin sərəncamına əvvəlki məktubda tələb edilən miqdarda silah buraxılsın (169).

İcraiyyə komitəsinin çox ciddi təkidindən sonra Zaqafqaziya komissarlığı İran şərəfxana cəbbəxanasından silah buraxılmasına sərəncam verir. Lakin gec idi, belə ki, ölkədəki özbaşınalıq nəticəsində Culfadakı silah anbarları erməni daşnak və kürd quldur dəstələri tərəfindən talan edilmişdir.

Həmin illərin canlı şahidi kimi mərhum Qasım Tağıyev xatirələrində yazırdı: «Naxçıvan xanlarının təmsil etdiyi Milli Komitə inqilab hərakatının qarşısın almaq üçün hər cür fitnəkarlığa əl atırdılar. Ayrı-ayrı inqilabçılara vəhşicəsinə qəsdlər hazırlanırdı. 1918-ci ilin yanvar ayının 12-də birinci qəsd füqarayi-məzluman firqəsinin (partiyasının) üzvü Baxşəli ağa Şahtaxtınskiyə hazırlanmışdır. O Culfadan gəldiyi zaman iki oğlu ilə Dərəlikdə (Culfa yaxınlığında) vəhşicəsinə qətlə yetirildi.

Milli komitə Nehrəm kənd sakini Kərbəlayi Abdulla Adıgözəlovun da inqilabçı olduğunu bilirdi. İkinci qəsd ona hazırlandı. 1918-ci il mart ayının 6-da milli komitə tərəfindən Kərbəlayi Abdulla Adıgözəlov Qaraxanbəyli kəndində ermənilər üzərinə yetməyə məcbur edildi. Bu hazırlanmış sui-qəsd idi və bu sui-

qəsd nəticəsində Adıgözəlovla birlikdə K.Əli, Məmməd Hüseyn oğlu Teymurov və Cəlil Ağa oğlu arxadan vuruldu» (170).

O dövrdə Tiflis daşnak şurasından göndərilən Xarazyan başda olmaqla yerli daşnak ermənilər hərc-mərclik salıb anarxiyanı daha da gücləndirir və əhali arasında nifaq salırdılar. Mövcud vəziyyəti Zaqafqaziya komissarlığına çatdırmaq məqsədi ilə sovetin sədri Əziz Şərifov Tiflisə getməyə məcbur olur. Lakin anarxiyanın güclənməsi üzündən Əziz Şərifov bir daha Naxçıvana qayıda bilmir.

1917-ci ilin oktyabr ayında, bolşevik çevrilişindən sonra Qafqazın digər xalqları kimi Azərbaycan xalqı da öz müqəddaratını təyin etmək məqsədi ilə mübarizəyə qalxır. 1918-ci ilin mayında Gürcüstanda və Ermənistanda olduğu kimi, Azərbaycanda da Demokratik cümhuriyyət elan olundu. Müstəqilliyini elan edən Ermənistan hökuməti həmin andan Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməyə, Azərbaycan torpaqlarını zorla ələ keçirməyə başladı. Ermənistan Respublikası Azərbaycanın keçmiş İrəvan xanlığının, Rus İmperiyasının keçmiş İrəvan quberniyasının ərazisində yaradıldı.

Daşnaklar Naxçıvan, Zəngəzur, Qarabağ torpaqları hesabına Ermənistanı genişləndirmək, eyni zamanda rus, ingilis himayəsindən istifadə edərək Türkiyənin bir sıra şərq vilayətlərini ələ keçirmək niyyətində idilər.

Gənc Azərbaycan hökuməti hələ azərbaycanın bütün ərazilərinə hakim deyildi. Bakı kommunasının ruslardan və ermənilərdən ibarət silahlı qüvvələri, həmçinin ayrı-ayrı erməni silahlı birləşmələri Azərbaycan Demokratik Respublikasını yerindəcə boğmaq üçün birləşərək Gəncəyə qarşı hücumlara başladılar. Həm daşnaklara, həm də bolşevik istilaçılarına qarşı mübarizə aparan ADR hökuməti Naxçıvanın, Zəngəzurun müdafiəsində ciddi çətinliklərlə qarşılaşdı. Bakıdan Naxçıvana gələn dəmir yolu İrəvandan keçirdi. Şosse yollarının keçdiyi Zəngəzur bölgəsi erməni silahlı qüvvələri tərəfindən tutulmuşdur. Naxçıvan blakada vəziyyətinə düşmüşüdr. Buna görə də ADR hökuməti ilə lazımi əlaqə yox idi. Belə çətin vəziyyətdə özünü Azərbaycanın ayrılmaz tərkib hissəsi sayan Naxçıvan Türkiyənin qar-

daşlıq yardımına arxalanaraq təpədən-dırnağa qədər silahlanmış erməni quldurlarına qarşı mətanətlə mübarizə aparırdı.

Qeyd etmək lazımdır ki, erməni daşnakları hələ 1917-ci ilin dekabr ayından başlayaraq ermənilərlə müsəlmanlar arasında haqsız ədavət toxumlarını səpməyə başlamışdır. 1905-1907-ci illərdə olduğu kimi 1917-ci ilin axırlarında da erməni daşnakları tərəfindən İrəvan quberniyasında 200-dən çox müsəlman kəndləri yandırılmış, müsəlman əhalisinin çoxu öldürülmüş, bəzi hissəsi isə qaçaraq canlarını xilas etmişlər.

Bununla belə 1918-ci ilin mart ayından başlayaraq erməni daşnakları həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə qarşı silahlı basqınlar etmiş, neçə-neçə günahsız insanı qətlə yetirmişlər. Belə ki, 21-23 mart 1918-ci ildə ermənilər Naxçıvan şəhərinin Xoşlu, Zaviyyə və Əlixanlı məhəllələrinə hücumlar təşkil edirlər.

Erməni-müsəlman müharibəsi ilə əlaqədar 26 mart 1918-ci ildə Naxçıvan Müsəlman Milli Komitəsinin iclası olur. İclasda iştirak edən Naxçıvan Milli Komitəsinin hərbi naziri Rəhim xan Naxçıvanski və müavin Hacı Mehdi Bağırov və digər milli komitənin üzvləri çıxış edərək belə qərar qəbul edirlər: «Rəhim xan Naxçıvanski ya müharibəni axıradək aparmalı, ya da ki, ermənilər ilə sülh bağlayıb ermənilərə silah verilməlidir» (171, s.27-28).

.Milli Komitənin ermənilərlə sülh bağlamaq qərarına baxmayaraq 31 mart 1918-ci ildə Qaraxanbəyli kəndində ermənilər 25 nəfər müsəlmanı qətlə yetirirlər.

1918-ci il aprel ayının 15-də Osmanlı türk sərkərdəsi Bəkir Sadiq əfəndi Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi teleqramda yazırdı: «Naxçıvan, Mirzə Nəsrulla xan cənablarına. Erməni alçaqlarından gördüyünüz zülm və sıxıntınız haqda məktubunuzu aldım. Bu məni çox müyəssər etdi. Ermənilərə qarşı apardığınız mübarizə məni məmnun etdi.

Bəyazidə qədər gəlmişik. Bundan sonra erməniləri hər addımda təqib edəcəyik. Ermənilərin etdikləri cinayətlərin intiqamını alacağıq. Sizə düşən vəzifə daha bir müddət səbr etmək və bu alçaqlara qarşı müqavimət göstərməkdir. Ümüd edirəm ki, buna da müvəffəq olacaqsınız. Naxçıvan əhlinə məndən salam. Bəkir Sadiq Əfəndi» (172).

Ermənilər tərəfindən qəzada törədilən cinayətləri görən yerli polis əməkdaşları (rus və qeyri millətlərdən olan-F.C) 1917-ci ilin axırlarında istefa haqqında ərizələri ilə öz etirazlarını bildirməli olurlar.

Naxçıvanın bu çətin anlarında polis orqanlarında çalışan kiçik rütbəli polis məmurları ilə yanaşı yüksək rütbəli müxtəlif millətlərdən olan polis məmurları da öz vəzifələrindən istifa verərək Naxçıvandan çıxıb getməkdə idilər.

20 aprel 1918-ci ildə müsəlman və erməni rəhbərlərinin iki xalq arasındakı qırğınların qarşısının alınması üçün birgə yığıncağı olur. Müsəlmanlar tərəfindən Mirzə Nəsrulla Əmirov, Abbasqulu bəy Tahirov, Heydər Əkbərov, Hacı Ələsgər Hüseynov, Bəylər ağa Kəngərlinski, Məşədi Məhəmmədəli Bayramov, Cəfərqulu və Böyük xan Naxçıvanskilər iştirak edirdilər. İclasda Naxçıvan ölkəsində, həmçinin şəhərdə asayişi bərpa etmək üçün Naxçıvan şəhərində bir nəfər müsəlman və bir nəfər erməni polis rəisi təyin edilməsi qərara alınır. Şəhər rəisliyinə Abbasqulu bəy Tahirov, erməni tərəfdən isə Ruben Babaxanov təyin olunur. Lakin Naxçıvan qəzasında, eləcə də şəhərdə ermənilər tərəfindən törədilmiş cinayətlərin qarşısını almaq və asayişi bərpa etmək mümkün olmur. Belə ki, 1918-1920-ci illərdə Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun (Yapon), Doluxanovun və başqalarının başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvan, Şərur-Dərələyəz, Əlincə və Gilançay boyunca 50-dən artıq müsəlman kəndlərini qarət etmiş, əhalini qılıncdan keçirmiş və yandırmışdılar. Naxçıvan qəzasına soxulan Andranik Ozanyanın başçılıq etdiyi 4 min nəfərlik erməni qoşunları Naxçıvandan başlayaraq Zəngəzur və Şuşayadək olan ərazini ələ keçirməyə çalışırdı. Andranikin ilk təcavüzünə Araz çayı kənarında yerləşən Yaycı, Aşağı Aza və Kərimqulu-dizə kəndləri məruz qalmışdır.

Yaycı hadisələri ilə bağlı Nehrəm kənd əhli Tağı Nağdəliyev 14 iyun 1918-ci ildə Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi məktubda yazırdı: «Məlum edirəm ki, Andranikin dəstəsi İrandan, Araz körpüsündən keçərək, Yaycı kəndinə girmiş, həmin kəndin əhalisini qılıncdan keçirərək kəndi tarimar etmişdir. Camaldın və Ərəzin kövşəni

erməni qoşunları ilə dolubdur. Lazımi sərəncam verməkdən ötəri xəbərdar edirəm ki, Nehrəm kəndi qorxu içərisindədir» (173).

Bu təcavüz haqqında 17 avqust 1918-ci il tarixli «Borba» qəzeti isə yazırdı: «...Yaycı kəndi darmadağın edilib, əhalisi isə qılıncdan keçirilmişdir» (174).

Doğrudan da, Yaycı kənd sakinlərini qılıncdan keçirən Andranik Ozanyanın öz qoşunu ilə iyun ayının axırlarında Naxçıvan qəzasında ən çox əhaliyə malik olan Nehrəm kəndini mühasirəyə almışdır. Lakin nehrəmlilər tabor komandiri Kərbəlayi Hacı Muxtar Cəfərzadənin başçılığı ilə qanlı döyüşə girərək erməni quldurlarını kəndə buraxmamışlar, Andranikin qoşunu xeyli tələfatla geri çəkilərək Naxçıvan şəhərinin şimalında hərbi düşərgə qurmuşlar.

Andranikin Naxçıvan şəhərinə yürüşü ilə bağlı 28 iyun 1918-ci ildə erməni məhəllə polis komissarı B.Xalatov Naxçıvan qəza polis komissarlığına gələrək Andranikin Güznütdən Naxçıvana gəlmə xəbərini bildirir. Qəza polis komissarı Məhəmmədəli xan Naxçıvanski və şəhər polis komissarı Abbasqulu bəy Tahirov Naxçıvan qəza milli komitəsinə gedərək verilən xəbəri milli komitəyə bildirirlər.

Həmin gün milli komitənin keçirdiyi iclasında Andranikin qoşununun qarşısını almaq məqsədi ilə şəhərin müdafiəsi naminə səngərlər qurulması barədə sərəncam verilir.

Onu da qeyd etmək lazımdır ki, Naxçıvan şəhərinə yürüş edən Andranikin quldur dəstələri Əlincə çay boyunca olan müsəlman kəndlərinə hücum edərək əhalini tamamilə qırmış, kəndləri yandırmışdır. 1918-ci il iyun ayının axırlarında Xanağa kəndinə hücum edən erməni qoşunları kənd əhalisini bütövlüklə qılıncdan keçirmişlər.

Andranikin Naxçıvan qəzasına təcavüzü yerli ermənilərin fəallaşmasına səbəb olur. Naxçıvan qəzasının bir sıra kəndlərində yerli ermənilər tərəfindən törədilən cinayətlər haqda milli komitəyə, həmçinin polis komissarlığına göndərilən məlumatların sayı, demək olar ki, günü-gündən artır. 1918-ci il iyun ayının 18-də Naxçıvan ikinci mahalın polis komissarı Məşədi Hüseyn Salmanova polis məmuru Məşədi Abbas Zalov tərəfindən yazılmış

məktubda deyilir: «Nurs və Qarbaba ermənilәri tərəfindən Nurs kəndinin sakinlərindən Şəkərli Məşədi Əmir oğlunun, Məhəmməd Allahverən oğlunun, Hüseynəli Heydər oğlu, Bahar Əsgər qızının və Məhərrəm İmanqulu oğlu tutulub Qarababa kəndinə aparılmışdır». Məktubda həmçinin ermənilərin Kolanı və Gecəzur kəndlərindən at və ulaq oğurlayıb apardıqları zaman müqavimət göstrən 14 nəfər müsəlmanın öldürülməsi də qeyd edilmişdir.

Ermənilərin bu cinayətləri ilə bağlı Naxçıvan qəza milli komitəsi həmin gün, yəni 18 iyunda keçirdiyi iclasda milli komitənin sədri Mehdiqulu xan Diyarbəkiri erməni milli komitəsindən əsir aparılmış müsəlman əsirlərinin azad edilməsi və müsəlmanları öldürən erməni cinayətkarlarının tutulub müsəlman milli komitəsinə təhvil verilməsi haqda ultimatum məktubu göndərir. Həmçinin M.Diyarbəkiri qəza və şəhərdə ermənilər tərəfindən törədilən cinayətlərin qarşısının alınması və asayişin bərpa edilməsinə dair qəza və şəhər polis idarəsinə lazımi əmrlər verir.

İclasda milli komitənin sədri M.Diyarbəkiri Naxçıvan qəza polis komissarı Məhəmmədəli xan Naxçıvanskiyə və müavini Qəni bəy Vəzirova, Hacı Xəlil İmanova şəhərdə asayişi bərpa edib güllə atan ermənilərin qabağının alınmasını və polis gözətçilərinin səngərlərdə möhkəm bir surətdə yerlərini tutmalarına dair göstəriş verir.

Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olmasını və silahların yığılıb verilməsini tələb etmişdir. 1918-ci il iyulun 2-də Andranikin Naxçıvan şəhər əhalisinin təslim olması haqqında ultimatumunu Naxçıvanda fəaliyyət göstərən erməni milli komitəsinin sədri Yero Xarazyan təqdim etmiş və 24 saat möhlət vermişdir. Lakin şəhər əhalisi ermənilərə təslim olmayacaqlarını və axıradək vuruşacaqlarını bildirmişlər.

Andranik şəhər əhalisinin təslim olmadığını və silaşı yerə qoymayacağını bildikdə iyul ayının 30-da gecəyarı şəhərə hücum əmri verir. İlk döyüş «Cıdırlı bağ tərəfindən başlayır. Hərbi əməliyyat sahəsi Şərur şosse yolundan Naxçıvan çayının sağ tərəfi, indiki Xətai (keçmiş Sovetabad) kəndini əhatə edir.

Hərbi müdafiə əməliyyatına Kəlbalı xan Naxçıvanski komandanlıq edirdi. Erməni quldur dəstələrinə qarşı döyüşə polis

əməkdaşları ilə bərabər demək olar ki, bütün şəhər əhalisi qalxmışdır.

Onu da qeyd edək ki, erməni daşnaklarının Naxçıvan qəzasına təcavüzü ilə əlaqədar olaraq Kərim xan İrəvanlının başçılığı ilə 1918-ci ilin iyun ayından Naxçıvan şəhərindən Hacı Mehdi Bağırov, İsgəndər Nağıyev, Hacı Xəlil İmanov və Kərbəlayi Abbas Bayramov Türkiyəyə gedərək Məhmət Vehbi Paşadan hərbi qüvvə ilə kömək göstərməyi xahiş etmişdilər.

Bu xahişlə əlaqədar Qara Bəkir paşanın başçılığı ilə 11-ci və Xəlil paşanın başçılığı ilə 9-cu türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət edərək Duzlaq təpələrindən Andranikin düşərgəsini topa tuturlar. Top mərmisi ermənilərin qərargahının yaxınlığına düşəndə Andranik bilmişdir ki, bu türk mərmisidir və əmr vermişdir ki, müharibə dayandırılsın, kazarmalar yandırılsın, Naxçıvan şəhəri tərk edilsin.

Andranik öz quldur dəstəsi ilə Naxçıvan şəhərindən Sirab-Qahab yolu ilə Zəngəzur mahalına çəkilir. Çəkilərkən Sirab, Qaraqala, Zeynəddin və Qahab kəndlərini dağıdıb yandırmış, əhalisini isə qılıncdan keçirmişdir. Andranikin törətdiyi cinayətlər bununla bitmir. Onu Əbrəqunus zonasında Ərəzin, Camaldın, Qızılca, Kırna, Bənəniyar, Saltaq, Noraşen, Xoşkeşin, Xanağa kəndlərinin, Ordubad zonasında Düylün, Gilançay, Üstüpü, Sünbatan-Dizə, Biləv, Behrud, Tivi və s. kəndlərini dağıtmış, əhalini isə vəhşicəsinə qətlə yetirmişdir. Andranikin quldur dəstələri qovulduqdan sonra Türkiyənin 9 və 11-ci diviziyaları 1918-ci il iyul ayının 8-də Naxçıvan şəhərinə daxil olurlar. Şəhər əhalisi türk qoşunlarını toy-bayramla qarşılayır və şəhərdə türk bayrağı qaldırılır. Naxçıvanda Milli Şuranın sədri Cəfərqulu xan, onun oğlu Kəlbalı xan, Rəhim xan, Kamran xan Naxçıvanskilərin, Cabbar ağa Vəzirov və başqalarının səyləri ilə yeni inzibati komitə bərpa olunur.

10 iyul 1918-ci ildə Naxçıvan şəhər bələdiyyə idarəsində keçirilən yığıncaqda Türkiyənin XI alay komandanı Sürəyyə bəy «Vətən və millətçilik haqqında» çıxış edir. Yığıncaqda yeni üsul idarəsi kimi müsəlman milli komitəsi ləğv edilib yerinə bələdiyyə və onun jandarma polis ədliyyə idarələrinin yaradılması haqqında qərar qəbul olunur. Bələdiyyə idarəsinə Cəfərqulu xan Naxçıvanski, ona

müavin Hacı Abdulla Şeyxov və katib Tağı Nağdəliyev təyin edilir. Ədliyyə məhkəməsinə Şeyx Kərim Axundzadə (nazir), Cabbar Kələntərov, Vəliağa Kəngərlinski, Abbasqulu bəy Tahirov və İbrahim ağa Kəngərlinski, polis idarəsinə Məhəmmədəli xan Naxçıvanski, onun müavini Qəni bəy Vəzirovun təyin olunması haqda qərar qəbul edilir. Yeni təşkil olunmuş idarələr həmin gündən öz vəzifələrini icra etməyə başlayırlar (175, s.71-72).

Türk ordusunun köməyi ilə Naxçıvan qəzasının, həmçinin İrəvan quberniyasının müsəlman kəndlərini erməni daşnak qoşunlarının hücumlarından qorumaq üçün yerli milli ordu məqsədə uyğun hesab edilir, hissələrin yaradılması məqsədi ilə Naxçıvan milli komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun əmri ilə Naxçıvan qəzasında 18 yaşından 20 yaşına qədər cavanların orduya cəlb edilməsi işi polis idarəsinin rəisi Məhəmmədəli xan Naxçıvanskiyə tapşırılır. Onun səyi ilə təkcə Naxçıvan qəzasının Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər yerli əsgər toplanaraq orduya cəlb edilir.

Erməni təcavüzkarlarına qarşı Naxçıvan qəzasına gələn türklərin Naxçıvanda Araz-Türk Respublikasının yaradılmasında da böyük xidmətləri olmuşdur. Belə ki, Qəmərli nahiyyəsində Rüşdü bəy tərəfindən elan olunan Araz-Türk Respublikasının bir neçə nümayəndələri oktyabırın 19-da Naxçıvana gələrək bu xəbəri şəhər əhalisinə yetirməklə Naxçıvanda Araz-Türk hökumətinin yaradılması və yerli nazirlərin seçilməsini bildirmişlər.

Həmin hadisənin şahidi olmuş və Naxçıvan müsəlman Milli Komitəsinin katibi işləmiş, həmçinin 1921-ci ildə bir müddət Naxçıvan Daxili İşlər Komissarı olmuş Mirzə Bağır Əliyev özünün «Qanlı günlərimiz» əlyazmasında qeyd edir: «1918-ci il oktyabr ayının 23-də Naxçıvan şəhər Came məsçidində Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun sədirliyi ilə keçirilən iclasın gündəliyində bir çox məsələlərlə yanaşı əsas məsələlərdən biri də Naxçıvanda Araz-Türk Respublikasının yaradılması və Milli Şuranın təşkil olunması məsələsi müzakirə edilmişdir» (176).

Beləliklə, 1918-ci il noyabr ayının 3-də mərkəzi İğdır olmaqla Araz-Türk Respublikası quruldu. Naxçıvan rəsmi paytaxt olmasa da idarəçilik, müdafiə işlərinin əksəriyyəti burada yerləşmişdi (177).

Az sonra mərkəzi Naxçıvana köçən bu hökumətin hüdudları Eçmiədzin, Uluxanlı, Sərdarabad, Qəmərli, Şərur-Dərələyəz, Ordubad, Naxçıvan, Mehri və Sürməli bölgələrini əhatə edirdi (178).

Araz-Türk Respublikası dövründə bir çox nazirliklər yaranmışdı ki, bu nazirliklərdən biri də Daxili İşlər Nazirliyi idi. Daxili İşlər Nazirliyinə Bəhram xan Naxçıvanski təyin edilir. Həmçinin respublika ərazisində polis idarələri və onların sahə şöbələri fəaliyyətə başlayır.

Araz-Türk Respublikası 1919-cu ilin martınadək öz dövrünü başa vurdusa da bu dövlət quruluşu bölgənin qüvvələrini ermənilərə qarşı birləşdirilməsində, ərazinin erməni işğalından qorunmasında əhəmiyyətli rol oynadı (179).

1918-1919-cu illərdəki çox mürəkkəb bir dövrdə yaranmış və fəaliyyət göstərmiş Araz-Türk Respublikasının qısa müddətli fəaliyyəti nəticəsində əldə edilmiş nailiyyətləri təkcə o dövr üçün yox, Naxçıvan bölgəsinin sonrakı taleyi və gələcəyi üçün çox böyük əhəmiyyətə malikdir.

Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Qafqazdan, eləcə də Naxçıvandan çıxarmağa məcbur oldu. Türk qoşunlarının Naxçıvandan çıxarılmasını bütün Azərbaycan ictimaiyyəti kədərlə qarşıladı.

Araz-Türk Respublikasının təzəcə yarandığı bir dövrdə türk qoşunlarının Naxçıvan ərazisindən getmələrindən istifadə edən ermənilər polkovnik Doluxanovun başçılığı ilə güclü silahlı dəstə ilə hərəkətə gəlirlər. Polkovnik İrəvan qəzasına gələn kimi, İrəvan qəzasının müsəlmanlarına müraciət edərək bildirir ki, onlara itaət etsinlər və söz verir ki, müsəlmanlarla dostluq münasibətləri quracaqdır.

Polkovnik Doluxanovun bu vədlərinə inanan Vedibasar rayonunun müsəlman əhalisi onu öz dəstəsi ilə Dəvəli kəndinə buraxırlar. Lakin polkovnik öz sözünə əməl etmir. Onun dəstəsində olan Artus adlı bir şəxs hərbi hissələrlə Vedibasar rayonunun Səid-Kətanlı Xəraba-Kətanlı və Şaharab kəndlərinə hücumlar təşkil edir və yerli müsəlman əhalisini vəhşicəsinə qətlə yetirir.

Ermənilərin bu təcavüzü ilə bağlı İrəvan quberniyasının Vedibasar və Milistan rayonlarının müvəkkili Məhərrəm Əliyev Azər-

baycan Demokratik Respublikası Nazirlər Şurasının sədri F.Xoyskiyə təqdim etdiyi raportunda yazırdı: «....Polkovnik Doluxanovun başçılığı ilə ermənilərin «Vanslar və Sasunlar» adlandırdıqları silahlı dəstələri Vedibasar rayonunun Qaraxaç, Qadalı, Yuxarı Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şahablı kəndlərinə hücum edərək zəbt etmişlər. Ermənilər bu kəndlərdə müsəlmanları qırmamışdan qabaq bir neçə yüz ərli qadınları və qızları əsir aparmış.

Bu qadınların azad olunması üçün İrəvana nümayəndə göndərirlir. Ermənistan hökuməti bu qadınları azad edib öz yerlərinə qaytarmağa söz versələr də verdikləri vədə əməl etmirlər.

Bu məsələ ilə əlaqədar Vedibasar müsəlmanları İngilis hakimiyyət orqanlarına müraciyyət edirlər. Ancaq ingilislər də qadınların azad olunması üçün heç bir köməklik göstərmirlər. Məni buraya göndərən Vedibasar və Milistan rayonlarının müsəlmanları məni müvəkkil ediblər ki, Azərbaycan hökumətindən xahiş edim Ermənistan hökuməti qarşısında məsələ qaldırsın ki, erməni əsgərləri tərəfindən əsir kimi qaçırılmışı azərbaycanlı qadınların qaytarılmısı haqqında qəti və yubanmadan tədbir görsünlər. İkinci, belə bir fərman verilsin ki, İrəvan qəzasının Vedibasar və Melistan rayonları Azərbaycanın ayrılmaz hissəsidir və bura heç kimə güzəştə gedilə bilməz. Üçüncüsü, Ermənistan hökuməti qarşısında məsələ qaldırılsın ki, Avşar, Xalisa, Çıtqıran, Şirazlı, Şahablı, Qadalı, Qaraxaç, Yuxarı Qarabağlar, Dəhnəz, Keşiş daş, Ağasıbəyli, Xaraba-Kətanlı, Seyid-Kətanlı və s. kəndlərin dağılması ilə əlaqədar ziyanı ödəsinlər» (180).

Doğrudan da, Türk qoşunlarının getməsindən az sonra general Doluxanovun komandanlığı altında daşnak qoşunları Şərur qəzasına, mayor Gibbon (Yapon) qoşunu ilə Dərələyəz, Nijde isə qoşunu ilə Zəngəzura hücum edir. Bu zaman Naxçıvan qəzasının Nehrəm, Cəhri, Qaraçuq, Zeynəddin, Ordubad qəzasının Dəstə, Vənənd, Yaycı kəndlərinin, Naxçıvan və Ordubad şəhərinin fəhlə və kənd yoxsullarından ibarət xaíq dəstələri yaradılır.

Ordubad milli komitəsinin sədri Hidayət Seyidzadə 22 dekabr 1918-ci ildə Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi məlumat vərəqəsində yazırdı: «Türklərin Qafqazdan gedişindən sonra bizim vəziyyətimiz əvvəlkindən də pis oldu. Tiflis və Gəncəyə

gedən yollar bağlandı, şəhərin ərzaqla təmin olunması dayandırıldı. Məhz buna görə 500 nəfərdən ibarət dəstəmizi ləğv etdik, yalnız bir rotanı saxladıq. Çatışmamazlıq bizim təşkilatımızı əsaslı şəkildə zəiflətdi, biz kimə tabe olduğumuzu, kimdən göstəriş aldığımızı bilmədik. Naxçıvan qəzasnda və Şərur da müsəlmanlar da belə vəziyyətə düşdülər, məhs buna görə də biz bir müsəlman hökuməti, Araz hökumətini yaratmağı qərara aldıq. Əslində bu hökumət Naxçıvan və Şərur müsəlmanları tərəfindən yaradılmışdır və bizə də bura daxil olmaq təklif olunmuşdur. Biz də Gəncədən xəbərin gəlməsini, həmçinin Araz hökumətinin də eyni istiqamətdə hərəkət etməsini nəzərə alaraq öz razılığımızı bildirdik. Araz hökuməti yenicə yaranıb. Onun hansı formaya düşəcəyi məlum deyil. Son vaxtlar ermənilər yenə də Zəngəzur qəzasına, bizə, yəni Şərura və İrəvan qəzası müsəlmanlarına qarşı düşmənçiliyə başlayıblar. Onlar bizim kəndlərimizə basqın edir, camaatı kütləvi şəkildə qarət edib qırırlar. Zəngəzur qəzasında 20-ə qədər kəndin əhalisi öz doğma yerlərini tərk edib, İrana, Qarabağa və bizə qaçmaqla xilas olublar. Ermənilər çalışırlar ki, Ararat dövləti Türkiyə sərhədlərindən başlayaraq Şuşaya qədər gedib çatsın, həmin yerlərdə isə bir nəfər də olsun müsəlman türkü yaşamasın.

... Andranikin dəstəsi Zəngəzur tərəfdən hücuma hazırlaşır. Belə ağır gündə bizim fəaliyyətimiz barədə düşünməyinizi, bizim üçün hərəkət planı tərtib etməyinizi xahiş edirik. Xahiş edirik ki, kiminlə vuruşduğumuz biz izah edilsin (rəsmi düşmənlə yoxsa quldur dəstəsi ilə)» (181).

Erməni qoşunlarının Şərur tərəfə hərəkət etmə xəbəri Araz-Türk Respublikası hökumətinə çatan kimi, hökumət tərəfindən sərəncam verilir ki, ermənilərin hücumlarının qarşısı alınsın. Həmçinin Şərur qəzasının «Qurd qapısı» adlanan yerində daşnak qoşunlarının qabağını almaq məqsədi ilə Naxçıvanın yerli müdafiyə dəstələri göndərilir. Bu döyüşə rəhbərliyi Məşədi Ələsgər Qasizayev edirdi. Bu arada Araz-Türk Respublikasının hökumət rəhbərləri ermənilərin komandanlığı ilə danışıq aparsalar da heç bir nəticə olmurdu.

İlk qeyri-bərabər vuruşmada Naxçıvan yerli müdafiə dəstələri geri çəkilir. Bu xəbər Araz-Türk hökumətinə çatan kimi polkov-

nik Kəlbalı xan və Daxili işlər Naziri Bəhram xan Naxçıvanskinin başçılığı ilə mütəşəkkil böyük bir dəstə göndərilir.

Həmin vaxt qarşıda qan tökuləsi qırğınların olacağını görən respublika Təbrizə, Vəliəhd şəhzadəyə müraciət edir ki, Tehranla razılaşsın və göndərdikləri nümayəndə vuruşan hər iki tərəfin arasındakı bədbəxtliyi yatıra bilsinlər.

Polkovnik Kəlbalı xan öz hökumətindən aldığı təlimata görə erməni hissələrinin komandanlığına təklif edir ki, Təbrizdən cavab gələnə qədər bu düşmənçilik hərəkəti dayandırılsın. Lakin ermənilər razı olmayıb vuruşmanı davam etdirirlər.

Buna görə də polkovnik Kəlbalı xan dəstəsinə atəş açmaq əmri verir. Çox böyük döyüşdən sonra Baş Noraşendən yuxarıda Zeyvə kəndində düşmən geri oturdulur.

1918-ci ilin dekabırında Ermənistan Respublikası Araz-Türk Respublikasına qarşı geniş miqyaslı təcavüzə başlayır. Yanvarın 3-də «Azərbaycan» qəzeti yazırdı: Daxili İşlər Nazirliyi dekabırın 28-də Cəbrayıldan belə bir teleqram almışdır: «İrəvandan gələn 25 minlik erməni qoşunları Sədərək kəndindən keçərək 8 müsəlman kəndini mühasirəyə alaraq tərkislah etmişlər. Naxçıvan və Şərurun sakinləri İrana keçməyə hazırlaşırlar. Arazı keçərkən 200-dən çox adam həlak olmuşdur. Zəngəzur ermənіləri bizə hücum etmişlər. Hazırda güclü atışma gedir, hara müraciyyət ediriksə kömək yoxdur» (182).

Ermənilərin təcavüzlərinə qarşı Araz-Türk Respublikasının özündə də təcili tədbirlər görülürdü. O günlərdə könüllü xalq dəstələri, taborlar yaradılırdı.

Kərbəlayi Muxtar Cəfərzadənin başçılığı ilə Nehrəm taboru, Kərbəlayi Kərimin başçılıq etdiyi Cəhri taboru, Məmmədrza Allahverdiyevin başçılıq etdiyi Qulubəy-dizə taboru, Naxçıvanda Hüseyn Əliyevin, Ordubadda İbrahim Xəlil Axundovun, Sədərəkdə Həsən Şahverdiyevin və başqalarının rəhbərliyi ilə qırmızı taborlar yaradılır.

1919-cu ilin əvvəllərində daşnak hökumətinin xahişi ilə Naxçıvan ingilislər tərəfindən işğal edilir. İngilislər Əmir bəy hökumətinə qarşı yaxşı münasibət bəsləmir və bu hökuməti Gürcüstanın əlaltısı hesab edirdilər.

Bu məqsədlə də mayor Gibbonun başçılıq etdiyi Böyük Britaniya nümayəndələrinin bir qrupu Naxçıvana gəlir. Mayor Gibbon öz gəlişinin səbəbini qaçqınlar məsələsinin həlli ilə əlaqələndirir. Lakin həqiqətdə onun gəlişinin məqsədi siyasi vəziyyətlə tanış olmaq, Araz-Türk Respublikasının hərbi hissələrinin tərkibi, silahlanması və türklərin bu respublika hökumətinə təsirinin dərəcəsini aydınlaşdırmaq idi.

Naxçıvan ərazisində ingilis general-qubernatorluğunun elan edildiyi gün respublikada daxili vəziyyətin sabitliyinin ciddi surətdə pozulmasına səbəb oldu. Cəfərqulu xanın tərəfdarlarının törətdikləri fitnə-fəsadlar öz bəhrəsini verirdi. Naxçıvan əhalisini erməni təcavüzündən qoruya bilməyən Əmir bəy hökumətinin zəifliyi də elə buna imkan yaradırdı. Cəfərqulu xan və onun ətrafındakılar daşnakların müvəqqəti qələbələrindən bacarıqla istifadə etdilər. Bu hadisələrin nəticəsində Əmir bəy hökuməti süquta uğradı. Naxçıvanda Cəfərqulu xan, Kərim xan, Kəlbalı xan Naxçıvanskilər başda olmaqla yeni hökumət təşkil edilir (183).

Bu hökumət demokratik prinsipləri bir kənara ataraq iri feodal əyanları müdafiə edən kəskin mövqe tutdu. Hakimiyyət başına gələn Cəfərqulu xan öz nümayəndələrini Təbrizə, fars olan Vəliəhd şəhzadənin yanına göndərərək Naxçıvanın İrana birləşdirilməsini rəsmi surətdə xahiş etdi. Şəhzadə bu haqda Tehrana məlumat verdi, lakin eyni zamanda 2 şahzadə və 2 ermənidən ibarət nümayəndə heyyətinin İrəvana səfərini təşkil etdi ki, erməni hökumətinin mövqeyini müəyyənləşdirsin. Son vaxtlara qədər Culfayadək olan bütün ərazini özlərininki hesab edən ermənilər Gürcüstan Respublikası ilə müharibədən, Şərurdakı məğlubiyyətdən və Naxçıvanda ingilis general-qubernatorluğu elan edildikdən sonra demək olar ki, buna razı idilər. Lakin nə qədər ki, ingilislər Naxçıvanda idilər onun İrana verilməsi haqda söhbət də ola bilməzdi.

Naxçıvanda demokratik qüvvələrin məğlubiyyəti ADR rəhbərliyini ciddi surətdə narahat edirdi. 1919-cu ilin axırlarında yerli əhalinin ehtiyacları ilə tanış olmaq məqsədi ilə ADR hökuməti Araz-Türk Rspublikasına İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırov baş-

da olmaqla qrup göndərdi. Naxçıvan səfəri haqqında Mirabbas Mirbağırov öz arayışında yazırdı: «Bütün yolu Bakıdan Naxçıvan 27 günə gəldik (yollar bağlı olduğuna görə). Naxçıvanda bizi çox təntənəli qarşıladılar. Fevralın 20-də, ziyafət zamanı çıxışımda iştirakçılara Azərbaycan hökumətinin naxçıvanlılara kömək etməyə hazır olmasını izah etdim və göstərdim ki, elə bu işlər üçün də bu nümayəndə heyyətini buraya göndəriblər.

....Fevralın 22-də gündüz saat 12-də bizə çatdırdılar ki, ingilis generalı bizi rəsmi görüşdə gözləyir. Mən, polkovnik və generalın yavəri getdik onun qəbuluna. General öz köməkçisi və tərcüməçisi ilə oturmuşdur. Orada eyni zamanda yerli hakimiyyətin sədri Cəfərqulu xan Naxçıvanski və onun oğlu, komandan Kəlbalı xan da var idi. General soruşdu ki, biz nə məqsəd ilə gəlmişik? Ona izah etdik ki, yerli əhalinin arzusu ilə, hərbi işlərin təşkili ilə əlaqədar və Azərbaycanın göstərişi ilə gəlmişik. General cavab verdi ki, ərazi hələ Azərbaycanın tərkibinə daxil deyil və onun kimə məxsus olmağı nəməlumdur. İndi bura İngiltərənin general-qubernatorluğudur. Azərbaycan hökumətinin bura adam göndərməyə ixtiyarı yoxdur. Mən sizə qonaq kimi baxıram, qonaq kimi gəlmisiniz, qonaq kimi də gedə bilərsiniz.

Mən generalın icazəsi ilə danışmağa başladım və bütün Avropa xalqları tərəfindən tanınmış və qəbul edilmiş kiçik xalqların öz taleyini müəyyən etmək prinsiplərini izah etdim və bildirdim ki, yerli əhali, eləcə də bütün müsəlmanlar Azərbaycana hüsnürəğbət bəsləyirlər. General Tomsonun və Corc Kilinin Azərbaycanın dövlətçiliyinə münasibətlərini izah etdim və xahiş etdim ki, ingilislər erməni quldurlarına imkan verməsinlər ki, yerli müsəlmanları qırsınlar (184).

1919-cu il fevral ayının 23-də Naxçıvan Came məsçidində Azərbaycan nümayəndəsi və zabitləri Araz-Türk Respublikası hökumət üzvlərinin iştirakı ilə iclas keçirirlər. Həmin iclasda Bakıdan gələn nümayəndələr 20 fevralda təntənəli ziyafətdə nə barədə danışmışdılarsa, burada da o barədə danışdılar. Xalq onları alqışlarla qarşıladı və yekdilliklə Azərbaycana birləşməsini bildirərək, xahiş etdilər ki, öz məmurlarını göndərsinlər.

İclasda Naxçıvanda siyasi, hərbi, iqtisadi, maddi və mədəniyyət bəndləri üzrə aktlar tərtib olundu. Həmin aktları nümayndələr ilə birlikdə hökumət, milli şura və yerli əhalinin nümayəndələri imzalayır və hökumətin möhürü vurulur. Aktın iki nüsxəsini Naxçıvan nümayəndələrinə, bir nüsxəsini isə Şərur, Zəngibasar və Vedibasar nümayəndələrinə verməklə Azərbaycan hökumətinə çatdırmaq üçün təlimatlandırırlar.

Naxçıvan ölkəsində siyasi hadisələrdən biri də ingilislərin 1919-cu ildə Naxçıvanı «bitərəf zona» etmək və Ermənistana vermək qərarı idi.

1919-cu ilin aprel ayında Ermənistanda ingilis və amerikanların fəaliyyətdə olan ali komissarı Vilyam Haskel Naxçıvanı «bitərəf zona» elan edib daşnak hökumtəinin tabeliyinə verilməsini icra etməyə başlayır və bu məqsəd ilə də Naxçıvana ingilis və erməni qoşunu yeridilir. Ermənistan hökumətinin nümayəndəsi Varşamyan Naxçıvana qubernator təyin edilir.

İngilislərin Naxçıvanı «bitərəf zona» elan edib erməni hökumətinin tabeliyinə verməsi qərarı Naxçıvan əhalisi tərəfindən həyəcanla qarşılanır.

ADR-in Ermənistandakı səlahiyyətli nümayəndəsi (səfir) M.X.Təkinski 29 may 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirinə göndərdiyi teleqramda yazırdı: «Şərur-Naxçıvan rayonları ancaq ingilislərin tələbinə tabe olmuşdur. Kəlbalı xan Naxçıvanski Xatisovun dəvətinə gəlmədi, ərz elədi ki, o Ermənistanı tanımır.

Kəlbalı xan ancaq ingilis generalı Devinin dəvətinə gəldi və burada general Devi ona bildirdi ki, Şərur-Naxçıvan rayonu Ermənistana birləşdirilir. Xan cavab verir ki, o ancaq ingilislərin tələbi ilə hesablaşır. Müsəlmanlar erməniləri baykot edirlər və inzibati yerləri zəbt etmək haqqında təklifi rədd edirlər. Diplomatik nümayəndə M.X.Təkinski» (185).

Bu teleqram isə 17 iyun 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirinin müavini tərəfindən Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskiyə göndərilən teleqramdır. Həmin teleqramda yazılır: «Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı və Ordubad rayonlarında mövcud vəziyyət barədə təcili xəbər verin. Culfa kimin əlindədir? Vedibasar ölkə komitəsinin

rəhbərləri Xəlil ağa Hacıları və Abbasəli ağa Şabanskinin azad olunmasına təsirli kömək edin» (186).

M.X.Təkinski bu teleqrama cavab olaraq 21 iyun 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda yazırdı: «Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı rayonları erməni qoşunları tərəfindən zəbt edilmişdir və orada Ermənistan hökuməti yaradılmışdır. Naxçıvanın Milli Şurası məndən xahiş edir ki, ittifaq komandanlığına çatdırım ki, ingilis generalı Devi və Xatisovun vədlərinə baxmayaraq Ermənistan hökuməti burada yaşayan müsəlmanları talan edir, axtarış aparır, əllərinə nə keçir (silah, mebel, dirək, taxta və başqa şeylər) daşıyıb aparırlar. Naxçıvan Milli Şurası xahiş edir ki, ittifaq komandanlığı bu qanunsuz hərəkətləri dayandırsın. Culfa da ermənilərin əlindlədir. Siz Naxçıvan Milli Şurasının xahişini yerinə yetirməyi mümkün bilirsinizmi? Ordubadlılar hələ ermənilərı Ordubada buraxmayıblar. Bu bərədə ordubadlılar 10 gün bündan əvvəl ermənilərə açıq bəyanat vermişlər. Müsəlman qoşunları buraxılıb. Ancaq 300 nəfərdən ibarət bir dəstə qalıb. Diplomatik nümayəndə M.X.Təkinski» (187).

Doğrudan da, ingilislərin Naxçıvanda yaratdıqları ingilis-daşnak hərbi hökuməti əhalinin milli mənliyini təhqir edir, qabaqcıl, mütərəqqi adamları, hərbi rəisləri, bir çox demokratik fikirli adamları həbs edərək Aleksandropola (Leninokana), Sevana sürgün edir, bir çoxu isə mühakiməsiz cəzalandırılırlar.

İngilis-erməni daşnak təcavüzkarlarının törətdikləri bu cinayətlərə qarşı 1919-cu il iyun ayının axırlarında Naxçıvan şəhərində və Şərur qəzasında üsyan baş verir. Üsyan demək olar ki, butun Naxçıvan qəzasını bürüyür.

İngilislərin Naxçıvanda yaratmış olduğu qubernator Varşamyan başda olmaqla erməni daşnak hərbi hökuməti qovulur. Naxçıvanda və Şərurda duran qarnizonlar pərakəndə surətdə Naxçıvan ölkəsini tərk edib qaçır.

Varşamyanın Naxçıvanda qubernator olduğu qısa bir dövrdə Naxçıvanda Araz-Türk Respublikasının bir sıra inzibati orqanları, o cümlədən Daxili İşlər Nazirliyi və polis idarələrinin, məntəqələrinin fəaliyyəti demək olar ki, dayandırılmışdır. Varşamyan ingilislərin köməyi ilə Naxçıvan qəzasında öz adamlarından,

yəni ermənilərdən ibarət polis şöbələri təşkil etmişdi. Məhz yuxarıda qeyd etdiyimiz kimi bu polis və hərbçilərin səyi ilə Naxçıvan qəzasında böyük talanlar və həbslər etmişdi. Əldə olan bir sənəd bunu bir daha sübut edir.

Sənəd Varşamyan tərəfindən Naxçıvan əyalət polis komissarı təyin edilmiş Çilingərovun 1919-cu ilin iyun ayında Ermənistan Daxili İşlər Nazirliyinə göndərdiyi məruzə xarakterli şikayət məktubudur. Sənədi oxucularımıza olduğu kimi çatdırmağı lazım bildik: «Cənab Ermənistan Daxili İşlər Nazirinə Naxçıvan əyalət polis komissarı Çilingərov tərəfindən məruzə: Qubernator Varşamyan Naxçıvan şəhərində olarkən əyalət komissarı kimi məni fəaliyyətim həmin şəraitdə və maddi vəziyyətdə mümkün olan qədər müvəffəqiyyətlə və məsuldarlıqla davam edirdi. Belə bir münbit şərait ondan irəli gəlirdi ki, cənab Varşamyan əyalət komissarının işinə qarışmırdı. Varşamyan İrəvana getdikdən və xüsusi tapşırıqlar üzrə məmur podporuçik Məclumov qubernator səlahiyyətlərini həyata keçirməyə başladıqdan sonra vəziyyət kəskin surətdə dəyişdi. Əyalətdə o qədər də tanınmayan, əhaliyə yüksək dövlət nüfuzu aşılamağı bacarmayan, bəsirətsiz kabinet işçisi, nə nazirlik, nə də ki, vilayət rəhbərliyi tərəfindən bu vəzifəyə təklif edilməmiş bu adam fırıldaqçı təsuratı yaradır. Onun iş üsulu bir tərəfdən günün tələblərinə cavab vermək üçün acizanə müvəffəqiyyətsiz cəhdlər göstərməkdən, digər tərəfdən isə ayrı-ayrı vəzifəli şəxslərə müsbət və mənfi münasibət göstərməklə onların arasına nifaq salmaqdan ibarətdir. Naxçıvan əyalətində baş vermiş yenilikləri və çətinlikləri nəzərə alaraq inzibati aparatın fəaliyyətini qaydaya salmaq əvəzinə o, tabeçiliyin elementar əsaslarını pozaraq mənim başımın üstündən bilavasitə göstərişlər verir və beləliklə də bir sıra anlaşılmazlıqlar yaradır ki, onları da mən aradan qaldırmalı oluram. O, qətillər baş vermiş yerlərə şəxsən gedib hadisəni araşdırmaq üçün əyalət milisinin rəisi və verdiyim əmrləri ləğv etməkdən belə çəkinməyərək həmin yerlərə rəis müavinlərini göndərir. Onlar isə bu işlərdə acizlik göstərir və beləliklə də bu yerlərin əhalisində Ermənistan hökumətinin idarəetmə qabiliyyətin və nüfuzuna inamsızlıq münasibəti yaradır. İdarəçiliyin ən ağrılı yerlərindən biri maliyyə məsələsidir. Quber-

nator vəzifəsini müvəqqəti icar edən Məclumov bu məsələni çox sadə həll edərək mənim başımın üstündən həmin milis rəisinə böyük məbləğdə avans verir. O isə bir yerdə götürsək, on min manatlarla pul alaraq Naxçıvanda baş vermiş hadisəlıərdən istifadə edib dəqiq hesabat verməmişdir. Bunun nəticəsində də indi milis nəfərinə məvacib verilməsinə və təsərrüfat xərclərində çoxlu sui-istifadə halları aşkar edilib. Xalq malına belə etinasız münasibət göstərilməsinin məsuliyyəti əlbətdə ki, podporuçik Məclumovun üzərinə düşür. Çünki avans verilərkən hesabata alınması zəruri idi. Podporuçik Məclumov belə pərakəndəliyi və qeyri ardıcıl hərəkətləri daha böyük məsələlərin həllində mənim qarşımda maneələr yaradır.

Xalqla bilavasitə təmasda iki xalq arasında milli münasibətlərin kəskinləşdiyini müşahidə etdiyimə və hər dəqiqə milli partlayış baş verəcəyini nəzərə alaraq mən gizli surətdə əldə olan silahların sayını və əhalinin silahlanma dərəcəsini aydınlaşdıraraq müsəlman əhalisini silahlı hadisələr yaratmaq sahəsindəki işini iflic etmək üçün plan hazırlayıb podporuçik Məclumova təqdim etdim. Lakin onun qətiyyətsizliyi və ya müsəlman əhalisinə tez inanmağı nəticəsində o mənim mülahizələrimi yuxarı rəhbərliyə bildirmədən «bu çox riskli işdir» deyə məsələyə son qoydu.

Həmin mülahizələr Naxçıvan dəstəsinin qərargah rəisinə bildirilsə də o bu fikri rədd etdi. Bundan sonra hadisələrin baş verməsini gözləmək məcburiyyətində qaldım.

Naxçıvıanda döyüşlər başlayarkən mən bir zabit kimi daha fəal surətdə xeyirli olmaq arzusu ilə dəstənin rəisinə öz xidmətimi təklif etdim. Bir neçə əlavə əməliyyatlar keçirməyin zəruri olduğunu bildirsəm də canlı qüvvə və patron olmaması üzündən mənim təkliflərimi rədd etdilər. Sülh danışıqları başlayarkən mən müsəlmanların dostluq niyyətlərinin saxta olması barədə podporuçik Məclumova inandırıcı sübutlar gətirdim, lakin bu sübutlar səhrada haray səsi kimi nəticəsiz qaldı. O, inzibati idarənin nümayəndəsi kimi 4 dəfə sülh danışıqları aparan nümayəndə heyətinə başçılıq etsə də hər dəfə özünün şəxsi mülahizəsi və fikri olmadığını nümayiş etdirdi. Cənab Şilkovnikovun dəstəsinin Naxçıvandan geri çəkilməsi planında baş dəstənin qaçqınlarla birlikdə

Süst və Cəhri kəndləri arasındakı istiqamətlərdə hərəkət etməsi, onun sağ və sol kalonlarda təchiz edilməsi nəzərdə tutulmağına baxmayaraq, yolda bu plan dəyişdirilmiş və bu bərədə baş dəstəyə xəbərdarlıq edilməmişdir. Bunun nəticəsinqdə Cəhri kəndində tatarlar yolu kəsməyə cəhd göstərmiş və yalnız mənim silahlı əməliyyata bilavasitə rəhbərlik etməyim sayəsində qaçqınları aradan çıxarmaq mümkün olmuşdur. Lakin buna baxmayaraq qaçqınların dörddə bir hissəsi tutulub məhv edilmişdir.

Əznəbürd kəndinə podporuçik Məclumov bəzi milis nəfərinin özbaşına tutuduqları mövqelərini tərk etmələrini bəhanə edərək onların şəxsi atlarını əllərindən alıb dövlət atları ilə birlikdə öz idarəsinin vəzifəli şəxslərinə vermiş və beləliklə dolayısı yolla milisləri represiya etmiş və bunun nəticəsində milislər dağılıb getmişlər. Məclumovun əmri ilə kəndlərdə ordunun ehtiyacı üçün yük heyvanları məcburi surətdə yığılmağa başlanmış, lakin onlardan zabitlər öz ailələrini və əmlaklarını daşımaq üçün istifadə etmiş, qaçqınlar isə öz əmlaklarını və uşaqlarını ataraq piyada getməyə məcbur olmuşlar.

Horadiz kəndində o mənə və sahə komissarına əmr etdi ki, onun icazəsi olmadan heç bir göstəriş verməyək, ictimai və kənd komissarlarına isə əmr etdi ki, yalnız onun bilavasitə göstərişlərini yerinə yetirsinlər. Bununla yanaşı o məndən təkidlə tələb edirdi ki, ordu üçün əhalidən gərək tədarük toplayım.

Geriyə çəkilmək nəticəsində mənim ixtiyarımda əyalətdə olan Baş kənd, Almalı, Sultanbəyli, Sers, Horadiz və Alxac kəndləri qalmışdı və mənim rolum ictimai komissarın rolu ilə bərabərlənmişdir. Bu zaman mən fəaliyyətsizlik göstərməyin cinayət olduğunu və vətənin təəssübkeşliyini çəkərək bütün əmlakımı və vəsaitimi itirdiyimə, üç ay ərzində heç bir məvacib almadığım üçün büsbütün vəsaitsiz qaldığıma görə dəfələrlə podporuçik Məclumovdan xahiş etdim ki, işlərin gedişi və mənim bundan sonrakı vəziyyətim barədə ətraflı məruzə etmək üçün İrəvana gedim. Həmçinin xahiş etdim ki, qalan kəndlərin əvvəllər Dərələyəz əyalətinə daxil olduqlarını nəzərə alaraq onları Dərələyəz komissarlığının tabeliyinə versinlər. Lakin o bunun hüquqi olmadığını bildirərək mənim xahişimi rədd etdi.

Tezliklə o yeni polis rəisini və qalan polisləri bilavasitə öz sərəncamına götürərək məni polissiz, ancaq sahə komissarı, katibi və dəvtərxana işçisi ilə qoyaraq mənə intendanta aid olan yeni bir vəzifə verib Keşişkəndə (Dərələyəz qəzası) getdi. Mən çıxılmaz vəziyyətdə olduğuma heç bir vəsaitim olmadığına və xəstəliyimlə əlaqədar olaraq Keşişkənddən getdim. Şelkovnikovun razılığı ilə yuxarıda qeyd olunan beş kəndi Dərələyəz komissarına təhvil verdim. İctimai komissarları həmin kəndləri də qoyub Sizə bilavasitə məruzə etmək məqsədi ilə İrəvana getmək üçün Qaranluq kəndinə yollandım. Qaranluq kəndində olarkən Keşişkənddən sərəncam aldım ki, səfərbərliyə alınmış bir şəxs kimi Keşişkəndə qayıdım. Cənab Şelkovnikovun yanına gəldikdən sonra öyrəndim ki, onun bu işdən xəbəri yoxdur və bu bir anlaşılmazlığın nəticəsidir. Hazırlaşıb getmək istəyərkən mən ikinci dəfə generalın yanına çağırıldım və gördüm ki, Məclumovda ordadır. Mənə geniral adından yazılı sərəncam verdilər ki, mən Məclumov tərəfindən əyalət komissarı vəzifəsindən kənarlaşdırıldığıma görə bir zabit kimi səfərbərliyə alınaraq Səlim aşırımına mühafizə rəisi təyin olunmuşam. Müvəqqəti olaraq qubernator vəzifəsini icra edənin məni yalnız Daxili İşlər Nazirliyi tərəfindən vəzifəyə təyin olunanı vəzifədən kənarlaşdırmağa səlahiyyəti olmamasına dair bütün etirazlarıma baxmayaraq general cavab verdi ki, sənin vəzifəndən azad olunmağına dair Məclumovun rəsmi təqdimatı var, qalan məsələlərin ona aidiyyatı yoxdur. Qeyd olunan sərəncamda mən təyinat yerinə (Səlim aşırımına) getdim və əmri dəqiqnliyi ilə yerinə yetirdim. Özüm postda qaldım və ətraflı hesabatda, bir daha Məclumov tərəfindən yol verilmiş qanunsuzluqlar, düzgün olamyan hərəkətlər və hərbi nazirin köməkçisi Dronun teleqramına etinasızlıq göstərilməsinə dair faktları göstərdim. Həmin teleqrama görə inzibatı vəzifədən çıxdığım təqdirdə sərhədçi briqadasının bölmə komandiri sərəncamına keçməliyəm. Nəticədə mən vəzifədə qalaraq generalın sonrakı qanunsuz əmrlərini yerinə yetirməkdən qəti surətdə imtina etdim. Bu raportu göndərdikdən üç gün sonra milis rəisi məni Keşişkəndə aparmaq üçün Qaranluxa gəldi...Keşişkəndə gəldikdən sonra general həbs olunduğumu

elan edərək mənim silahımın alınması və İrəvana, Dronun sərəncamına göndərilməyimə dair göstəriş verdi. Özü də nizamnaməyə zidd olaraq məni müşayət etməyə podporuçik təyin olundu.

Bu münaqişələr mənim İrəvana köməyimə maraq göstərən və mənimlə kəskin münasibətdə olan podporuçik Məclumovun fitnələrinin nəticəsi idi. Yol verilmiş çoxlu qanunsuzluqlardan biri də o idi ki, səfərbərlik Naxçıvan şəhərinin sahə komissarlarına, qubernatorun katibi Hartyunova və xüsusi tapşırıqlar üzrə podporuçik Orbelyana şamil olunmurdu.

Yeni Bəyazidə gəldikdən sonra hələ Horadiz kəndində olarkən məndə başlamış xəstəlik dah da kəskinləşmişdir və mən yatağa düşərək yoluna davam etdirmək imkanından məhrum oldum. Bir neçə gündən sorra general Şelkovnikov oraya gələrək Daxildi İşlər Nazirliyinin cari ilin 3 iyun tarixli 2359 saylı əmri ilə tanış olduqdan sonra, hansı ki, həmin əmrə əsasən podporuçik Məclumovun məni əyalət komissarı vəzifəsindən çıxarmağa ixtiyarı yox idi, mənə tam azadlıq kağızı verdi ki, onun da surətini bu məruzə ilə birlikdə Sizə göndərirəm.

Onu da nəzərinizə çatıdırıram ki, general Şelkovnikov hal hazırda İrəvandadır və mənim məruzəmin haqlı olduğunu təsdiqləyə bilər.

Naxçıvan əyalət komissarı: /İmza/ Çilingərov».

İngilislər tərəfindən Naxçıvanda yaradılan, başda Varşamyan olmaqla erməni daşnak hökuməti ləğv edilsə də Naxçıvan ölkəsinin müqəddaratı məsələsi yenidən ingilis-amerikan müstəmləkəçiləri tərəfindən karta qoyulur. 1919-cu il avqust ayının 29-da müttəfiqlərin Paris sülh konfransının təyin etdiyi Zaqafqaziya Ali Komissarı Vilyam Haskel Bakıya gələrək Yol Nəqliyyatı Naziri Miryusif Cəfərovu və başqalarını qəbul edir.

Vilyam Haskel birinci söhbətində bəyan edir ki, Naxçıvan və Şərur-Dərələyəz rayonları «bitərəf zona» elan olunmalıdır. O zonaların başında avropalı, yaxud Amerika qubernatoru durmaqla ora seçkili şəxslər vasitəsi ilə əhali tərəfindən idarə olunmalıdır.

Söhbət zamanı Naxçıvanın bitərəf zona olunması haqqında Azərbaycan hökümətinin 29 avqust 1919-cu il tarixli 12 maddədən ibarət müqavilə layihəsi polkovnik Vilyam Haskelə təqdim edilir.

Bu görüş və danışıqlardan 3 gün sonra Vilyam Haskel 1 sentyabr 1919-cu ildə özünün tərtib etdiyi Naxçıvanın bitərəf zona elanı barəsində 20 maddədən ibarət layihəsini məktubla həm Tiflisdəki İttifaq Ali Komissarlığının bürosuna, həm də Azərbaycan Nazirlər Sovetinin sədri Nəsib bəy Yusifbəyliyə göndərir.

V.Haskel məktubunda yazır. «Sizin təvəqqənizə əsasən Naxçıvan, Şərur-Dərələyəz qəzasının bitərəf zona olunmasına dair şərtləri və eləcə də 29 avqust 1919-cu ildə cümə günü Bakıda Sizinlə keçirilən konfransda bitərəf zona barədə öz fikrimi sizə göndərirəm».

Bu layihədən sonra Vilyam Haskel 27 sentyabr 1919-cu ildə 12 maddədən ibarət ikinci bir layihə göndərmişdi ki, bu layihə də birinci layihəninin ümumiləşdirilmiş maddələri idi.

V.Haskelin Naxçıvan və Şərur-Dərələyəz qəzalarının «bitərəf zona» elan edilməsi haqqında göndərdiyi layihə Azərbaycan Nazirlər Şurasında baxılmış və müzakirə olunduqdan sonra Azərbaycan Respublikasının Xarici İşlər Naziri Miryusif Cəfərov tərəfindən 29 sentyabr 1919-cu ildə belə bir teleqram ilə cavab verilmişdir: «Zaqafqaziya Ali Komissarı V.Haskelə. Mənim hökumətim İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan qəzaları ərazisində xüsusi general-qubernatorluq yaradılmasının heç bir vəclə əleyhinə deyil. Lakin təklif olunan şərtlərin bəzi maddələrinə etiraz vardır ki, o barədə Sizə əlavə olaraq məlumat verəcəyəm» (188).

M.Y.Cəfərovun teleqramına cavab olaraq 1919-cu ildə V.Haskel göndərdiyi teleqramda yazır: «Sizin sentyabr ayının 29-da vurduğunuz teleqrama istinad edərək bildirirəm ki, bitərəf zonada Amerikanın rəhbərlik etməsi üçün şərtləri imzalamağda sülh konfransı Azərbaycanın hüququnu saymır və heç bir tənqid burada müəyyənləşmiş şərtləri dəyişə bilməz. Bitərəf zona yaradılacaq. Ona Şərur və Naxçıvan dairələri daxil olacaq. Tanış olmaq məqsədi ilə şərtlər Sizə göndəriləcək. Ancaq sülh və qayda-qanun yaradılması siyasəti ilə Sizin hökumət Amerika qubernatorunu müdafiə edəcəkmi və razılaşacaqmı?

Mən sizin təcili teleqramınızı gözləyirəm. Çünki bu günlərdə mən Parisə gedəcəyəm ki, mübaisəli qəzaların Sizə məxsus

olmasını təqdim edim. Mən bu niyyətdəyəm ki, Sizin hökumətiniz bu müvəqqəti sazişi müdafiə edəcəkdir» (189).

Azərbaycan Respublikasının bitərəf zona haqqında təqdim etdiyi layihə ilə Vilyam Haskelin layihəsində olan maddələrdə çox fərqlər var idi.

Müttəfiqlərin Naxçıvan və Şərur-Dərələyəz qəzalarının bitərəf zona elan olunması qərarı Naxçıvan əhalisi tərəfindən çox həyacanla qarşılanır. Əli Səbri Qasımov səlahiyyətli nümayəndə kimi Zaqafqaziya Ali Komissarı Vilyam Haskelin yanına göndərilir. Əli Səbri Qasımov Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarının əhalisi adından polkovnik V.Haskelə demişdir: «Bizə çatan məlumata görə Siz ilə Azərbaycan hökumətinin baş naziri arasında Sürməli, Milistan, Vedibasar, Şərur, Naxçıvan və Ordubad qəzalarının taleyi üzrə danışıqlar aparılmış və müqavilə bağlanmışdır. Bu rayonlarda əhalinin əksəriyyəti azərbaycanlı-türk olmasını nəzərə alaraq xahiş edirik ki, hər bir xalqın öz müqəddəratı prinsipinə əsaslanıb Sizə təqdim etdiyimiz memorandum aktının on maddəsi danışıqların əsası olsun.

1. Təyin müqəddarat hüququna görə Sürməli, Milistan, Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonları özlərini Azərbaycanın bir hissəi hesab edirlər.

2. Öz gücü ilə vəziyyətini müvəqqəti yaxşılaşdırmış, iztirabdan qurtarmış əhali özünün mənəvi hüquqi cəhətinə əsaslanaraq Azərbaycan hökumətindən və eləcə də müttəfiqlərin ali komissarından tələb edir ki, bu rayonlar tabe vəziyyətində qalmasın (özü-özünü idarə etsin-F.C.).

3. Azərbaycan hökuməti və cənab ali komisar Naxçıvanı başqalarına tabe etdirmək fikrindədirlərsə, bu zaman quldur dəstələr tərəfindən günü-gündən sıxışdırılan əhali namussuzluqla ölməkdənsə, namusla, əldə silah ölmək hüququnu özündə saxlayır».

Memarandumun qalan maddələri isə azərbaycan-erməni əhalisinin dostluğunun bərpası, hər xalqın müqaddəratının toxunulmaz sayılması, seçkili şəxslərdən ibarət idarə üsul forması, Azərbaycan ilə möhkəm dövlət rabitəsinin yaradılması, poçt, teleqraf, maliyə və s. vəzifələrin həyata keçirilməsinə təyin olunan amerikalı ali komissarın ədalətli nəzarətindən bəhs edir.

Müttəfiqlərin ali komissarı V.Haskel qarşısında qoyulan memarandumda əhalinin başlıca tələbi bundan ibarət idi ki, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını heç bir qüvvə doğma Azərbaycandan ayıra bılməz. Memarandumun sonunda deyilirdi: «Əhali əmindir ki, Azərbaycan, eləcə də müttəfiqləri Sürməli, Vedibasar, Melistan, Şərur, Dərələyəz, Naxçıvan və Ordubad rayonlarının əhalisinin qanı bahasına aldığı azadlıq hüququna toxunulmayacaq».

Memarandum (diplomatik sənəd): Naxçıvan, Şərur, Sürməli, Vedibasar, Milistan əhalisin adından Əli Səbri Qasımov, Z.Məmmədov, G.Əsgərov və başqaları tərəfindən imzalanaraq ali komissar V.Haskelə təqdim edilir.

V.Haskelin qarşısında qoyulan tələblərə biganə qaldığını görən Əli Səbri Qasımov demişdir: «Biz bu və ya digər hökumət tabelityini qəbul etməyəcəyik. Təyin müqəddərat istəyirik, buna bizim haqqımız var. Biz bunu kimsəyə güzəştə getməyəcəyik, belə bir halda mənim xalqım memarandumda xatırlatdığı kimi, özünü haqlı bilir ki, əldə silah namusla ölsün. Xalq öz gücü ilə azadlıq əldə edib və qəsbkarları qovmuşdur. Özünə azadlıq əldə edən xalq hətta doğma Azərbaycan hökumətinə də ixtiyar vermir ki, onun xəbəri olmadan onun taleyini həll etsin» (190).

Azərbaycan Respublikası ilə Zaqafqaziya Ali Komissarı Vilyam Haskel arasında Naxçıvan əhalisinin razılığı olmadan bağlanmış saziş demək olar ki, kağız üzərində qaldı.

Ali komissar V.Haskelin tapşırığı ilə danışıq hökumətin baş naziri Xatisov və Naxçıvana general-qubernator təyin olunan Amerika ordu mühəndisi Edmond Devi Naxçıvana gəlib bağlanan sazişi həyata keçirməyə çalışırlar.

Bu münasibətlə təşkil olunan Naxçıvan ümumi şəhər yığıncağında əhalinin adından çıxış edən Hacı Həsənli Qurbanov tərcüməçi vasitəsi ilə müttəfiqlərin general-qubernatoru Edmond Deviyə çatdırır: «Biz ingilis hökumətinin qərarı ilə razılaşmayacağıq. Naxçıvan ölkəsini hər cür təcavüzkarlardan al qanımızla müdafiə edəcəyik» (191).

Natiqin sözlərinin tərcüməçi tərəfindən təhrif olunduğunu görən gimnazist Novruz Musayev onu xitabət kürsüsündən salıb

natiqin sözlərini ingilis dilinə olduğu kimi tərcümə edir. Bunu eşidən qubernator özünü itirir, çıxılmaz vəziyyətdə qalır.

Arxivdə saxlanılan başqa bir sənəddə göstərilir: «...Naxçıvan xalqı faktiki surətdə amerikalı qubernator polkovnik E.Devinin bitərəf zonada təyin olunduğu vəzifəni icra etməyə buraxmadılar. O Naxçıvanda heç bir hakimiyyətə malik olmadığından sadəcə nümayəndə kimi qaldı» (192).

Sənəddə göstərildiyi kimi Naxçıvan əhalisi Azərbaycan hökumətinin müvəffəqiyyətlə başladığı sazişə əhəmiyyət verməyib təcavüzkarlara qarşı mübarizəni davam etdirərək Devi hökumətini tamamilə fəaliyyətsizləşdirir.

1919-cu ilin axırlarından başlayaraq 1920-ci ilin iyul ayına kimi erməni daşnak qoşunları, demək olar ki, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad qəzalarının bir çox kəndlərinə təcavüz məqsədi ilə hücum etmiş, bəzi kənd və qəzaları qarət edərək yandırmış, müsəlman əhalisinin bir qismini qətlə yetirmiş, əhalinin bir qismi isə öz yurdlarını, ocaqlarını tərk edərək vuruşa-vuruşa geri çəkilməyə məcbur olmuşdur.

Göründüyü kimi qaçqın düşmüş bəzi kənd sakinləri öz kəndlərinə qayıtdıqdan sonra ermənilər tərəfindən qılıncdan keçirilərək məhv edilmişdir.

Arxivdə araşdırdığımız bir neçə sənəd bunu bir daha sübut edir. Məsələn, Abbasqulu bəy Şadlinskinin 7 yanvar 1919-cu ildə Böyük Vedidən Naxçıvana general qubernatora teleqramına nəzarət yetirək. Bağlanmış sülh müqaviləsinə inanaraq qaçqınlar öz yurdlarına köçdülər. Ancaq ermənilərin orada yerləşən nizami qoşun hissələri tərəfindən onlar kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti Sizə çatdırıram» (193).

Bu teleqram isə Vedibasar təşkilatının komandanı Hacı Təhmasib Şadlinskinin hərbi komandan (nazir) Kəlbalı xan Naxçıvanskiyə 9 yanvar 1920-ci il tarixdə Böyük Vedidən vurulan teleqramdır. Teleqramda yazılır: «Bu gün dördüncü gündür ki, erməni gözətçiləri çöldə otarılan mal-qaraya hər gün atəş açırlar, eyni zamanda Böyük-Vedi tərəfdən yoldan keçən və gözə görünən adamları da atəşə tuturlar. Bu vəziyyəti çatdırmaqla

xahiş edirəm ki, məsləhət verəsiniz ki, biz nə edək və eyni zamanda Sizdən asılı nə varsa hüququnuzla sərəncam verəsiniz».

1920-ci ilin mart ayından başlayaraq erməni daşnak hökuməti Vedi, Cüvə və Yaycıdan tutmuş Ordubadadək işğal etməyə çalışmış, Zəngəzur və Dağlıq Qarabağı Ermənistan ilə birləşdirmək üçün intensiv surətdə hərbi hazırlıq işləri aparmışlar.

Dro, Nijde və başqa liderlərinin səyi nəticəsində sərhəd zonalarında 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplanılır.

1920-ci il mart ayının 21-də Novruz bayramının birinci günündə 1000 nəfərdən ibarət olan erməni silahlı dəstələri Ordubad qəzasının Düylün, Vənənd, Vələver, Xanağa, Beksar, Ağrı, Gənzə, Anabad, Əylis, Kilit, Kotam, Dizə, Unus və s. kəndlərə hücum edərək qarət etmiş, əhalinin çox hissəsini qətlə yetirmiş və Ordubad şəhərini mühasirəyə almışdır. Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən də çox itkilər olmuşdur. Ordubadda bir neçə bina yandırılmışdır. Lakin ermənilər şəhərə girə bilməmişdilər.

Ümumiyyətlə,1918-1920-ci illərdə ermənilər tərəfindən İrəvan quberniyasında 220-dən çox, Zəngəzur qəzasında 200.000-dən çox və Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında 80.000-dən çox azərbaycanlıya qarşı vəhşicəsinə soyqırım etmişlər (194).

1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyətinin qurulması erməni daşnak hökumətinin planların dəyişdi. Əsas qüvvə Naxçıvan tərəfə toplandı.

Böyük miqyasda hərbi hazırlıq aparan ermənilər 1920-ci ilin iyun ayında bütün qüvvələrini Vedi və Şərur istiqamətinə yönəldir. Çox gərgin, qanlı vuruşmalar nəticəsində iyunun axırlarında Cüvə və Vedi müdafiəsini yararaq ermənilər Şərura hücum etdilər. 1920-ci il iyul ayının əvvələlərində Sədərək kəndi və Şərur işğal edilir. Naxçıvan özünümüdafiə dəstələri Yurtçu ilə Şahtaxtı arası təpələrdə istehkamlar yaradıb müdafiə xətti düzəldirlər.

Onu da qeyd edək ki, Abbasqulu bəy Şadlinskinin başçılığı altında qəhrəman Vedi əhalisi gərgin vuruşmalardan sonra kəndi tərk edib Şərur torpağına çəkilmiş, Şərur, Sədərək və Naxçıvan zəhmətkeşlərinin əsas hissəsi ilə birləşib vuruşa-vuruşa

gəri çəkilərək Araz çayını keçib İranın Mərənd şəhəri ətrafında məskən salmışdılar.

XI Rus ordusunun 28-ci diviziyasının 1-ci və 2-ci atlı polkları Gorusdan, Batabatdan və Biçənək aşırımından, Şahbuzdan, Cəhridən keçərək 28 iyul 1920-ci ildə Naxçıvana daxil olması, Naxçıvanda Sovet hakimiyyətinin qurulması və Naxçıvanda İnqilab Komitəsinin yaradılmasından sonra A. Şadlinskinin təşkil etdiyi «Qırmızı tabor» və «Naxçıvan polku»nun qəhrəman döyüşçülərinin apardıqları mübarizə nəticəsində 1920-ci ilin noyabr ayının axırları və dekabrın əvvəllərində Naxçıvan, Şərur və Ordubad qəzaları erməni daşnaklarından demək olar ki, tamamilə təmizlənir.

Onu da qeyd edək ki, 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə polisdə işləmiş Bəhram xan Naxçıvanski, Abbasqulu Tahirov, Məmmədəli xan Naxçıvanski (Naxçıvan qəza polis komissarı), Məşədi Hüseyn Salmanov, Məşədi Abdul Zalov, Qəni bəy Vəzirov, Hacı Xəlil İmanov, Qasım Hüseyenov, Kərbəlayi Abbas Bayramov, Mirəli Seyidov, İmaməli Rzayev, İbarhim bəy Rüstəmov, MəmmədxanBayram oğlu, Rzaqulu Abdulla oğlu, Abbasbəy Allahverdibəyov, Mehrəli Mirəli oğlu və başqalarının, həmçinin «Qırmızı taboçular»da, Hüseyn və , Rəcəbalı Əliyevin, Heydərqulu Həsənovun, Həsən Şahverdiyevin, Abbasqulu vəy Şadlinskinin, Qasım Hüseynovun (polis), Əkbər Sadiqovun, İbrahim Fərzəliyevin, Yusif Salayevin, Həsən Əliyevin, Əli Əhmədovun, Hüseynqulu Məmmədovun, Mirbağır Mirheydərzadənin, Cabbar Hüseynovun, Cəlal Məmmədovun, Kərbalayi Qasım Hüseynovun və onlarla belə həmyerlilərimizin çox böyük xidmətləri olmuşdur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. В.Григорев Статистические описание Нахичиванской провинции, Санкт-Петербург 1933 г. стр. 64.
2. Elbrus Şahmar Azərbaycan polisi , Bakı, 1997, səh. 3.
3. Yenə orada. səh. 4.
4. Nax. MRDA. f. 582, siy. 1, iş. 54, vər. 69.
5. F. Əliyev, M.A. Əliyev Naxçıvan xanlığı , Bakı, 1996, səh. 24.
6. Yenə orada.
7. Nax. MRDA. f. 314, siy. 5a, iş. 1, vər. 4-6.
8. Yenə orada. vər. 7-8.
9. Yenə orada. vər. 8
10. В. Григорев. Статистическое описание Нахичиванской провинции . Санкт-Петербург, 1833 г. стр. 55.
11. Yenə orada.
12. Gürcüstan Respublikası DTA f. 2, s. 1, iş 3773, vər. 6
13. Yenə orada. vər. 6-7.
14. Yenə orada. vər. 45-55.
15. Yenə orada. vər. 61-64.
16. Yenə orada. vər. 76-80.
17. Yenə orada. vər. 204-210.
18. Nax. MRDA. f. 25 m, siy. 1, iş. 1, 2, 3, 4.
19. E. Şahmar. Azərbaycan polisi, Bakı 1997, səh. 3-4.
20. Nax. MRDA. f. 25, siy. 1, iş. 3, 183-192.
21. Yenə orada. f. 324, siy. 5a, iş. 3, vər. 11.
22. Yenə orada. vər. 12.
23. Yenə orada. f. 314, siy. 5a, iş. 14.
24. Yenə orada. vər. 16.
25. Yenə orada. iş. 8, vər. 110.
26. Yenə orada. iş. 7, vər. 21-22.
27. Yenə orada. iş. 8, vər. 105.
28. Yenə orada. f. 25, siy. 1, iş. 33, vər. 351.
29. Yenə orada. vər. 364-367.
30. Yenə orada. vər. 421-422.
31. Yenə orada. vər. 457-459.
32. Yenə orada. vər. 749-751.
33. Yenə orada. f. 314, siy. 5a, iş. 9, vər. 10.
34. Yenə orada. f. 25, siy. 1, iş. 521, vər. 49-50.
35. Yenə orada. f. 23m, siy. 1, iş. 95, vər. 85.
36. Yenə orada. iş. 1164, vər. 8-9.
37. Yenə orada. f. 23m, siy. 1, iş. 1164, vər. 4.
38. Yenə orada. vər. 1.

39. Yenə orada. iş. 600, vər. 1-3.
40. Yenə orada. f. 23m, siy. 1, iş. 556, vər. 2.
41. Yenə orada.
42. Yenə orada. iş. 680, vər. 24-26.
43. Yenə orada. iş. 506, vər. 3.
44. Yenə orada. vər. 21-26.
45. Yenə orada. vər. 21-26.
46. Yenə orada. f. 23, siy. 1, iş 680, vər. 24-26.
47. RDHTA. f. 400, siy. 9, iş. 20578, vər. 4-5, 11, 138.
48. M.Quliyev, General-mayor Kəlbalı xan Naxçıvanski, Şərq qapısı qəzeti, 8 fevral, 2006-cü il, p. 21.
49. Yenə orada. №. 21.
50. Nax. MRDA f. 23m, s. 1, iş 2990, v. 11-14
51. Yenə orada. iş 2275, v. 12
52. Yenə orada.
53. Yenə oradan v. 3
54. Yenə oradan
55. Yenə orada. iş 2600, v. 1-2
56. Yenə orada. iş. 2612, vər. 1.
57. Yenə orada. vər. 2.
58. Yenə orada. iş, 2990, vər. 2.
59. Yenə orada. vər. 1
60. Ə. Xəlilov Naxçıvan teatrının tarixi, Bakı 1964, səh. 23.
61. Nax. MR DA. f. 23, siy. 1, iş 680, vər. 15-16.
62. Yenə orada. vər. 15.
63. Yenə orada. f. 1, siy. 1, iş. 66, vər. 1-5.
64. Yenə orada. vər. 3.
65. Yenə orada. f. 23, siy. 1, iş. 391, vər. 1.
66. Yenə orada. f. 1, siy. 1, iş. 66, vər. 3.
67. Yenə orada. f. 23, siy. 1, iş. 391, vər. 2-8.
68. Yenə orada. f. 1m, siy. 1, iş. 28, f. 11, siy. 1, iş. 1, 5, 7, 10, 11, 12, 14.
69. Yenə orada. f. 23, siy. 1, iş. 426, vər. 6, iş. 618, vər. 14.
70. Yenə orada. f. 25, siy. 1, iş. 32, vər. 13-148.
71. Yenə orada. f. 25, siy. 1, iş, 32, vər. 152-154.
72. Yenə orada. iş. 139, vər. 6-7.
73. Yenə orada. vər. 8-9.
74. Yenə orada. iş. 139, vər. 60-64.
75. Yenə orada. iş. 31, vər. 3.
76. Yenə orada. iş. 31, vər. 9-10.
77. Yenə orada. iş. 31, vər. 41-46.
78. Yenə orada. iş. 521, vər. 10.

79. Yenə orada. vər. 11.
80. Yenə orada. vər. 16.
81. Yenə orada. iş. 521, vər. 17-18.
82. Yenə orada. vər. 58-66.
83. Yenə orada. iş. 2195, vər. 3-6.
84. Yenə orada. f. 23, siy. 1, iş. 2195, vər. 3-6.
85. Yenə orada. iş. 1099, vər. 1-2.
86. Yenə orada. iş. 491, vər. 21.
87. Yenə orada. iş. 1506, vər. 5.
88. Yenə orada. vər. 1.
89. Yenə orada. iş. 491, vər. 32-33.
90. Yenə orada. iş. 1637, vər. 1.
91. Yenə orada. vər. 2.
92. Yenə orada. iş. 1887, vər. 1.
93. Yenə orada. vər. 2.
94. Yenə orada. iş. 84. vər. 4
95. Yenə orada. iş. 2796, vər. 2
96. Yenə orada. iş. 491, vər. 34.
97. Yenə orada
98. Yenə orada. f. 582, siy. 1, iş. 27, vər. 9.
99. Yenə orada. vər. 1.
100. Yenə orada. vər. 11.
101. Yenə orada. vər. 12.
102. Yenə orada. vər. 13.
103. Qafqaz qəzeti, 11 iyun 1895-ci il, № 181.
104. Yenə orada. 26 iyul, №186.
105. Gürcüstan RDTA. f. 39, siy. 1, iş. 1444, vər. 1.
106. Qafqaz qəzeti, 22 oktyabr 1894-cü il, № 280.
107. Yenə orada.
108. Yenə orada. 19 sentyabr 1895-ci il, № 276.
109. Nax. MR DA. f. 582, siy. 1, iş. 27, vər. 21.
110. Yenə orada. vər. 22.
111. Yenə orada. vər. 23.
112. Gürcüstan RDTA. f. 12, siy. 1, iş. 3363, vər. 37.
113. Yenə orada. iş. 3358, vər. 18
114. Nax. MR DA. f. 582, siy. 1, iş. 22, vər. 18.
115. Yenə orada. iş. 26, vər. 94.
116. Naxçıvan MR DA. f. 582, siy. 1, iş. 26, vər. 95.
117. Ə. Əliyev. Naxçıvan kəndlilərinin mübarizərsi tarixindən, Şərq qapısı qəzeti, 28 aprel 1978-ci il.
118. Nax. MR DA. f. 22m, siy. 1, iş. 59, vər. 34.

119. Ə. Əliyev. Naxçıvan kəndlilərinin mübarizəsi tarixindən, Şərq qapısı qəzeti, 28 aprel 1978-ci il.
120.Qafqaz qəzeti, 17 may 1905-ci il.
121.Nax. MR DA. f. 23, siy. 1, iş. 2652, vər. 34-41.
122.Yenə orada. f. 582, siy. 1, iş 26, vər. 99.
123.Yenə orada. vər. 99.
124.Yenə orada. vər. 100.
125. Yenə orada.
126. Yenə orada. vər. 101.
127. Yenə orada. iş. 1267, vər. 9.
128. Yenə orada. vər. 10-12.
129. Yenə orada. iş. 45, vər. 34.
130. Yenə orada. iş. 1267, vər. 7-9.
131. Az. Res. DTA. f. 807, siy. 2, iş 3848, vər. 63-70.
132. Yenə orada. vər. 64-69.
133. Yenə orada. vər. 69-70.
134. Naxçıvan MR DA. f. 314. siy. 1, iş. 46, vər. 27.
135. Yenə orada. f. 582, siy. 1, iş. 31, vər. 1.
136. Yenə orada. iş. 40, vər. 46-49.
137. Nax. MR DA. f. 314, siy. 5, iş. 44, vər. 18.
138. Yenə orada. iş. 83, vər.416
139. Yenə orada. vər. 793
140. Yenə orada. vər 817
141. Nax. MR DA. f. 23, siy. 1, iş. 2907. vər. 1-2.
142. Qafqaz qəzeti, 24 fevral 1906-cı il, № 45.
143. Yenə orada.
144. Nax. MR DA. f. 314, siy. 5, iş. 12, vərp. 48-51.
145. Gürcüstan RMDTA. f. 1, siy. 1, iş. 382, vər. 3.
146. Nax. MR DA. f. 582, siy. 1, iş. 103, vər. 24.
147. Yenə orada. və. 25.
148. Nax. MR DA. f. 582, siy. 1, iş. 103, vər. 193.
149. Yenə orada.
150. Yenə orada. iş. 48, vər. 196.
151. Yenə orada.
152. Yenə orada. vər. 197.
153. M. B. Mirheydərzadənin 2 fevral 1941-ci il tarixli xatirələri.
154. Nax. MR DA. f. 582, siy. 1, iş. 48. vər. 202.
155. Yenə orada. iş. 117, vər. 139.
156. Yenə orada. f. 314, siy.5a, iş. 64, vər. 64-86.
157. M. B. Heydərzadə, qısa tərcümeyi-hal, 14 dekabr 1940-cı il.
158. Nax. MR DA. f. 582, siy. 1, iş. 103, vər. 19-20.

159. Yenə orada.
160. Nax. MR DA. f. 314, siy. 5, iş. 62, vər. 132-134.
161.Yenə orada. iş. 68, vər. 44.
162. Yenə orada. iş. 73, vər. 49.
163. Yenə orada. iş. 13, vər. 55.
164. Yenə orada. f. 574, siy. 1, iş. 110, vər. 21.
165. Nax. MR DA. f. 712, siy. 1, iş. 4, vər. 4
166. Yenə orada. f. 574, siy. 1, iş. 110, vər. 21.
167. Nax. MR DA. f. 712, siy. 1, iş. 4, vər. 4.
168. Mirzə Bağır Əliyev Qanlı günlərimiz. Bakı, 1993, səh. 27-28.
169. Nax. MR DA. f. 314, siy. 5, iş. 18, vər. 46.
170. Yenə orada. vər. 21.
171. Borba qəzeti, 17 avqust 19i8-ci il, № 145.
172. M. B. Əliyev Qanlı günlərimiz, Bakı 1993, səh. 71-72.
173. Yenə orada. səh. 83-84.
174. Nax. MR DA. f. 314, siy. 5, iş. 73, vər. 1-4.
175. Yenə orada. iş. 72, vər. 9-11.
176. Əliyev M.B. Qanlı günlərimiz. Bakı 1993. səh.82-84.
177. Musayev İ. M. Azərbaycan, Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, səh. 68.
178. Hacıyev İ. M. Quliyev Ə. A. Tarixdə və günümüzdə Naxçıvan, Ankara. 1998, səh. 44.
179. Musayev İ. M. Azərbaycan, Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, səh.75.
180. Az. Res. DTA f. 894, siy. 2, iş. 95, vər. 9-10.
181. Nax. MR DA. f. 314, siy. 5, iş. 72, vər. 47-49.
182. Yenə orada. iş. 18. vər. 48.
183. Yenə orada. iş.74, vər. 170.
184. Yenə orada. vər. 172.
185. Yenə orada. iş. 72, vər. 175
186. Yenə orada. vər. 49.
187. Nax. MR DA. f. 582, siy. 1, iş. 43, vər. 45.
188. Yenə orada. vər. 49.
189. Nax. MR DA. f. 314, siy. 5, iş. 18. vər. 42.
190. Yenə orada. iş. 72, vər. 32.
191. Yenə orada. vər. 33.
192. Nax. MR DA. f. 63, siy. 1, iş. 1, vər. 9-10.
193. Yenə orada
194. Бессменная вахта, Alma-Ata, Qazaxıstan. 1986, səh. 4.

MÜNDƏRİCAT

ÖN SÖZ 3

MÜQƏDDİMƏ.....6

I FƏSİL. XIX əsrin əvvəllərində Naxçıvan xanlığında qəza polisinin yaranması və fəaliyyəti.....8

II FƏSİL. XIX əsrin axırları XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyəti.....82

III FƏSİL. Erməni-azərbaycan toqquşmaları, Naxçıvanda demokratik hərəkat və polis orqanlarının demokratik qüvvələrə qarşı mübarizəsi.....124

IV FƏSİL. Naxçıvan polisi 1917-1920-ci illərdə.....155

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.....186

Fəxrəddin Cəfərov.
Naxçıvan polisi (1828-1920-ci illər).
Bakı, «Nurlan», 2008.

Nəşriyyat direktoru:
Nadir Məmmədli

Kompüterdə yığdı:
Ruhəngiz Əlihüseynova

Kompüter tərtibçisi və
texniki redaktoru:
Ramin Abdullayev

Yığılmağa verilmiş: 18. 07.2008
Çapa imzalanmış: 12. 08. 2008
Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 192 səh.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, "Nurlan" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.

DÜZƏLİŞ		
səh.	səf:	düz:
42 56 101 108	Mülkü qunların sahəsində da aparmışdır Telli Qara verilməsini	Mülkü qanunların sahəsini də aparmışdır Telli Qara qızı verilməməsini